QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

İbrahim Bayramov



# QƏRBİ AZƏRBAYCANDA URBİSİD VƏ ETNOSİD

İKSAD
Publishing House

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

**İbrahim Bayramov**

# QƏRBİ AZƏRBAYCANDA
# U R B İ S İ D VƏ E T N O S İ D



İKSAD
Publishing House

Copyright © 2025 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TÜRKİYE TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com

It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2025©

**ISBN: 978-625-378-302-0**
Cover Design: İbrahim KAYA
September / 2025
Ankara / Türkiye
Size: 14,8x21cm

**İbrahim BAYRAMOV**

# QƏRBİ AZƏRBAYCANDA
# U R B İ S İ D VƏ E T N O S İ D



İKSAD
Publishing House

Copyright © 2025 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TÜRKİYE TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com

It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2025©

**ISBN: 978-625-378-302-0**
Cover Design: İbrahim KAYA
September / 2025
Ankara / Türkiye
Size: 14,8x21cm

**Elmi redaktor** **Mahirə Hüseynova,**
**filologiya elmləri doktoru, professor**

**Elmi məsləhətçi** **Əziz Ələkbərli,**
**Milli Məclisin deputatı,**
**filologiya üzrə fəlsəfə doktoru**

**Rəyçilər** **Könül Səmədova,**
**filologiya elmləri doktoru, professor**

**Könül Həsənova,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent**

**Leyla Calalova,**
**tarix üzrə fəlsəfə doktoru**

**Almaz Bədəlova,**
**filologiya üzrə fəlsəfə doktoru**

**İbrahim Bayramov.** Qərbi Azərbaycanda urbisid və etnosid, Ankara: 2025, 496 səh.

**İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir.**

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV**

"İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxışından,

10.12.1998-ci il.

**Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.**

**İLHAM ƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti

Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciətindən,

19.05.2025-ci il



Kitabda XVIII əsrdən başlayaraq 1980-1990-cu illərdə Qərbi Azərbaycanda azərbaycanlıların yaşadığı yaşayış məntəqələrinin erməni hərbi dəstələrinin təcavüzü, Ermənistan dövlətinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin, eyni zamanda azərbaycanlıların tarixi torpaqlarından çıxarmaq məqsədilə kəndlərin kollektivləşmə adı ilə birləşdirilmə və ya müxtəlif kəndlərin inzibati əraziləri şəhərlərin ərazilərinə daxil edilməsi nəticəsində ləğv edilmiş kəndlərdən, həmin kəndlərin köklü sakinləri olan azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya olunmasından bəhs edilir.

# QƏRBİ AZƏRBAYCANDA LƏĞV OLUNMUŞ KƏNDLƏRİN TƏDQİQİ TARİXİNDƏN

Qafqaz, xüsusilə Cənubi Qafqaz Çar Rusiyasının həmişə diqqətində olub. Öz hakimiyyətlərini möhkələtmək, söz sahibi olmaq Çar Rusiyasının strateji xətti olmuşdur. 1826-1828-ci illər Rusiya-İran müharibəsi, 1829-1830-cu illər Rusiya –Türkiyə müharibəsi məhz Cənubi Qafqazda Rusiyanın hakimiyyəti sahiblənmək məqsədi daşıyırdı. Eyni zamanda Rusiyanın 6 oktyabr 1827-ci ildə İrəvan xanlığının işğal etməsi, 1826-1828-ci illər Rusiya-İran müharibəsinin nəticəsi olaraqq 1828-ci ildə Türkmənçay müqavləsinin bağlanması Rusiyanı Cənubi Qafqazda, o cümlədən İrəvan xanlığı ərazisində öz hökmranlığının möhkəmlənməsinə gətirib çıxardı. Rusiya-İran, Rusiya–Türkiyə müharibələri Qərbi Azərbaycanaöz mənfi təsirini göstərdi. Ərazinin demoqrafik vəziyyətində böyük dəyişikliklər baş verdi. İran və Türkiyədən ermənilər kütləvi surətdə köçrülərək, İrəvana, Qarabağa, Zəngəzura, Göyçəyə, Dərələyəzə, Vediyə, Dərəçiçəyə, Zəngibasara, eləcə Qərbi azərbaycanın digərbölgələrinə yerləşdirilmişdir. Bununla yanaşı Bu ərazilərin köklü sakinləri olan azərbaycanlılar erməni daşnaklarının yaratdığı erməni silahlı quldur dəstələri tərəfindən öz doğma yurdlarından sıxışdırılıb çıxarılmış, azərbaycanlıların var-dövlətləri talan edilmiş, neçə-neçə azərbaycalı kəndləri yandırılmış,xarabalığa çevrilmiş, obrazlı ifadə ilə desək, yer üzündən silinmişdir.

İ.Şopen 1852-ci ildə çap olunmuş “Исторический памятник состояния Армянской области в эпоху ее

присоединения к Российской империи" əsərində 1826-1828-ci illərdə Rusiya-İran müharibəsi zamanı İrəvan xanlığı ərazisində xarabalığa çevrilmiş və ləğv edilmiş kəndlərin siyahısını mahallar üzrə "Erməni vilayətinin ləğv edilmiş kəndləri" adı ilə qruplaşdırmışdır:

**Qırxbulaq mahalı.** Küzəcik, İynədüz, Güllücə, Qaraceyran, Təcirabad, Bəzəkli, Qaraqala, Çayqutara və ya Gedərgöl, Ərzap, Norinus, Damcılı, Kityan və ya Kyatikut, Quyulu, Qızılqala, Tezxarab, Babacur, Damagirməz, Dəlləkli, Kənkan, Göykilsə, Yaycı, Qızılqala, Çobangərəkməz, Azaklar, Akikənd və ya Muradtəpə, Ərzini .

**Zəngibasar mahalı.** Həsənağa, Sinnik, Qaracalar, Ozanlar, Dircan, Noragyuğ, Cəfərabad.

**Gərnibasar mahalı.** Məsimli, Taytan, Bayraməli qışlağı, Qulaqsis, Zöhrablı, Kürdkəndi, Şəfiabad, Qırbuzovand, Baş Gərni, Myurzuk, Eyranis ulya, Burduk, Görqaç, Gilanar sufla, Molla Əhməd, Kakavus,Şəhriyar, Şoqaib, Eyranis sufla, Kərpicli, Abdallar, Qurbanqala ulya, Qurbanqala sufla, Artız, Yappa, Əlimərdan, Əliqırağı, Ellicə, Buralan, Sultantəpə, Əzizli, Əlisorki, Qelokəndi, Qarahacılı, Xıdırlı, Ədətli, Taraşköy, Əliqızıl, Bulaqbaşı, Bayraməlikəndi, Purço, İmamverdi qalası, Tərəkəmələr.

**Vedibasar mahalı.** Reyhanlı, Şirazlı, Qaralar, Saray, Çatqıran, Qarabağlar sufla, Qarabağlar ulya, Talasavan, Şahablı, Zəncirli, Pyunut, Şorsu, Daşnov, Həsənqala, Cəfərli, Ortuk, Vəlican, Köşəkli, Abbasabad, Əliqızıl, Muradabad, Əliabad, Əliqırağı, Günlük, Bağçaçıq, Xemut, Qızılveran, Zimmi, Musacıq, Hənd, Qazançı, Xosrov, Haxıs.

**Dərəkənd-Parçenis mahalı.**. Qaraqoyunlu, Kiti, Sürməli,

Aşıq Hüseyn, Qarabulaq, Qaraqala, Çaldağ, Qazi kaparal.

**Saatlı mahalı.** Xəlil qışlağı, Armen kövşəni, Sofular, Mirzəxan, Baş qışlağı.

**Talın mahalı.** Əylənli, Siçanlı, Nadirxanlı, Pirmələlk, Sutökülən, Ağakiçik, Mazarcıq, Pirtikan, Qaraqala, Çiçəkli, Pyusaqan, Чaltəpə, Mustuxlu, Qoruq, Parakənd, Daşqala, Çortulu, Bəbirli, Sadaqlı, Zarinca, Aşağı Dəmirçili, Sabunçular, Kilikyataq, Kələşbəy kulası, Bəhlulkənd, Böyük qızıl kula, Göyərçin.

**Sardarabad mahalı.** Rəncpəri Cəfərxan, Teymurxankəndi və ya Dövlətabad, İtköy, Qatırabad və ya Abdulabad, Artaşat, Rəhimabad və ya Molla Bədəl // Səfiabad, Keçili, Xam.

**Karpibasar mahalı.**. Teymurxan Kolanı, Ağdəmir, Qaraqışlaq, İnəkli, Tsopanis, Arpaqavisik, Haçabağ, İlançalan, Anberd.

**Abaran mahalı.** Qotur, Tezxarab, Şabanlı, Xaçbulaq, Köhnə Qəzənfər, Bitli, Əmirli, Yarbaş, Məmişkənd, Qarabulaq, Hamamlı, Kürd Əli, Cancik, Ciligöl, Şahqulu olan, Porsuqlu, Camışlı, Əyrubulaq, Muncuqlu, Pəmbək, Günbəz, Sibidağ.

**Dərəçiçək mahalı.** Geğam və ya Sevan gölü və monastrı, Kiçik Ördəkli, Alapapaq, Barat, Qonaqgörməz, Eşşəkquduran, Çobangölü, Keqaç, Maman, Aydın, Şəkərbaşı, Misxana, Sutökülən, Çiçəkli, Pirpalıd, Zeynalağa.

**Göyçə mahalı.** Buğdatəpə, Hacı Mumuxan, Allahverdibəy, Üçtəpə, Kərimkənd, Yuxarı Altuntaxt, Aşağı Altuntaxt, Dəmirçi poğos, Əyricə, Atdaş, Axsaq tauz, Karvansaray, Qasımbaşı, Mədinə, Baş Gözəldərə, Xanciqiz oğlu, Qızılkilsə, Böyükağa, Ağkilsə, Göyçay, Sultanəli, Satanağac, Karvansaray, Əyricə, Kərimağakəndi, Dəli Aryutun,

Komasar. Siyahıda 67 yaşayış məntəqəsi göstərilib ki, onlardan 40 kəndin adı “adı unudulub” formasında qeyd edilmişdir.

**Dərələyəz mahalı.** Kəllətax, Auş, Tamaşalıq, Boyadərə, Miraux qışlağı, Pana qalası, Vardapul, Mozrov, Gencək, Aşağı Canı, Yuxarı Canı, Qaraqaya, Vəng, Aysəsi, Qalasir, Çomalı, Qoşavəng, Vardenis, Cəfərli, Kömürlü, Bağçacıq, Ruqirt, Qorçubağ, Qulubağ, Hortun, Muğancıq, Reyta (Zeyta-İ.B.), Çıraqoğlu kəndi, Gindevaz, Quşi, Bilək, Paşadüz, Kirakyazar[1].

Z. Qorqodyan 1932-ci ildə çap olunmuş “Զ.Կորկոտյան Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան:” (1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi ) kitabında İ.Şopenin əsərini əsas götürərək Qərbi Azərbaycan ərazisində (bizim fikrimizcə, İrəvan xanlığı zamanına, 1826-1828-ci illərə aid olan kəndlər) xarabalığa çevrilərək ləğv edilmiş kəndləri İrəvan xanlığının inzibati-ərazi bölgüsünə uyğun mahallara üzrə qruplaşdırmışdır. Lakin İ.Şopenin əsərindən fərqli olaraq sonrakı zamanlarda- 1930-cu illərdə bərpa edilmiş kəndlərin adını siyahıya daxil etməmiş, eyni zamanda həmin kəndlərin yerləşdiyi ərazini də göstərmişdir. Aydınlıq naminə XIX əsrin əvvəllərində Qərbi Azərbaycanda ləğv edilmiş yaşayış məntəqələrinin siyahısını burada verməyi məqsədəuyğun hesab edirik:

**Qırxbulaq mahalı üzrə:**

1. İynədüz (Ağmanqan dağının yanında);

2.Arzap;

3. Kitkyan və ya Kutkyum (Ağmanqan dağının yanında);

---

[1] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 509-518.

4. Babacur  (Hədiz dağının yanında);
5.Damagirməz (Ağmanqan dağının yanında);
6. Yaycı
7.Qızqala (Zəngi çayının yanında)
8.Azaklar
9.Akikənd və ya Muradtəpə.

**Zəngibasar mahalı üzrə:**

1.Həsənağa
2.Sinnik
3. Qaracalar
4.Ozanlar,
5. Dircan
6. Noragyuğ

**Qeyd:** 1.Həsənağa,  Sinnik,  Qaracalar kəndininsakinləri 1831-ci ildə Uluxanlı kəndinə köçmüşlər;

2. Ozanlar kəndinun sakinləri Həbil kəndinə köçmüşlər
3. Donguzgyan (Zəngilər-İ.B.) kəndinin yaxınlığında olub;

**Gərnibasar mahalı üzrə:**

1.Məsimli
2.Taytan  (Novruzlu kəndinə aid idi)
3.Bayraməli qışlağı  (Doqquz, Dəlilər,  Ələsli  kəndlərinin yaxınlığında )
4.Qulaqsis  və ya Bəklulaqsis  (Dəlilər kəndinin yanında)
5.Şəfiabad  (Ağbaş kəndinin yuxarısında)
6.Murzuk
7.Kakavus
8.İmamverdi qalası  (Körpü qulağı kəndinin  yuxarısında)

**Vedibasar mahalı üzrə:**

1.Saray  (Dəvəli kəndinin  yanında)

2. Talasavan
3.Şorsu (Dəvəli bulağınn yanında)
4.Həsənqala
5.Ortuk
6.Vəlican
7. Köşəkli
8. Əliqırağı
9. Muradabad
10. Əliabad
11. Günlük
12. Qızılveran
13. Musacıq
14. Qazançı

**Saatlı mahalı üzrə:**

1.Xəlil qışlağı
2.Armen kövşəni
3.Sofular
5.Başqışlaq

**Talın mahalı üzrə:**

1.Nadirxanlı
2.Sutökülən
3.Pyusaqan
4.Чaltəpə
5.Parakənd
6.Çortulu
7.Sadaqlı
8.Aşağı Dəmirçili
9. Bəhlulkənd
10. Göyərçin.

**Sardarabad mahalı üzrə:**

1.Teymurxankəndi və ya Dövlətabad

2. İtköy

3. Keçili

4. Xam.

Qeyd: Keçili və Xam kəndləri 1831-ci Qarxun kəndinin daxilində olub.

**Karpibasar mahalı üzrə:**

1.Ağdəmir

2.Qaraqışlaq

3. Tsopanis

4. Arpaqavisik

5. Haçabağ

6. Anberd.

**Abaran mahalı üzrə:**

1.Tezxarab

2.Şabanlı

3.Xaçbulaq

4 Bitli

5.Əmirli

6.Yarbaş

7.Məmişkənd

8. Cancik

9. Şahqulu olan

10.Porsuqlu

11. Əyrubulaq

12.Günbəz

**Dərəçiçək mahalı üzrə:**

1.Kiçik Ördəkli

2.Alapapaq
3. Barut  (İ.Şopendə Barat-İ.B.)
4. Qonaqgörməz
5. Eşşəkquduran
6. Çobangölü
7. Keqaç
8. Maman
9. Aydın
10. Şəkərbaşı
11. Sutökülən
12. Çiçəkli
13. Pirpalıd
14. Zeynalağa

**Göyçə  mahalı  üzrə:**

1.Buğdatəpə  (Ördəkli və Bəkli kəndləri arasında)
2. Allahverdibəy  (Üçtəpə dağının yanında)
3. Üçtəpə (Üçtəpə dağının yanında)
4. Böyük Altuntaxt (İ.Şopendə  Yuxarı  Altuntaxt -İ.B.)
5. Kiçik  Altuntaxt (İ.Şopendə  Aşağı  Altuntaxt -İ.B.)
6. Dəmirçi poğos
7. Axsaq tauz
8. Xanciqiz oğlu
9. Böyükağa
10. Göyçay  (Zod kəndinin yanında)
11. Əyricə  ( Qaraiman kəndinin yanında)
12. Dəli Aryutun
13. Kamasar (İ.Şopendə  Komasar -İ.B.).

**Qeyd:** Göyçə mahalında adı unudulan 1 kənd  Əyrivəng kəndinin, 2 kənd Gencək kəndinin,  3 kənd Gölün sağ sahilində,

Noradüz kəndi ilə Yeranos kəndinin arasında, 5 kənd Təzəkənd kəninin ərazisində, 2 kənd Atdaş. Əyricə kəndlərinin və Əyricə çayının yaxınlıöında, 1 kənd Yuxarı Qaranlıq kəndinin, 1 kənd Martuni kəndinin yanında, 2 kənd Əliqırağı kəndinin, 1 kənd Gözəldərə kəndinin, 4 kənd Kolaqıran və Alçalı kəndlərinin arasında, 6 kənd Qızılkilisə çayının sahilində, 2 kənd Qızılbulağın yaxınlığında, 2 kənd Qırxbulağın, 1 kənd Daşkəndin, 2 kənd Başkeytinin, 2 kənd Yellicənin yanında, 1 kənd Zarziblinin, 2 kənd Gölün sahilində, Əyricə kəndinin yanında yerləşirdi.

**Dərələyəz mahalı üzrə:**

1.Kəllətax

2. Auş ( Havuş-İ.B., İndi Naxçıvan MR-in Şərur rayonun inzibati ərazisinə daxildir)

3. Tamaşalıq

4. Boyadərə

5. Miraux qışlağı

6. Pana qalası

7. Vardapul

8. Gencək

9. Aşağı Canı (Qabaxlı kəndindən sonra yerləşir)

10. Qoşavəng

11. Çomalı

12. Bağçacıq

13. Ruqirt

14. Qorçubağ

15. Qulubağ

16. Muğancıq

17. Paşadüz

18. Kirakyazar[2]

Qərbi Azərbaycanın tarixi-coğrafiyasının öyrənilməsində tarixi xəritələrin xüsusi yeri və əhəmiyyəti vardır. Bu baxımdan 1847-ci ildə Tiflisdə Çar Rusiyasının Qafqaz Korpusunun Tiflisdəki Baş Qərargahı tərəfindən hazırlanaraq çap olunmuş "Qafqaz diyarının xəritəsi" müstəsna əhəmiyyətə malikdir. Bu xəritə Qərbi Azərbaycanın tarixi onomastikasının öyrənilməsində ən etibarlı mənbələrdən biridir. "Qafqaz diyarının xəritəsi"ndə qərbi azərbaycanın 656 yaşayış məskəni əksini tapmışdır ki, onlardan 247 yaşayış məntəqəsi ləğv edilmişdir:

**Aleksandropol qəzası üzrə Şörəyel sahəsindəki yaşayış məntəqələri üzrə:**

1.Bostançı xaraba
2.Hacı Nəzərqulu
3.Xutor
4.Kəfkirli
5.Kiçik Keyti
6.Qaraqıtağ (Qaraqışlaq-İ.B.)
7.Qovluqat
8.Qurudərə
9.Qutluqışlaq
10.Sarıbaş
11.Sarıyar

**Pəmbək sahəsindəki yaşayış məntəqələri üzrə:**

1.Əkərək

[2] Զ.Կորկոտյան Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: 1932, էջ: XII-XIII.

2.Kiçik Qarakilsə
3.Lecan
4.Qışlaq
5.Oparçı
6.Pəmbək
7.Şiştəpə

**İrəvan qəzası Sərdarabad sahəsindəki yaşayış məntəqələri üzrə:**

1.Aralıx
2.Ayarlı
3.Baxçacıq
4.Çamırlı
5.Çıraxlı
6.Damagirməz
7.Daşqala
8.Dığır
9.Düyərli
10.Eylax
11.Əbdürəhman
12.Əngirsak
13.Əvəzəli
14.Əyrisifət
15.Güllücə
16.Hacı Bağır
17.Hacıyarlı
18.Hamamlı
19.Hasar
20.Hüseynkənd
21.Xanavəng
25.Kürpi
26.Qalaça
27.Qanik
28.Qaracalar
29.Qarğabazar
30.Qarğaqovmaz
31.Qarxun
32.Qazanerax
33.Qəmərli
34.Qoşabulaq
35.Qoytul
36.Quldərviş
37.Quşçu
38.Quzugüdən
39.Mirzəxan
40.Palçıxlı
41.Pirəgah
42.Səədli
43.Şamikram
44.Şəhriyar
45.Şəvarid

22.Xaraba Əkərək
23.Kiçikkənd Muğni
24.Kürəkənli
46.Şıxhacı
47.Tacirli
48.Təpəbaşı
45.Şərifabad

**Zəngibasar sahəsindəki yaşayış məntəqələri üzrə:**

1.Avdallar
2.Böyük Bozovand
3.Böyük Gilanar
4.Buğalı
5.Çiləxanlı
6.Yellicə
7.Əlimərdan
8.Gödəkli
9.Göl
10.Kiçik Gilənar
11.Körpü qulağı
12.Qaladibi
13.Qalaley
14.Qaradağlı
15.Qırx Buzavand
16.Qurbanqulu
17.Mehrab
18.Mərzik
19.Molla Əhməd
20. Novruzlu
21.Reyhanlı
22.Rəhimabad
23.Saraclı
24.Sarcalar
25.Seyidabad
26.Tamamlı
27.Tərəkəmələr
28.Uğurbəyli
29. Yuxzrı Göyləsər

**Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən yaşayış məntəqələri üzrə:**

1.Ağkilsə
2.Alməmməd
3.Bağçacıq
4.Cadqran

5. Camışbasan
6.Cığın
7.Cırmanıs
8.Daşnov
9.Əliməmməd qışlağı
10.Ərmik
11.Gül
12.Haxıs
13.Heyranıs
14.Hünüt
15.Xosrov
16.Qarabağlar
17.Qaravəli
18.Məngük
19.Pirəli
20.Zincirli
21.Ziqama
**Göyçə sahəsindəki yaşayış məntəqələri üzrə:**
1. Ağazor
2.Ağrax
3.Ağpara
4.Alçalı
5.Allahverdi
6.Avan
7.Böyük
8.Canıqıran
9.Cantəpə
10.Çazar
11.Çırcır

12.Çiləmimli
13.Damaqirməz
14.Daşqanlı
15.Dəli tat
16.Hacı Muluxan (Hacı Mumuxan-İ.B.)
17.Kamal
18.Karvansaray
19.Kaşıkənd
20.Kolanıqırılan
21.Küzəcik
22.Oğruca
23.Sinqulax
24.Təzəkənd
25.Üləşik

**Yelizavetpol qəzasının Qazax sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri üzrə:**

1.Ağdağan
2.Axarzaman
3.Bozikənd
4.Voskresenkoe

**Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki yaşayış məntəqələri üzrə:**

1.Ağdərə
2.Ağxaç
3.Axıl
4.Alagöz
5.Ardaraz
6.Arinc
7.Aşağı Axta

8.Aşağı Canı
9.Aşağı
10.Batı
11.Canıkənd
12.Çıraxlı
13.Erdiç
14.Əliqışlağı
15.Ərgaz
16.Gümüşxana
17.Heşin
18.Horbadex
19.İtqıran
20.Karmaçatax
21.Qaralar, Qaralar
22.Qaravənq
23.Qılınclar
24.Qışlaq Şorcalar
25.Qızılkilsə
26.Qozluca
27.Qurbankəsilən
28.Moz
29.Maratuz
30.Rəsul qışlağı
31.Sallı
32.Tarp
33.Vanq
34.Yelpin
35.Yuxarı Axta
36.Yuxarı Canı

37.Yuxarı

**Kaspi vilayətinin Zəngəzur sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri üzrə:**

1.Əngələvit
2.Artıgöz
3.Daşkənd
4.Dauvutlu
5.Dudaqçı
6.Əxlatyan
7.Əliqılu
8.Əlişar
9.Xinziraq
10.İskamlı
11.Karvansaray
12.Qarahunç
13.Püsək
14.Tulus
15.Zəbazadur

**Naxçıvan qəzasının Meğri sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri:**

1.Aşağı Xələç
2.Abdalannı
3.Adoçazur
4.Aqnatəz
5.Atqız
6.Bağaburc
7.Bağırbəyli
8.Baharlı
9.Barabatun

19.Bəxtiyar
11.Bıx
12.Çobanlı
13.Dazin
14.Ecanan
15.Gölgük
16.Gün
17.İmarət
10.Kamal
19.Karxana
20.Kertcanannı
21.Ketadağ
22.Kilacən
23.Kitaz
24.Kökəyalı
25.Kürsüzən
26.Qandalı
27.Qaradaş
28.Qaradıqa
29.Qatar
30.Qışlaq
31.Mavlanan
32.Mülkü
33Mülküçap
34.Oxçu
35.Parxut
36.Pirdovudan
37.Sar
38.Səngərli

39.Şadar
40.Şahverdi
41.Şəhərcik
42.Tacədin
43.Dəmir
44.Təkyaxdar
45.Tuğut
46.Tunus
47.Vaqakənd
48.Vahrivar)
49.Vanq
50.Zor[3]
Ermənistan SSR-dəki ermənilərin sayını artırmaq üçün yollar aranırdı. Bu məsələni həll etmək məqsədilə xaricdə yaşayan ermənilərin indiki Ermənistan ərazisinə köçrülməsini təşkil etmək lazım idi. Buna görə də ilk növbədə xaricdə yaşayan ermənilər, xüsusilə yoxsul, kasıb ermənilərin arasında təbliğat aparıldı. Onlara Ermənistan SSR-də "ağ gün" vəd etdilər, onların "ana vətənə" gəlmələri üçün sovet təbliğat maşınından istifadə etdilər. Hətta evlə, işlə təmin olundular. Bununla da gələcəkdə azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulmaları üçün bir daha real zəmin hazırlandı.

SSRİ Nazirlər Soveti 1945-ci ilin noyabrında xaricdə yaşayan ermənilərin (Ermənistan SSR hökumətinin təklifi əsasında) Ermənistan SSR-yə köçürülməsi üçün qərar qəbul etdi. Bu məqsədlə Ermənistan SSR Nazirlər Soveti yanında xaricdən köçürülən ermənilərin qəbulu və yerləşdirilməsi üzrə dövlət

[3] İ. Bayramov, N.Mustafa. “Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 15-30.

komitəsi yaradıldı.

1946-cı ilin əvvəlində Ermənistan SSR Nazirlər Soveti xaricdə yaşayan 130 min erməninin köçürülməsi ilə bağlı SSRİ Nazirlər Sovetinə müraciət etmişdir. Həmin müraciətdə göstərilir ki, respublika hökumətinin ildə 29 min erməni qəbul edib yerləşdirməyə imkan və şəraiti vardır. Təkcə 1946-cı ildə 50920 nəfər xaricdən gələn erməni Ermənistan SSR ərazisində yerləşdirilmişdir[4].

1947-ci il Ermənistan SSR-də yaşayan azərbaycanlılar üçün daha ağır olmuşdur. SSRİ Nazirlər Soveti 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etmişdir. Bu qərara əsasən Ermənistanın 23 rayonundan 100.000 azərbaycanlılmm Azərbaycana köçürülməsi planlaşdırılmışdır. Bu, Ermənistan azərbaycanlılarına vurulan ən ağır mənəvi zərbə idi. 1948-ci ilin mart ayının 10-da SSRİ Nazirlər Soveti azərbaycanlıların köçürülməsi ilə bağlı "Ermənistan SSR- dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" ikinci qərarı qəbul etmişdir. Bu qərarda Ermənistan SSR-dən azərbaycanlıların köçürülməsinin konkert tədbirlər planı öz əksini tapmışdır. Bu qərarla SSRİ deyilən dövlət tərəfindən azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyasını rəsmi şəkildə həyata keçirilmişdir. Eyni zamanda bu qərardan sonra indiki Ermənistanda türk mənşəli toponimlərə daha böyük "divan tutulmuş", onları birdəfəlik tarixdən silməyə başlamışlar.

[4] История армянского народа (с древнейщих времен до наших дней), под ред. М.Т.Нерсесяна, Ереван: Луйс, 1980, с. 365-366.

Ümumiyyətlə, 1948-1953-cü illərdə erməni şovinizminin qurbanı olan Ermənistan azərbaycanlılarının başına min bir müsibətlər gətirilmişdir. Bu illərdə indiki Ermənistanın 24 rayonunda, eləcə də İrəvan və Gümrü (Leninakan, indi Qumayri) şəhərlərində xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi ilə azərbaycanlılar köçürülmüş, Azərbaycan türklərinin yaşadıqları kəndlərin adlan dəyişdirilməklə yanaşı, izi itirmək üçün rayonları birləşdirməkdən belə çəkinməmiş, onlarla kənd xarabalığa çevrilmişdir. 1951-ci il martın 19-da azərbaycanlıların yaşadığı Qarabağlar rayonu ləğv edilərək həmin rayonun kəndləri Vedi və Qəmərli rayonları arasında bölüşdürülmüşdür. Bunun nəticəsində vaxtilə Qarabağlar rayonunun tabeliyində olan kəndlərdən 27-si xarabalığa çevrilmişdir. Bu kənd adlarının hamısı türk mənşəli olmuşdur. Qarabağlar rayonunda azərbaycanlıların deportasiya olunması ilə bağlı xarabalığa çevrilmiş kəndlərin adlarını verməklə erməni vandalizmini əyani şəkildə göstərmiş olanq:

Əzizkənd, Əliqırıx, Əlimərdan, Baxçacıq, Bayburud, Böyük Gilanlar, Gölçığm, Dəhnəz, Daşnov, Zimmi, İmirzik, İnqala, Haxıs, Hand, Hortun, Qaladibi, Qaraqoyunlu, Məngüs, Yellicə, Yeranos, Şahablı, Şuqayıb, Cəfərli, Seyid Kotanlı, Kotuz, Kolanlı, Küsüz. Bununla yanaşı Vedi rayonunda 16 kəndin 4-ü (Aşağı Ərmik, Yuxan Ərmik, Əlməmməd, Ağkilsə), Qəmərli (Artaşat) rayonunda 21 kənddən 4-ü (Qaraqoyunlu, Novruzlu, Çatmadaş, Muxtarabad), Axta (Razdan) rayonunda 20 kənddən 7- si (Qabaxlı, Qaraqala, Dəllər, Kəvər Əli, Sərincan, Üşəlik, Çopur Əli), Əzizbəyov (Vayk) rayonunda 5 kənd (Arınc, Bulaxlı, Zirək, Məmmədrza, Qayalı), Keşişkənd (Yeğeqnadzor) rayonunda 42 kənddən 27-si (Ağdərə, Ağkilsə, Əyar, Almalı, Alxanpəyəsi, Ardaras, Ərgəz, Bülbülölən, Qaraqaya, Qışlaqabas,

Qozluca, Qurban- kəsilən, Ertic, Qaravəng, Kömürlü, Genalı, Yuxarı Gülüdüzü, Güneyvaz, Moz, Novlar, Heşin, Novlu, Horbadeğ, Hostun, Canı, Şahgəldi (qışlaq), Şorca), Qafan rayonunda 33 kənd (Əfsarlı, Almalıq, Atqız, Arxüstü, Babayaqublu, Baydağ, Baynakar, Barabatum, Baharlı, Burcalı, Qarabaş, Quşçulu, Daşbaş, Daşnov, Dəlləkli, İncəvar, Aşağı Yeməzli,Yuxarı Yeməzli, Qatar, Mollalı, Novruzlu, Seyidlər, Siznək, Tecadin, Çiriş, Çobanlı, Çullu, Craxor, Şabadin, Oxçu, Şirvanşahlı, Şotanlı), Sisyan rayonunda 12 kənd (Alışar, Qıvrax, Qızılcıq, Dulus, Ərikli, Zabazadur, İrmis, Lor, Məlikli, Pusək, Pulkənd, Şukər), Gorus rayonunda 8 kənd (Allar, Bağırbəyli, Binəyeri, Kosalar, Kürdlər, Başaracur, Şamsız, Şumux), Meğri rayonunda 7 kənd (Əmrakar, Buğakar, Emazor, Mərzikit, Mülki, Tağamir, Tey), Çəmbərək (Krasnoselo) rayonunda 1 kənd (Ada təpə), Ağbaba (Amasiya) rayonunda 14 kənd (Baxçalı, Boz- qala, Qızıldaş, Qızılkilsə, Mumuxan, Mustuqlu, Ördəkli, Seldağıdan, Sınıx, Söyüdlü, Təzəkənd, Kiçik Təpəköy, Xançallı, Şiştəpə), Allahverdi (Tumanyan) rayonunda 1 kənd (Yuxarı Axtala), Spitak rayonunda 1 kənd (Ağbulaq) ləğv edilmişdir[5].

H.Mirzəyev  indiki Ermənistan ərazisində erməni quldur dəstələri, Ermənistnan adlanan dövlət tərəfindən  Dərələyəz mahalının deportasiyaya məruz qalaraq ləğv olunmuş kəndləri müəyyənlşdirmişdir:

---

[5] N.Mustafa. Xalqımıza qarşı tarixi cinayət. 1948-1953-cü illər deportasiyası, "Dövran" qəzeti, 6-9 yanvar 1998.

| № | Kəndin, qəsəbənin keçmiş adı | Deportasiya və zorakılıqla qovulma | Kəndin, qəsəbənin hazırkı vəziyyəti | Rayon |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Abana | 1832 | ləğv olunub | Yeğeqnadzor |
| 2 | Ağdərə kəndi | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 4 | Ağcakənd (Ağçar) | 1918, 1926 | ləğv olunub | Yeğeqnadzor |
| 5 | Ağkilsə | 1918, 1926 | ləğv olunub | Yeğeqnadzor |
| 6 | Ağsu | 1879, 1954 | ləğv olunub | Əzizbəyov |
| 7 | Axta | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 8 | Axtacul | 1918 | ləğv olunub | Əzizbəyov |
| 9 | Axurlu | 1918, 1923 | ləğv olunub | Yeğeqnadzor |
| 10 | Almalı (Cani Almalısı) | 1918, 1939 | ləğv olunub | Yeğeqnadzor |
| 11 | Amağu (Əməğu) | 1918, 1997 | ləğv olunub | Yeğeqnadzor |
| 12 | Ardaraz | 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 13 | Arxac | 1918, 1948 | ləğv olunub | Əzizbəyov |
| 14 | Arınc | 1918 | ləğv olunub | Əzizbəyov |
| 15 | Aşağı Cani | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 16 | Aşağı Salli | 1905, 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 17 | Baxcaçiq |  | ləğv olunub | Yeğeqnadzor |
| 18 | Bəyzadə |  | ləğv olunub | Yeğeqnadzor |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 19 | Bilək (Birek) | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 20 | Bulaqlar | 1918, 1949 | ləğv olunub | Əzizbəyov |
| 21 | Bülbülölən | 1918,1923 | ləğv olunub | Yeğeqnadzor |
| 22 | Canı | 1918, 19439 | ləğv olunub | Yeğeqnadzor |
| 23 | Ceyranlı | 1918 | ləğv olunub | Əzizbəyov |
| 24 | Çığıtay | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 25 | Çoşalı | 1828,1832 | ləğv olunub | Yeğaqnadzor |
| 26 | Çıraxlı | 1988 | ləğv olunub | Əzizbəyov |
| 27 | Daşaltı | 1918 | ləğv olunub | Əzizbəyov |
| 28 | Daşxərmən | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 29 | Daşkənd | 1832 | ləğv olunub | Əzizbəyov |
| 30 | Dədəlı | | ləğv olunub | Yeğeqnadzor |
| 31 | Dəmirçilər | 1918 | ləğv olunub | Əzizbəyov |
| 32 | Dərəkənd | 1918,1922 | ləğv olunub | Əzizbəyov |
| 33 | Ertiş | 1918, 1939 | ləğv olunub | Yeğeqnadzor |
| 34 | Əkərək | 1918 | ləğv olunub | Əzizbəyov |
| 35 | Ələyəz | 1918,1988 | ləğv olunub | Yeğeqnadzor |
| 36 | Əlidərəsi | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 37 | Əliqışlağı | | ləğv olunub | Yeğeqnadzor |
| 38 | Ərəbxəncəri | | ləğv olunub | Yeğeqnadzor |
| 39 | Ərəbkənd | | ləğv olunub | Yeğeqnadzor |
| 40 | Ərgəz | 1905, 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 41 | Əsgərkənd | | ləğv olunub | Yeğeqnadzor |
| 42 | Əskikənd | | ləğv olunub | Yeğeqnadzor |
| 43 | Əxili | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 44 | Gendərə | 1918, 1928, 1930 | ləğv olunub | Əzizbəyov |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 45 | Gədikvəng, (Qoduxvəng ) | 1918, 1987-1988 | ləğv olunub | Yeğeqnadzor |
| 46 | Gənəli | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 47 | Gənzək | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 48 | Göyərçin | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 49 | Gümüşxana | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 50 | Her-her | 1905, 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 51 | Heşin | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 52 | Horbadıq | 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 53 | Hors | 1918, 1949, 1988 | ləğv olunub | Yeğeqnadzor |
| 54 | Hortun (Yuxan Çanaqçı) | 1918, 1939 | ləğv olunub | Yeğeqnadzor |
| 55 | Hüseynqulu lar | 1918, 1939 | ləğv olunub | Yeğeqnadzor |
| 56 | İlanlı | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 57 | İtğuran-levis | 1918 | ləğv olunub | Əzizbəyov |
| 58 | Kömürlü | 1918, 1921 | ləğv olunub | Yeğeqnadzor |
| 59 | Kaha | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 60 | Göyabbas | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 61 | Kalafalıq | 1905 | ləğv olunub | Yeğeqnadzor |
| 62 | Köhnəkənd | 1828, 1832 | ləğv olunub | Yeğeqnadzor |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 63 | Qaravəng | 1905, 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 64 | Qalaser | 1918, 1987, 1988 | ləğv olunub | Yeqeqnadzor |
| 65 | Qosağvənq (Ələvəz ərazisində) | | ləğv olunub | Yeğeqnadzor |
| 66 | Qosağvənq (Her-her) | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 67 | Qurdqulaq (Bolarabert) | 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 68 | Qozulca | 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 69 | Qızılqışlaq | 1897, 1905 | ləğv olunub | Yeğeqnadzor |
| 70 | Qurban-Kəsilən | 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 71 | Qalakənd | 1898, 1905 | ləğv olunub | Yeğeqnadzor |
| 72 | Qısır/Qısırx araba | 1918, 1931 | ləğv olunub | Əzizbəyov |
| 73 | Quşçu | 1918 | ləğv olunub | Əzizbəyov |
| 74 | Qılcılı | 1918 | ləğv olunub | Əzizbəyov |
| 75 | Qayalı | 1918 | ləğv olunub | Əzizbəyov |
| 76 | Qaralar | 1918 | ləğv olunub | Əzizbəyov |
| 77 | Qışdağ/Qış laq | 1905, 1918, 1949 | ləğv olunub | Yeğeqnadzor |
| 78 | Qanlı | 1918, | ləğv olunub | Yeğeqnadzor |
| 79 | Qaragaqya | 1905, 1918, 1988 | ləğv olunub | Yeğeqnadzor |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 80 | Leyliqacan | 1918, 1920 | ləğv olunub | Əzizbəyov |
| 81 | Moz | 1828, 1830, 1918 | ləğv olunub | Yeğeqnadzor |
| 82 | Mozrov | | ləğv olunub | Yeğeqnadzor |
| 83 | Maratuz/ Maraldüz qışlağı | 1918 | ləğv olunub | Əzizbəyov |
| 84 | Məmərza/ Məmmədrəza | 1918, 1949, 1988 | ləğv olunub | Əzizbəyov |

**Hansı rayon ərazisinə aid olması dəqiq bəlli olmayan və bir qədər əvvəl ləğv olunan Dərələyəz kəndləri**

1. Vartapul - ləğv olunub
2. Kəllətaq - ləğv olunub
3. Tamaşalıq - ləğv olunub
4. Boyadərə - ləğv olunub
5. Miraus/Mırduğ qışlağı - ləğv olunub
6. Pənah qalası - ləğv olunub
7. Comalı - ləğv olunub
8. Buğurt - ləğv olunub
9. Körçübağı - ləğv olunub
10. Qulubağ - ləğv olunub
11. Muğancıq - ləğv olunub
12. Kiəgoezor/Qıraqqəzər - ləğv olunub
13. Paşadüzü - ləğv olunub
14. Xnus - ləğv olunub
15. Geniş - ləğv olunub

16. Qalaşir - ləğv olunub
17. Qandavar - ləğv olunub[6]

N.Mustafa 1918-1987-ci illərdə Ermənistanda yaşayış məntəqələri siyahısından silinmiş 254 azərbaycanlı kəndinin siyahısını müəyyənləşdirmişdir:

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Ağasıbəyli | Vedi (Ararat) | 1930-cu illərdə |
| 2. | Ağca (Ağcakənd) | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 3. | Ağcaqışlaq | İrəvan ətrafında | 1918-20-ci illər |
| 4. | Ağdərə | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 5. | Ağıllı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 6. | Ağkilsə | Vedi (Ararat) | 1940 |
| 7. | Ağkilsə | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 8. | Ağverən | Axta (Hrazdan) | 1966 |

[6] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s.768-772.

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 9. | Alxanpəyəsi | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 10. | Alımərdan | Vedi (Ararat) | 1948-51 -ci illər |
| 11. | Alışar | Sisyan | 1938 |
| 12. | Alim Əhməd | Qəməri (Artaşat) | 1940-cı illər |
| 13. | Almalı | Qafan | 1948 |
| 14. | Almalı | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| 15. | Aralıx | Talın | 1918-20-ci illər |
| 16. | Aramlı | Eçmiədzin | 1918-20-ci illər |
| 17. | Ardaraz | Keşişkənd (Yeğeqnadzor) | 1949 |
| 18. | Arxüstü | Qafan | 1918-20-ci illər |
| 19. | Arınc | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| 20. | Arzalar | Qəmərli (Artaşat) | 1948-51 -ci illər |
| 21. | Assar | Hoktemberyan (Sərdarabad) | 1918-20-ci illər |
| 22. | Aşağı Axtala (Gümüşxana) | Tumanyan (Allahverdi) | 1940 |
| 23. | Aşağı Alçalı | Martnını (Aşağı Qaranlıq) | 1918-20-ci illər |
| 24. | Aşağı Ərmik | Vedi (Ararat) | 1948-51-ci illər |
| 25. | Aşağı Goxt (Türk Goxtu) | Ellər (Abavyan) | 1950-ci illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 26. | Aşağı Kilsə | Quqark | 1978-ci il |
| 27. | Aşağı Novruzlu | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| 28. | Aşağı Qulubəyli | Eçmiədzin | 1940-cı illər |
| 29. | Aşağı Saili | Yeğeqnadzor (Keşişkənd) | 1918-20-ci illər |
| 30. | Aşağı Yeməzli | Qafan | 1918-20-ci illər |
| 31. | Atqız | Qafan | 1959 |
| 32. | Aylanlı | Eçmiədzin | 1918-20-ci illər |
| 33. | Aylı Xaraba | Əştərək | 1930-cu illər |
| 34. | Babayaqublu | Qafan | 1918-20-ci illər |
| 35. | Bağçalı (Baxcəli) | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 36. | Bağırbəyli | Qafan | 1918-20-ci illər |
| 37. | Baharlı | Qafan | 1918-20-ci illər |
| 38. | Baxçacıq | Talın | 1918-20-ci illər |
| 39. | Baxçacıq | Vedi (Ararat) | 1959 |
| 40. | Barabatum | Qafan | 1918-20-ci illər |
| 41. | Bayburt | Qəməri (Artaşat) | 1985 |
| 42. | Baydaq | Qafan | 1959 |
| 43. | Bənövşəpuş | Meğri | 1918-20-ci illər |
| 44. | Bığlı | Sevan | 1918-20-ci illər |
| 45. | Bilək | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 46. | Binayeri (Qaragədik) | Gorus | 1918-20-ci illər |
| 47. | Bozkosa | Ellər (Abovyan) | 1918-20-ci illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 48. | Bozqala | Amasiya (Ağbaba) | 1940-cı illər |
| 49. | Böyük Gilanlar | Qəmərli (Artaşat) | 1948-51 -ci illər |
| 50. | Buğakar | Meğri | 1930-cu illər |
| 51. | Bulaqlar | Əzizbəyov (Vayk) | 1948-51 -ci illər |
| 52. | Bülbülölən | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-cı illər |
| 53. | Cadqıran | Vedi (Ararat) | 1936 |
| 54. | Camışbasan | Vedi (Ararat) | 1947 |
| 55. | Canı | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| 56. | Ceyranlı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 57. | Cəfərli (Günnüt Sünbül) | Vedi (Ararat) | 1930-cu illər |
| 58. | Cığatay | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 59. | Cırmanıs | Vedi (Ararat) | 1918-20-ci illər |
| 60. | Çamırlı | Martuni(Aşağı Qaranlıq) | 1918-20-ci illər |
| 61. | Çanqlı | Vedi (Ararat) | 1918-20-ci illər |
| 62. | Çatma | Qəmərli (Artaşat) | 1918-20-ci illər |
| 63. | Çaykənd | Əzizbəyov (Vayk) | 1948-51 -ci illər |
| 64. | Çiləxanlı | Qəmərli (Artaşat) | 1948-51-ci illər |
| 65. | Çıraxlı | Əzizbəyov (Vayk) | 1918-20-cı illər |
| 66. | Çiriş | Qafan | 1930-cu illər |
| 67. | Çobankərə | Zəngibasar (Masis) | 1930-cu illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 68. | Çobanlı | Qafan | 1940-cı illər |
| 69. | Çullu | Qafan | 1930-cu illər |
| 70. | Daşaltı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 71. | Daşbaşı | Qafan | 1930-cu illər |
| 72. | Daşxərmən | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-cı illər |
| 73. | Daşnov | Vedi (Ararat) | 1930-cu illər |
| 74. | Daşnov | Qafan | 1918-20-ci illər |
| 75. | Daylaxlı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 76. | Dəhnəz | Vedi (Ararat) | 1930-cu illər |
| 77. | Dəlləkli | Qafan | 1918-20-ci illər |
| 78. | Dəmirçilər | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 79. | Dərəkənd | Əzizbəyov (Vayk) | 1918-20-cı illər |
| 80. | Dəvə Xarabası | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 81. | Ertiş | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| 82. | Eynəzur (Yeməzir) | Meğri | 1930-cu illər |
| 83. | Əlıdərəsi | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-cı illər |
| 84. | Əcili | Qafan | 1950-ci illər |
| 85. | Əxili | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 86. | Əliməmməd qışlaği | Vedi (Ararat) | 1930-cu illər |
| 87. | Əliqışlağı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 88. | Əmrakar | Meğri | 1960 |
| 89. | Əngirsək | Əştərək | 1959 |
| 90. | Ərəmis | Sisyan | 1918-20-ci illər |
| 91. | Ərgəz | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 92. | Əriklı | Sisyan | 1918-20-ci illər |
| 93. | Ərmik | Vedi (Ararat) | 1948-51 -ci illər |
| 94. | Əsni | Vedi (Ararat) | 1918-20-ci illər |
| 95. | Əşirabad | Nairi | 1940-cı illər |
| 96. | Əşirzalad | Vedi (Ararat) | 1920-ci illər |
| 97. | Gendərə | Əzizbəyov (Vayk) | 1930-cu illər |
| 98. | Gənəlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 99. | Gödəklı | Əştərək | 1918-20-ci illər |
| 100. | Gölaysor | Qəmədi (Artaşat) | 1948-51-ci illər |
| 101. | Gölcığm | Vedi (Ararat) | 1948-51-ci illər |
| 102. | Göy Abbas | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 103. | Göyərçin | İcevan (Karvansara) | 1950 |
| 104. | Gül | Meğri | 1960-cı illər |
| 105. | Gümüşxana | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 106. | Güneyvəng | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 107. | Ğöyərçin | Əzizbəyov (Vayk) | 1918-20-cı illər |
| 108. | Haxıs | Vedi (Ararat) | 1930-cu illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 109. | Hamamlı | Əştərək | 1930-cu illər |
| 110. | Hand (And) | Vedi (Ararat) | 1930-cu illər |
| 111. | Heşin | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| 112. | Həsənli | Qəmərli (Artaşat) | 1930-cu illər |
| 113. | Hortöyüz (Hortagiz) | Sisyan | 1918-20-ci illər |
| 114. | Hortun | Vedi (Ararat) | 1948-51-ci illər |
| 115. | Hosdun | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| 116. | Hüseynqulular | Keşişkənd (Yeğeqnadzor) | 1939 |
| 117. | Xançallı | Ağbaba (Amasiya) | 1940-cı illər |
| 118. | Xaraba Kotanlı | Vedi (Ararat) | 1930-cu illər |
| 119. | Xartlıq | Martuni (Aşağı Qaranlıq) | 1918-20-ci illər |
| 120. | Xınıt (Xnut) | Vedi (Ararat) | 1918-20-ci illər |
| 121. | Xocayarlı | Eçmiədzin | 1918-20-ci illər |
| 122. | Xosrov | Vedi (Ararat) | 1940-cı illər |
| 123. | İlanlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 124. | İlxı Qoruğu | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| 125. | İmirzik | Vedi (Ararat) | 1948-51-cı illər |
| 126. | İncəvar | Qafan | 1930-cu illər |
| 127. | İnqala | Vedi (Ararat) | 1930-cu illər |
| 128. | İpəkli | Vedi (Ararat) | 1918-20-ci illər |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 129. | İrimis | Sisyan | 1918-20-ci illər |
| 130. | İsgəndərabad | Eçmiədzin | 1918-20-ci illər |
| 131. | İstisu | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| 132. | İtqıran | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 133. | Kalaşan | Əştərək | 1918-20-ci illər |
| 134. | Kalaşkənd | Əştərək | 1918-20-ci illər |
| 135. | Kamal | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 136. | Karvansaray | Əştərək | 1918-20-ci illər |
| 137. | Kavart | Qafan | 1918-20-ci illər |
| 138. | Kiçik Gilanlar | Qəmərli (Artaşat) | 1960 |
| 139. | Kiçik Qaraqoyunlu | Basarkeçər (Vardenis) | 1930-cu illər |
| 140. | Kiçikkənd | Əştərək | 1918-20-ci illər |
| 141. | Kirəşli | Aparan | 1930-cu illər |
| 142. | Kolanlı | Eçmiədzin | 1930-cu illər |
| 143. | Kolanlı | Vedi (Ararat) | 1948-51-ci illər |
| 144. | Kosalar | Gorus | 1918-20-ci illər |
| 145. | Kotuz | Vedi (Ararat) | 1948-51-ci illər |
| 146. | Kömürlü | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 147. | Körpüqulağı | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 148. | Kürdalı | Əştərək | 1930-cu illər |
| 149. | Kürdlər | Gorus | 1918-20-cı illər |
| 150. | Küsüz | Vedi (Ararat) | 1948-51-ci illər |

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 151. | Küzəcik | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 152. | Qabaxlı | Axta (Hrazdan) | 1930-cu illər |
| 153. | Qabaqlı | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| 154. | Qaladibi | Vedi (Ararat) | 1948-51-ci illər |
| 155. | Qanlı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 156. | Qarabaşlar | Qafan | 1930-cu illər |
| 157. | Qaracalar | Əştərək | 1940-cı illər |
| 158. | Qaraqala | Axta (Hrazdan) | 1930-cu illər |
| 159. | Qaraqoyunlu | Qəmərli (Artaşat) | 1930-cu illər |
| 160. | Qaralar | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 161. | Qaratəpə | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| 162. | Qaratorpaq | Vedi (Ararat) | 1930-cu illər |
| 163. | Qaravəng | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 164. | Qatar | Qafan | 1918-20-ci illər |
| 165. | Qaya Xaraba | Ellər (Abovyan) | 1930-cu illər |
| 166. | Qayalı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 167. | Qılıdı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 168. | Qısırxaraba | Əzizbəyov (Vayk) | 1930-cu illər |
| 169. | Qışlaq | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-ci illər |
| 170. | Qıvrax | Sisyan | 1930-cu illər |

| | **Kəndin adı** | **Hansı rayonun ərazisində mövcud olub?** | **Nə vaxt?** |
|---|---|---|---|
| 171. | Qızıldaş | Ağbaba (Amasiya) | 1930-cu illər |
| 172. | Qızılxaraba | Əştərək | 1918-20-ci illər |
| 173. | Qızılkənd | Amasiya | 1948-51-ci illər |
| 174. | Qoşabulaq | Əştərək | 1918-20-ci illər |
| 175. | Qozluca | Keşişkənd (Yeğeqnadzor) | 1948-51-cı illər |
| 176. | Qurbağalı | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 177. | Qurbankəsilən | Əzizbəyov (Vayk) | 1918-20-cı illər |
| 178. | Quşçu | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 179. | Quşçular | Qafan | 1950-ci illər |
| 180. | Quyulu | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 181. | Leyliköçən | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 182. | Lor | Sisyan | 1918-20-ci illər |
| 183. | Mataruz Qışlağı | Əzizbəyov (Vayk) | 1918-20-ci illər |
| 184. | Məmərza | Əzizbəyov (Vayk) | 1948-51-ci illər |
| 185. | Məmmədabad | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| 186. | Məngük | Vedi (Ararat) | 1930-cu illər |
| 187. | Mərzəğat | Meğri | 1918-20-ci illər |
| 188. | Məşədilər | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 189. | Molla Əhməd | Vedi (Ararat) | 1930-cu illər |
| 190. | Molla Uruzbəy Binası | Qafan | 1918-20-ci illər |

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 191. | Mollalı | Qafan | 1930-cu illər |
| 192. | Moz | Keşişkənd (Yeğeqnadzor) | 1930-cu illər |
| 193. | Muçes Novruzlu | Qafan | 1918-20-ci illər |
| 194. | Muxtarabad | Zəngibasar (Masis) | 1918-20-ci illər |
| 195. | Mumuxan | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 196. | Mustuxlu | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 197. | Mülk | Meğri | 1930-cu illər |
| 198. | Nəbilər (Aşağı Gülüdüzü) | Keşişkənd (Yeğeqnadzor) | 1930-cu illər |
| 199. | Novlar | Keşişkənd (Yeğeqnadzor (Keşişkənd)) | 1918-20-ci illər |
| 200. | Novlu | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 201. | Oğbin | Əzizbəyov (Vayk) | 1930-cu illər |
| 202. | Oxçu | Qafan | 1940-cı illər |
| 203. | Ördəkli | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 204. | Pirdovudan | Qafan | 1918-20-ci illər |
| 205. | Pulkənd | Sisyan | 1918-20-ci illər |
| 206. | Püsək | Sisyan | 1930-cu illər |
| 207. | Rəhimabad | Masis (Zəngibasar) | 1930-cu illər |
| 208. | Sarıxanlı | Vedi (Ararat) | 1918-20-ci illər |

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 209. | Seldağılan | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 210. | Seyid Kotanlı | Vedi (Ararat) | 1918-20-ci illər |
| 211. | Seyidkənd | Masis | 1948-51 -ci illər |
| 212. | Seyidlər | Qafan | 1918-20-ci illər |
| 213. | Səfıabad | Sərdarabad (Hoktemberyan) | 1918-20-ci illər |
| 214. | Səncəravaz | Qafan | 1930-cu illər |
| 215. | Sərincan | Axta (Hrazdan) | 1930-cu illər |
| 216. | Siçanlı | Martuni(Aşağı Qaranlıq) | 1918-20-ci illər |
| 217. | Sınıx | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 218. | Söyüdlü | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 219. | Şahgəldi Qışlağı | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 220. | Şamsız | Gorus | 1930-cu illər |
| 221. | Şəhriyar | Vedi (Ararat) | 1930-cu illər |
| 222. | Şirvanşahlı | Qafan | 1918-20-ci illər |
| 223. | Şiştəpə (türk) | Ağbaba (Amasiya) | 1918-20-ci illər |
| 224. | Şorca | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 225. | Şotalı | Qafan | 1930-cu illər |
| 226. | Şuğayıb | Vedi (Ararat) | 1930-cu illər |
| 227. | Şukər | Sisyan | 1940-cı illər |

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 228. | Tağamir | Meğri | 1930-cu illər |
| 229. | Tarp | Əzizbəyov (Vayk) | 1948-51 -cı illər |
| 230. | Tecadin | Qafan | 1930-cu illər |
| 231. | Tey (Hacılı) | Meğri | 1930-cu illər |
| 232. | Tərəkəmələr | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 233. | Tuğut | Meğri | 1930-cu illər |
| 234. | Turabxanlı | Qafan | 1930-cu illər |
| 235. | Tutiyə | Ellər (Abovyan) | 1940-cı illər |
| 236. | Üçtəpə | Ellər (Abovyan) | 1918-20-ci illər |
| 237. | Üləşik | Axta (Hrazdan) | 1930-cu illər |
| 238. | Vartanes | Keşişkənd (Yeğeqnadzor) | 1948-5 1 -ci illər |
| 239. | Vartanlı | Axuryan (Düzkənd) | 1918-20-ci illər |
| 240. | Yaqublu | Əştərək | 1918-20-ci illər |
| 241. | Yanıx | Martuni (Aşağı Qaranlıq) | 1918-20-ci illər |
| 242. | Yappa | Qəmərli (Artaşat) | 1918-20-ci illər |
| 243. | Yavər | Keşişkənd (Yeğeqnadzor) | 1918-20-ci illər |
| 244. | Yellicə | Vedi (Ararat) | 1930-cu illər |
| 245. | Yeranos | Vedi (Ararat) | 1930-cu illər |
| 246. | Yuxarı Alçalı | Martuni (Aşağı Qaranlıq) | 1930-cu illər |

| № | Kəndin adı | Hansı rayonun ərazisində mövcud olub? | Nə vaxt? |
|---|---|---|---|
| 247. | Yuxarı Ərmik | Vedi (Ararat) | 1948-51 -ci illər |
| 248. | Yuxarı Novruzlu | Qəmərli (Artaşat) | 1940-cı illər |
| 249. | Yuxarı Qarabağlar | Vedi (Ararat) | 1930-cu illər |
| 250. | Yuxarı Qulubəyli | Eçmiədzin | 1940-cı illər |
| 251. | Yuxarı Yeməzli | Qafan | 1930-cu illər |
| 252. | Zabazadur | Sisyan | 1918-20-ci illər |
| 253. | Zimmi | Vedi (Ararat) | 1930-cu illər |
| 254. | Zirək | Əzizbəyov (Vayk) | 1948-51 -ci illər[7] |

N.Əhmədli "Dərələyəz mahalının kameral təsviri (1831-1842-ci illər)" kitabında 1831-ci il Dərələyəz mahalının kameral təsvirinə əsasən mahalın 32 boş (xarabalığa çevrilmiş-İ.B.) kəndin yerləşdiyi ərazisi ilə birlikdə göstərmişdir:

1. KƏLLƏTAĞ KƏNDİ. 18 verst torpaqları olan bu kənd Yaxcı və Xaçik kəndlərinin yaxınlığında yerləşir, bulaqları var. Yerli əhalinin dediyinə görə, buralar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

2. HAVUŞ KƏNDİ. Qnışık kəndinin yaxınlığında yerləşir. 8 verst torpağı və bulaqları var. Yerli sakinlərin dediyinə görə, buranın mülkədarı İbrahim Sultan, Hüseynəli Sultan və Bayramqulu Sultandır.

3. TAMAŞALIQ KƏNDİ. Oğbin kəndinin yaxınlığında yerləşir.

---

[7] N.Mustafa. Vandalizm:Tarixi adlara qarşı soyqırımı.Yenidən işlənmiş ikinci nəşri, Bakı:Turxan NPB, 2014, s.70-82.

Bulaqları olan 20 verst ərazisi var. Torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

4. BƏYDƏRƏ KƏNDİ. Xaçik kəndinin yaxınlığında yerləşir. Bulaqları olan 4 verst ərazisi var. Yerli sakinlərin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

5. MƏRDÜZ QIŞLAĞI KƏNDİ. Yaxcı və Axura kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 7 verst ərazisi var. Əhalinin dediyinə görə, torpaqlar Hüseynəli Sultana məxsusdur.

6. PƏNAH QALASI KƏNDİ. Axura kəndinin yaxınlığında yerləşir. Bulaqları olan 8 verst ərazisi var. Əhalinin dediyinə görə, torpaqlar Hüseyn xana məxsusdur.

7. VARTAPUL KƏNDİ. Qurdqulaq, Oğbin və Azadək kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 18 verst ərazisi var. Xəzinəyə məxsusdur.

8. MOZROV KƏNDİ.

9. GƏNZƏK KƏNDİ.

Hər iki kənd Qurdqulaq və Qnışik kəndlərinin yaxınlığında yerləşirlər. Bulaqları olan və xəzinəyə məxsus 20 verst əraziləri var.

10. AŞAĞI CANI,

11.YUXARI CANI,

12.QARAQALA KƏNDLƏRİ

Hər üç kənd Ələvəz kəndinin yaxınlığında yerləşirlər.

13. VƏNK KƏNDİ Ələvəz kəndindən yuxarıda yerləşir. Cani və Ələvəz çaylarının ətrafında xəzinəyə məxsus 40 verst torpaqları var. Buradakı 3 xristian kilsəsindən 2-si yaxşı vəziyyətdədir.

14. AYISƏSİ KƏNDİ

15.QALASER KƏNDİ

Hər iki kənd Horvadix kəndinin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaqları olan 28 verst torpaqları var.

16. QOŞAVƏNK KƏNDİ. Horvadix kəndinin yaxınlığında yerləşən, xəzinəyə məxsus, bulaqları olan 7 verst ərazisi var. Yarıuçuq vəziyyətdə 2 xristian monastır var.

17. ÇOMALI KƏNDİ. Yuxarıda qeyd olunan kəndin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 14 verstə yaxın ərazisi var.

18. VARTANES KƏNDİ. Çanaqçı kəndinin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 18 verstə yaxın ərazisi var. Yarıuçuq vəziyyətdə xristian kilsəsi var.

19. CƏFƏRLİ KƏNDİ

20.KÖMÜRLÜ KƏNDİ

Bu kəndlər Yelpin kəndinin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaqları olan, 20 verstə yaxın torpaqları var.

21. BAĞÇAÇIQ KƏNDİ. Çivə və Qozluca kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 18 verst ərazisi var. Əhalinin dediyinə görə, buranın mülkədarı Hüseynəli Sultandır.

22. RUQİRT KƏNDİ. Əvvəlki kəndin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur, bulaqları olan 7 verstə yaxın torpaqları var.

23. GÖRGəBAĞ KƏNDİ

24.QULUBAĞ KƏNDİ.

Bu kəndlər Tərətün və Ağkəndin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaq suları olan 10 verstə yaxın torpaqları var.

25. QORTUN KƏNDİ. Çanaqçı və Yelpin kəndlərinin yaxınlığında yerləşir. Bulaq suları olan 14 verstə yaxın torpağı var. Əhalinin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

26. MUĞANCIQ KƏNDİ. Ərdəpin və Kələki kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 14 verstə yaxın ərazisi var. Əhalinin dediyinə görə torpaqlar Dostəli bəyə məxsusdur.
27. REYTƏ KƏNDİ. Zeytə və Qabaqlı kəndlərinin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur. Bulaqları olan 7 verstə yaxın ərazisi var.
28. ÇIRAQOĞLU KƏNDİ. Köçbək kəndinin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur. Ərazisi 20 verstə yaxındır. Suvarma üçün Köçbək çayından və buradakı bulaqlardan istifadə edilə bilər.
29. QNDEVAZ KƏNDİ
30.QUŞÇU KƏNDİ
31.BİLƏK KƏNDİ.

Bu kəndlər Qarabağın sərhəddinə yaxınlıqda yerləşirlər, 50 verstə yaxın torpaqları var. Arpa çayının suyundan və bulaqlardan istifadə edilə bilər. Burada kifayət qədər meşə örtüyü mövcuddur. Yarıuçuq xristian monastrı və uçuq vəziyyətdə olan 3 xristian kilsəsi də var. (Buradakı turş sulfat tərkibli mineral su mahalın haqqındakı izahat yazısında təsvir edilmişdir).

32. PAŞADÜZ KƏNDİ. Söylan və Məlişkə kəndlərinin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 28 verstə yaxın torpaqları var[8].

M.Hüseynova ilk dəfə olaraq XX əsrdə Qərbi Azərbaycanın qədim mahallarından biri olan Dərələyəz mahalında Azərbaycan kəndlərinin, onların sakinlərinin-azərbaycanlıların erməni vandalizminin qurbanı olduğunu tarixi faktlar əsasında araşdırməşdır. O, bu araşdırmalarını "XX əsrdə

[8] N. Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 151-153.

Dərələyəzdə urbisid və etnosid aktları" (Bakı, 2024) monoqrafiyasında ümumiləşdirmiş, Dərələyəz mahalında xarabalığa çevrilmiş kənd adlarının tarixi-etimoloji təhlilini vermiş. Monoqrafiyada müəllif XX əsrdə Dərələyəz mahalında ermənilər tərəfindən dağıdılan, xarabalığa çevrilmiş 68 kəndin adını müəyyənləşdirmişdir.

| | **Əzizbəyov rayonu üzrə** | |
|---|---|---|
| **№** | **Kənd adı** | **Dağıdılma tarixi** |
| 1 | Ağıllı kəndi | 1918-ci il |
| 2 | Arxaç kəndi | 1922-ci il |
| 3 | Ağca kəndi | 1918-ci il |
| 4 | Axta kəndi | 1988-ci il |
| 5 | Axtaval kəndi | 1931-ci il |
| 6 | Kömür kəndi | 1931-ci il |
| 7 | Ərinc kəndi | 1931-ci il |
| 8 | Bulaqlar kəndi | 1940-cı il |
| 9 | Bilək kəndi | 1918-ci il |
| 10 | Bağban kəndi | 1922-ci il |
| 11 | Qayabaş kəndi | 1918-ci il |
| 12 | Qayalı kəndi | 1922-ci il |
| 13 | Qaralar kəndi | 1918-ci il |
| 14 | Qabaxlı kəndi | 1922-ci il |
| 15 | Zeytə kəndi | 1922-ci il |
| 16 | Qısır kəndi | 1918-ci il |
| 17 | Qılıclı kəndi | 1919-cu il |
| 18 | Quşçu kəndi | 1926-cı il |
| 19 | Daylaxlı kəndi | 1918-ci il |
| 20 | Daşaltı kəndi | 1918-ci il |
| 21 | Daşkəndi kəndi | 1931-ci il |

| | | |
|---|---|---|
| 22 | Dəmirçilər kəndi | 1918-ci il |
| 23 | Dərəkənd kəndi | 1918-ci il |
| 24 | Donuzdamı kəndi | 1937-ci il |
| 25 | Zeytə kəndi | 1949-cu il |
| 26 | İtqıran kəndi | 1988-ci il |
| 27 | Gülüstan kəndi | 1988-ci il |
| 28 | İstisu kəndi | 1988-ci il |
| 29 | Gabut kəndi | 1988-ci il |
| 30 | Kotanlı kəndi | 1988-ci il |
| 31 | Köçbəy kəndi | 1988-ci il |
| 32 | Gendərə kəndi | 1918-ci il |
| 33 | Göyərçin kəndi | 1918-ci il |
| 34 | Gümüşxana kəndi | 1918-ci il |
| 35 | Komur kəndi | 1918-ci il |
| 36 | Leyliköçən kəndi | 1918-ci il |
| 37 | Məmərzə kəndi | 1998-ci il |
| 38 | Muratuz kəndi | 1914-cü il |
| 39 | Ortakənd kəndi | 1892-ci il |
| 40 | Xaraba kəndi | 1918-ci il |
| 41 | Paşalı kəndi | 1918-ci il |
| 42 | Payıdərə kəndi | 1905-ci il |
| 43 | Soylan kəndi | 1905-ci il |
| 44 | Terp kəndi | 1948-ci il |
| 45 | Her-her kəndi | 1948-ci il |
| 46 | Çaykənd kəndi | 1948-ci il |
| 47 | Çıraqlı kəndi | 1918-ci il |
| 48 | Ceyranlı kəndi | 1918-ci il |
| 49 | Cul kəndi | 1948-ci il |

| | **Keşkənd rayonu üzrə** | |
|---|---|---|
| № | **Kənd adı** | **Dağıdılma tarixi** |
| 1 | Abana kəndi | 1931-ci il |
| 2 | Ayazlı kəndi | 1988-ci il |
| 3 | Aysəsi kəndi | 1918-ci il |
| 4 | Alxanpəyəsi kəndi | 1918-ci il |
| 5 | Ağdərə kəndi | 1988-ci il |
| 6 | Ağkənd kəndi | 1988-ci il |
| 7 | Ağkilsə kəndi | 1918-ci il |
| 8 | Ağsu kəndi | 1918-ci il |
| 9 | Almalı kəndi | 1977-ci il |
| 10 | Arpa kəndi | 1949-cu il |
| 11 | Ardaraz kəndi | 1949-cu il |
| 12 | Arxac kəndi | 1918-ci il |
| 13 | Ağcəkənd kəndi | 1905-ci il |
| 14 | Axurlu kəndi | 1905-ci il |
| 15 | Başkənd kəndi | 1905-ci il |
| 16 | Baxçılıq kəndi | 1905-ci il |
| 17 | Bayəzidə kəndi | 1905-ci il |
| 18 | Bülbüləön kəndi | 1918-ci il |
| 19 | Qabaqlı kəndi | 1988-ci il |
| 20 | Qalakənd kəndi | 1918-ci il |
| 21 | Yelpin kəndi | 1918-ci il |
| 22 | Qaravəng kəndi | 1928-ci il |
| 23 | Qızılqışlaq  kəndi | 1918-ci il |
| 24 | Qarışıq  kəndi | 1988-ci il |
| 25 | Qozulca kəndi | 1949-cu il |
| 26 | Qoytulu kəndi | 1918-ci il |

| | | |
|---|---|---|
| 27 | Qurban kahası kəndi | 1914-cü il |
| 28 | Qurduqulaq kəndi | 1948-ci il |
| 29 | Qoduxvəng kəndi | 1987-ci il |
| 30 | Daşxərmən kəndi | 1914-ci il |
| 31 | Dədəli kəndi | Xaraba |
| 32 | Ərəb kəndi | Xaraba |
| 33 | Əyər kəndi | 1905-ci il |
| 34 | Əynəzur kəndi | 1905-ci il |
| 35 | Ələyəz kəndi | 1988-ci il |
| 36 | Əməğu kəndi | 1988-ci il |
| 37 | Əliqışlağı kəndi | 1981-ci il |
| 38 | Əli dərəsi kəndi | 1918-ci il |
| 39 | Ərəbxançəri kəndi | 1918-ci il |
| 40 | Ərkəz kəndi | 1918-ci il (xaraba) |
| 41 | Əskərkənd kəndi | Xaraba |
| 42 | Əlikənd kəndi | Xaraba |
| 43 | İlanlı kəndi | 1918-ci il |
| 44 | Yavər kəndi | 1918-cı il |
| 45 | Yenicə kəndi | 1960-cı il |
| 46 | Ertiş kəndi | 1939-cu il |
| 47 | Gənəli kəndi | Xaraba |
| 48 | Səncə kəndi | Xaraba |
| 49 | Gülüdüz kəndi | 1988-ci il |
| 50 | Güneyvəng kəndi | 1920-ci il |
| 51 | Göyabbas kəndi | 1918-ci il |
| 52 | Həsənkənd | 1918-ci il |
| 53 | Novlar kəndi | 1918-ci il |
| 54 | Moz kəndi | 1918-ci il |

| | | |
|---|---|---|
| 55 | Göyərçin kəndi | 1919-cu il |
| 56 | Nalu kəndi | 1918-ci il |
| 57 | Nəbilər kəndi | 1939-cu il |
| 58 | Ortakənd kəndi | 1918-ci il |
| 59 | Rəsul qışlağı kəndi | 1931-ci il |
| 60 | Sallı kəndi | 1949-88-ci illər |
| 61 | Seyidməmış kəndi | 1918-ci il |
| 62 | Ülgül kəndi | Xaraba |
| 63 | Heşin kəndi | 1948-ci il |
| 64 | Horbadıq kəndi | 1949-cu il |
| 65 | Hors kəndi | 1988-ci il |
| 66 | Hostun kəndi | 1939-cu il |
| 67 | Çivə kəndi | 1949-88-ci illər |
| 68 | Şorca kəndi | 1918-ci il[9] |

[9] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı: ADPU, 2024, s. 170-174.

# QƏRBİ AZƏRBAYCANDA LƏĞV OLUNMUŞ, XARABALIĞA ÇEVRİLMİŞ KƏNDLƏR VƏ YA TOPONİMLƏRİN ACI TALEYİ

Qərbi Azərbaycan zəngin, keşməkeşli tarixə malikdir. Cənubi Qafqazda müxtəlif zamanlarda baş verən ictimai-siyasi hadisələr, müharibələr, demoqrafik vəziyyətin bilərəkdən dəyişdirilməsi Qərbi Azərbaycandan yan keçməmişdir. Bütün bu ağrılı-acılı hadisələr öz izini toponimlərdə qoruyub saxlamışdır.

Rusiya ilə İran arasında 1826-cı ilin 16 iyul tarixində Azərbaycanın bölüşdürülməsi uğrunda başlayan müharibə, 1877–1878-ci illərdə baş verən Osmanlı-Rus müharibəsi, eləcə də 1828-ci ilin 10 fevral tarixində Türkmənçay sülh müqaviləsinin imzalanması nəticəsində Qərbi Azərbaycanda əhali arasında gərginlik artmış, onların bir çoxu doğma yurdlarını tərk etməyə məcbur olmuşlar.

1905-1906- cı illərdə başverən erməni azərbaycanlı savaş Qərbi Azərbaycanda da geniş surətdə qırğınlarla səbəb olmuş, azərbaycanlılaar doğma yurdlarından qovulmuşlar.

1918-ci ildə Qərbi Azərbaycan ərazisində daşnak Ararat Respublikasının yaradılması azərbaycanlılar üçün böyük faciələr yaratdı. Başdan ayağa erməniləşmiş daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkilinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-1920-ci illərdə azərbaycanlıların yaşadığı 124 yaşayış məntəqəsi dağıdılmış, xarabalığa çevrilmişdir.

Sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng

imperiya tərəfindən deportasiyası köçürmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqmda" 4083 saylı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqmda" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya olunmuşlar. Bu köçürmədən sonra bütün əhalisi yalnız azərbaycanlılardan ibartrət olan Qarabağlar rayonu tamamilə ləğv edilmiş, Qərbi Azərbaycanda azərbaycanlıların yaşadığı 100-dən çox kənd dağıdılmış, xarabalığa çevrilmişdir.

Ermənistan dövləti 1950-1980-ci illərdə Qərbi Azərbaycandan azərbaycanlıların müxtəlif yollarla öz doğma yurdlarından deportsiyasını "mədəni" yollarla həyata keçirmişdir. Bunlar bir neçə yolla həyata keçirilmişdir: 1) azərbaycanlıların yaşadığı kəndlər birləşdirilmişdir; 2) kəndin sakinləri köçürülərək kənd yaşayış məntəqəsi ləğv edilmişdir; 3) yaşayış məntəqəsinin inzibati ərazisi rayonun və ya şəhərin inzibati ərazisinə daxil edilərək kəndin adı Ermənistanın inzibati ərazi vahidlərinin tərkibindən çıxarılmışdır.

Qərbi Azərbaycandan azərbacanlıların sonuncu deportasiyası 1987-1991-ci illərdə baş vermişdir. Azərbaycanlıların deportasiyasından sonra onların vaxtilə yaşadıqları kəndlər boş qalmış, bunun nəticəsində həmin kəndlər dağıdılmış, xarabalığa çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan ziyalıları ilə görüşdə demişdir: “Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır”.  Bütün dövrlərdə Qərbi Azərbaycanda baş vermiş urbisid və etnosid aşağıda verdiyimiz toponimlərdə aydın şəkildə əksini tapır.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində yaşayış məntəqələrindən biri **Abana** kəndi olmuşdur. İndi Abana kəndi Ermənistan Respublikasının 1995-ci ildə yaradılmış yeni inzibati ərazi vahidinə görə Vayotsdzor vilayətinin ərazizisinə daxildir. Yaşayış məntəqəsi Aynazor (Ağavnadzor) kəndindən 14 km şərqdə yerləşirdi. Abana kəndinin adı 1727-ci il tarixli “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə[10], 1728-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”ndə qeyd edilmişdir[11].

---

[10] Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, 1997, s.279.

[11] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 58.

Kəndin gəliri 1727-ci il mənbəyinə görə Xubik məzrəsi ilə birlikdə 4.250 ağça[12], 1728-ci il mənbəyinə görə Xunək məzrəsi ilə birlikdə 4.200 ağça təşkil etmişdir[13]. Dərələyəz mahalının 1831-ci il kameral təsvirində kəndin adı "Obana kəndi" formasında qeyd edilmişdir. Həmin dövrdə kənddə qaraçorluların hacısamlı tayfası yaşamışdır[14]. Dərələyəz mahalının 1842-ci il və 1873-cü illərin kameral təsvirlərində kəndin adı çəkilmir.

Abana kəndində 1831-ci ildə 25 nəfər azərbaycanlı yaşamışdır[15]. Erməni mənbəyində kənddə 1831-ci-ildə 25 nəfərin yaşadığı göstərilsə də, onların hansı xalqa mənsub olduğu qeyd edilməmişdir[16]. 1840-1850-ci illərdə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi ölü kənddir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"nin 257-ci səhifəsinə istinad edilərk Abana kəndində 17 müsəlman ailəsinin yaşadığı göstərilir[17]. Həmin mənbəyin 257-ci səhifəsində

---

[12] Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, 1997, s.280.

[13] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 58.

[14] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 91.

[15] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 160.

[16] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 2.

[17] B.Budaqov və Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Elm, 1998, s.96.

Abana kəndi haqqında deyil, Dərələyəz nahiyəsinin Axura kəndi haqqında məlumat əksini tapmışdır[18]. Həmçinin 1727-ci ilin məlumatına əsasən Abana kəndində 17 müsəlman ailəsi deyil, 3 müsəlman ailəsinin adı çəkilir[19].

Toponim e.ə. qarqarlarla birlikdə Qafqaza-Albaniyaya gələn abant (t samiti sonradan ixtisar edilmişdir) etnonimi[20] əsasında əmələ gəlmişdir.

Tarixi Quqark vilayətinin ərazisində mövcud olmuş yaşayış məntəqələrinin tərkibində **Abasadzor** kəndinin adı da qeyd edilmişdir. Abasadzor kəndi indiki Karvansaray (İcevan) rayonunun inzibati ərazəsi daxilində yerləşir. İlk dəfə Kirakos Gəncəlinin (XIII əsr) əsərində adı xatırlanır[21].

Toponim Abas (Abbas adının fonetik forması-İ.B.) şəxs adı əsasında əmələ gəlmişdir.

Toponimin ikinci komponenti dzor, türk dilində "dərə", "yarğan" mənasında işlənən "car" sözünün[22] erməni dilində işlənən formasıdır.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasına, indiki Sərdarabad (Oktemberyan) rayonunun inzibati ərazisinə daxil olan kəndlərdən biri də **Abdulabad** kəndi idi. Bu yaşayış

---

[18] Bax.Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, 1997, s.257.

[19] Yenə orada, s. s.257.

[20] Г.А Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 78.

[21] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 3.

[22] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.:Мысль, 1984, с. 178-179.

məntəqəsi Araz çayının sol sahilində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Abdulavad formasında[23] qeyd edilmişdir.

Kənd XX əsrin əvvəllərində ləğv edilmişdir[24]. Kəndin adına həm də Abdulkənd formasında mənbələrdə rast gəlinir. B.Budaqov və Q.Qeybullayevin fikrincə, yaşayış məntəqəsi Abdulabad kəndindəki "Abdul dərəsi" adlı gölün kənarında qışlaq əsasında yaranmışdır. Kəndin adı "Abdul (dərəsi)" toponimindən və abad "kənd" sözlərindən əmələ gəlmişdir[25]. Toponimin yaranması ilə bağlı müəlliflərin fikri inandırıcıdır. Həqiqətən, Abdulabad toponimi Abdul şəxs adı ilə "yaşayış məntəqəsi", "kənd" mənasında işlənən abad sözünün birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində **Abbas dərəsi** kəndi adlı kənd yerinə mənbələrdə rast gəlinir.

Yaşayış məntəqəsinin adı ilk dəfə XIII əsrdə Kirakos Gəncəli tərəfindən xatırlanır[26]. İndi xaraba kənddir.

Abbas dərəsi toponimi şəxs adı əsasında düzəlib, "Abbasa məxsus dərə (kənd)" mənasını bildirir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində **Abbas dərəsi** kəndi olmuşdur.

---

[23] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 1.

[24] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.

[25] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Elm, 1998, s.98.

[26] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 132.

Yaşayış məntəqəsi rayon mərkəzindən 16 km şimal-şərqdə yerləşirdi[27]. Abbas dərəsi kəndi XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Abbas dərəsi toponimi şəxs adı ilə relyef bildirən dərə sözünün birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda **Abbas dərəsi** kəndi adında yaşayış məntəqəsi mənbələrdə qeydə alınmışdır.

Tarixən burada azərbaycanlılar yaşamışdır. İlk dəfə kəndin adı XIII əsrdə Kirakos Gəncəli tərəfindən çəkilr. İndi xaraba kənddir.

Abbas dərəsi toponimi Abbas şəxs adına relyef bildirən dərə sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində **Abbaslar** kəndi olmuşdur.

Kənd XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir[28].

Abbaslar toponimi abbaslar etnonimi əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd **Abgəz** adlanırdı. Yaşayış məntəqəsi rayondakı Aldərə kəndindən 14 km şimalda yerləşirdi. XX əsrin 30-cu illərində əhalisi rayon mərkəzinə və rayonun Hamravar kəndinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir[29].

---

[27]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 163.

[28]Yenə orada, s.163.

[29]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 5, 10.

Abgəz toponimi fars dilində “su” mənasında işlənən ab sözü ilə Azərbaycan dilində “aşırım”, “dağ”, “qılıcında nazik yer”, “gəzdək, dağ çökəyi, dağın təpəsindəki çökəklik” mənasında işlənən gəz sözünü[30] birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonu ərazisində kəndlərdən biri **Abdullar** kəndi olmuşdur. Yaşayış məntəqəsi rayondakı Noradüz kəndindən 4-5 km şimal-qərbdə, Göyçə gölünü sahilində yerləşirdi[31]. İndi ölü kənddir.

Abdullar toponimi abdullar nəsil adı əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonunda qədim yaşayış məntəqələrindən biri də **Əxili** kəndi idi. Yaşayış məntəqəsi rayon mərkəzindən 7 km cənub-qərbdə, Arpaçay çayının sahilində yerləşirdi. Kəndin adı 1727-ci ildə tərtib edilmiş “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə[32], 1728-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”ndə Əxili kəndi formasında qeyd edilmişdir.

XVIII əsrin məlumatına əsasən Əxili kəndinin illik gəliri 3.472 ağça təşkil edirdi[33]. “Naxçıvan sancağının müfəssəl

---

[30] Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 167.

[31] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 14.

[32] Naxçıvan Sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, 1997, s. 306.

[33] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 59.

dəftəri"ndə 1727-ci ildə kənddə 4 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır. Azərbaycan dilli mənbələrdə toponim Ağıllı, Axili[34], Əxili[35] fonetik formalarında da qeyd edilir.

Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində Əxili kəndində Qaraçorluların kulakanlı tayfasının yaşadığı göstərilməklə kəndin adı həmin mənbələrdə "Haxılı kəndi" formasında əksini tapmışdır[36].

Mahalın 1873-cü il kameral təsvirindən Haxılı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[37].

Əxili kəndində 1831-ci ildə 11 nəfər, 1873-cü ildə 23 nəfər, 1886-cı ildə 39 nəfər, 1897-ci ildə 38 nəfər, 1904-cü ildə 36 nəfər, 1914-cü ildə 36 nəfər, 1916-cı ildə 50 nəfər yalnız azərbaycanlı yaşamışdır[38]. Kənd 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının rəhbərliyinin göstərişi ilə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Əxili toponimin mənşəyi ilə bağlı B.Budaqov və Q.Qeybullayev yazırlar ki, Əxili toponimi sufi ordeninə mənsub

---

[34]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s.340.

[35]B.Budaqov,Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s.258.

[36] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 146, 217.

[37]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 103.

[38]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

adamların bir-birinə verdikləri əxi "qardaş" sözündəndir[39]. Əxili toponimi "dərviş icmasının adı"mənasında işlənən əxi (>axı) sözünə[40] -lı şəkilçisinin qoşulmasından formalaşan əxili nəsil adı əsasında əmələ gəlmişdir.

**Avsarlı**. Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu ərazisində, indi Syunik vilayətinin ərazisi daxilində mövcud olmuş kəndlərdən biri Avsarlı kəndi adlanırdı. Avsarlı kəndi Qafan şəhərindən 17 km məsafədə, Oxçu çayının sahilində, dağlıq ərazidə yerləşirdi. Kəndin adını yerli əhali-azərbaycanlılar tələffüzdə Əfsərli formasında tələffüz edirdi. Avsarlı kənddə 1897-ci ildə 92 nəfər, 1926-cı ildə 59 nəfər 221, 1931-ci ildə 71 nəfər, 1939-cu ildə 76 nəfər, 1959-cu ildə 101 nəfər azərbaycanlı yaşamışdır[41]. Avsarlı kəndi 1960-cı ildə ləğv edilmişdir. Yaşayış məntəqəsinin adı avşar (avsar, Azərbaycan dilində ş~s səs əvəzlənməsi qanunauyğundur) türk tayfasının adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlmişdir. Toponim "əfşar" (avşar) tayfasına mənsub olan yaşayış məntəqəsi" mənasını bildirir.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican rayonunun ərazisində tarixən azərbaycanlıların yaşadığı yaşayış məntəqələrindən biri də **Ağ tala** kəndi olmuşdur. Burada yalnız azərbaycanlılar yaşamışdır. Kənd yaşayış məntəqəsi kimi XX əsrin 40-cı illərinin axırlarında ləğv edilmişdir.

---

[39]B.Budaqov,Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s.258.

[40] В.В.Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. I, СПб, 1893, с. 132.

[41]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 368.

Ağ tala toponimi qədim türk dilində "kiçik, kiçicik, xırda, balaca" mənasında işlənən ağ sözü ilə[42] "meşə ortasında açıqlıq" mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlib, çox da böyük olmayan, ərazicə kiçik tala yanında olan kənd" mənasını bildirir.

Yelezavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonu ərazisindəki kəndlərdən biri **Ağağa** kəndi olmuşdur. Yaşayış məntəqəsi Şıxlar kəndinin yaxınlığında yerləşirdi. Burada 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır.[43] XX əsrin əvvəllərində-1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qırğınlarla köçürülərək kənd ləğv edilmişdir. İndi xarabalığa çevrilmiş kənddir. B.Budaqov və Q.Qeybullayev kəndin 1918-ci ildə ləğv olunduğunu yazmışlar.[44] Əslində 1905-1906-cı ildən sonra mənbələrdə kənd haqqında məlumat verilmir. Məhz buna görə də kəndin 1918-ci ildə deyil, 1905-1906-cı illərdə azərbaycanlıların köçürülməsi nəticəsində ləğv edilməsi qənaətinə gəlirik.

Ağağa toponimi "hömətli, ağsaqqal" mənasında işlənən ağ sözü ilə Ağa şəxs adının birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda **Ağbulaq** kəndi Vedi çayının sahilində yerləşirdi. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[45] Kənddə 1897-ci ildə 95 nəfər

---

[42] В.В.Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. I, СПб, 1893, с. 96.
[43] Զ.Կորկոտյան.Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77.
[44] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s.102.
[45] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 4.

azərbaycanlı yaşamışdır.[46] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovularaq kənd ləğv edilmişdir.

Ağbulaq kəndi eyni adlı bulağın yanında salınmışdır. Kəndin adı da həmin bulağın adından götürülmüşdür. Məhz Ağbulaq toponimi su obyektlərində "keyfiyyətli" mənasında işlənən ağ və bulaq sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Ağasıbəyli** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda inzibati ərazisi daxilində yerləşirdi. Kənd haqqında ilk məlumata 1873-cü ilin statistik məlumatında rast gəlinir. Ağasıbəyli kəndinin adı el arasında Ağaslı formasında işlədilirdi.[47] Kənddə 1931-ci ildə 2 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır.[48] Ağasıbəyli kəndi 1940-cı illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Ağasıbəyli toponimi nəsil adı əsasında əmələ gəlmişdir.

**Ağaplı.**Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində olan Ağaplı kəndi. rayon mərkəzindən 23 km şimal-şərqdə yerləşirdi.[49]

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[50] İndi xaraba kənddir.

---

[46]Զ.Կորկոտյան.Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85.

[47]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı, "Ağrıdağ", 2000, s.157.

[48]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 155.

[49]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 160.

[50] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 3.

Ağaplı toponimi nəsil adı əsasında əmələ gəlmişdir.

**Ağbaba.** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonundatarixi yaşayış məntəqələrindən olan Ağbaba kəndi Ağbaba dağının ətəyində, Qarabulaq kəndindən 1 km cənubda yerləşirdi. İndi xaraba kənddir. Kəndin xarabalıqları indi də qalmaqdadır.Ağbaba toponimi ağbaba quş adı əsasında formalaşmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qarakilsə (Sisyan) rayonu ərazisindəki **Ağdaban** kəndi Bazarçayın sağ sahilində yerləşirdi.[51] Ağdaban toponimi türk dilində "hündür, uca, yüsək" mənasında işlənən ağ sözü ilə türk dilində "yüsək dağ aşırımı, dağ aşırımı, aşırım, təpə" mənasında işlənən daban sözündən[52] əmələ gəlmişdir.

Ağdaban kəndi adında həmçinin Azərbaycanın Kəlbəcər rayonundakı yaşayuış məntəqəsi var.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda **Ağdamlar** kəndi olmuşdur. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[53]

Ağdamlar kəndində 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır.[54]

---

[51] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 168.

[52] Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 168.

[53] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 4.

[54] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46-47.

XX əsrin əvəllərində- 1905-1906-cı illərdə erməni quldur dəstələrinin hərbi təcavüzü nəticəsində azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. Ağdamlar toponimi rəng bildirən ağ sözü ilə -lar cəm şəkilçisi qəbul etmiş, türk dilində "ev, divar" mənasında işlənən dam sözünün[55] birləşməsindən əmələ gəlmişdir.

Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonundakı kəndlərdən biri **Ağdaş** kəndi idi. Yaşayış məntəqəsi rayonun Axtala və Şamlıq kəndlərinin yaxınlığında yerləşirdi. Kənd XIX əsrdə dağıdılaraq əhalisi Axtala və Şamlıq kəndlərinə köçürülmüşdür. İndi xaraba kənddir.Ağdaş toponimi "kiçik, xırda" mənasını ifadə edən ağ sözü ilə[56] qədim türk dilində "çöl, səhra, açıq yer" mənasında işlənən daş[57] sözünün birləşməsindən əmələ gəlmişdir və "kiçik açıq yerdə, səhrada olan kənd" mənasını ifadə edir. Həmçinin Azərbaycanda rayonlardan biri Ağdaş adında rayon var.İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonundakı qədim kəndlərdən olan Ağdərə kəndi rayondakı Dərətumb kəndinin yanında, Səlim çayının sağ tərəfində yerləşirdi.

Ağdərə kəndində 1831-ci ildə 78 nəfər, 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır.[58] Kəndin adı 1847-ci il "Qafqaz

---

[55]Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 170-171.

[56] В.В.Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. 1, СПб, 1893, с. 96.

[57]Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 539.

[58]Զ.Կորկոտյան.Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91.

diyarının xəritəsi"ndə Yelizavetpol (Gəncə-İ.B.) qəzasının Dərələyəz sahəsinin yaşayış məntəqəsi kimi qeyd edilmişdir[59]. Dərələyəz mahalının 1831-ci il kameral təsvirində Dərəkənd kəndininin sakinlərinin qaraçorluların əliyanlı tayfası olduğu göstərilir[60]. Ağdərə kəndi Dərələyəz mahalının 1842-ci il və 1873-cü il kameral təsvirlərində qeydə alınmamışdır. Tarixi mənbələrə istinad edərək deyə bilərik ki, yaşayış məntəqəsi kimi Ağdərə kəndi XIX əsrin sonlarında, XX əsrin əvvəllərində ləğv edilmişdir.

Ağdərə toponimi rəng bildirən ağ sözü ilə Azərbaycan dilində "iki dağ və ya təpə arasında çuxur", "uzun dərin çuxur" mənasında işlənən dərə sözünün birləşməsindən əmələ gəlib. Toponimin tərkibindəki ağ sözü torpağın süxurunun rəngini bildirir. H.Mirzəyev yazır ki, Ağdərə kəndi ağtorpaqlı dərənin içində yerləşirdi.[61]

**Ağkənd.** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində Ağkənd kəndi olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[62] Kənd XX əsrin əvvəllərində yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Ağkənd toponimi qədim türk dilində "kiçik" mənasında işlənən ağ sözünə[63] kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

---

[59] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[60] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 85.

[61] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 92.

[62] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 5.

[63] T.M.Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985, s. 68.

**Ağkilsə** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonun ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 14 km qərbdə, Yelpin çayının sol qolu olan Heşin çayının sahilində yerləşirdi.Ağkilsə kəndində 1873-cü ildə 65 nəfər, 1886-cı ildə 89 nəfər, 1897-ci ildə 102 nəfər, 1904-cü ildə 110 nəfər, 1914-cü ildə 121 nəfər, 1916-cı ildə 155 nəfər azərbaycanlı yaşamışdır[64]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd 1918-ci ildə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur. Yalnız 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönmüşlər və 1922-ci ildə burada 8 nəfər azərbaycanlı yaşamışdır[65]. 1923-1925-ci illərdə kənddə yaşayan 8 nəfər də qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Ağkilsə toponimi Azərbaycan dilində rəng mənasında işlənən ağ sözü ilə dini məbəd mənasında işlənən kilsə sözündən əmələ gəlmişdir. Kəndin adı ərazidə albanlara məxsus ağ rəngli kilsənin adından yaranmışdır. “Ağ rəngdə olan kilsə yanında kənd” mənasını ifadə edir.

**Ağkilsə** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd olmuşdur. Yaşayış məntəqəsi olaraq Ağkilsə kəndi rayon mərkəzindən şərqdə, Siqnax dağının

---

[64] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 160-161.

[65] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 161.

ətəyində, Zimmi dərəsində, Vedi çayının sahilində yerləşirdi. Ağkilsə kəndinin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müəssəl dəftəri"ndə Ağcakilsə[66] formasında, 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə[67] və Qafqazın 5 verstlik xəritəsində[68] Ağkilsə formasında qeyd edilmişdir. Ağkilsə kəndi 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən yaşayış məntəqəsi kimi əksini tapmışdır.[69] Ağkilsə kəndində 1873-cü ildə 111, 1886-cı ildə 152, 1897-ci ildə 165, 1904-cü ildə 563, 1914-cü ildə 574, 1916-cı ildə 259 nəfər azərbaycanlı yaşamışdır[70].

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri 1918-1920-cı illərdə qırğınlarla tamamilə qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Ağkilsə toponimi alban məbədinin adı əsasında, rəng bildirən ağ sözü ilə və kilsə sözünün birləşməsindən əmələ gəlmişdir.

**Ağgöl** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonu ərazisi daxilində, Qafan

---

66 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Bünyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 172.

67 Yenə orada, s. 106.

68 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 5.

69 İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 22.

70 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

rayonundakı Qaradığa kəndindən şimal-qərbdə yerləşirdi. Kəndin adı ərazidəki eyni adlı göldən götürülmüşdür.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində tarixən mövcud olmuş kəndlərdən biri **Ağsu** kəndi adlanırdı. Ağsu kəndində 1829-cu ildə 41 nəfər, 1879-cu ildə 71 nəfər azərbaycanlı yaşamışdır.[71] XIX əsrin axırlarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Ağsu kəndi "tarixən çay sahilində binə edildiyinə görə"[72] toponimin izahı da su obyektlərində iştirak edən və "keyfiyyətli, içməyə yararlı" mənasında işlənən ağ sözü ilə[73] bağlıdır. Toponimin ikinci komponenti qədim türk dilində "çay" mənasında işlənən su (əsli sub) sözündən[74] ibarətdir.

**Ağtala.** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qədim tarixə malik olan kəndlərdən biri Ağtala kəndi adlanırdı. 1926-cı ildə burada 26 nəfər azərbaycanlı yaşamışdır[75]. XX əsrin 30-cu illərində indiki Ermənistan hökumətinin göstərişi ilə kənd ləğv edilmişdir.

Ağtala toponimi qədim türk dilində "kiçik", "balaca" mənasında işlənən ağ sözü ilə "meşə ortasında açıqlıq" mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlmişdir.

Yaşayış məntəqəsi kimi **Ağtəpə** kəndi İrəvan quberniyasının Yeni Bayazid qəzasının Çəmbərək nahiyyəsində,

---

[71]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s.352.

[72]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 34.

[73] T.M. Əhmədov. El-obamızın adları, Bakı:Gənclik, 1984, s. 22.

[74] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 512.

[75] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s.85.

indiki Krasnoselo rayonu ərazisində, Şorca kəndinin yaxınlığında yerləşirdi.

Ağtəpə kəndində 1831-ci ildə 129 nəfər, 1926- cı ildə 16 nəfər yalnız azərbaycanlı yaşamışdır.[76]

XX əsrin 30-cu illərində Ermənistan SSR dövləti tərəfindən azərbaycanlılar deportasiya edilmiş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Ağtəpə toponimi "alçaq, kiçik" mənasında işlənən ağ sözü ilə "alçaq dağ" mənası bildirən təpə oronimi əsasında yaranmışdır. Yaşayış məntəqəsi alçaq, kiçik təpədə yerləşdiyi üçün Ağtəpə adlanmışdır.

**Ağcaquş** İrəvan quberniyasının Yeni Bayazid qəzasında xaraba kəndlərdən biridir. Kənd Göyçə gölünün şərqində yerləşirdi.

**Ağcakənd.** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonunda kənd. Yaşayış məntəqəsi Göydağ dağının şərq tərəfində, Ardıclı selavının yanında yerləşirdi.Ağcakənd kəndində 1873-cü ildə 106 nəfər, 1886-cı ildə 139 nəfər, 1897-ci ildə 192 nəfər, 1904-cü ildə 214 nəfər, 1914-cü ildə 234 nəfər, 1916-cı ildə 258 nəfər yalnız azərbaycanlılar yaşamışdır.[77]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində erməni hərbçilərinin təcavüzünə məruz qalan kənd sakinləri

---

[76] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31, 114-115.

[77] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

azərbaycanlılar 1918-ci ildə dogma yurdlarından deportasiya olunmuşdur.

1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Ağcakənd toponimi türk dilində “ağımtıl, quru, şumlanmamış bozumtul torpaq” mənasında işlənən ağca sözünə[78] kənd coğrafi nomeninin qoşulması ilə düzəlmişdir.

**Adakut** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd olmuşdur. Xarabalığa çevrilmişdir.

**Adatəpə** Adatəpə kəndi İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunun ərazisinə daxil olan kəndlərdən omuşdur. Bu yaşayış məntəqəsi rayondakı Ardanış kəndinin yaxınlığında, Ardanış kəndi ilə Şorca kəndinin arasında, Şorca kəndindən 3-4 km şimal-şərqdə yerləşirdi.

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[79] Erməni mənbələrində Adatəpə kəndi səhv olaraq Ardanış kəndi ilə eyniləşdirilir və Adatəpə kənd adının Adavəngin adı əsasında yarandığı göstərilir. [80]

İrəvan əyaləti Gyçə mahalının 1831-ci il kameral təsvirinə əsasən Adatəpə kəndində 1831-ci ildə 129 azərbaycanlının yaşadığı qeydə alınmışdır. Həmin mənbədə göstərilir ki, kənddə qarapapaqlar yaşayır və kəndin 12 xalvar dəmyə əkin sahəsi, 12 xalvar biçənəyi, 54 öküzü, 62 inəyi, 66 buzovu, 519 qoyun və

---

[78] T.M. Əhmədov. El-obamızın adları, Bakı:Gənclik, 1984, s. 22.

[79]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 6.

[80]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 28.

keçisi, 28 atı, 6 ulağı var[81] . Adatəpə kəndi XIX əsrin əvvəllərində ləğv edilmişdir. Göyçə mahalının 1842-ci il kameral təsvirində, eyni zamanda ondan sonrakı dövrlərdə Adatəpə kəndinin adına rast gəlmirik.

Adatəpə toponimi Azərbaycan dilində "hər tərəfi su ilə əhatə olunmuş quru sahə" mənasında işlənən ada sözü ilə "alçaq dağ" mənasında işlənən təpə sözünün[82] birləşməsindən əmələ gəlmişdir.

**Azadibek** İrəvan quberniyasının Aleksandropol qəzasınadaxil olan Azadibek kəndi Gümrü şəhərindən 25 km şərqdə yerləşirdi. XIX əsrin ortalarında ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azadbəy şəxs adı əsasında yaranmışdır.

**Azadxaraba** Göyçə mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında xaraba kəndlərdən olan Azadxaraba Göyçə gölünün sahilində yerləşirdi.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında yerləşən **Azqala** kəndi ləğv edilmişdir. İndi xaraba kənddir.

Azqala toponimi az qədim türk tayfasınln adı ilə qala sözünün birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında Ayazlı saray kəndi qədim yaşayış yerlərindəndir. Kəndin adı Zəkəriyyə Kəngərli tərəfindən qeyd edilmişdir.[83]

**Ayıbasan** kəndi İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun ərazisində Həmzəçimən

---

[81]N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1843-ci illər), Bakı:Elm və təhsil, 2017, s.118-120.

[82] R.Yüzbaşov, K. Əliyev, Ş.Sədiyev. Azərbaycanın coğrafi adları (oçerklər), Bakı: Maarif, 1972, s. 18.

[83]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s.85.

kəndindən 3 km cənub-qərbdə yerləşirdi. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. İndi xaraba kənddir.

Ayıbasan toponim ayı sözü ilə basan feili sifətin birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində ləğv edilmiş kəndlərdən olan **Ayılı xaraba** qədim tarixə malikdir. Kənddə 1914-cü ildə 100 nəfər, 1916-cı ildə 201 nəfər azərbaycanlı yaşamışdır.[84] 1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Ayılı xaraba toponimi mənsubluq bildirən -lı şəkilçisi qoşulmuş ayı süzü ilə Azərbaycan dilində "dağıdılmış, viran edilmiş" mənasında işlənən xaraba sözündən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonun ərazisində ləğv olunmuş **Aytaq** kəndi rayon mərkəzindən 10 km məsafədə, Buğut dağının ətəyində yerləşirdi.

Aytaq toponimi erməni mənbələrində Aysataq[85], Qafqazın 5 verstlik xəritəsində Aytaq formasında[86] qeyd edilmişdir.

---

[84]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31, 106-107.

[85]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 34; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 230.

[86]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 9.

Aytaq kəndində 1873-cü ildə 37 nəfər, 1886-cı ildə 32 nəfər, 1897-ci ildə 59 nəfər, 1914-cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır.[87]

1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Kənd 1920-ci ildə ləğv edilmişdir.

Aytaq toponimi qədim türk dilində "ağ, işıqlı, aydın" mənasında işlənən ay sözü ilə[88] qədim türk dilində "dağ" mənasında işlənən taq // tağ sözünün[89] birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda yerləşən **Aytaq** kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[90]. Kənddə 1897-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır[91].

XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar doğma yurdlarından qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[87]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 34-35, 116-117.

[88]Э.В.Севортян. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.: Наука, 1974, с. 99.

[89] Древнетюркский словарь, Л.: Наука , 1969, с. 526; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 537.

[90]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 9.

[91]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 67.

Aytaq toponimi qədim türk dilində "ağ, işıqlı, aydın" mənası bildirən ay sözü ilə[92] dağ sözünün qədim fonetik forması olan taq sözünü[93] birləşməsindən əmələ gəlmişdir.

**Alapapaq** İrəvan əyalətinin Dərəçiçək mahalında, indiki Axta (Hrazdan) rayonu ərazisində kənd olmuşdur. Alapapaq kəndi XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir[94].

Alapapaq toponimi alapapaq türk tayfasının adı əsasında əmələ gəlmişdir.

**Alaçıq daş**. Bu kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunun ərazisində, Çaykənd kəndinin yaxınlığında yerləşirdi.1926-cı ildə burada 52 nəfər azərbaycanlı yaşamışdır.[95] Yaşayış məntəqəsi kimi Alaçıq daş kəndi XX əsrin 30-cu illərində ləğv edilmişdir.

Alaçıq daş toponimi türk dilində "daxma, koma, müvəqqəti yaşayış yeri" mənasında işlənən alaçıq sözü ilə[96] daş sözünün birləşməsindən əmələ gəlib "daşdan tikilən alaçıq, çadır" mənasını bildirir.

**Alacan**. Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Hamamlı (Spitak) rayonu ərazisində kənd. Yaşayış

---

[92]Э.В.Севортян. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.: Наука, 1974, с. 99.

[93] Древнетюркский словарь, Л.: Наука , 1969, с. 526.

[94]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 91.

[95]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31.

[96]Э.В.Севортян. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.: Наука, 1974, с. 130-131.

məntəqəsi Qaraçor kəndindən 6 km şimalda yerləşirdi. Kənd ləğv edilmişdir. İndi evlərinin xarabalıqları qalıb.

**Albalaxaç**-Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir. Evlərin xarabalığı indi də qalmaqdadır.

Toponim Albala şəxs adı ilə arxac sözünün fonetik forması kimi sabitləşən xaç sözünün birləşməsindən əmələ gəlmişdir.

**Alırzalar** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur.[97]

Alırzalar toponimi alırzalar tayfasının adı əsasında əmələ gələn etnotoponimdir.

**Alişar** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonu ərazisində qədim kəndlərdən biri idi. Alişar kəndi rayondakı Dəstəkert kəndindən 23 km şimal-qərbdə yerləşirdi. B.Budaqov və Q.Qeybullayev kəndin adını Əlişar formasında qeyd etmişlər.[98] Alişar kəndində 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 48 nəfər, 1914-cü ildə 214 nəfər yalnız azərbaycanlı yaşamışdır.[99] 1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin,etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-ci ildə sakinləri-azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti

---

[97] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 83.
[98] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s.252.
[99] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

qurulandan sonra sağ qalanlar tarixi torpaqlarına dönmüşlər. Alişar kəndində 1922-ci ildə 105 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 135 nəfər,[100] 1939- cu ildə 108 nəfər[101] azərbaycanlı yaşamışdır.

Ermənistan hakimiyyəti məqsədli şəkildə 1930-1940-cı illərdə kəndin sakinlərini Sofulu və Şıxlar (Qızıl Şəfəq) kəndlərinə köçürmüş və yaşayış məntəqəsi kimi Alişar kəndi 1940-cı illərdə ləğv edilmişdir.[102]

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində qədim yurd yerlərindən olan **Allar** kəndi Bazarçayın sol sahilində, Tatev kəndindən 5 km şimal-şərqdə yerləşirdi. Kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1914 - cü ildə kənd ləğv edilmişdir.[103]

Allar toponimi alar türk tayfasının[104] adı əsasında əmələ gəlmişdir.

**Allahverdibəy** İrəvan xanlığının Göyçə mahalında olan qədim kəndlərdən bir də Allahverdibəy kəndi olmuşdur. Yaşayış məntəqəsi Göyçə mahalının Üçtəpə dağının yaxınlığında, Göyçə gölünün qərb tərəfində yerləşirdi.

---

[100] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 77, 147.

[101] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 88.

[102] Yenə orada, s. 88.

[103] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 94.

[104] Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 54.

Bu kənd Göyçə mahalının boş kəndlərindən biri kimi "Əliverdibəy kəndi" adında,[105] 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Göyçə sahəsinin yaşayış məntəqəsi kimi "Allahverdi kəndi" adında[106] qeyd edilmişdir. Allahverdibəy kəndi 1828-1830-cu illərdə ləğv edilmişdir**.**

Kəndin xarabalığı indi də qalır.

Allahverdibəy toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda **Almalı** kəndi olmuşdur. Almalı kəndi rayon mərkəzindən 14-16 km qərbdə, Yelpin kəndinin şimalında yerləşirdi.

Kənddə 1873- cü ildə 172 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 277 nəfər, 1904-cü ildə 313 nəfər, 1914-cü ildə 345 nəfər, 1916-cı ildə 360 nəfər yalnız azərbaycanlı yaşamışdır.[107]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə deportasiya olunmuşlar.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar kəndlərinə dönə bilmişdir.

Almalı kəndində 1922-ci ildə 100 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 145 nəfər yalnız azərbaycanlı yaşamışdır.[108]

---

[105] N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1843-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 130.

[106] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 23.

[107] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 160-161.

[108] Yenə orada, s. 91, 161.

Azərbaycanlılar 1938-1939-cu illərdə kənddən köçürülmüş və elə 1939 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Almalı toponimi alma meyvə adı əsasında yaranmışdır.

**Almalıq** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonun ərazisində kənd olmuşdur. Kənddə 1897-ci ildə 81 nəfər, 1914-cü ildə 465 nəfər azərbaycanlı yaşamışdır.[109] 1916-1918-ci illərdə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. 1926-cı ilə qədər kənddə yaşayış qeydə alınmamışdır.

S.Əsədov yazır ki, kənd 1918-ci ildə daşnaklar tərəfindən dağıldıqdan sonra burada yaşayış olmamışdır.[110] Əslində 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökumətinin qurulması ilə bağlı olaraq kənd sakinlərindən sağ qalanlar 1922-ci ildən sonra öz evlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 49 nəfər, 1931-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır.[111] XX əsrin 30-cu illərin ortalarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Almalıq toponimi alma sözüə çoxluq, cəmlik bildirən -lıq şəkilçisinin qoşulmasından əmələ gəlmişdir.

**Altuntaxt** İrəvan xanlığının Göyçə mahalında kənd. XIX əsrdə yaradılan yeni inzibati-ərazi bölgüsünə əsasən İrəvan

---

[109] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 132-133.

[110] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s.132.

[111] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55, 133.

quberniyasının Yeni Bayazid qəzasına, indiki Kəvər (Kamo) rayonu ərazisinə daxildir.

Azərbaycan tarixi coğrafiyasının öyrənilməsində "Kitabi-Dədə Qorqud" bir mənbə kimi xüsusi əhəmiyyətə malikdir. Dastanda baş verən hadisələrin məkanı qorqudşünaslıqda hələdə mübahisəli mövzulardan biridir. Bu da dastanın coğrafiyasının təkmil formada öyrənilməməsi ilə bağlıdır.

XX əsrin 70-ci illərində M.Cahangirov yazırdı ki, " Kitabi Dədə-Qorqud" dastanında adı çəkilən Altuntaxt coğrafi anlayış kimi təsdiq olunarsa və həmin mülahizə (Altuntaxtı toponim kimi götürən Ş.Cəmşidovun fikri nəzərdə tutulur-İ.B.) əlahiddə tutarlı dəlillərlə sübuta yetirilərsə və bu istiqamətdə tədqiqat genişləndirilərək məqsədəuyğun nəticələr çıxarılarsa, biz (M.Cahangirov –İ.B.) "İç Oğuzun coğrafi mühiti" haqqında da lazımi məlumat əldə edə bilərik.[112] Müəllifin belə bir qənaətə gəlməsi "Kitabi-Dədə Qorqud"un tədqiqatçısı Ş.Cəmşidovun dastanın qəhrəmanlarının əsas yaşayış məskənlərindən birinin də indi Ermənistan adlanan Qərbi Azərbaycanın Göyçə mahalında yerləşən Altuntaxt olması ilə bağlı söylədiyi elmi fikir idi. Ş.Cəmşidov yazır: "Bu yaylaq (Altuntaxt-İ.B.) yerlərinin geniş mərkəzi sahəsini aydınlaşdırmaq üçün "Salur Qazanın evinin yağmalanması" boyuna diqqət etmək lazımdır. Bu boyda aşkar görünür ki, qəhrəmanlar yaylaqda- Göyçə (qədim Gögem) gölünün şimali-qərbində yerləşən məşhur Altuntaxt yaylağında yaşayırlar"[113]. Tərəddüd etmədən deyə bilərik ki, Göyçə mahalı

---

[112] M.Cahangirov. "Kitabi-Dədə Qorqud" boylarındakı cəmiyyətin zaman və məkanı haqqında // Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, Elmi əsərlər, humanitar elmlər seriyası, № 4, 1976, s. 73.

[113] Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud, Bakı: Elm, 1999, s. 37.

oğuzların tarixi vətənidir və "Kitabi-Dədə Qorqud" Göyçə mühitində yaranmışdır. Bu baxımdan H.İsmayılovun fikri maraqlıdır: "Göyçəni ədəbi-mədəni mühit kimi səciyyələndirən başlıca göstərici qədim türk xalq ənənələrinə maksimum bağlılıq, sadiqlik və türk özgürlüyüdür. Türkün öz kökündən qopmadığı, bütün mədəni institutlar üzrə öz kökü üstə bitdiyi və ucaldığı, milli dəyərlər sisteminin optimal elementlərlə zənginləşdirdiyi ən mükəmməl mühit də Göyçədir. Əfsanəvi Oğuz xan da, tanrıçı ata (peyğəmbər) *Qorqud da* (kursiv mənimdir- İ.B.) öz ruhi-mənəvi ömrünü daha çox bu yurdda yaşayıb".[114]

Azərbaycan dilinin qərb qrupu şivlərinə daxil olan Göyçə şivəsində işlənən sözlərin dastanın dilində geniş şəkildə əksini tapması fikrimizi təsdiqləyən faktlardan biridir. Belə ki, dastanın dilində işlənən *ağırlamaq, arı, baha, vaqiə (vayğa formasında), qada, qarı, qaxmaq* (başına qaxmaq frazeoloji vahidin tərkibində), *dolamac (dolanbac formasında), yalın, yamac, kirimək, gərdək, oğrun, sağdış, sərpmək, suç, təpəl, toylamaq (aldatmaq), ismarış, ismarlamaq, eşik, iraq, cilasın, muştuluq, göyek* (indi göy- yeznə mənasında) və s. sözlər eyni fonetik formada və ya kiçik fonetik dəyişikliyə uğramaqla Göyçə şivələrində də işlənmişdir.

"Kitabi-Dədə Qorqud"un coğrafiyası da maraq doğurur. Belə ki, dastanda baş verən hadisələr, oğuzların məkanı, əsasən, indi Ermənistan adlanan Qərbi Azərbaycanla bağlıdır. Bunu dastandakı coğrafi adlar aydın şəkildə təsdiqləyir ki, bunlardan biri Altuntaxt yaşayış məntəqəsidir. Altuntaxt yaşayış məntəqəsi kimi XIX əsrin əvvəllərində erməni vandalizminin qurbanı olub.

---

[114] H.İsmayılov.Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları, Bakı: Elm, 2002, s.6.

Altuntaxt toponiminə "Kitabi-Dədə Qorqud" dastanının "Salur Qazanın evi yağmalandığı boyu bəyan edər" boyunda rast gəlinir.[115] Əvvəlcə onu qeyd edək ki, "Kitabi-Dədə-Qorqud" dastanı Azərbaycanda kiril əlifbası ilə H.Araslı, F.Zeynalov və S.Əlizadə tərtib etmişdir. Hər iki nəşrdə Altuntaxt toponim hesab edilmir.H.Araslının tərtib etdiyi "Kitabi-Dədə-Qorqud"da oxuyuruq: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini tikdi"[116]. Kitabın "Yer adları" hissəsində Altuntaxt coğrafi ad kimi göstərilmir.[117] Deməli, H.Araslıya görə, Altuntaxt coğrafi ad yox, söz birləşməsidir. F.Zeynalov və S.Əlizadənin tərtib etdiyi "Kitabi-Dədə-Qorqud" dastanında oxuyuruq: "Qazan bəg ordusını, oğlanını-uşağını, xəzinəsini aldı, gerü döndi altun təxtində. Yenə evini dikdi".[118] Altuntaxt haqqında kitabın "Nüsxə fərqləri və şərhlər" hissəsində belə bir qayda verilir: Cümlə *"altun təxtində" birləşməsi ilə* (kursiv bizimdir-İ.B.) bitir. H.Araslı və Erkinin nəşrlərində isə həmin ifadə növbəti cümlənin əvvəlinə köçürülüb.[119]F.Zeynalov və S.Əlizadə "Altuntaxt"ı birləşmə kimi götürdükləri üçün dastanı müasir şəklə uyğunlaşdırarkən onu aşağıdakı kimi vermişlər:

"*Qazan bəy öz ordusunu, arvad-uşağını, xəzinəsini geri aldı, qızıl taxtında* (kursiv bizimdir – İ.B.) geri döndü. Yenə evlərini tikdirdi".[120]

---

[115] Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı), Bakı: Gənclik , 1977, s. 44.
[116] Yenə orada, s. s. 44.
[117] Bax. Yenə orada, s. 181-183.
[118] Kitabi-Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə), Bakı: Yazıçı, 1988, s. 50.
[119] Yenə orada, s. 235.
[120] Kitabi-Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə), Bakı: Yazıçı, 1988, s. 149.

Məhərrəm Erkin həmin cümləni aşağıdakı kimi verir: “Big ordusini, oğlanini, uşağini, hazinesini aldı giri döndi. Altun tahtında yine evini dikdi”.[121] M.Erkin də “Kitabın “Giriş”inin “Dədə-Qorqudun coğrafiyası” hissəsində Altuntaxtı coğrafi ad kimi götürmür.[122]

M.Fəxrəddin Çelik “Dede-Korkut kitabındakı coğrafi isimlər” məqaləsində dastandakı coğrafi adları 7 qrupa bölür. M.Fəxrəddin Çelik də “Altuntaxt”ı toponim hesab etmir və buna görə də dastanda adı çəkilən yerlərin siyahısında “Altuntaxt”a toponimlərin siyahısında rast gəlinmir.[123]

F.Kırzıoğlu “Altuntaxt”ı toponim hesab edir və onun Divində (Vedi rayonunda-İ.B.) yerləşdiyini göstərir: “Altun Takht”ın (Dibin (Divinde) yine evini dikdi. Karaçuk Çobanı imrakhor eylədi”.[124]

Qorqudşünas Ş.Cəmşidov “Dədə Qorqud kitabı”nda “Altuntaxt”ı coğrafi obyekt hesab edir və Qazan xanın yaylaq yeri olduğunu göstərir: Bu boyda (Salur Qazanın evinin yağmalanması boyu – İ.B.) aşkar görünür ki, qəhrəmanlar yaylaqda – Göyçə (qədim Goqem) gölünün şimal-qərbində yerləşmiş məşhur Altuntaxt yaylağında yaşayırlar. Şöklü Məlik Qazanın məhz bu yurdda tikilmiş evini qarət edib aparmışdır. Burada (adı çəkilən boyda – İ.B.) “Altuntaxtda yenə evini tikdi” cümləsindən aydın olur ki, Altuntaxt Qazanın doğma yurdudur. Qədim Göyçə mahalında hazırki Göyçə gölünün şimalında yerləşən Altuntaxt və ona qonşu olan Həmzəçəmən, Maymaq,

---

[121] Muherrem Ergin. Dede Korkut kitabı, I cilt, Ankara, 1989, s. 115.
[122] Yenə orada, s. 51-54.
[123] M.Fahrettin Çelik. Dede-Korkut kitabındakı coğrafi isimler // ülkü, teanmur, 1941, s. 451.
[124] Kırzıoğlu Fahrettin M. Kars tarihi, I c., İstanbul: İşil matbaası, 1953, s. 182.

Ulaşın, Xalxallı və s. dağlar lap bu yaxın keçmişə qədər Azərbaycanın Qazax-Şıxlı camaatının yay düşərgələri idi.[125] Ş.Cəmşidovun "Altuntaxt"ı yaylaq hesab etməsi XIX əsrin Azərbaycan şairi Kazımağa Salikin "Şıxlı yaylaqlarının mədhi" şerinə istinadı ilə bağlıdır:

Afərin zehninə, səd afərin, ey Koroğlu,
Ki, tapubsan belə yer, çıxmaz ora heç həşəm.
Yüz min altuna dəyər səbzəsi Altuntaxtın,
Salika dut o yeri, istəmə dünarü-dirəm[126]

XX əsrin 20-ci illərində yaşamış Şərif Şikəstə adlı şair də "Dedilər" şerində Altuntaxt toponiminin adını çəkir və "Altuntaxt"ın yaşayış məntəqəsi kimi xarabalığa çevrilməsindən yana-yana bəhs edir:

Bu sifət ilə görən olmuşmu Altuntaxtı,
Boşalıb yurdu, qara yazılıbdır baxtı.
Ağlaram yadıma düşdükcə o keçmiş vaxtı,
Ol səbəbdəndir mənə didəsi-giryan dedilər

(Nəsibli)

E.Nəsibli bu şeir parçasından sonra əlavə edir ki, bunu şair o vaxtlar Qarakilsədəki yaylaqlarımız əlimzidən alınıb ermənilərə veriləndə yazmışdır. Qarakilsə dağları bizim dədə-baba yaylaqlarımız idi. Indi o yerlər Kirovakan adlanır.

---

[125] Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud, Bakı:Elm,1977, 49-50; Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud, Bakı: Elm, 1999, 31.
[126] Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud, Bakı: Elm, 1999, 31.

Onu əlavə edək ki, Altuntaxt Qarakilsənin yox, Kəvər (Kamo) rayonunun inzibati ərazisinə daxil idi. XVIII-XIX əsrlərdə kənd olsa da, XIX əsrin sonunda dağıdılaraq kənd kimi ləğv edilmiş, azərbaycanlıların yaylaq yeri olmuşdur.

P.Xəlilov "Altuntaxt"ı toponim hesab edir və onun Göyçə dağlarında yerləşən yaylaq olduğunu qeyd edir[127]. Müəllif fikrini dastanın ("Salur Qazanın evinin yağmalanması" boyunu nəzərdə tutur – İ.B.) finalından gətirdiyi sitatlarla əsaslandırır. P.Xəlilov boyun sonundan gətirdiyi sitatı aşağıdakı imlada verir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü, Altuntaxtında yenə evini tikdi"[128] Həmin sitatı H.Araslının 1978-ci ildə nəşr etdirdiyi "Dədə Qorqud kitabı"nın 44-cü səhifəsindən götürdüyünü göstərir. Lakin dastanın 44-cü səhifəsində cümlə belədir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini tikdi"[129].

Mənbədən fərqli olaraq, P.Xəlilov "geri döndü"dən sonra vergül qoymuş, "Altuntaxt"ı bitişik yazmışdır. Ümumiyyətlə, P.Xəlilovun "Altuntaxt"ı toponim hesab etməsi doğrudur. Lakin hansı mənbəyə istinadən belə bir qənaətə gəlməsi qaranlıq qalır. Onun- "Altıntaxt"ın yaylaq olub-olmamasından isə irəlidə bəhs ediləcəkdir.

O.Şaiq "Altuntaxt"ı toponim hesab edir, lakin onun harada yerləşdiyini göstərmir.[130]

---

[127] P.Xəlilov. "Kitabi-Dədə Qorqud"-İntibah abidəsi.,Bakı: Gənclik, 1993, s. 23.

[128] P.Xəlilov. "Kitabi-Dədə Qorqud"-İntibah abidəsi.,Bakı: Gənclik, 1993, s. 23.

[129] Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı), Bakı: Gənclik , 1977, s. 44.

[130] H.Məmmədov. Dədəm Qorqud keçən yerdi bu yerlər // Azərbaycan. № 2, 1990, s. 166.

Müəllifin belə bir tərəddüdlü fikir söyləməsi indi Ermənistan adlanan Qərbi Azərbaycan toponimlərinin sistemli və geniş şəkildə öyrənilməməsi ilə bağlıdır və "Kitabi-Dədə Qorqud" qəhrəmanlarının yaşayış məskənlərinin Göyçə gölü ətrafının olduğunu cəsarətlə söyləyə bilməməyimizdir.

Dastanda baş verən hadisələr, dil faktları, dastan qəhrəmanlarının adları ilə bağlı yaşayış məskənlərinin Göyçə mahalında olması bizə belə bir qənaətə gəlməyə imkan verir ki, "Kitabi-Dədə Qorqud" Göyçə mühiti ilə bağlıdır və Göyçə Salur Qazanın və oğuz qəhrəmanlarının vətəni olmuşdur.

H.Məmmədov "Altuntaxt"ı toponim hesab edərək yazır ki, Ermənistan ərazisində Altuntəpə adlı yer də vardır. Çox güman bura qədim "Altuntaxt"ın xarabəsidir[131].

H.Məmmədov Altuntaxtın "Ermənistan ərazisində" olduğunu söyləməklə dəqiqi yerini göstərmir və "Altuntəpə"nin Altuntaxt olduğunu güman edir. Müəllif Eyni zamanda, onu yaylaq hesab edir.

S.Babayev "Dədə Qorqud kitabı"nda qeyd olunan Altuntaxt oykoniminin Naxçıvanın Babək rayonu ərazisi ilə lakolizə edir: "Babək rayonunun Çalxanqala kəndini, Qırcan yoxuşunu, Qız-gəlin qayasını, Anabad gədiyini, Bağırsaq dərəsini keçdikdən sonra Buğaçeşməyə çatmamış "Altuntaxt" adlanan qədim yaşayış yeri, sonradan yurd yeri kimi istifadə edilən yaylaq yerləşir".[132]

Müəllif "Kitabi-Dədə Qorqud"dakı "Altuntaxt"ı toponim hesab etməklə həmin yaşayış məntəqəsinin harada –Naxçıvanda

---

[131] H.Məmmədov. Dədəm Qorqud keçən yerdi bu yerlər // Azərbaycan. № 2, 1990, s. 166.

[132] S.Babayev. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, Bakı: Yeni nəşrlər evi, 1999, s. 88.

və ya Qərbi Azərbaycanda yerləşməsi ilə bağlı konkret fikir söyləmir. Qərbi Azərbaycanda, Göyçə gölünün qərb hissəsindəki Göyəm dağlıq sahəsində Yeni Bayazid rayonu (1959-cu ildən Kamo r-nu, 1991-ci ildən Qavar) ərazisində iki qədim Altuntaxt kəndinin olduğunu yazaraq belə bir qənaətə gəlir ki, "Kitabi-Dədə Qorqud" dastanının ikinci boyunda ("Salur Qazanın evinin yağmalanması boyu" – İ.B,) cərəyan edən hadisələrin bu regionda (Göyçə gölü ətrafında – İ.B.) baş verməsini də güman etmək olar".[133]

Altuntaxt toponimi ilə bağlı tarixi mənbələrdə kifayət qədər məlumat vardır və onun yaşayış məntəqəsi olduğu qeyd edilir.

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Altuntaxt Altunküşni kəndi adı altında qeyd edilir.[134]

1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə nahiyəsinə daxil olan kəndlərin siyahısına Altuntaxt kəndinin də adı qeyd edilir və göstərilir ki, kəndin gəliri 4.210 ağça olmuşdur.[135]

XVIII əsrdə yaşamış 1763-1780-ci illərdə erməni kilsəsinin başçısı olmuş Simeon İrəvanlının "Cambr" əsərində Geğarkuni vilayətinə (Göyçə mahalı) daxil olan kəndlərin sırasında Altuntaxt kəndinin də adı çəkilir.[136]Qafqazın 5 verstlik

---

[133] S.Babayev. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, Bakı: Yeni nəşrlər evi, 1999, s. 89.

[134] 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri", Osmanlı türkcəsindən tərcümə, Bakı, "Nəşriyyat" şöbəsi, 2023, s. 181.

[135] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 55.

[136] С.Ереванци. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестых моностырей, М., Изд.во вост.литер., 1958, с. 361.

xəritəsində Altuntaxt İrəvan quberniyasının Yeni Bıyazid qəzasını daxil olan "ətraf mühitdən fərqlənən sahə, yer" (урочише) kimi göstərilir.[137]

Erməni mənbələrində İrəvan xanlığının Göyçə mahalında tarixən Altuntaxt adında iki kəndin olduğu qeyd edilir: Aşağı Altuntaxt, Yuxarı Altuntaxt.[138] XIX əsrin əvvəllərində hər iki kənd xarabalığa çevrilmişdir.

İ.Şopen Göyçə mahalında xarabalığa çevrilən 27 kəndin siyahısını vermişdir.

Xarabalığa çevrilən 27 kəndin sırasında Aşağı Altuntaxt və Yuxarı Altuntaxt kəndlərinin də adları çəkilir.[139] A.Bayramov isə yazır ki, azərbaycanlılar yaşayan hər iki kənd (Aşağı Altuntaxt və Yuxarı Altuntaxt–İ.B.) 1914-1918-ci illərdə xarabalığa çevrilmişdir.[140] Müəllifin bu fikri tarixi həqiqəti əks etdirmir. Belə ki, həm Aşağı Altuntaxt, həm də Yuxarı Altuntaxt kəndinin adı XIX əsrin əvvəllərindən heç bir mənbədə çəkilmir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində İrəvan quberniyasının Novo Bayazid qəzasında Altundağ və Altuntaxt kəndlərinin olduğu qeyd edilir və hər biri müstəqil toponim kimi tizah edilir.[141] Lakin əslində Göyçə mahalı ərazisində yerləşən

---

[137]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 14.

[138]Թ.Խ.Հակոբյան. Հայաստանի պատմական աշխարհագրություն (ուրվագծեր), 2-րդ հրտ., Երևան, 1968, էջ: 79.

[139] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 515-517.

[140] A.Bayramov. "Kitabi-Dədə Qorqud" və Qafqaz, Bakı, 2001, s. 25.

[141]B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s. 120-121.

İrəvan quberniyasını Yeni Bayazid qəzasında Alruntaxt və Altundağ adlı ayrı-ayrı kəndlər olmamışdır. Altintaxt və Altundağ eyni kəndin müxtəlif fonetik formada yazılışdır. Erməni mənbələrində də Altuntaxt kəndi iki fonetik formada – Altuntaxt və Altundağ formasında qeyd edilir ki,[142] bunu da Qərbi Azərbaycanın tarixi coğrafiyasının saxtalaşdırılması kimi qiymənləndiririk. Digər tərəfdən B.Budaqov və Q.Qeybullayev İ.Şopenə istinad edib İrəvan xanlığının Dərəçiçək mahalında Altuntaxt adlı dağ və yaylaq olduğunu göstərirlər və "Dədə-Qorqud kitabı"ndakı "Altuntaxt"la onu eyniləşdirirlər[143]. Aydınlıq naminə qeyd edək ki, İ.Şopenin əsərində yalnız Altundağ oronominin adı çəkilir[144].

"Altundağ adlı yayla" qeydinə İ.Şopenin əsərində rast gəlmədik. Onu da əlavə edək ki, Altundağ Göyçə mahalında, Ağmanqan dağının yanında yerləşir.[145] Ağmanqan dağı isə indiki Ermənistanın Kəvər (Kamo) rayonu ərazisindədir. Deməli, Altundağ dağı Dərəçiçək mahalında yox, Göyçə mahalındadır.

"Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Altuntaxt oykonimi Göyçə mahalında, Ağmanqan dağının yanında yerləşən

---

[142]Թ.Խ.Հակոբյան. Հայաստանի պատմական աշխարհագրություն (ուրվագծեր), 2-րդ հրտ., Երևան, 1968, էջ: 79.

[143]B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s. 121.

[144] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 361-362.

[145] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 361-362;Թ.Խ.Հակոբյան. Հայաստանի պատմական աշխարհագրություն (ուրվագծեր), 2-րդ հրտ., Երևան, 1968, էջ: 79.

Üçtəpə dağının yaxınlığında, Altundağ dağının ətəyində, Kəvər (Kamo) – Sevan yolunun üstündə idi.

Altuntaxt kəndində 1828-1830-cu illərə qədər yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra kəndin sakinləri qovulmuş və kənd xarabalığa çevrilmişdir.

*İndi də "Altuntaxt"ın yaylaq və ya kənd olması barədə.* Yaylaq sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri deməkdir,[146] kənd təsərrüfatı ilə məşğul olan yaşayış məntəqəsi deməkdir.[147]Qorqudşünaslardan Ş.Cəmşidov, P.Xəlilov, M.Cahangirov, H.Məmmədov "Altuntaxt"ı yaylaq hesab edir.

Lakin Altuntaxt yaylaq yox, kənddir.

Birincisi, "İrəvan əyalətinin icmal dəftəri"ndə aydınca göstərilir ki, Göyçə mahalında Altuntaxt yaylağı yox, Altuntaxt kəndi olmuşdur və gəliri də 4210 ağça təşkil edirdi[148]. Ikincisi, "Salur Qazanın evinin yağmalanması" boyunda göstərildiyi kimi, Salur Qazan qələbə ilə geri dönür və *Altuntaxtda* (kursiv bizimdir-İ.B.) yenə evini tikir.[149]

Əvvəla, Altuntaxt yaylaq olsa idi, Salur Qazan qələbədən sonra yaylağa istirahətə yox, öz doğma elinə-obasına dönməli idi. Ikincisi, Altuntaxt yaylaq olsa idi, vuruşdan sonra geri dönən Salur Qazan yenə evini tikməzdi, alaçığını qurardı.

Bütün bunlar aydın şəkildə sübut edir ki, Altuntaxt yaylaq yox, kənddir və bura oğuzların, o cümlədən Salur Qazanın daimi yaşayış məskəni olmuşdur.

---

[146] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 477.
[147] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 49.
[148] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 18
[149] Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı), Bakı: Gənclik , 1977, s. 44.

Əlavə olaraq qeyd edim ki, Altuntaxt kəndi xarabalığa çevrildikdən sonra həm Yuxarı Altuntaxt kəndinin, həm də Aşağı Altuntaxt kəndinin ərazisindən yaylaq kimi istifadə edilmişdir. 1886-cı ildə nəşr olunan mənbəyə görə Altuntaxt yaylağından qədim dövrlərdən Şöllü Mehmandar kəndinin (Zəngibasar rayonunda kənd-İ.B.) əhalisi istifadə etmişdir. Yuxarı Altuntaxt və Aşağı Altuntaxt kəndlərinin yaxınlığında Altuntaxt kəndinin qəbirstanlığının xarabalığı son dövrlərə qədər gəlib çatmışdır. Belə ki, Altuntaxt kəndinin qəbirstanlığındakı qəbir daşlarının birinin üzərindəki epiqrafik yazıda "1861/1862-ci il" tarixinin qeyd edilməsi, qəbirstanlığın sonralar da mənbədə göstərildiyi kimi, yaylağa gələn Şöllü Mehmandar kəndinin əhalisi tərəfindən istifadə edildiyini göstərmişdir"[150]. B.Budaqov və Q.Qeybullayev Altundağ toponimi ilə Altuntaxt toponimini ayrı götürdükləri kimi, onların leksik-semantik xüsusiyyətlərini də ayrı-ayrılıqda izah etmişlər. Müəlliflərin fikrincə, Altuntağ toponimi monqolların tərkibində gələn oltin tayfasının adına türk dilindəki tağ (dağ) sözünün birləşməsindən, Altuntaxt toponimi qızıl mənasında işlənən altun sözü ilə ərəb dilində yüksəklik mənasında işlənən taxt sözünün birləşməsi əsasında əmələ gəlmişdir[151]. Hər iki toponim müxtəlif fonetik tərkibə malik olmaqla, eyni kökdən nəşət tapmışdır və ümumiyyətlə, "Altuntaxt"dakı "taxt" sözünü ərəb dili ilə bağlamaq doğru deyildir.

---

[150]Ə.Ələkbərli, S.Hüseynov. Qərbi Azərbaycan irsi: "Ermənistan azərbaycanlılara məxsus qəbirstanlıqlarının sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabat və materiallar, I c., Bakı: Şərq-Qərb, 2025, s. 44.
[151]B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s. 120-121.

Altun tərkibli toponimlərə türklərin yaşadığı bütün ərazilərdə təsadüf edilir. Türkiyənin Ərzurum bölgəsində Altun, Altundaş, Qars bölgəsində Altunbulaq, XIX əsrdə Tiflis quberniyasının Axalkələk qəzasında Altunbulaq, Azərbaycanın Zəngilan rayonunda Altuncu, Laçın rayonunda Altuntaxt dağı, Qarabağda (Şuşa qəzasında) Altuntaxt aşırımı vardır[152].

Altuntaxt toponimi vulkan mənşəli qaya adlarında qırmızı, qədim türk dilində "qızıl" (qırmızı mənasında) mənasında işlənən altun sözü ilə, "hündürlükdə, dağda yerləşən düzənlik" mənasını bildirən taxt sözünün[153] birləşməsindən əmələ gəlmişdir. "Taxt" termini Azərbaycan oronomiyasında həm də "taxta" fonetik formasında "dağlıq yerdə hamar sahə, düzən yer", "iki dərə arasında düz yer", "hündür ərazidə düzənlik" mənalarında işlənir.[154]

Kənd qırmızı süxurlardan ibarət olan düzənlik ərazidə yerləşdiyi üçün Altuntaxt adlandırılmışdır.

**Alxanpəyəsi**. Bu kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda tarixən azərbaycanlıların yaşadığı qədim yaşayış məntəqəsidir. Alxanpəyəsi kəndi rayonun Həsənkənd kəndi ilə Qoytul kəndi arasında, Şərur və Keşişkənddən Göyçəyə gedən şosse yolunun üstündə[155], Arpa çayının bir qolu olan Səlim çayının yanında yerləşirdi.

---

[152] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, s. 121.

[153]Э.М.Мурзаев.Словарь народных географических терминов,М.: Мысль, 1984, с. 547.

[154] N.G.Məmmədov. Azərbaycan Respublikasının oronimləri, Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, s. 121.

[155] H.Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997, s. 236.

H.Mirzəyev yazır ki, Alxanpəyəsi kəndi Vəkilovlar nəslindən olan Alıxan inşa etmişdir. Burada Alıxan qış, payız və yaz aylarında özünün mal-qarasını, qoyunlarını saxlayırmış[156]. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[157]. Dərələyəz mahalının 1831-ci il kameral təsvirində kəndin adı "Əlixan pəyəsi kəndi" formasında qeyd edilir. Dərələyəz mahalının 1832-ci il tarixli kameral təsvirindən məlum olur ki, kənddə qaraçorluların əlixanlı tayfası yaşayırmış[158]. Dərələyəz mahalının 1842-ci il kameral təsvirində kənddə 3 ailə olmaqla 7 nəfərin yaşadığı göstərilmişdir[159].

1873-cü il Dərələyəz mahalının kameral təsvirində kəndin adı "Keşişkənd kəndlər icmasına daxil olan Əlixan pəyəsi qışlağı" formasında qeydə alınmışdır.[160] Alxanpəyəsi kəndində 1831-ci ildə 18 nəfər, 1873-cü ildə 54 nəfər, 1886-cı ildə 66 nəfər, 1897-ci ildə 100 nəfər, 1904-cü ildə 175 nəfər, 1914-cü ildə 192 nəfər, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır.[161]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-ci ildə köklü sakinləri olan azərbaycanlılar deportasiya olunmuşlar. 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan

---

156 H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 111.

157 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 13.

158 N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 93.

159 Yenə orada, 183-184.

160 N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 89.

161 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 160-161.

sonra kəndin əhalisindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Alxanpəyəsi kəndində 1922-ci ildə 37 nəfər yalnız azərbaycanlı yaşamışdır.[162] 1923-1925-ci illərdə onlar yenidən qədim tarixi yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir.

Alxanpəyəsi toponimi Alıxan şəxs adından və Azərbaycan dilində "tövlə, mal-qara saxlanılan yer" mənasında işlənən pəyə sözündən əmələ gəlmişdir.

**Alçalı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd olmuşdur. Bu kənd rayondakı Ağbulaq kəndinin 1 km-də yerləşirdi.[163]

Alçalı toponimi alça bitki adına -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Angersak** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda qədim tarixi olan kəndlərdən idi. Yaşayış məntəqəsi rayon mərkəzindən 6-7 km şimal-qərbdə yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Karbi nahiyəsinin tabeliyində "Ənqurik kəndi" formasında,[164] Qafqazın 5 verstlik xəritəsində Angersak kimi[165] qeyd edilmişdir. Kəndin sakinləri kəndi Ənirsək formasında tələffüz edirdi.

---

[162] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:.161.

[163] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 166.

[164] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s.163.

[165] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 15.

Angersak kəndində 1873-cü ildə 133 nəfər, 1886-cı ildə 140 nəfər, 1897-ci ildə 162 nəfər, 1908-ci ildə 209 nəfər, 1914 -cü ildə 221 nəfər, 1916-cı ildə 188 nəfər, 1919-cu ildə 202 nəfər yalnız azərbaycanlı yaşamışdır.[166] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1920-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1959-cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Angersak toponimi türk və monqol dillərində "xəndək, səngər", "çatlamış yer", "dərə, dar dərə, vadi", "uzaq sahil" mənalarında işlənən anqar sözündən[167] və türk dilində "dağın ətəyi, dağın dibi", "çay ağzı, mənsəb", "uzunsov əyri, dayaz dərə", "arxın başlanğıcı" mənasında işlənən saqa//saxa sözündə[168] əmələ gəlmişdir.

**Aralıq qoyun** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisindəki yaşayış məntəqəsi kimi Gölkənd kəndinin yaxınlığında yerləşirdi. Burada 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır.[169] Yaşayış məntəqəsi XX əsrin 40-cı illərin axırlarında ləğv edilmişdir.

---

[166] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[167] Э.М.Мурзаев.Словарь народных географических терминов, М.:Мысль, 1984, с. 50-51.

[168] Yenə orada, s. 490-493.

[169] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31.

Aralıq qoyun toponimi "iki yerin arası, ortalıq, orta, ara" mənasında işlənən aralıq sözü ilə[170] "dərə, çuxur, dayaz dərə" mənasında işlənən, türk dillərində mənfi relyef mənasını bildirən qoyun//qoyın sözünün[171] birləşməsindən əmələ gəlmişdir.

**Aralıq Oxçu** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi zəngəzurun Qafan rayonundakı tarixi kəndlərdən idi. Aralıq Oxçu kəndi Oxçu çayı ilə Pirdavdan (Pircavidan) çayının qovuşduğu yerdə, Oxçu kəndinin yanında yerləşmişdir. Kənddə 1897-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır.[172] B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı "Aralıq" formasında izah edilir və göstərilir ki, kənd Oxçu-Aralıq da adlandırılmışdır. Sonralar Aralıq kəndi Oxçu kəndi ilə birləşdirilmişdir[173].

1905-1906-cı illərdə Aralıq Oxçu kəndinin köklü sakinləri olan azərbaycanlılar erməni hərbçilərinin təcavüzü nəticəsində deportasiya olunmuş, bunun nəticəsində kənd ləğv edilmişdir.

Kənd iki çayın (Oxçu və Pirdavdan çaylarının) arasında salındığı üçün Aralıq Oxçu kəndi adlandırılmışdır və "Oxçu çayının arasında yerləşən kənd" mənasını bildirir. Aralıq Oxçu toponiminin I tərəfi "iki yerin arası" mənasında işlənən aralıq sözündən, II tərəfi türk mənşəli oxçu etnonimindən ibarətdir.

---

[170] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 117.

[171]Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 282.

[172]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55.

[173]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Natta-Press, 1998, s. 124.

**Arıqlı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qərbi Zəngəzurun Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı erməni mənbələrində “Ariklu” formasında qeyd edilmişdir[174].

Arıqlı kəndində 1873-cü ildə 60 nəfər, 1886-cı ildə 106 nəfər, 1897-ci ildə 88 nəfər, 1908-ci ildə 126 nəfər, 1914 - cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır.[175]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkilinin, etnik təmizləmə siyasətinin nəticəsində kəndin köklü sakinləri olan azərbaycanlılar 1918-ci ildə erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya edilmiş və kənd dağıdılıb xarabalığa çevrilmişdir.

B.Budaqov və Q.Qeybullayev Arıqlı toponimini gətirilmə ad hesab etmişlər. Belə ki Şərqi Anadoluda orta əsrlərdə Boxtan əmirliyinin Arux mahalından gəlmə ailələrlə əlaqələndirilmişdır.[176]

Apardığımız araşdırma nəticəsində belə qənaətə gəlirik ki, Arıqlı toponimi türk mənşəli arıq etnoniminə[177] mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzələn etnotoponimdir.

**Armudlu** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qərbi Zəngəzurun Qarakilsə (Sisyan) rayonunun ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi rayondakı Dəstəgird kəndindən 1 km aralı, dağın ətəyində

---

[174] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 146.
[175] Yenə orada, s.76-77, 146-147
[176] B.Ə.Budaqov, Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Natta-Press, 1998, s. 127
[177] С.Атаниязов. Словарь туркменских этнонимов, Ашхабад: Ылым, 1988, с. 24.

yerləşirdi. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir.

Armudlu toponimi armud meyvə adına -lı şəkilçisinin artırılması ilə düzəlib.

**Armudlu** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında yaşayış məntəqəsi idi. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır.[178] Armudlu kəndi yaşayış məntəqəsi kimi XX əsrin 30-cu illərində ləğv edilmişdir.Armudlu toponimi meyvə adı bildirən armud sözünə -lu şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

**Armudlu** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qərbi Zəngəzurun Qafan rayonu ərazisində kənd olmuşdur.

Armudlu toponimi armud bitki adına -lu şəkilçisinin artırılması əsasında əmələ gələn fitotoponimdir.

**Arpa** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunun ərazisində kənd olmuşdur. Kənddə qarapapaq türk tayfası yaşamışdır. Kənd yaşayış məntəqəsi kimi 1940-cı illərdə ləğv edilmişdir.

Bizim fikrimizcə, Arpa toponimi tarixdə yaşamış Elxani tayfasından olan Arpanın (əsli Arpaqaun) adı[179] əsasında əmələ gəlmişdir.

---

[178] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31.

[179] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 156.

**Artalas** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda qədim tarixə malik olan kəndlərdən idi. Bu kənd Yelpin kəndindən qərbdə, Qozluca kəndinin yanında yerləşirdi. Kəndin adı 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol (Gəncə-İ.B.) qəzasının Dərələyəz sahəsinin yaşayış məntəqəsi kimi "Ardaraz" formasında qeyd edilmişdir.[180] Artalas kəndin adı erməni mənbələrində Artaras, Artaraz, Artarax, Artaraq,[181] rus dilli mənbələrdə Ardalas[182] formalarında qeyd edilmişdir. Kəndin adı Dərələyəz mahalının 1831-ci il kameral təsvirində "Ardaras kəndi", 1842-ci il kameral təsvirində "Ardaras kəndi" və "Ərdalas kəndi",[183] 1873-cü il kameral təsvirində "Ərdalas kəndi"[184] formalarında əksini tapmışdır. H.Mirzəyev yazır ki, kəndin adı Ardaraz olmuşdur.[185] B.Budaqov və Q.Qeybullayev Qırxbulaq mahalında Ardalas kəndinin olduğunu yazaraq qeyd etmişlər ki, kəndin adının yerli tələffüzü Ardaraz olmuşdur.[186] Lakin kitabda bu kəndin hansı rayonun inzibati ərazi bölgüsünə

---

180 İ. Bayramov, N. Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

181 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:501.

182 Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №791

183 N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 92, 180.

184 N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 98.

185 H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 124.

186 B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 126.

daxil olduğu göstərilməmişdir. Artalas kəndində 1831-ci ildə 30 nəfər, 1873 - cu ildə 219 nəfər, 1886-cı ildə 304 nəfər, 1897-ci ildə 332 nəfər, 1904 -cü ildə 353 nəfər, 1914 - cü ildə 388 nəfər, 1916- cı ildə 507 nəfər yalnız azərbaycanlı yaşamışdır.[187]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə deportasiya olunmuşlar. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma yurdlarına dönə bilmişlər. Artalas kəndində 1922-ci ildə 114 nəfər, 1926-cı ildə 120 nəfər, 1931- ci ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır.[188]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən kəndin sakinləri 1946-1949-cu illərdə Azərbaycanın Saatlı rayonuna köçrülmüşdür.[189] Artalas yaşayış məntəqəsi kimi 1949-1950-ci illərdə ləğv edilmişdir.

H.Mirzəyev toponimin Ardaraz formasına əsaslanaraq göstərir ki, toponim qədim türk dilində "dağlıq", "dağ", "dağ

---

[187]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 160-161.

[188]Yenə orada, s. 91, 161.

[189] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 124.

keçidi" mənası bildirən ard sözündən və Araz çay adından əmələ gəlmişdir.[190]

M.Hüseynova toponimin Ardaraz fonetik formasını əsas götürərək yazır ki, iki türk-Azərbaycan mənşəli sözlərin qovuşması, çarpazlaşması yolu ilə yaranmış Ardaraz toponiminin tarixi çox qədimdir. Ardaraz kəndi coğrafi cəhətdən Yelpin kəndi ilə Qozulca kəndinin arasında yerləşirdi.Tarixən Dərələyəz əhalisinin qışlaq yerlərindən olan Ardaraz oykonimi "Art//art" və "araz" leksik elementləri əsasında formalaşmışdır. "Art//art" sözü qədim türkcələrdə "dağlıq", "dağ", "aşırım", "dağ keçidi" mənalarını bildirmiş, "Araz" sözü isə qədim "çay" adını özündə əks etdirir[191].Apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, kəndin qədim adı Artalas olmuşdur.

Artalas toponimi türk dilində "dağlıq, dağ keçidi, təpə" mənasında işlənən art sözü ilə[192] türk dilində "açıq yer, tala" mənasında işlənən alas (əsli alan) sözünün[193] birləşməsindən əmələ gəlmişdir.

**Arxac** kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində yerləşirdi. Kənddə 1897-ci ildə 587 nəfər, 1926-cı ildə 80 nəfər azərbaycanlı yaşamışdır.[194] Ermənistan dövlətinin yeritdiyi milli ayrseçkiliyinin nəticəsində Arxac kəndi yaşayış məntəqəsi kimi XX əsrin 40-cı illərində ləğv edilmişdir. Arxac toponiminin semantikası ilə bağlı müxtəlif fikirlər söylənilmişdir.

---

190 H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 124.
191M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 45.
192 Древнетюркский словарь. Л.: Наука, 1969, с. 55
193Э.М.Мурзаев.Словарь народных географических терминов,М.: Мысль, 1984, с. 44-46.
194 Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 353.

B.Budaqov və Q.Qeybullayev[195] və H.Mirzəyevin[196] fikrincə, Arxac toponimi qədim türk dillərində "dağın arxası", "dağın gün düşməyən hissəsi", "quzey" mənasını bildirən arkaç sözündən əmələ gəlmişdir. M.Hüseynova Arxac toponiminin "dağın arxasında, gün düşməyən hissəsində salınmış kənd" mənası ifadə etdiyi qənaətindədir.[197] Əslində bu fikirlər bir o qədər də inandırıcı görünmür. Əvvəlcə, onu qeyd edək ki, B.Budaqov və Q.Qeybullayev Arxac toponiminin qədim türk dillərində "dağın arxası", "dağın gün düşməyən hissəsi", "quzey" mənasında işlənən arkaç sözündən düzəldiyini qeyd etmişlər. Mənbə kimi də V.V.Radlovun "Опыт словаря тюркских наречий" (СПб, 1893) əsərinin I hissəsinin I cildinin 291-ci səhifəsi göstərilmişdir. Həmin mənbədə arkaç sözü qədim türk dillərinə deyil, Osmanlı dilinə (türk dilinə) mənsub söz olduğu aydın şəkildə göstərilmişdir.[198] H.Mirzəyev yazır ki, Arxac kəndi əvvəllər qışlaq olmuşdur[199]. M.Hüseynova kəndin relyefi ilə bağlı göstərir ki, erkən orta əsrlərdən XI əsrə qədər Arxac yurdu Dərələyəz əhalisinin qışlaq yeri olmuşdur, lakin XV əsrdən sonrakı yüzilliklərdə bu yerdə yaşayış məntəqəsi salınmış, rayonlaşma dövründə Keşkənd (Keşişkənd-İ.B.) inzibati ərazi vahidliyinə daxil olunmuşdur.[200]

---

[195]B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 129.
[196] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 129.
[197]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 46.
[198] В. В.Радлов. Опыт словаря тюркских наречий, т. l, ч. 1, СПб, 1893, с. 201
[199] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 129.
[200]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 46.

Toponimin izahına elə bu kontekstdə yanaşdıqda belə qənaətə gəlirik ki, Arxac toponimi Azərbaycan dilində “qoyun, mal yatağı” mənasında işlənən arxac sözündən[201] əmələ gəlmişdir.

**Arxüstü** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qərbi Zəngəzurun Qafan rayonu ərazisində kənd olmuşdur. Kənd Qafan rayonundakı Yuxarı Girətağ kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır.[202]

XX əsrin əvvələrində, 905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənd arxın üstündə salındığı üçün kəndin relyefinə uyğun Arxüstü kəndi adlandırılmışdır.

**Aslan xaraba.** İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonu ərazisində olan yaşayış məntəqələrindən biri Aslan xaraba kənd adlanırdı. Yaşayış məntəqəsi Şahalı dəmiryolu stansiyasının yaxınlığında yerləşirdi. Azərbaycanlılara məxsus qəbiristanlığın xarabalıqları indi də qalmaqdadır.

Aslan xaraba **t**oponimi şəxs adı əsasında əmələ gəlmişdir.

**Atqız.** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi zəngəzurun Qafan rayonu ərazisində tarixi yaşayış məntəqələrində biri də Atqız kənd idi. Atqız kəndi Oxçu çayının sol sahilində, Oxçu kəndindən 2 km şimalda, Pir Həmzə dağının cənub-qərbində, Qafan-Gecalan avtomobil yolundan 2

[201] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 129.

[202] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55.

km şimalda, dağ döşündə yerləşirdi. Kəndin adı 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsinin yaşayış məntəqəsi kimi,[203] eyni zamanda Qafqazın 5 verstlik xəritəsində[204] qeyd edilmişdir. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə toponim Atkiz formasında əksini tapmışdır.[205]Atqız kəndində 1831-ci ildə 37 nəfər, 1873-cü ildə 105 nəfər, 1886-cı ildə 120 nəfər, 1897-ci ildə 242 nəfər, 1908-ci ildə 198 nəfər, 1914-cü ildə 36 nəfər azərbaycanlı yaşamışdır.[206]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-cı ildə tarixi-etnik torpaqlarında deportasiya olunmuşdur.

1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişlər. Atqız kəndində 1926-cı ildə 74 nəfər,1931-ci ildə 101 nəfər,[207] 1939-cu ildə 123 nəfər[208] azərbaycanlı yaşamışdır. Atqız kəndi 1959-cu ildə kənd Gecalan

---

203 İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

204 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 22.

205 B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı, Nafta-Press, 1998, s. 131.

206 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 132-133.

207 Yenə orada, s. 55, 133.

208 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 53.

şəhəri ilə birləşdirilərək Qafan rayonunun Kacaran şəhərinin[209] inzibati ərazisinə daxil edilmiş, 1980-ci ildə kənd ləğv edilmişdir.

B.Budaqov və Q.Qeybullayevin “Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti” əsərində göstərilmişdir ki, kəndin əhalisi 1988-ci ildə Azərbaycana qovulmuşdur.[210]

Əslində yuxarıda qeyd etdiyimiz kimi, kənd Kacaran şəhərinin inzibati ərazisinə daxil edilmiş, ayrıca yaşyış məntəqəsi kimi Qafan rayonunun kəndlərinin sırasından çıxarılmışdır. Araşdırma nəticəsində belə qənaətə gəlirik ki, Atqız toponimi türk dilində “dağlıq,dağ keçidi” mənasında işlənən art sözünün tələffüz forması olan at sözü ilə oğuz türk tayfa adının fonetik forması olan qız etnonimi əsasında formalaşmışdır.

**Atqoç** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda qədim kəndlərdən biri idi. Atqoç kəndi XIX əsrin əvvəllərində ləğv edilmişdir.Atqoç toponimi türk dilində “dağlıq,dağ keçidi” mənasında işlənən art sözünün tələffüz forması olan at sözü ilə “düşərgə” mənasında işlənən “koç, koş” sözünün[211] birləşməsindən əmələ gəlmişdir.

**Atdaş** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd olmuşdur.

Atdaş kəndinin adı İ.Şopenin əsərində Göyçə mahalında ləğv olunmuş kəndlərin siyahısında Atdaş,[212] Z.Qorqodyanın

---

[209]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:. 53.

[210]B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı, Nafta-Press, 1998, s. 131.

[211] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 55, 311.

[212] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 516.

kitabında Atdaş,[213] N.Əhmədlinin “Göyçə mahalının kameral təsviri” kitabında Göyçə mahalının boş kəndlər siyaısında At daşı[214] formalarında qeydə alınmışdır. Atdaş kəndi 1828-1830-cu illərdə ləğv edilmiş və kəndin yaxınlığında Qaraçı kəndi salınmışdır. Atdaş toponimi türk dilində “dağlıq, dağ keçidi” mənasında işlənən art sözünün[215] tələffüz forması olan at sözü ilə “dağ, qaya” mənasında işlənən daş sözü əsasında yaranmışdır.

**Avuş.** Yaşayış məntəqəsi kimi Avuş kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Arpa çayının sol qolu ilə Qabaqlı çayının yuxarı axarı arasında,[216] Gəlinqaya selavının yanında yerləşirdi. Avuş kəndi XIII əsrdə Amağu alban məbədinə tabe idi. Kəndin adı müxtəlif mənbələrdə n Ayuş[217] və Aveş[218] kimi də qeydə alınmışdır. Eyni zamanda Avuş kəndinin adına Qafqazın 5 verstlik xəritəsində rast gəlinir.[219] Dərələyəz mahalının 1842-ci il kameral təsvirinə əsasən kənddə 1842-ci ildə kişi cinsindən olan 29 nəfər yaşamışdır və kəndin adı “Havuş” fonetik formasında qeyd edilmişdir.[220] 1873-cü ildə 28

---

[213] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: XVI.
[214] N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1843-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 130.
[215] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 55..
[216] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 352.
[217] Yenə orada, s. 352.
[218] Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 802
[219] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 22.
[220] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 282-283.

ailə olmaqla 185 nəfər yaşamışdır və kəndin adı Havuş formasında əksini tapır.[221] Hər iki mənbədə kəndin sakinlərinin şiə məzhəbindən olan tatarların (azərbaycanlıların-İ.B.) yaşadığı göstərilir. Avuş kəndində XX əsrin əvvəllərində erməni mənbələrinə əsasən 50 azərbaycanlı evi olmuşdur.[222]

XX əsrin ortalarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Avuş toponimi qədim afşar etnonim[223] əsasında əmələ gəlmişdir. Avşar etnonimi ədim qaynaqlarda aveş //auş formalarında da verilmişdir.[224]

**Axtacul** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində kənd olmuşdur[225]. Kənd Gomur kəndinin yaxınlığında yerləşirdi. İndi ləğv edilib, xaraba kənddir. Axtacul toponimi padar tük tayfasının bir qolu olan axta etnonimi ilə[226] çul (çol//sul) qədim türk tayfa adının[227] birləşməsindən əmələ gəlmişdir.

---

[221]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 101.

[222]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 352.

[223] M.Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər),I c., Bakı: Ozan, 2006, s. 128.

[224] E. Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 16.

[225]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:123.

[226]Г.Гейбуллаев.ТопонимияАзербайджана(историкоэтнографическое исследование), Баку: Элм, 1986, с. 57.

[227] Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 111-114; H.Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997, s. 190-194.

**Açıxlı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonunda tarixi yaşayış məntəqələrdən biri olmuşdur. Açıxlı kəndi rayon mərkəzindən 5-6 km şimal-qərbdə, Qırqalası dağının ətəyində yerləşirdi. Kəndin adı X-XIII əsr erməni mənbələrində "Açağu vəng" formasında xatırlanır.[228] XX əsrə aid erməni mənbələrində toponim Açağu, Açaxlu, Acıllu, həmçinin Açıxlu formalarında da qeyd olunmuşdur.[229] Qafan rayonu ilə bağlı Azərbaycan dilində yazılmış kitablarda kəndin adı Açağu formasında göstərilir.[230] Açıxlı kəndində 1897-ci ildə 126 nəfər azərbaycanlı yaşamışdır.[231]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya edilmişdir. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma yerlərinə dönə bilmişdir.

---

[228] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:303.

[229] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:303;Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54.

[230] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı;Gənclik, 1995, s.133; M.Urud. Zəngəzur toponimləri, Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2013, s. 28.

[231] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:303.

Açıxlı kəndində 1926-cı ildə 98 nəfər, 1931-ci ildə 120 nəfər[232], 1939-cu ildə 165 nəfər 1959-cu ildə 186 nəfər, 1963-cü ildə 300 nəfər[233] azərbaycanlı yaşamışdır.

1950-ci illərdə Açıxlı kolxozu Şəhərcik kənd kolxozuna birləşdirilmiş, daha sonra kolxoz mülkiyyəti "Sünik" erməni sovxozuna verilmişdir. 1968-1969-cu illərdə azərbaycanlılar kənddən çıxarılaraq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

M.Urud kəndin adını erməni mənbələrdə qeyd edilmiş Açağu formasını əsas götürərək qeyd edir ki, kəndin adının mənası dəqiqləşdirilməmişdir. Haça dağ arasında yerləşən kənd mənasında olduğu güman edilir.[234]

Apardığımız araşdırma və kəndin relyefi əsasında belə qənaətə gəlirik ki, kəndin adı Azərbaycan dilində işlənən açıqlı sözündən əmələ gəlmişdir, yəni toponim relyef əsasında yaranmışdır.

Açıxlı toponimi iki hissədən ibarətdir: açıq+ lu. Toponimin kökü (açıx>açıq) və şəkilçisi (-lu>-li) Azərbaycan dilinə mənsubdur.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonunda xarabalığa çevrilmiş kəndlərdən biri **Acılu** kəndi adlanırdı.

Acılu kəndi rayon mərkəzindən 14 km şimal-qərbdə, Oxçu çayının sağ qolu olan Əfsərli çayının sağ sahilində yerləşirdi.

---

232 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55, 133.

233 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:303.

234 M.Urud. Zəngəzur (Elmi-publisistik nəşr), Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005, s. 312.

Erməni mənbələrində toponim Acılu, Acrlu, Acrli, Tunis Acilu formalarında qeyd edilir.[235] Acılu kəndində 1831-ci ildə 79 nəfər, 1873-cü ildə 134 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 126 nəfər, 1908-ci ildə 335 nəfər, 1914-cü ildə 100 nəfər azərbaycanlı yaşamışdır.[236] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qala bilən azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Acılu kəndində 1922-ci ildə 124 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 78 nəfər,[237] 1959-cu ildə 69 nəfər[238] azərbaycanlı yaşamışdır. XX əsrin ortalarında, daha doğrusu, 1950-ci illərin sonunda kəndin sakinləri qonşu Müsəlləm kəndinə köçürülmüş və 1960-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Acılu toponimi acurlu (>acılu) tük etnonimi[239] əsasında əmələ gəlmişdir.

---

[235] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:316.

[236] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 132-133.

[237] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55, 133.

[238] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:316.

[239] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 184; T.Ə.İbrahimov (Şahin). Qaşqaylar, Bakı: Elm, 1988, s. 92.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Meğri rayonunun ərazisində **Acılu** adlı kənd qeydə alınmışdır. Yaşayış məntəqəsi rayondakı Tey kəndinin yaxınlığında yerləşirdi. Kənd XVIII əsrin axırı, XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi ölü kənddir.[240]

Acılu toponimi acırlı türk etnoniminin adı[241] əsasında əmələ gəlmişdir.

**Aşağı ağ körpü** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[242] Yaşayış məntəqəsi rayondakı Qarakilsə kəndinin 95 km-liyində yerləşirdi.

Aşağı ağ körpü toponimi fərqləndirici əlamət bildirən aşağı sözü ilə ağ və körpü sözlərindən əmələ gəlmişdir.

İrəvan xanlığının Göycə mahalında, indiki Kəvər (Kamo) rayonu ərazisində qədim tarixə malik olan kəndlərdən biri də **Aşağı Altuntaxt** kəndi adlanırdı. Yaşayış məntəqəsi kimi Aşağı Altuntaxt kəndi XVIII əsrdə ləğv edilmişdir[243].

N.Əhmədli Göyçə mahalının 1831-ci il kameral təsvirində Göyçə mahalının boş kəndlərinin tərkibində Kiçik Altuntaxt (Aşağı Altuntaxt-İ.B.) kəndinin də adını çəkir.[244] İ.Şopenin

---

[240]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:316.

[241] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 184.

[242]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 5.

[243]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:79.

[244] N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1843-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 130.

əsərində,[245] Z.Qorqodyanın kitabında[246] Göyçə mahalında ləğv olunmuş kəndlərdən birinin Aşağı Altuntaxt kəndinin olduğu göstərilmişdir.

Onu əlavə edək ki, Aşağı Altuntaxt kəndi ilə Kiçik Altuntaxt kəndi eyni kənddir. Yaşayış məntəqəsi kimi Aşağı Altuntaxt kəndi 1828-1830-cu illərdə ləğv olunmuşdur. Indi ölü kənddir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində göstərilir ki, 1828-1832-ci illərdə Aşağı Altuntaxt kəndindən Azərbaycan türkləri qovulmuş və ermənilər yerləşdirilmişdir.[247] Əslində Aşağı Altuntaxt kəndindən azərbaycanlılar qovulandan sonra kənddə yaşayış olmamamış və kənd xarabalığa çevrilmişdir.

Aşağı Altuntaxt toponimi vulkan mənşəli qaya adlarında qırmızı mənasında işlənən altun sözü ilə "dağın zirvəsində hamar, düzən yer" mənasında işlənən taxt sözünün[248] birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki aşağı sözü fərqləndirici əlamət bildirir.

**Aşağı Bədili.** Bu kənd İrəvan quberniyasının İrəvan qəzasında, indiki Talin rayonu ərazisində yerləşirdi. 1918-ci ildə

---

245 И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 516.

246 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: XVI.

247 B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 129.

248 Э.М.Мурзаев.Словарь народных географических терминов, М., Мысль, 1984, с. 547; S.Mirmahmudova. Ermənistanda türk mənşəli yer adları, Bakı: Yazıçı, 1995, s. 5.

yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Kənd 1920-ci ildə ləğv edilmişdir.

Aşağı Bədili toponimi Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən aşağı sözü ilə oğuzların bəydili **(əsli bəgtili)** etnoniminin[249] fonetik forması olan bədili tayfa adı əsasında əmələ gəlmişdir.

**Aşağı Qaraqala** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Varansovka (Kalinino) rayonunda yaşayış məntəqəsi kimi qədim tarixə malikdir. Varansovka (Kalinino) rayonundakı Aşağı Qaraqala kəndi 1930-cu ildən sonra rayonun Yuxarı Qaraqala kəndi ilə birləşdirilmiş və bunun nəticəsində Qaraqala kəndi yaradılmışdır. Aşağı Qaraqala kəndi 1937-ci ilədək, Kalinino rayonunun yaranmasına kimi, Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Aşağı Qaraqala kəndi Yuxarı Qaraqala kəndi ilə birləşdirilənədək kameral siyahıyaalınmaları ayrıca olaraq aparılmışdır. Belə ki Aşağı Qaraqala kəndində 1926-cı ildə 135 nəfər, 1931-ci ildə 71 nəfər azərbaycanlı yaşamışdır.[250]

Aşağı Qaraqala toponimi kəndin ərazisindəki qara daşdan tikilmiş albanlara məxsus qala adından yaranmışdır. Toponim linqvistik baxımdan türk dilində rəng mənasında işlənən qara

---

[249]M.Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 128.

[250]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 78-79, 148-149.

sözü ilə qala sözündən əmələ gəlmişdir. Toponimin əvvəlindəki aşağı sözü fərqləndirici əlamət bildirir.

**Aşağı Qulubəyli** kəndi İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində azərbaycanlılara məxsus qədim tarixə malikdir. Yaşayış məntəqəsi Böyük Qarasu çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[251]

Aşağı Qulubəyli kəndində 1873-cü ildə 298 nəfər, 1886-cı ildə 421 nəfər, 1897-ci ildə 501 nəfər, 1904-cü ildə 718 nəfər, 1916-cı ildə 550 nəfər yalnız azərbaycanlı yaşamışdır.[252]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə xaricdən köçürülən yezidi kürdlər yerləşdirilmişdir. Sonralar kürdlər də kənddə çıxarılmış, nəticədə yaşayış məntəqəsi kimi Aşağı Qulubəyli kəndi 1940-cı ildə ləğv edilmişdir.

Aşağı Qulubəyli toponimi fərqləndirici əlamət bildirən aşağı sözü ilə -li şəkilçisi qəbul etmiş Qulubəy şəxs adı əsasında əmələ gəlmişdir.

**Aşağı Ərmik** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Kənd Vedi çayının aşağı axarında, Axissu bulağının yanında yerləşirdi. Aşağı Ərmik kəndinin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə

---

[251] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 147.

[252] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

Ərmük[253], Irəvan əyalətinin 1842-ci il kameral təsvirində, Qafqazın 5 verstlik xəritəsində Ərmik formasında[254] qeyd edilmişdir. İrəvan əyalətinin 1842-ci il kameral təsvirində, Aşağı Ərmik toponimi 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Şərur sahəsinin Vedibasar nahiyəsinin toponimlərdən biri Ərmik formasında əksinin tapmışdır.[255] Aşağı Ərmik kəndində 1877-cı ildə 312, 1897-ci ildə 192, 1906-cı ildə 156 nəfər azərbaycanlı yaşamışdır.[256] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistan adlanan ərazidə sovet hakimiyyəti qurulandan sonra kəndin keçmiş sakinlərindən sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1926-cı ildə 21 nəfər azərbaycanlı yaşamışdır.[257]

---

253 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 58.

254 N.Əhmədli. İrəvan əyalətinin kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019, s.247;Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 19.

255 İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 22.

256 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:220.

257 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1948-1949 - cu illərdə Azərbaycana köçrülmüş və kənd 1949 - cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev Aşağı Ərmik toponimini Ərmik toponimi əsasında izah edərək yazırlar ki, Ərmik türk dillərində arım-"çuxur", "çökək", ik "küləksiz, sakit, gizli yer", "sığınacaq", "çayın aşağı axarı" sözlərindən əmələ gəlmişdir.[258]

Ə.Ələkbərlinin fikrincə, kəndin adı əvvəlcə Ərmanqu olmuş, sonra Ərmuk şəklinə düşmüşdür. Kəndin adının muğlar tayfasınının adından və ya qədim türk dillərində abidə, yazılı daş abidə mənasını bildirən manqu // məngü sözündən, Manqu xanının adından, ola bilsin manqut türk tayfasının adında əmələ gələ bildiyini ehtimal edir.[259]

**Aşağı Kəhriz** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. Kənddə 1897-ci ildə 40 nəfər azərbaycanlı yaşamışdır.[260]

---

258 B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 138, 256.
259 Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 176.
260 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51.

XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Aşağı Kəhriz toponimi fərqləndirici əlamət bildirən aşağı sözü ilə "yeraltı su yolu, su kəməri" mənasında işlənən kəhriz sözündən[261] əmələ gəlmişdir.

**Aşağı Gəzbin** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonunun tabeliyindəki kəndlərdən biri idi. Yaşayış məntəqəsi kimi Aşağı Gəzbin kəndi 1926-cı ildə ləğv edilmişdir.

Aşağı Gəzbin toponimi fərqləndirici əlamət bildirən aşağı sözündən, Azərbaycan dilində "gədiyin ən alçaq yeri", [262] "keçid, dağın təpəsindəki çökək, dağ çökəyi" mənasında işlənən gəz sözü ilə,[263] "köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskan saldıqları yer, yurd, köç",[264] "yaşayış yeri, kənd, köç yeri, dayanacaq, heyvan saxlanan yer" mənasında işlənən binə sözünün[265] birləşməsindən əmələ gəlib "gəzdəkdə olan yaşayış məntəqəsi" mənasını ifadə edir.

**Aşağı Güllüdüz** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda qədimdən azərbaycanlıların yaşadığı kənd idi. Aşağı Güllüdüz kəndində 1873-cü ildə 115 nəfər, 1886-cı ildə 217 nəfər, 1904-cü ildə 151 nəfər, 1914-cü ildə 166 nəfər, 1916-cı ildə 407 nəfər yalnız

---

[261] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 62.

[262] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 126 .

[263]Э.М.Мурзаев.Словарь народных географических терминов,М., Мысль, 1984, с. 167.

[264] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 273.

[265]Е.Бушуева.Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 37.

azərbaycanlı yaşamışdır.[266] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Ancaq 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişlər. Aşağı Güllüdüz kəndində 1922-ci ildə 142 nəfər, 1926-cı ildə 31 nəfər, 1931-ci ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır.[267] 1959-cu ildə rayondakı Aşağı Güllüdüz kəndi Yuxarı Güllüdüz kəndi ilə birləşdirilərək Güllüdüz kəndi yaradılmışdır.

Aşağı Güllüdüz toponimi fərqləndirici əlamət bildirən aşağı sözündən və "güllü, çiçəkli" mənasında işlənən güllü sözünə Azərbaycan dilində "enişi, yoxuşu, çuxuru, təpəsi olmayan" mənasında işlənən düz sözünün birləşməsindən əmələ gəlmişdir. H.Mirzəyev Güllüdüzü toponiminin mənşəyi üzərində dayanaraq onu rəvayət əsasında Gülü şəxs adı ilə əlaqələndirmişdir.[268]

M.Hüseynova Gülüdüzü toponiminin mənşəyi ilı bağl ızahı elmi əsaslara söykənir: ".ermənilər Dərələyəz kəndlərinin sayını azaltmaq məqsədi ilə həmin kəndi (Aşağı Güllüdüz kəndi -İ.B.) 1930-cu ildə Yuxarı Gülüdüzü kəndi ilə birləşdirilmişdir. Gülüdüzü kəndinin həm də böyük və qədim qəbirstanlığı da var idi ki, burada da tarixən mövcud olmuş qoç daş heykəllər sovetlər

---

[266] Ջ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.
[267] Yenə orada, s. 93, 161.
[268] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 235.

dönəmində ermənilər traktorların ağzına verib torpaq altında basdırmışlar.

Gülüdüzü yaşayış məntəqə adını Gülü adlı şəxsin düzdə saldığı kənd anlamında izah etmək özünü doğrultmur, bizim fikrimizcə, kənd tarixən yerləşdiyi, binə etdiyi ərazi həddən çox güllü, çiçəkli olduğu üçün toponimə belə ad verilmişdir. Həqiqətən də, Ələyəz dərəsi ilin əksər fəsillərində müxtəlif gül və çiçəklərlə zəngin bir yer olmuşdur."[269]

**Aşağı Çanaxçı** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda, Ordun çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[270] Yaşayış məntəqəsi kimi Aşağı Çanaxçı kəndi XX əsrin əvvəllərində ləğv edilmişdir.

Aşağı Çanaxçı toponimi çanaxçı türk tayfasının[271] adı əsasında əmələ gəlmişdir. Toponimin əvvəlində işlənən aşağı sözü fərqləndirici əlamət bildirir.

**Aşağı Şipirxan** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində yaşayış məskəni kimi mənbələrdə qeyd edilmişdir. Aşağı Şipirxan kəndi Ayrım kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 31 nəfər azərbaycanlı yaşamışdır. 1930-cu illərdə azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Aşağı Şipirxan toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

---

[269]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 21-22.

[270]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 279.

[271] Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26,s. 88.

**Aşağı Şəhərcik** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonu ərazisində yerləşirdi.

XIX əsrin 30-cu illərində Qafan minbaşlığına tabe olmuş Şəhərcik adında qeyd edilmişdir və həmin dövrdə Şəhərcikdə 14 ailə yaşamışdır.[272]

Kəndin adı 1847-ci il "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsinin yaşayış məntəqəsi kimi Şəhərcik kəndinin adı qeyd edilmişdir.[273] Aşağı Şəhərcik kəndində 1897-ci ildə 155 nəfər azərbaycanlı yaşamışdır.[274] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ermənilərlə azərbaycanlılar arasında baş verən savaşın nəticəsində kəndin köklü sakinləri olan azərbaycanlılar deportasiya olunmuşdur. Aşağı Şəhərcik kəndi Yuxarı Şəhərcik kəndi ilə birləşdiriləərəkQafan rayonunun inzibati ərazi vahidi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Kəndin adı toponim yaradıcılığında fərqləndirici əlamət bildirən aşağı sözü ilə cavanşir türk tayfasına mənsub olan şəhərcik etnonimi[275] əsasında əmələ gəlmişdir.

**Aşirabad** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Nairi rayonu ərazisində azərbaycanlılara məxsus qədim kəndlərdən biri olmuşdur. Aşirabad kəndi rayondakı Ərzini

---

[272] N.Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cüillər. Bakı: Elm və təhsil, 2021, s. 27.

[273]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 30.

[274]Զ.Կորկոտյան.Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 59-60.

[275]Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, s. 73.

kəndinin yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[276]

Nairi rayonu təşkil edilənədək (15 mart 1972) kənd Əştərək rayonunun tərkibində olmuşdur.

Aşirabad kəndində 1873-cü ildə 136 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 162 nəfər, 1908-ci ildə 180 nəfər, 1914-cü ildə 281 nəfər, 1916-cı ildə 277 nəfər yalnız azərbaycanlı yaşamışdır.[277]

Aşirabad kəndində 1918-ci ilə kimi yalnız azərbaycanlılar yaşasa da, tarixi həqiqət təhrif edilərək "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə kənddə 1918-ci ilə kimi azərbaycanlı və ermənilərin yaşadığı göstərilir.[278] Halbuki Aşirabad kəndində azərbaycanlılarla ermənilər qarışıq şəkildə 1922-ci ildən yaşamağa başlamışlar.[279] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ilin əvvəllərində kəndə ermənilər köçürülmüşdür. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddə yaşamış azərbaycanlılardan sağ qalanlar öz ata-baba yurdlarına dönə

---

[276] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 24.

[277] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[278] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:290.

[279] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 107.

bilmişdir. Aşirabad kəndində 1922-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır.[280] 1926-1930-cu illərdə azərbaycanlılar zorla kənddən köçürülmüş və yaşayış məntəqəsi kimi Aşirabad kəndi 1950-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Aşirabad toponimi tayfa mənasında işlənən əşirət sözü ilə (əşirət sözündəki -ət şəkilçsi ixtisar edilmişdir) "şəhər, kənd, yaşayış yeri" mənasında işlənən abad sğzündən[281] əmələ gəlmişdir.

**Bağırbəyli** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, indiki Qərbi Zəngəzurun Gorus rayonunun inzibati ərazisində olan yaşayış məntəqəsidir. Bağırbəyli kəndi rayon mərkəzindən 21 km cənub-şərqdə yerləşirdi.[282] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[283] Bağırbəyli kəndində 1907-ci ildə 836 nəfər azərbaycanlı yaşamışdır.[284]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından qırğınlarla qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.Bağırbəyli toponimi

---

[280] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 107.
[281] Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 36.
[282] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:574.
[283] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 27.
[284] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:574.

Bağırbəy şəxs adına mənsubluq bildirən -li şəkilçisinin artırılması ilə əmələ gəlib "Bağırbəyə mənsub kənd" mənasını bildirir.

**Bağçalı** kəndi İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonun ərazisində yerləşirdi. Bağçalı kəndində 1886-cı ildə 162, 1897-ci ildə 240, 1905-ci ildə 277, 1914-cü ildə 236 nəfər azərbaycanlı yaşamışdır.[285] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-1920-cı illərdə azərbaycanlılar kənddən qovulmuşlar. Azərbaycanlılar qovulduqdan sonra kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Bağçalı toponimi bağça sözünə -lı şəkilçisi artırılmaqla yaranmış fitotoponimdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində tarixi azərbaycanlı kəndlərdən biri də **Bağçacıq** kəndi adlanırdı. Dərələyəz mahalının 1831-ci il kameral təsvirində Dərələyəz mahalında baxımsız boş qalan kəndlərdən biri də Bağçacıq kəndi olmuşdur və Bağçacıq kəndi Çivə və Qozluca kəndlərinin yaxınlığında,[286] Horbadığ kəndinin şimal-qərbində yerləşirdi.

Kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəfətəri"ndə qeyd edilmiş və illik gəliri 2.019 ağçadan ibarət olmuşdur.[287] İndi xaraba kənddir.

---

[285] Ջ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 18-19, 102-103.

[286] N. Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 152.

[287] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 57.

Bağçacıq toponimi bağça sözünə Azərbaycan dilində kiçiltmə mənası bildirən **-**cıq şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

Qərbi Azərbaycanda urbisidə və etnosidə uğramış kəndlərdən biri də **Bağçacıq** kəndidir. Bağçacıq kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunun ərazisində, Vedi rayonunun mərkəzindən 22-23 km şimal-şərqdə, Vedi çayının yanında yerləşirdi. Bağçacıq kəndi 1937-1948-ci illərdə sakinləri azərbaycanlılardan ibarət olmuşdur.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarlarının nəticəsində ləğv edilmiş Qarabağlar rayonunun inzibati ərazisinə daxil edilmişdir. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə,[288] 1847-ci ildə Tiflisdə çap olunmuş Qafqaz diyarının xəritəsində,[289] Qafqazın 5 verstlik xəritəsində[290] qeyd edilmişdir. Bağçaçıq kəndində 1873-cü ildə 236, 1886-cı ildə 361, 1897-ci ildə 373, 1904-cü ildə 618, 1914-cü ildə 680, 1916-cı ildə 455 nəfər[291]

---

[288] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 179.

[289] İ.Bayramov, N. Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 22.

[290] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 33.

[291] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbacanlılar 1918-1919-cu illərdə tarixi-etnik torpaqlarından qırğınlarla qovulmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi məcburi tərk etmiş azərbaycanlılardan sağ qalanlar geri, öz kəndlərinə dönə bilmişlər. Bağçaçıq kəndində 1922-ci ildə 88 nəfər, 1926-cı ildə 130 nəfər, 1931-ci ildə 162 nəfər,[292] 1939-cu ildə 270 nəfər[293] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kənddə yaşayan azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüş və kənd yaşayış məntəqəsi kimi 1959-cu ildə ləğv edilmişdir[294]. İndi xaraba kənddir.

---

[292] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 85, 155.

[293] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 221.

[294] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:577.

Bağçaçıq toponimi bağça sözünə Azərbaycan dilində kiçiltmə mənası bildirən **-**cıq şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

**Batar** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kənd dağlıq yerdə, Minçay çayının sağ sahilində yerləşirdi. Fikrimizcə, Batar toponimi qayı türklərinə mənsub olan padar (>batar) tayfasının[295] adı əsasında əmələ gəlmişdir.

**Bazarkənd** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı XV əsrdə xatırlanır. “Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti”ndə qeyd edilir ki, kənd haqqında ilk məlumat 1488-1489-cu illərdə verilmişdir.[296] Bazarkənd kəndi rayondakı Bazarçay kəndinin yaxınlığında, Bazarçay çayının yuxarı axarında yerləşirdi. Tatev kilsəsinin 1781-ci il vergi siyahısında bu kənd haqqında məlumat vardır. Bazarkənd kəndi yaşayış məntəqəsi kimi XIX əsrin II yarısında ləğv edilmişdir. Ləğv edilmiş Bazarkənd kəndinin yaxınlığında Bazarçayın sahilində Çar Rusiyasından köçürülmüş malakanlar 1877-ci ildə yeni yaşayış məntəqəsi salmış və həmin kəndi Bazarçay çayınm sahilində salındığı üçün Bazarkənd adlandırmışlar. Yəni Bazarkənd kəndinin adı Bazarçay çayının adından götürülmüşdür.[297] B.Budaqov və Q.Qeybullayev birgə yazdıqları lüğətdə qeyd edirlər ki, Bazarkənd toponimində

[295]Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 48.

[296]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:543.

[297]Yenə orada, s.:543.

"bazar" sözü ehtimal ki,"alış-veriş yeri" mənasındadir.[298] Araşdırmalar nəticəsində belə qənaətə gəirik ki, toponim türk mənşəli bazar (əsli basar) etnoniminə[299] kənd coğrafı nomeninin birləşməsindən əmələ gəlib "bazar tayfasına mənsub kənd", "bazar tayfasının yaşadığı kənd" mənasını ifadə edir.

Bazar tayfası kalmık, qırğız və qaraqalpaqlan tərkibində olmuş və XVII əsrdə Qərbi Sibirdə yaşamışdır.[300]Azərbaycan toponimiyasında "bazar" sözü ilə düzələn toponimlərin izahında müxtəlif fikirlər söylənilmişdir.

T.Əhmədov "bazar" sözünün toponimlərin həm əvvəlində, həm də sonunda işləndiyini qeyd edərək yazır: "...bazar sözü mürəkkəb toponimin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın I komponenti, "alver, ticarət yeri" mənasında işləndikdə isə onun II komponenti yerində işlənir".[301]

E.Nuriyev, əsasən, "bazar" sözünü etnonim hesab edir və fikrini Azərbaycan, Türkiyə, Gürcüstan və Zəngəzur qəzasında (indiki Ermənistan ərazisində) "bazar" sözü ilə formalaşan toponimlər əsasında izah edir.[302] Bununla belə E.Nuriyev "bazar" sözü ilə düzələn toponimlərin hamısını etnotoponim hesab etmir və konkret olaraq Zaqatala rayonunun qərbində

---

[298]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 144.

[299]Г.А.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 61

[300]T.M.Əhmədov. El-obamızın adları, Bakı: Gənclik, 1984, s. 31; Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку, 1986, с. 61.

[301] T.M.Əhmədov. El-obamızın adları, Bakı: Gənclik, 1984, s. 31.

[302] E. Nuriyev. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası, Bakı: Elm, 1989, s. 45

tarixən mövcud olmuş Əski Bazar toponiminin "köhnə bazar" mənası verdiyini göstərir.[303]

Rus dilli tədqiqatçılardan E.M.Murzayev[304] və E.N.Buşuyevanın[305] fikrincə, "bazar" sözü toponimlərin tərkibində "alver, ticarət yeri" mənasında işləndiyini qeyd etməklə, əsil həqiqətin üzərinə gölgə salırlar.

Q.Qeybullayev göstərir ki, "bazar" sözü toponimlərin tərkibində həm "alver, alış-veriş yeri", həm "geniş sahə", "düz sahə", həm də türk mənşəli etnonim kimi iştirak edir.[306] Lakin Q.Qeybullayevin fikrindən tam aydın olmur ki, "bazar" sözü nə vaxt "alış-veriş yeri", nə vaxt coğrafi termin, nə vaxt etnonim kimi iştirak edir.

S.Mirmahmudova indiki Ermənistanın türk mənşəli toponimləri ilə bağlı yazdığı lüğətdə "bazar" komponentli toponimlərdən də bəhs etmiş və Bazarçay (Qarakilsə), Bazarcıq (Abaran), Bazarxana (Ani), Basarkeçər (Vardenis) toponimlərinin "bazar" tayfa adı əsasında yarandığını qeyd etmişdir.[307]

"Azərbaycan toponimlərı" ensiklopedik lüğətdə "bazar" komponentli bütün toponimlər mənaca etnotoponim hesab edilir

---

[303] E. Nuriyev. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası, Bakı: Elm, 1989, s. 44.

[304] Э.М.Мурзаев. Словарь народных географических терминов, М., Мысль, 1984, с. 63.

[305] Е.Н.Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 31

[306] Г.А.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку, 1986, с. 60-61.

[307] S. Mirmahmudova. Ermənistanda türk mənşəli yeradları,Bakı; Yazıçı, 1995, s. 29-47.

və bir mənalı şəkildə göstərilir ki, "bazar" sözü qıpçaq mənşəli bazar etnonimini əks etdirir.[308]

Burada bir məsələnin üzərində də dayanmaq istərdik. Q.Qeybullayev "Топонимия Азербайджана" əsərində Bazardüzü toponiminin tərkibində "bazar" sözünün "yastı, düz sahə", "geniş sahə" mənasında işləndiyi qənaətində olmuşdur.[309] "Azərbaycan toponimləri" lüğətində isə həmin toponiminin tərkibində "bazar" sözünün qıpçaq mənşəli bazar tayfa adı mənasında işləndiyi göstərilir.[310]

Bizcə, Bazardüzü toponiminin "Azərbaycan toponimləri" lüğətindəki izahını daha doğru, məntiqi hesab edirik. Bazardüzü toponiminin I komponentindəki "bazar" sözünü "yastı, düz sahə", "geniş sahə" mənası verən coğrafı termin hesab etsək, onda toponimin "yastı sahənin düzü", "düz sahənin düzü", "geniş sahənin düzü" mənası verdiyini görərik. Bu da təbii ki, mənasız bir izahdır.

Yuxarıda deyilənləri ümumiləşdirərək bu qənaətə gəlirik ki, "bazar" sözü toponimlərin tərkibində, əsasən, etnonim vəzifəsində iştirak edir. Deməli, Zəngəzur mahalının keçmiş Qarakilsə (Sisyan) rayonu, indi Syunik vilayəti ərazisindəki Bazarkənd toponimi bazar etnonimi əsasında formalaşmışdır. Qarakilsə (Sisyan) rayonu, indi Syunik vilayəti ərazisindəki Bazarkənd toponim türk mənşəli bazar etnoniminə[311] kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlib "bazar tayfasına

---

308 Azərbaycan toponimləri. Ensiklopedik lüğət, Bakı:Azərbaycan Ensiklopediyası, 1999, s. 62-63.
309 Yenə orada, s. 60.
310 Yenə orada, s 62.
311 Г.А.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку, 1986, с. 61.

mənsub kənd”, “bazar tayfasının yaşadığı, məskunlaşdığı ərazidəki kənd” mənasını ifadə edir.

**Bəydağ** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi zəngəzurun indiki Qafan rayonunda kənd olmuşdur. Bəydağ kəndi rayon mərkəzindən 5 km şərqdə, Oxçu çayının sol sahilində yerləşirdi.

Bəydağ kəndində 1831-ci ildə 13 nəfər, 1873-cü ildə 51 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 118 nəfər, 1904-cü ildə 193 nəfər, 1914-cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır.[312]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd sakinləri 1918-ci ildə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra, kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar 1923-1924-cü illərdə doğma yurdlarına dönə bilmişdir.

Bəydağ kəndində 1926-cı ildə 28 nəfər, 1931-ci ildə 32 nəfər,[313] 1939-cu ildə 37 nəfər[314] azərbaycanlı yaşamışdır.

Kənd 1959-cu ildə Qafan şəhərinə birləşdirilmiş, ayrıca yaşayış məntəqəsi kimi adı Qafan rayonunun inzibati ərazi vahidlərinin tərkibindən çıxarılmışdır. Sonralar kəndin keçmiş

---

[312] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 134-135.

[313] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55,135.

[314] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:588.

sakinləri, yəni bəydağlılar Qafan şəhərinin sakinləri kimi siyahıya alınmışdır.

Bəydağ toponimi Azərbaycan dilində "hündür, böyük dağ" mənasında işlənən bəy (<bək) sözü ilə[315] dağ sözünün birləşməsindən əmələ gəlib, "hündür, böyük dağ" yaxınlığında kənd" mənasını ifadə edir. Onu da əlavə edək ki, bəy sözü qədim türk dilində bək formasında "təpə" mənasında işlənmişdir. Bəy sözü toponimlərin əvvəlində işlənərkən "hündür, böyük dağ", "təpə", sonunda işlənərkən"ağa", "varlı adam" mənasını ifadə edir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində **Bayraməli qışlağı** kənd olmuşdur. Bayraməli qışlağı kəndi Alagöl dağının cənubunda yerləşirdi. Kəndin adı erməni mənbələrində Bayraməli,[316] Bayraməli kəndi formasında da qeyd edilir[317].

Bayraməli qışlağı kəndində 1873-cü ildə 53 nəfər, 1886-cı ildə 87 nəfər, 1897-ci ildə 132 nəfər, 1908-ci ildə 82 nəfər, 1916-cı ildə 100 nəfər yalnız azərbaycanlılar və əcəmi (müsəlman) kürdlər yaşamışdır.[318]

---

[315] Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 468; Е.Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 35.

[316] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 106.

[317] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:591.

[318] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci illərin sonunda kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Bayraməli qışlağı toponimi Bayraməli şəxs adı ilə "yaşayış məntəqəsi" mənasını bildirən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində **Bakər** adlı kənd olmuşdur. Kənd rayondakı Aşağı Çəmbərək kəndindən 2 km cənub-qərbdə yerləşirdi. İndi xaraba kənddir. Evlərin və kənd qəbiristanlığının uçuq divarları indi də durur.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda azərbaycanlıların tarixən yaşadığı yaşayış məntəqələrindən biri də **Bala zağa** kənd olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Zağa formasında qeyd edilmişdir[319]. Bala zağa kəndində 1897-ci ildə 178 nəfər azərbaycanlı yaşamışdır[320]. XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar kənddən deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Bala zağa toponimi "kiçik" mənasında işlənən bala və "mağara, kaha" mənasında işlənən zağa sözlərinin birləşməsindən əmələ gəlmişdir.

---

[319] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 94.

[320] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında **Baltaçay** azərbaycanlı kəndi olmuşdur. Yaşayış məntəqəsi Dilican şəhəri yaxınlığında yerləşirdi. 1959-cu ildə kəndin ərazisi Dilican şəhərinə birləşdirilərək ayrıca yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Baltaçay toponimi türk mənşəli balta etnoniminə[321] çay sözünün birləşməsi nəticəsində əmələ gəlib.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda **Baraxlı** kəndi adında yaşayış məntəqəsi Baraxlı yaşayış məntəqəsi rayon mərkəzindən 30 km şimalda, Tona (Debet) çayının sahilində yerləşirdi. Yaşayış məntəqəsi Ləmbəli sovetliyinin tərkibində olmuşdur. Kəndin köklü sakinləri yalnız azərbaycanlılar olmuşdur. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır.[322] Baraxlı 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmiş, azərbaycanlılar buradan köçürülmüşdür.

Baraxlı toponimi türk mənşəli barak tayfasının[323] adı əsasında əmələ gəlmişdir. -lı mənsubluq bildirən şəkilçidir. Baraxlı toponiminin mənası “barak tayfasına məxsus yer” deməkdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində **Batar** kəndi olmuşdur. Kənd dağlıq yerdə, Minçay çayının sağ sahilində yerləşirdi.

---

[321]Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историкоэтнографическое исследование), Баку: Элм, 1986, с. 60.
[322]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 67.
[323] Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafiya Birliyi, 1992, s. 16-17; А.Н. Кононов. Родословная туркмен. Сочинение Абул Гази хана Хивинского, М. Л.: АН СССР, 1958, с. 43, 45.

Batar toponimi qayı türklərinə mənsub olan padar (>batar) tayfasının adı[324] əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, XX əsrdən Qərbi Zəngəzurun Qafan rayonunda **Baharlı** kənd qeydə alınmışdır. Baharlı kəndi rayon mərkəzindən 24 km şimal-şərqdə, Kığı çayının sol sahilində yerləşir.

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[325] Baharlı kəndində 1831-ci ildə 28 nəfər, 1873-cü ildə 59 nəfər, 1886-cı ildə 61 nəfər, 1897-ci ildə 74 nəfər, 1904-cü ildə 132 nəfər, 1914-cü ildə 133 nəfər azərbaycanlı yaşamışdır.[326]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd 1918-ci ilin oktyabr-noyabr aylarında erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin keçmiş sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişdir.

Baharlı kəndində 1922-ci ildə 88 nəfər, 1926-cı ildə 93 nəfər, 1931-ci ildə 122 nəfər,[327] 1939-cu ildə 176 nəfər, 1959 - cu

---

[324]M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 48.

[325]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 27.

[326]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 134-135.

[327]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55, 135.

ildə 249 nəfər, 1970-ci ildə 380 nəfər, 1979-cu ildə 358 nəfər[328] azərbaycanlı yaşamışdır.

Kənd XX əsrin 50-ci illərin sonunda Kığı kəndi ilə birləşdirilir, daha sonra kəndin yerində Gecalan mis-molibden kombinatının su anbarı tikilərək kənd ləğv edilir.

Baharlı toponimi tarixən Zəngəzurda yaşayan baharlı türk tayfasının adı[329] əsasında formalaşmışdır.

Mənbələrdə Qərbi Zəngəzurda bir neçə **Baharlı** kəndi qeydə alınmışdır. Onlardan biri də Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində Baharl kəndi olmuşdur. Onu da qeyd edək ki, Qafan rayonunda iki Baharlı kəndi olmuşdur. Onlar yerləşdiyi relyefə, eləcə əhalisinin tərkibinə görə biri digərindən fərqlənir. Məhz bu baxımdan bu kəndəri qarışıq salmaq olmaz. Hər biri ayrı-ayrı kənddir.[330] Baharlı kəndi Basut çayının sağ sahilində yerləşirdi. Kənddə 1886-cı ildə 432 nəfər, 1907-ci ildə 455 nəfər azərbaycanlı yaşamışdır.[331]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-

---

[328] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:566.

[329] M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı:Azərnəşr, 1993, s. 48; Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886 с. 24.

[330] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:567.

[331] Yenə orada, s. 567.

azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Beləliklə, yaşayış məntəqəsi kimi Baharlı kəndi ləğv edilmişdir.

Baharlı toponimi Zəngəzurda yaşayan baharlı türk etnonimi[332] əsasında formalaşmışdır.

Qərbi Azərbaycanda erməni vandalizminin qurbanı olmuş **Baharlı kəndi** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indi Qarakilsə (Sisyan) rayonunda, Qarakilsə kəndindən şərqdə, Vağudi kəndinin yaxınlığında yerləşmişdir.Baharlı kəndində 1831-ci ildə 9 nəfər, 1873-cü ildə 41 nəfər, 1886-cı ildə 55 nəfər, 1897-ci ildə 124 nəfər, 1908-ci ildə 171 nəfər, 1914-cü ildə 49 nəfər azərbaycanlı yaşamışdır.[333] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri 1918-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Baharlı toponimi qədim qayı türk tayfasına mənsub olan baharlı etnonimi[334] əsasında əmələ gəlmişdir. Bu tayfa XVI əsrdə qızılbaşların tərkibində indiki Ermənistanın ərazisinə gəlmiş[335] və əsasən Zəngəzurda ya-

---

[332] M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 48.

[333] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

[334] M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı:Azərnəşr,1993,s.48;Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886 с. 24.

[335] И.П. Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., Л.: Ленинградского Университета, 1949, с. 92.

şamışlar.[336]

**Bahar bəyin bağları** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd olmuşdur. Kənd XIX əsrin əvvəllərində ləğv edilmişdir.

Bahar bəyin bağları toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu daxilində **Baş Abdalar** kəndi olmuşdur. Erməni mənbələrində kəndin adı Təzəgyuğ kimi də göstərilir.[337]. Burada 1897-ci ildə 143 nəfər yalnız azərbaycanlı yaşamışdır[338].

XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən deportasiya olunmuş, kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Baş Abdalar toponimi -lar cəm şəkilçisi qəbul etmiş qədim tük mənşəli abdal etnonimi[339] əsasında əmələ gəlmişdir. Toponimin əvvəlində işlənən "baş" sözü fərqləndirici əlamət bildirir.

Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində **Berd qalacıq** kəndi qeydə alınmışdır. Bu kənd XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının inzibati ərazisindəki kəndlərdən biri olmuşdur.

Berd qalacıq kəndi rayondakı Məliklər (Spandaryan) kəndinin yaxınlığında yerləşirdi. İndi xaraba kənddir.

---

[336] Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886 с. 24.

[337]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44.

[338] Yenə orada, s. 44-45.

[339]Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 59.

Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində qeyd edilmişdir ki, Berdi qalacıq kəndinin sakinləri xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Onlar əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Burada 112 nəfər müsəlman tatarları (azərbaycanlılar-İ.B.) yaşamışdır.[340]

Berd qalacıq toponim türk dilində "çətin keçilən yer" mənasında işlənən bert sözü ilə[341] kiçiltmə mənasını bildirən -cıq şəkilçisi qoşulmuş qala sözünün birləşməsindən əmələ gəlmişdir.

**Berdadağ** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazsində kənd kimi mənbələrdə qeydə alınmışdır. Berdadağ kəndi rayondakı Xaçik kəndindən 2 km cənub-şərqdə yerləşirdi. İndi xaraba kənddir. Toponim türk dilində "çətin keçilən yer" mənasında işlənən bert[342] sözü ilə dağ sözünün birləşməsindən əmələ gəlmişdir.

**Beybudabad** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonu ərazisində kənd olmuşdur. Kənd rayonun Təzəkənd (Ayntap) kəndinin yaxınlığında yerləşirdi. Kənd haqqında ilk məlumat 1465-1466-cı illərdə verilmişdir.[343] **Beybudabad** kəndi XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[340] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.134-135.

[341] О.Т.Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Саратовского Университета, 1982, с.239.

[342] О.Т.Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Саратовского Университета, 1982, с.239.

[343] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:235.

Beybudabad toponimi Beybud//Behbud şəxs adı ilə fars dilindən Azərbaycan dilinə keçmiş "yaşayış məntəqəsi, kənd" mənasını bildirən abad sözünün[344] birləşməsindən əmələ gəlmişdir.

**Berdi xaraba** kəndinə İrəvan quberniyasının Yeni Bayazid qəzasında,Göyçə mahalının indiki Kəvər (Kamo) rayonunda xaraba kənd olaraq mənbələrdə rast gəlinir. XIX əsrin axırlarına kimi kənddə müsəlmanlara məxsus dini məbədin qalıqları dururdu.

Berdi xaraba toponimi türk dilində "çətin keçilən yer" mənasında işlənən berd (<bert) sözü ilə[345] xaraba sözünün birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində **Bəybalı** kəndinin adı çəkilr. Yaşayış məntəqəsi Sofulu kəndinin şimalında yerləşirdi. XIX əsrin əvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Bəybalı toponimi şəxs adı əsasında əmələ gələn antropotoponimdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda azərbaycanlıların yaşadığı **Bəkdaş** kəndi Qafan rayonunun mərkəzindən şimal-şərqdə yerləşirdi. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində Beyxtaş formasında qeyd edilmişdir.[346]

---

344 Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 25.

345 О.Т. Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Саратовского Университета, 1982, с.239.

346 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 35.

Bəkdaş kəndində 1897-ci ildə 87 nəfər, 1907-ci ildə 100 nəfər,[347] 1914-cü ildə 230 nəfər[348] azərbaycanlı yaşamışdır. 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd 1918-ci ildə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişdir. Bəkdaş kəndində 1922-ci ildə 28 nəfər, 1926-cı ildə 25 nəfər, 1931-ci ildə 40 nəfər,[349] 1959-cı ildə 60 nəfər[350] azərbaycanlı yaşamışdır. XX əsrin 70-ci illərində kənddə yaşayan azərbaycanlılar ermənilərdən ibarət olan rayon rəhbərliyi tərəfindən sıxışdırılmış, müxtəlif təzyiqlərə məruz qalmışlar. Nəticədə 1973-cü ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.Bəkdaş toponimi qədim türk dilində "təpə, yüksəklik" mənasında işlənən bək[351] sözü ilə "dağ, qaya" mənasında işlənən daş sözündən əmələ gəlmişdir.

---

[347]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:648.

[348]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 134-135.

[349] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 55, 135.

[350]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:588.

[351] Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 468; Е.Н. Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 35.

**Bənövşəbuşt** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Meğri rayonu ərazisində kənd olmuşdur. Kənd rayon mərkəzindən 15-16 km şimalda yerləşirdi. Bənövşəbuşt kəndində 1914-cü ildə 28 nəfər azərbaycanlı yaşamışdır.[352]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Indi xaraba kənddir. B.Budaqov və Q. Qeybullayevin fikrincə, kəndin adı Bənövşə şəxs adından və farsca "təpə" mənasını bildirən puşta sözündən əmələ gəlmişdir.[353] Aparılan araşdırmalar nəticəsində məlum olur ki, kəndin adının əmələ gəlməsində Bənövşə şəxs adının əlaqəsi yoxdur.

Bənövşəbuşt toponimi bənövşə bitki adı ilə fars dilində "kiçik təpə" mənasında işlənən puştə sözündən[354] əmələ gəlb, "bənövşəlik təpə yanında olan kənd" mənasını bildirir.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonu ərazisində mövcud olmuş **Bəxtiyar** kəndi Dilican şəhəri yaxınlığında, Ağstafa çayının sağ sahilində yerləşirdi. İndi xaraba kənddir.

Bəxtiyar toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

---

[352] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 142-143.

[353] B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 156.

[354] Ərəb və fars sözləri lüğəti, Bakı:Azərb.SSR Elmlər Akademiyası nəşriyyatı, 1966, s.507.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Vayk) rayonunda qədim yaşayış məntəqələrindən biri **Bilək** kəndi olmuşdur.

Kənd su anbarından 3-4 km şimal-şərqdə, çayın sahilində, düzənlik ərazidə yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Birək kəndi" fonetik formasında qeyd edilmişdir. İllik gəliri 2.900 ağça təşkli edirdi.[355]

Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, Bilək kəndinin əhalisi şiə məzhəbindən olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.).Burada yaşayan azərbaycanlılar xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kənd əhalisi olmuşdur.[356] Bilək kəndində 1873-cü ildə 244 nəfər, 1886-cı ildə 334 nəfər, 1897-ci ildə 357 nəfər, 1904-cü ildə 536 nəfər, 1914-cü ildə 590 nəfər, 1916-cı ildə 459 nəfər yalnız azərbaycanlılar yaşamışdır.[357] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ildə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

M.Hüseynova Bilək toponiminin etimologiyası barədə yazır: "Birək (Bilək-İ.B.) toponiminin "Kitabi-Dədə Qorqud"

---

[355] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[356] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 154.

[357] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

dastanlarındakı şəxs adı ilə əlaqələndirilərək izah edilməsi, fikrimizcə, ağlabatandır və ola bilər ki bu kəndin adı Bayburaoğlu Beyrəyin adı ilə bağlı yaranmışdır”[358]. Onu əlavə edək ki, Bilək kəndi çayın sahilində, düzənlik ərazidə yerləşirdi. Məhz toponim də kəndin relyefi əsasında izah edilsə, daha məntiqidir. Bu baxımdan Bilək toponimi qədim türk dilində “çayın qolu” mənasında işlənən bilək sözü[359] əsasında yaranmışdır.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində **Birinci Bəhlul** kəndi mənbələrdə qeydə alınmışdır.

Yaşayış məntəqəsi Mastara kəndindən 8-9 km cənub-qərbdə yerləşirdi. Kənd 1940-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Birinci Bəhlul toponimi Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən birinci sözü ilə Bəhlul şəxs adı əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Gorus rayonu ərazisində **Birinci Əliyanlı** kəndinin adı mənbələrdə əksinin tapır. Birinci Əliyanlı kəndində 1874-cü ildə 364 nəfər,[360] 1886-cı ildə 714 nəfər[361] azərbaycanlı yaşamışdır. N.Əhmədlinin 1832-1833-cü ilə aid

---

[358] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 71.

[359]Древнетюркский словарь. Л.: Наука, 1969, с. 99; Э.В.Севортян. Этимологический словарь тюркских языков (Обшетюркские и межтюркские основы на букву «Б»), М.:Наука, 1978, с. 146.

[360]N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1873-cü il. Bakı: Elm və təhsil 2021, s. 114-118.

[361]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 163.

Zəngəzurun kameral təsviri kitabında kənd Qaraçorlu minbaşılığına tabe olan "Əliyanlı obası" adında göstərilmişdir və burada 13 ailə yaşamışdır. Zəngəzur qəzasınən 1874-cü il kameral təsvirində göstərilir ki, Əliyanlı kəndində xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kənd əhalisi yaşayır. Onlar əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.).[362] Kənd 1905-1906-cı illərdə xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Birinci Əliyanlı toponimi fərqləndirici əlamət bildirən birinci sözü ilə türk tayfasından olan əylənli ( əsli əklənli)[363] etnonimi əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində qeyd edilmiş kəndlərdən biri də **Birinci Qayaxaraba** kəndidir. Mənbələrdə kəndin bir adının da "Sultanağıl kəndi" olduğu əksini tapır.Birinci Qayaxaraba kəndində 1897-ci ildə 119 nəfər, 1904-cü ildə 106 nəfər, 1914-cü ildə 174 nəfər azərbaycanlı yaşamışdır.[364]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənddə yaşayan azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

---

[362] N Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil 2021, s. 114.

[363] M.Fahrettin Kırzıoğlu. 1593 (H.1001) yılı Osmanh vilayet Tahrir defterinde anılan GenceKarabağ sancakları: «Ulus» ve «Oymak»lan. - Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979, s.199-222.

[364] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44-45, 124-125.

Birinci Qayaxaraba toponimi Azərbaycan dilində "təpə, dağ, sıldırım" mənasında işlənən qaya sözü ilə "dağıdılmış yer" mənasında işlənən xaraba sözündən əmələ gəlib "qayalıqda, təpədə xarabalığa çevrilmiş kənd" mənasını ifadə edir. Toponimin əvvəlindəki birinci sözü fərqləndirici əlamət bildirir.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, Göyçə mahalının indiki Sevan rayonu ərazisində tarixən **Bığlı Hüseyn Saraclı** kənd olmuşdur. Kəndin adı erməni mənbələrində Beqli Hüseyn, Bexlu formalarında da göstərilir.[365] Bığlı Hüseyn Saraclı kəndinin adı Göyçə mahalının 1831-ci il və 1842-ci illərin kameral təsvirlərində "Bığlı Hüseyn və ya Saraclı qışlağı" formasında qeydə alınmışdır və kənddə yaşayanlar qarapapaq tayfası olmuşdur. 1842-ci ildə kənddə 27 nəfər azərbaycanlı yaşamışdır.[366] Kənd Kəvər (Kamo) rayonunun 22 km şimal-qərbində, Göyçə gölünün şimal-qərbində yerləşirdi. Toponim Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[367] Yaşayış məntəqəsi 1930-cu ildə Axta (Hrazdan) rayonunun ərazisinə daxil idi. Bığlı Hüseyn Saraclı kəndində 1831-ci ildə 26 nəfər, 1873-cü ildə 356 nəfər, 1886-cı ildə 505 nəfər, 1897-ci ildə 645 nəfər, 1908-ci ildə 658 nəfər, 1914 -cü ildə 846 nəfər, 1916-cı ildə 768 nəfər yalnız azərbaycanlı yaşamışdır.[368]

---

365 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:639, 647.

366 N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 43, 142-143

367 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 344.

368 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 16-17, 100-101.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kəndin sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş, qətlə yetirilmiş və vəhşicəsinə qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar geri dönmüşdür. Bığlı Hüseyn Saraclı kəndində 1922-ci ildə 53 nəfər yalnız azərbaycanlı yaşamışdır.[369] 1923-1925-cı illərdə kənddə olan azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və kənd 1930-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir. Bığlı Hüseyn Saraclı toponimi Bığlı Hüseyn antroponimi ilə qazax tayfalarından biri olan saraclı etnonimi[370] əsasında əmələ gəlib "saraclı tayfasından olan Bığlı Hüseynə mənsub kənd" mənasını bildirir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində qeydə alınmış **Bozburun** kəndi rayonun Alagöz kəndindən 5 km şimal-qərbdə yerləşirdi. Kəndin adı rus və erməni dilli mənbələrdə Bozbur formasında da qeyd edilir.[371]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində

---

369 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 101.

370 И.И. Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 535.

371 Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №217; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:716.

kəndin sakinləri 1918-ci ildə erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş və sakinləri deportasiya olunmuşdur. Kənd yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir.[372]

Bozburun toponimi Azərbaycan dilində "çılpaq, otsuz, meşəsiz" mənasında işlənən boz süzü ilə,[373] "irəliyə çıxan və ya quruya uzanan quru",[374] "dağ çıxıntısı, dağın qolu, qumlu təpə, sıldırım qaya", "qurunun, dağın sivri bucaq şəklində dənizə tərəf uzanınış hissə"[375] mənasında işlənən burun sözünün birləşməsindən əmələ gəlib, "otsuz çılpaq dağ çıxıntısı, dağın qolu yanında, quruya uzanan yerdə olan kənd" mənasını bildirir.

Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda tarixi yaşayış məntəqəsi **Bozqala kəndi** rayonun İmanlı kəndinin cənub-şərqində, Arpa çayın sağ sahilində yerləşirdi. Toponim Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[376]

Bozqala kəndində 1908-ci ildə 139 nəfər, 1914-cü ildə 159 nəfər azərbaycanlı yaşamışdır.[377] Kəndin əhalisi 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin

---

372 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:716.
373 Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 87-88.
374 R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 99.
375 Məmmədov N.G. Azərbaycan Respublikasının oronimləri, Bakı, Bakı Universiteti nəşriyyatı, 1999, s. 151; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.:Мысль, 1984, с. 103.
376 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 41.
377 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 104-105.

və etnik təmizləmə siyasətinin nəticəsində hərbçilərinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş, bir hissəsi qırılmış, sağ qalanlar Türkiyəyə köç etmişlər.

1920-1922-ci illlərdən sonra indiki Ermənistanda sovet hökuməti qurulduğundan sakitlik yaranmışdır. Kəndi tərk etməyə məcbur olan azərbaycanlılardan sağ qalanlar 1922-ci ildən ata-baba torpaqlarına dönə bilmişdir. Bozqala kəndində 1926-cı ildə 55 nəfər, 1931-ci ildə 94 nəfər,[378] 1939 - cu ildə 104 nəfər[379] azərbaycanlı yaşamışdır. 1940-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Bozqala toponimi Azərbaycan dilində "çılpaq, otsuz, meşəsiz" mənasında işlənən boz sözü ilə[380] qala sözünün birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında,Qərbi zəngəzurun indiki Gorus rayonu ərazisində **Boz kaha** kəndi olmuşdur. Syunik vilayətindəki Qarnidzor kəndindən 3 km şimal-şərqdə yerləşirdi. İndi xarabalığa çevrilmiş kənddir. B.Budaqov və Q.Qeybullayev toponimin türk dillərindəki "sıldırım qaya" mənasında işlənən bayz və "mağara, zağa"

---

[378] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 18-19, 104-105.

[379] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:718.

[380] Е.Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР,М., 1971, с. 38-39; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 87-88.

mənasında işlənən kaha sözlərindən əmələ gəldiyini qeyd etmişlər.[381]

Bizim fikrimizcə, Boz kaha toponimi türk dilində “çılpaq, otsuz, meşəsiz” mənasında işlənən boz sözü ilə[382] “mağara, zağa, qayalıqda, dağda təbii və ya süni oyuq” mənasında işlənən kaha sözünün[383] birləşməsindən əmələ gəlib “çılpaq, otsuz, meşəsiz kaha yaxınlığında kənd” mənasını bildirir. Kəndin yerləşdiyi relyef fikrimizin doğruluğunu təsdiq edir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda tarixən azərbaycanlıların yaşadığı erməni dilli mənbələrdə **Bozkosa** kəndinin adı qeyd edilmişdir.

Bozkosa kəndində 1873-cü ildə 99 nəfər, 1886-cı ildə 141 nəfər, 1897-ci ildə 161 nəfər, 1904-cü ildə 154 nəfər, 1914-cü ildə 225 nəfər, 1916-cı ildə 221 nəfər azərbaycanlı yaşamışdır.[384] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Bozkosa toponimi bozkosa tayfa adından əmələ gələn etnotoponimdir. Oğuzlarda “boz” sözü ilə əmələ gələn tayfalar çoxdur: bozcalu, boz oxlar, bozdoğan, boz ulus və s.[385]

---

[381] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 160.

[382] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 87-88.

[383] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 26.

[384] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44-45, 124-125.

[385] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s.164, 175, 186, 188, 198.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində azərbaycanlılara məxsus yaşayış məntəqələrindən biri olan **Bozlu** kəndi qədim tarixə malikdir. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində formasında qeyd edilmişdir.[386] Bozlu kəndinin adı erməni mənbələrində Boznəli formasında əksini tapır. Bizim "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" kitabımızda erməni dilli mənblərə əsasən toponim Boznəli formasında verilmişdir[387]. Aydınlıq naminə qeyd edək ki, Boznəli toponimi Bozlu toponiminin fonetik formasıdır. Zəngəzur mahalının 1832-1833-cü illərin kameral təsvirində "BOZLU obası" adında qeyd edilərək göstərilir ki, əhalisi əkinçilik və heyvandarlıqla məşğul olan müsəlmanlardır (azərbaycanlılardır-İ.B.). Onlar xəzinəyə vergi ödəmirlər, çünki vergidən 6 il azad ediliblər. İldə ailəbaşına Mehdiqulu xana pulla 5 rubl və məhsulun 1/5 hissəsini malcəhət olaraq ödəyirlər.[388] Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində Bozlu-Ağcakənd adında iki yaşayış məntəqəsi qeyd edilmişdir: Bozlu-Ağcakənd (başqa adı PUL dur) kəndi (v. 656-664); Bozlu-Ağcakənd kəndi (v.666-677). Birinci Bozlu-Ağcakənd kəndinin sakinləri xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir və əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Kənddə cəmi 20 ailə, 53 kişi və 37 qadın yaşayır, hamısı tatardır (azərbaycanlılardır-İ.B.). İkinci Bozlu-Ağcakənd

---

[386] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 41.
[387] İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı: Elm, 2002, s. 145.
[388] N. Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s. 328

kəndinin sakinləri 1870-ci il Əsasnaməsi ilə mülkədar torpaqlarında yaşayan dövlət kəndliləridir və əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Kənddə 36 ailə, 84 kişi və 56 qadın yaşayır, hamısı tatardır.[389] Zəngəzur mahalının 1832-1834-cu illərin və 1874-cü ilin kameral təsvirlərindən görünür ki, Bozlu kəndinin köklü sakinləri azərbaycanlılar olmuşdur. XIX əsrin sonlarında azərbaycanlılar Bozlu kəndindən çıxarılmış və kənd ləğv edilmişdir.

Apardığımız araşdırma nəticəsində belə qənaətə gəlirik ki, Bozlu toponimi bəydili türk tayfalarından olan bozlu etnonimindən[390] əmələ gəlmişdir.

İrəvan xanlığının Göyçə mahalında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində **Böyük Ağa** kəndi olmuşdur. Yaşayış məntəqəsi Qanlı Ağalı kəndinin yaxınlığında yerləşirdi. Z.Qorqodyanın əsərində kəndin adı xatırlanır və göstərilir ki, kənd ləğv edilmişdir.[391] Lakin kəndin nə vaxt ləğv edildiyi məlum deyil.

Böyük Ağa toponimi Azərbaycan dilində "hörmətli, nufuzlu" mənasında işlənən böyük sözü ilə şəxs adı bildirən Ağa sözü birləşməsindən əmələ gəlmişdir.

Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində **Böyük Kotaklı** yaşayış məntəqəsi tarixi mənbələrdə xatırlanır. Böyük Kotaklı yaşayış məntəqəsi kimi 1930-cu ildə ləğv edilmişdir. Böyük Kotaklı toponimi

---

[389] N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.122-126.

[390]Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s.289.

[391] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: XVII.

peçenəqlərin katak (kotak- İ.B) etnoniminə[392] -lı södüzəldici şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Toponimin əvvəlindəki böyük fərqləndirici əlamət bildirən sözdür.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Zəngibasar (Masis) rayonunda mənblərdə qeydə alınmış qədim tarixə malik **Böyük Çobankərə** kəndi Qarasu və Zəngi çayları arasında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[393] Böyük Çobankərə kəndində 1831-ci ildə 951 nəfər, 1873-cü ildə 2337 nəfər, 1886-cı ildə 2487 nəfər, 1897-ci ildə 2631 nəfər, 1904 - cü ildə 2411 nəfər, 1914-cü ildə 3089 nəfər, 1918-ci ildə 2417 nəfər, 1919-cu ildə 4600 nəfər yalnız azərbaycanlı yaşamışdır.[394] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd 1919-cu ilin sonlarında erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 66 nəfər, 1926-cı ildə 279 nəfər azərbaycanlı yaşamışdır[395]. Kəndin əhalisi 1930-cu illərdə qonşu Mehmandar kəndinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[392] Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 114-116.

[393] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 286.

[394] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

[395] Yenə orada, s. 82-83, 152-153.

Böyük Çobankərə toponimi qazaxlar türk tayfasından olan böyük çobankərə etnonimindən[396] əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Meğri rayonunda **Buğakar** kənd olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 12 km şimal-qərbdə, Meğri çayının sahilində yerləşirdi.

Buğakar kəndində 1897-ci ildə 139 nəfər, 1904-cü ildə 194 nəfər, 1914-cü ildə 96 nəfər yalnız azərbaycanlı yaşamışdır.[397]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış və sakinləri-azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Buğakar kəndində 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 30 nəfər, 1931-ci ildə 41 nəfər azərbaycanlı yaşamışdır.[398] Buğakar kəndi 1940-cı illərdə rayondakı Lök (Vartanidzor) kənd sovetliyinin tərkibinə daxil edilmiş, yaşayış məntəqəsi kimi Buğakar kəndi Meğri rayonunun inzibati ərazi bölgüsünün siyahısından çıxarılmışdır. B.Budaqov və Q.Qeybullayevin fikrincə, kəndin adı Azərbaycan dilində buğa və qar "alınmaz (sıldırım) qaya" sözlərindən əmələ gəlmişdir.[399]

---

[396] И. И. Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, к, 1852, с. 535, 631.

[397] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66-67, 142-143.

[398] Yenə orada, s. 67, 143.

[399] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 166.

Buğakar toponimi ilə bağlı apardığımız araşdırma nəticəsində belə qənaətə gəlirik ki, kəndin adı türk dilində "dağ keçidi", "dar, ensiz, vadi, yarğan", "dağ ətəyində, çay sahilində düzənlik yer" mənasında işlənən buk sözü ilə[400] türk dilində "sıldırım qaya" mənasında işlənən kar sözünün[401] birləşməsindən əmələ gəlmişdir.

Erməni dilli mənbələrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində **Buğacıq** kəndi əksini tapır. Yaşayış məntəqəsi meşənin içində yerləşirdi. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində Buğacıq kəndi Qarakilsə (Sisyan) rayonunun inzibati ərazisi daxilində verilmişdir ki, bu da həqiqətə uyğun deyil.[402] Buğacıq kəndində 1897-ci ildə 125 nəfər, 1922-ci ildə 21 nəfər, 1926-cı ildə 1 nəfər azərbaycanlı yaşamışdır.[403] 1929-1930 -cu illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Araşdırma nəticəsində belə qənaətə gəlirik ki, Buğacıq toponimi buğacıq türk mənşəli etnonimi əsasında yaranmışdır. Bu tayfanın adına "Kitabi-Dədə Qorqud"da rast gəlirik:

---

[400] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 99-100.

[401] Е.Койчубаев. Краткий толковый словарь топонимов Казахстана, АлмаАта: Наука, 1974, с. 107.

[402] B.Budaqov, Q. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 139.

[403] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 134-135.

-Sol tərəfdə Buğacıq Məlikə Qarabudaq qarşu gəldi.[404]

İrəvan xanlığının Göyçə mahalında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisindəki **Buğdatəpə** kəndi XVIII əsrdə (1728) tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Göyçə dağında olan Buğdayitəpə kəndi" formasında qeydə alınmışdır. Kəndin illik gəliri 2.100 ağça olmuşdir.[405] Z.Qorqodyan Göyçə mahalında ləğv edilmiş kəndlər sırasında Buğdatəpə kəndinin də adını qeyd etmişdir.[406]

Göyçə mahalının 1831-ci il kameral təsvirində Göyçə mahalının boş kəndlərinin tərkibində Buğdatəpə kəndinin adı da verilmişdir. Bu kənd Ördəkli və Bığlı Hüseyn Saraclı kəndlərinin arasında yerləşirdi.[407]

Buğdatəpə toponimi bitki adı bildirən buğda və kiçik dağ mənasında işlənən təpə sözlərinin birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonunda **Bulaqlar** kənd tarixən mövcud olmuşdur. Bulaqlar kəndi rayondakı Herher kəndindən 4 km cənubda, Herher çayının sahilində yerləşirdi. Bulaqlar kəndində 1873-cü ildə 68 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 149 nəfər, 1904-cü ildə 132 nəfər, 1914-cü ildə 145 nəfər,

---

404 Kitabi-Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə), Bakı: Yazıçı, 1988, s. 77.

405 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 55.

406 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 16.

407 N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 130.

1916-cı ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır.[408] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Bulaqlar kəndində 1922-ci ildə 29 nəfər, 1926-cı 40 nəfər, 1931-ci ildə 63 nəfər yalnız azərbaycanlı yaşamışdır.[409] SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən kənd sakinləri 1948-1949-cu illərdə zorla Azərbaycana köçrülmüşdür. 1949-cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Kənd dərədə çoxlu bulaq olan yerin yaxınlığında salındığı üçün Bulaqlar adlandırılmışdır. Məhz Bulaqlar toponimi "çoxlu bulaq" mənasını verir.

İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda **Bunud** kəndi adlı qədim yaşayış məntəqəsi tarixi mənbələrdə əksini tapır.

---

[408] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

[409] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 89, 159.

Yaşayış məntəqəsi İrəvandan 85 verst (90,610 m) məsafədə, Cığın dərəsində, Cığınsu çayının yanında, Topdağ dağının ətəyində yerləşirdi. Kənd Qaratorpaq kəndinin yanında yerləşdiyi üçün bəzən Bunut Qaratorpaq, yəni Qaratorpaq kəndi yanında Bunut kəndi də adlanmışdır.[410]Bunud kəndində 1873-cü ildə 178 nəfər, 1886-cı ildə 173 nəfər, 1897-ci ildə 161 nəfər, 1904-cü ildə 397 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə 215 nəfər azərbaycanlı yaşamışdır.[411] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri 1918-1919-cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin köklü sakinləri olan azərbaycanlılardan sağ qalanlar 1923-1925-cı illərdə öz kəndlərinə dönə bilmişlər. 1926-cı ildə burada 35 nəfər azərbaycanlı yaşamışdır.[412] 1930-cu illərdə azərbaycanlılar qovularaq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Bunud toponim qədim türk dilində "soy, nəsil" mənasında işlənən bun sözünə,[413] -ud şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir.

Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Barana (Noemberyan) rayonu ərazisindəki kəndlərdən olan **Burma**

---

[410]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 238.

[411]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

[412] Yenə orada, s. 85.

[413] В.В. Радлов. Опыт словарья тюркских наречий, т.lV, ч. 2, СПб, 1911, с.1813.

kəndi rayon mərkəzindən 10-12 km cənub-qərbdə, Tona (Debed) çayının sol sahilində yerləşirdi. Burada tarixən yalnız azərbaycanlılar yaşayıb.

Kənddə 1922-ci ildə 59 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır[414]. Burma kəndi 1930-cu illərdə ləğv edilmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Gorus rayonunda **Burun** kəndi olmuşdur. Burun kəndi rayon mərkəzindən 5 km məsafədə yerləşirdi.

Burun toponimi Azərbaycan dilində "irəliyə çıxan və ya suya doğru uzanan quru",[415] "qurunun, dənizin içinə girən dağlıq, qayalıq hissəsi",[416] "qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissə",[417] başqa türk dillərində "dağ çıxıntısı, qum silsiləsi, cərgəsi, qum təpəsi", "sıra dağlardan ayrılan dağ qolu, dil" mənasında işlənən burun sözsündən[418] əmələ gəlmişdir.

**Burçulu** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının , Qərbi Zəngəzurun indiki Qafan rayonunun ərazisində mövcud olmuşdur. Yaşayış məntəqəsi Qacaran kəndindən 2-3 km cənub-qərbdə yerləşirdi. İndi xaraba kənddir.Burçulu toponimi qıpçaq mənşəli burçoğlu

---

[414]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 98-99.
[415] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 99.
[416] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 330.
[417] N. Məmmədov. Azərbaycan Respublikasının oronimləri, Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, s. 151.
[418] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 103-104.

etnoniminin[419] fonetik variantı olan burçulu etnonimi əsasında formalaşmışdır.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində **Bülbülölən** kəndi azərbaycanlıların qədim yaşayış yerlərindən olmuşdur. Kənd Ortakənd kəndindən 3-4 km qərbdə, Həsənkənd kəndi ilə Qoytul kəndinin arasında,[420] Təkədonduran dağının yaxınlığında yerləşirdi. Kəndin digər adı erməni mənbələrində Bülbüloğlu və Kaha formalarında da göstərilir.[421] 1847-ci ilin "Qafqaz diyarının xəritəsi"ndə kəndin adı Bülbülolan formasında qeydə alınmışdır.[422] Dərələyəz mahalının 1831-ci il kameral təsvirində kənddə qaraçorluların gəlhoçu tayfasının, 1842-ci il kameral təsvirində kənddə qaraçorluların cavadlı tayfasının yaşadığı göstərilir.[423] Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, Bülbülölən kəndində yaşayanlar şiə məzhəbli müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Onlar vergi mükəlləfiyyətli kəndlilərdir.[424] Bülbülölən kəndində 1831-ci ildə 67 nəfər, 1873-cü ildə 163 nəfər, 1886-cı ildə 205 nəfər,

---

[419] Г. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 48.

[420] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s.354.

[421] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:718.

[422] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[423] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 120, 203.

[424] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 157.

1897-ci ildə 252 nəfər, 1904-cü ildə 398 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə 223 nəfər yalnız azərbaycanlı yaşamışdır.[425]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd əhalisindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Bülbülölən kəndində 1922-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır.[426] Onlar yenidən 1923-1925-cı illərdə qovulduqdan sonra kənd ləğv edilmişdir. İndi xaraba kənddir. M.Hüseynova yazır ki, kəndin (Bülbülölən kəndi-İ.B.) adı "bülbül quşunun çox olduğu yer"anlamını ifadə edir. Toponimin birinci komponenti quş adı və ikinci tərəfi feili sifətlə ifadə olunaraq sintaktik modelli coğrafi məkan adı yaranmışdır[427].

Əlimizdə olan mövcud mənbələrdə kəndin adının həm də Bülbül olan// Bülbüloğlu formalarda da əksini tapmasına əsaslnaraq deyə bilərik ki, Bülbülölən toponim şəxs adı əsasında yaranmışdır.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində **Cağatay** kəndi qədimliyi ilə diqqəti cəlb edir. Yaşayış məntəqəsi Arpaçayın yanında yerləşirdi. Kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan

---

[425]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.

[426]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 160-161.

[427] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 39.

Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində Cağatay kəndində qaraçorluların kulakanlı tayfasının yaşadığı göstərilmişdir.[428] Mahalın 1873-cü il kameral əyalətinin icmal dəftəri"ndə,[429] Qafqazın 5 verstlik xəritəsində[430] qeyd edilmişdir.

Erməni mənbələrində kəndin adı həmçinin "Cağata kəndi" formasında da qeyd edilir.[431]

Mahalım 1873-cü il tarixli kameral təsvirindən Cağatay kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da vergi mükəlləfiyyətli dövlət kəndliləridir.[432] Cağatay kəndində 1831-ci ildə 30 nəfər, 1873-cü ildə 70 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 98 nəfər, 1904-cü ildə 94 nəfər, 1914-cü ildə 103 nəfər, 1916-cı ildə 135 nəfər yalnız azərbaycanlı yaşamışdır.[433]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə

---

[428] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 102, 190.

[429] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 59.

[430] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 79.

[431] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 158.

[432] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 204.

[433] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Cağatay kəndində 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır.[434] Onlar da 1923-cü ildə sıxışdırılaraq kənddən çıxarılmış və 1925-cı ildə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Cağatay toponimi kəngərli türk tayfasının bir qolunu təşkil edən cığatay etnonimi[435] əsasında yaranmışdır. Cağatay toponim yaradıcılığında etnonim kimi iştirak etmişdir. Deməli, cağatay cığatay etnoniminin fonetik formasıdır.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda mənbələrdə əksini tapan **Camışbasan** kəndi azərbaycanlıların qədim yaşayış yerlərindən biri olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 22 km şimal-şərqdə, Cığınsu çayının yanında yerləşirdi. Vedibasar mahlının 1831-ci il kameral təsvirinə əsasən kənddə Qaraçorlu tayfası yaşamışdır[436]. Kəndin adı 1847-ci il "Qafqaz Diyarının xəritəsi"ndə,[437]

[434] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 158-159.

[435] И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 537.

[436] N. Əhmədli. İrəvan əyalətinin kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019, s.122.

[437] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 22.

Qafqazın 5 verstlik xəritəsində[438] qeyd edilmişdir. Camışbasan kəndində 1828-ci ildə 51 nəfər,[439] 1897-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır[440].1905-1906-cı illərdə azərbaycanlılarla ermənilər arasında baş verən münaqişələrlə bağlı kənd erməni quldur dəstələrinin təcavüzünə məruz qalmış, sakinləri 1906-cı ildə qırğınlarla deportasiya olunmuşdur. Camışbasan kənd 1906-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Camışbasan toponimi qızılbaşların camış közəkli tayfasının adında[441] əksini tapan camış etnoniminə basan feili sifətinin qoşulması yolu ilə əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində azərbaycanlıların yaşadığı qədim yaşayış məntəqələrindən biri kimi **Canı** kəndinin adı mənbələrdə müxtəlif fonetik formalarda əksini. Toponim erməni mənbələrində "Cani", "Cani Yuxarı" kimi də qeyd edilir.[442]

Canı kəndi Alagöz çayının yaxınlığında yerləşirdi. Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Canı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə

---

438 Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 80.

439 И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 537.

440 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89.

441 O.Əfəndiyev. Azərbaycan səfəvilər dövləti, Bakı: Azərnəşr, 1993, s. 192.

442 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92.

məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[443]

Canı kəndində 1873-cü ildə 86 nəfər, 1886-cı ildə 169 nəfər, 1897-ci ildə 221 nəfər, 1904-cü ildə 160 nəfər, 1914-cü ildə 176 nəfər, 1916-cı ildə 282 nəfər yalnız azərbaycanlı yaşamışdır.[444]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar yaranan sakitlikdən istifadə edərək tarixi-etnik torpaqlarına qayıda bilmişdir.

Canı kəndində 1922-ci ildə 77 nəfər, 1926-cı ildə 78 nəfər, 1931-ci ildə 111 nəfər yalnız azərbaycanlı yaşamışdır.[445] 1940-cı illərdə kəndin sakinləri-azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

H.Mirzəyevin[446] və M.Hüseynovanın[447] fikrincə, Canı toponimi canı etnonimindən əmələ gəlmişdir

Apardığımız araşdırmaya əsasən bu qənatə gəlirik ki, Canı toponimi Canı şəxs adı əsasında yaranmışdır. “... vaxtilə

[443] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 213.

[444] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[445] Yenə orada, s. 92-93, 162-163.

[446] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı: Elm, 2004, s. 154.

[447] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 38.

Xələcistandan farsa köçmüş xələclərin şahılı tayfasının rəisi (Kələntəri və ya kəndxudası) Canı ağanın ətrafında birləşmək üçün toplanan tayfa və qəbilələr Qaşqay adı altında böyük bir el birliyinə çevrilmişdir...” Canı ağa Qaşqay elinə təyin edilmiş ilk elbəyidir.[448]

**Ceyranlı** kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində, Arpaçayın sağ qolu olan Muradtəpəsu çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[449]Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Ceyranlı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da vergi mükəlləfiyyətli dövlət kəndliləridir.[450] Ceyranlı kəndində 1873-cü ildə 91 nəfər, 1886-cı ildə 84 nəfər, 1897-ci ildə 92 nəfər, 1904 - cü ildə 123 nəfər, 1914-cü ildə 135 nəfər, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışdır.[451]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[448] T.Ə. İbrahimov (Şahin).Qaşqaylar, Bakı: Elm, 1988, s.74-75.
[449]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 81.
[450] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 212.
[451]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

Ceyranlı toponimi Azərbaycan dilində heyvan anlayışı bildirən ceyran sözünə -lı şəkilçisini artırmaqla əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasındakı, indiki Vedi (Ararat) rayonundakı **Ciğin** kəndi Cığın dərəsində, Cığınsu çayının yanında yerləşirdi.

Yaşayış məntəqəsinin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Ciqin kəndi" kimi,[452] 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ceqin kəndi", "Caqin kəndi" formalarında,[453] 1847-ci il "Qafqaz Diyarının xəritəsi"ndə Cığın,[454] Qafqazın 5 verstlik xəritəsində Ciğin Qaraqoyunlu[455] şəklində, Z.Qorqodyanın kitabında Göl Ciğin kimi[456] qeyd edilmişdir.

Vedibasar mahalının 1831-ci il kameral təsvirində kəndin relyefi ilə bağlı yazılmışdır: "Cırmanis çayının Cığın çayına qarışdığı yerdən bir qədər yuxarıda yerləşir. Bu iki çay isə 20 verst aşağıda Vedi çayına tökülür.

Qarabağlar kəndinin qənşərində, dağlarda 25 verstə yaxın suvarılan əkin sahəsi var"[457]

---

[452] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 172.

[453] Yenə orada, s. 105.

[454] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 22.

[455] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 82.

[456] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

[457] N. Əhmədli. İrəvan əyalətinin kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019, s.123.

Ciğin kəndində 1831-ci ildə 178 nəfər, 1873 - cü ildə 160 nəfər, 1886-cı ildə 210 nəfər, 1897-ci ildə 238 nəfər, 1904 - cü ildə 559 nəfər, 1914 -cü ildə 561 nəfər azərbaycanlı yaşamışdır.[458] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Ciğin kəndində 1922-ci ildə 54 nəfər, 1926-cı ildə 92 nəfər, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır.[459]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən azərbaycanlılar 1948-1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd 1950-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Ə.Ələkbərlinin fikrincə, toponim qacarların ciqin (çeqin) tayfa adı əsasında yaranmışdır.[460]

---

458 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155

459 Yenə orada, s. 84-85, 154-155.

460 Ə. Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 519.

Bizim fikrimizcə, Ciğin toponimi qaşqayların cigini tayfasının adı[461] əsasında formalaşmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun Qafan rayonu ərazisində **Cibikli (Cıbıllı)** kəndi olmuşdur. Kənd Qafan şəhərindən 67 km cənub-şərqdə yerləşirdi. Kəndin qədim və ilkin adı Cibikli olmuşdur.[462] Cibikli toponimi sənədlərdə Cıbıllı kimi əksini tapır. Cibikli kəndində 1897-ci ildə 82 nəfər, 1904-cü ildə 80 nəfər, 1914-cü ildə 160 nəfər azərbaycanlı yaşamışdır.[463]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar kənddən qırğınlarla deportasiya olunmuşdur.[464]

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin köklü sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişdir. Cibikli kəndində 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 53 nəfər, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır.[465] 1930-cu illərin axırlarında kənd ləğv edilərək azərbaycanlılar başqa kəndlərə köçürülmüşdür. İndi xaraba kənddir.

---

[461] T.Ə.İbrahimov. (Şahin) Qaşqaylar, Bakı: Elm, 1988, s. 40.

[462] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60.

[463] Yenə orada, s. 60-61, 136-137.

[464] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 205.

[465] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

B.Budaqov və Qeybullayev yazırlar ki, kəndin əhalisi 1988-ci ildə Azərbaycana qovulmuşdur.[466] Bu fakt həqiqəti əks etdirmir. Belə ki, 1926-cı ildən sonra Cibikli kəndində yaşayış olmamış və indi Ermənistan adlanan Qərbi Azərbaycanda 1931-ci ildə[467], eləcə 159-cu ildə, 1970-ci ildə əhalinin siyahıya alınmasında kənddə əhalinin yaşamadığı göstərilmişdir.

XIX əsr mənbəyində Zəngəzurda cibikli tayfasının yaşadığı qeydə alınmışdır.[468] Bu qənaətə gəlirik ki, Cibikli toponimi məhz cibikli (> cıbıllı) tayfa adı əsasında yaranmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda **Coğtala** kəndi adında yaşayış məntəqəsi olmuşdur. Coğtala kəndi yaşayış məntəqəsi kimi 1930 - cu ildə ləğv edilmişdir.

Coğtala toponimi qədim türk dilində su mənasında işlənən cu sözünün[469] fonetik variantı co sözü ilə türk dilində "düzənlik, çöl, sahə", "meşənin ortasında açıq yer", "meşədə ağacsız, çılpaq yer" mənasında işlənən tala sözünün[470] birləşməsindən əmələ gəlmişdir. Toponimin birinci komponenti co (bu sözün ilk variantı cu olmuşdur) Azərbaycan dilində "suvarma suyunu bölüşdürən adam" mənasında işlənən cuvar sözündə,

---

466 B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 431.

467 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 136-137.

468 B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 431.

469 Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 181.

470 Yenə orada, 169-170.

Zaqatala-Qax zonasında sucaq yer mənasında işlənən coqay sözündə öz qədim izini qoruyub saxlamışdır.

Göyçə mahalının İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda **Çamırlı** adında kəndə mənbələrdə rast gəlinir. Bu yaşayış məntəqəsi Qızılvəng kəndinin yaxınlığında, Alagöl çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[471] Çamırlı kəndində 1873-cü ildə 244 nəfər, 1886-cı ildə 329 nəfər, 1897-ci ildə 374 nəfər, 1908-ci ildə 491 nəfər, 1914-cü ildə 632 nəfər, 1916-cı ildə 541 nəfər azərbaycanlı yaşamışdır.[472] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ilin yazında kəndin sakinləri erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Çamırlı kəndində 1922-ci ildə 42 nəfər azərbaycanlı yaşamışdır.[473] Kənd 1929-cu illərdə ləğv edilmişdir.Çamırlı toponimi təkə türk tayfasının bir tirəsini təşkil edən çomur//çomrı etnonimi[474] əsasında formalaşmışdır. -lı

---

[471]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 279.

[472] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 26-27, 112- 113.

[473] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 112- 113.

[474]С.Атаниязов. Словарь туркменских этнонимов, Ашхабад: Ылым, 1988, с. 130; Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26, s.88.

mənsubluq bildirən şəkilçidir. Toponim "çamır/çamur tayfasına mənsub yer, yaşayış məntəqəsi" mənasını bildirir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında,Qərbi Zəngəzurun Qafan rayonunda **Çanaxçı** kəndi olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[475] Çanaxçı kəndində 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır[476]. XX əsrin əvvəllərində, 1905-1906-cı ildə baş vermis erməni-azərbaycanlı münaqişəsi ilə bağlı baş vermis hadisələr nəticəsində azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qovulmuşdur. XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir.

B.Budaqov və Q.Qeybullayev Çanaxçı toponiminin izahı ilə bağlı yazırlar ki, Çanaxçı "ağacdan çanax qabı düzəldənlər" mənasındadır.[477] Fikrimizcə, Çanaxçı toponimi ilə bağlı bu izah təsviri xarakter daşıyır.

Çanaxç toponimi çanaxçı türk etnonimi[478] əsasında əmələ gələn etnotoponimdir.

İrəvan quberniyasının İrəvan qəzasında, Ermənistan SSR dövründə Qəmərli (Artaşat) rayonunun tərkibində olan kəndlərdən biri də **Çarbağ** kəndi idi. Yaşayış məntəqəsi 1930-cu ilin sonlarına kimi Qəmərli (Artaşat) rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. Çarbağ kəndinin ərazisi indi İrəvan

---

[475]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 279.

[476] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

[477]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 417.

[478]E.Əhmədova.Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 20.

şəhərinin tabeliyindədir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı qeyd edilməklə göstərilir ki, kəndin digər adı "Xürrəmabad"dır və gəliri 5.000 ağçadan ibarət olmuşdur.[479] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində "Çarbax" formasında qeyd edilmişdir.[480]

Çarbağ kəndində 1831-ci ildə 31 nəfər, 1873-cü ildə 201 nəfər, 1886-cı ildə 241 nəfər, 1897-ci ildə 242 nəfər, 1904-cü ildə 347 nəfər, 1914-cü ildə 386 nəfər yalnız azərbaycanlılar yaşamışdır.[481]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Türkiyədən 1918-1919-cu illərdə köçürülən ermənilər burada yerləşdirilmişdir.

Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistandan sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar kəndlərinə dönə bilmişdir. Çarbağ kəndində 1922-ci ildə 177 nəfər, 1926-cı ildə 201 nəfər, 1931-ci ildə 264 nəfər azərbaycanlı yaşamışdır.[482] İrəvan şəhərinin genişləndirilməsi ilə əlaqədar 1950-ci ildə Çarbağ kəndi ləğv edilmiş, azərbaycanlılar qovulmuşdur. B.Budaqov və Q.Qeybullayev Çarbağ kəndindən

---

[479] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 82.

[480] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 279.

[481] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[482] Yenə orada, s. 50-51, 130-131.

azərbaycanlıların 1988-ci ildə qovulduğunu yazırlar. Əslində 1988-ci ildə Çarbağ kəndində bir nəfər belə azərbaycanlı olmamışdır.

Çarbağ toponimi türk dilində "yarğan, sıldırım sahil", "hündür sahil",[483]"sıldırım dərə, uçurum", "yarğan", "bataqlıqdan çəkilmiş arx"[484] mənasın da işlənən çar və bağ sözlərindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonunda **Çatqran** kəndi olmuşdur. Kənd Zəngi çayının sahilində yerləşirdi.

Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[485] Çatqran kəndində 1873-cü ildə 368 nəfər, 1886-cı ildə 413 nəfər, 1897-ci ildə 630 nəfər, 1908-ci ildə 667 nəfər, 1914-cü ildə 807 nəfər yalnız azərbaycanlı yaşamışdır.[486]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kəndin əhalisi ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına dönə

---

483 В.В. Радлов. Опыт словарья тюркских наречий, т lll, ч.2, СПб, 1905, с.1859.

484 Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 178-179.

485 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 81.

486 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

bilmişdir. Çatqran kəndində 1922-ci ildə 53 nəfər, 1926-cı ildə 46 nəfər, 1931-ci ildə 88 nəfər azərbaycanlı yaşamışdır.[487]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən 1948-1949-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Kənd 1953-cü ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Çatqran toponimi türk dilində "iki çayarası yer",[488] "yarğanın kənarı",[489] "dağın beli, dağ çıxıntısı, iki dərəni birləşdirən yer, yarğanları və dərələri olan alçaq sıra dağ, tirə"[490] mənasında işlənən çat sözü ilə "hərbi düşərgə", "həyət", "hasarlanmış, çəpərlənmiş yer", "hasar", "düşərgə", "hərbi düşərgə", "mənzil, ev", "karvansara" mənasında işlənən kuran (>qran) sözünün[491] birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində **Çatılı düz** kəndi olmuşdur. Yaşayış məntəqəsi Qafan rayonunun Oxtar

---

[487] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[488] В.В. Радлов. Опыт словарья тюркских наречий, т lll, ч.2, СПб, 1905, с.1893.

[489] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 431.

[490] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 608-609.

[491] Yenə orada, s. 317-318.

kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır.[492] XX əsrin əvvəllərində, 1906-cı ildə azərbaycanlılar qırğınlarla qovulmuşdur. Kənd 1908-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Çatılı düz toponimi mənsubluq bildirən -lı şəkilçisi qəbul etmiş türk dilində "dağ çıxıntısı, yarğan" mənasında işlənən çat sözü ilə[493] Azərbaycan dilində "enişi, yoxuşu olmayan, hamar relyef səthi" mənasında işlənən düz sözünün[494] birləşməsindən əmələ gəlib, "dağ çıxıntısı, yarğan yanındakı düzdə salınan kənd" mənasını ifadə edir.

**Çatmadağ** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində yerləşirdi. Kəndin digər adı Çatmadaş kəndi olmuşdur.[495] Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində "Çatma" formasında qeyd edilmişdir.[496] Kəndin adının ikinci komponenti dağ//daş sözləri sonralar ixtisar edilərək rəsmi sənədlərdə Çatma formasında əksini tapır.

Çatmadağ kəndində 1873-cü ildə 41nəfər, 1886-cı ildə 57 nəfər, 1897-ci ildə 162 nəfər, 1904-cü ildə 51 nəfər, 1914-cü ildə

---

[492] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 60-61.

[493] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 608.

[494] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 168;N.Məmmədov Azərbaycanın yer adları (oronimiya), Bakı: Azərnəşr, 1993, s. 44.

[495] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50.

[496] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 281.

178 nəfər, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır.[497]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən deportasiya olunmuş azərbaycanlılardan sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Çatmadağ kəndində 1922-ci ildə 29 nəfər, 1926-cı ildə 18 nəfər, 1931-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır.[498]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən 1948-1949-cu illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür və kənd ləğv edilmişdir.

Çatmadağ toponimi Azərbaycan dilində "bir istiqamətdə yanaşı" mənasında işlənən çatma sözünə[499] dağ sözünün

---

[497]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[498] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[499]R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 132.

qoşulması yolu ilə əmələ gəlib, "bir istiqamətdə yanaşı dağ yanında salınan kənd" mənasını ifadə edir. "Çatma" sözü qədim türk dilində "birləşmə", "taxtabənd", "dəzgah", "körpü", "yarıq", "çatdaq" mənalarında da işlənmişdir[500].

İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda qədim yaşayış məskənlərindən biri olan **Çiləxanlı** kəndində tarixən yalnız azərbaycanlılar yaşamışdır. Kəndin adı erməni mənbələrində Çilixanlı, Çinaxanlı, Qafarlı,[501] 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Çinəxan formasında qeyd edilmişdir və gəliri 14.000 ağçadan ibarət olmuşdur.[502] Çiləxanlı kəndində 1831-ci ildə 237 nəfər, 1873-cü ildə 535 nəfər, 1886-cı ildə 569 nəfər, 1897-ci ildə 698 nəfər, 1904-cü ildə 752 nəfər, 1914-cü ildə 827 nəfər, 1916-cı ildə 866 nəfər azərbaycanlı yaşamışdır.[503] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra deportasiya edilmiş kənd

---

[500] В.В. Радлов. Опыт словарья тюркских наречий, т lll, ч.2, СПб, 1905, с. 1902.

[501]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50.

[502]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 99.

[503]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Çiləxanlı kəndində 1922-ci ildə 131 nəfər, 1926-cı ildə 220 nəfər, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır.[504]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən 1948-1953-cü illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.Çiləxanlı toponimi muğanlı türk tayfasından olan çilovxanlı ("çilovxanlı" nəsil adı danışıq dilinin qanunlarına uyğunlaşdırılaraq çiləxanlı formasına düşmüşdür) nəsil adı[505] əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının, indi Paşalı (Vayk) rayonu ərazisindəki **Çiraxlı** kəndi Çıraxlı selavının yanında, Terp kəndinin yaxınlığında yerləşirdi. Çiraxlı kəndinin adı Qafqazın 5 verstlik xəritəsində Çiraxlu formasında qeyd edilmişdir[506]. Erməni mənbələrində kəndin başqa adı kimi "Çıraxoğlu kəndi" formasında da göstərilir.[507] 1847-ci ildə tərtib

---

[504]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[505]Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 72

[506]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 285.

[507]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

edilmiş "Qafqaz Diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki yaşayış məntəqəsi kimi Çıraxlı kəndinin adı əksini tapmışdır.[508] Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Çiraxlı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[509] Çiraxlı kəndində 1873-cü ildə 21 nəfər, 1886-cı ildə 20 nəfər, 1897-ci ildə 31 nəfər, 1904-cü ildə 41 nəfər, 1914-cü ildə 45 nəfər, 1916-cı ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır.[510]1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra deportasiya olunmuş kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Çıraxlı kəndində 1922-ci ildə 40 nəfər, 1926-cı ildə 15 nəfər yalnız azərbaycanlı yaşamışdır.[511] 1929-1930-cu illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış, kənd yaşayış məntəqəsi kimi 1930-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[508]İ.Bayramov, N. Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.
[509] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 466.
[510]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.
[511] Yenə orada, s. 90-91, 158-159.

Çiraxlı toponimi qədim sirak türk etnoniminin[512] bir variantı olan çırak (çirax) etnoniminə mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlmişdir. Yaşayış məntəqəsi “şirak//çirak tayfasına mənsub yer, sirak//çirak tayfasının yaşadığı yer” mənasını ifadə edir. Onu da qeyd edək ki, s~ç səs əvəzlənməsi Azərbaycan dilində qanunauyğun haldır.

XIX əsr inzibati ərazi vahiinə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, XX əsrin inzibati ərazi bölgüsünə görə Qərbi Zəngəzurun indiki Qafan rayonunun ərazisində tarixən mövcud olmuş **Çiriş** kəndi Qafan rayonundan rayon mərkəzindən 43 km şimal-şərqdə yerləşirdi.

Çiriş kəndində 1897-ci ildə 27 nəfər, 1922-ci ildə 73 nəfər, 1926-cı ildə 79 nəfər, 1931-ci ildə 95 nəfər azərbaycanlı yaşamışdır.[513]

Çiriş kəndi 1950-ci illərdə Kurud kəndi ilə birləşdirilərək yaşayış məntəqəsi kimi Qafan rayonunun inzibati ərazi bölgüsündən çıxarılmışdır.

Çiriş toponimi “zanbaq fəsiləsinə mənsub yabanı bəzək bitkisi” mənasında işlənən çiriş sözü[514] əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində qeydə alınmış **Çobanqara** kəndi Zəngi çayı ilə Qarasu çayının arasında yerləşirdi.

---

512 M. Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989, s. 23-24.

513 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

514 Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987, s.437.

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[515] Çobanqara kəndi yaşayış məntəqəsi kimi 1930 - cu ildə ləğv edilmişdir.Çobanqara toponimi çobankərə türk etnonimi[516] əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasının, indiki Vedi (Ararat) rayonunun ərazisində tarixən mövcud olmuş **Çivandərə** kənd Çanaxçı kəndinin yaxınlığında, Bazhunnu dağının ətəyində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[517] Çivandərə kəndində 1873-cü ildə 113 nəfər, 1886-cı ildə 154 nəfər, 1897-ci ildə 157 nəfər, 1914 - cü ildə 172, 1916-cı ildə 389 nəfər yalnız azərbaycanlı yaşamışdır.[518]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. 1920-ci ilin əvvəllərində kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Çivandərə toponimi oğuzların yiva//yıva etnoniminin[519] fonetik variantı olan çiva tayfa adına Azərbaycan dilində “dar və

---

515 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 286.

516 И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 631.

517 Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 284.

518 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

519 Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafıya Birliyi, 1992, s. 40; Sümər Faruq. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 334.

uzunsov əyri-üyrü çökək” mənasında işlənən dərə sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. B.Budaqov yivə (yıva) etnoniminin Çuva toponimində,[520] H.Mirzəyev Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonundakı Çivə toponimində[521] qaldığını qeyd etmişlər.

Türk dillərində y > c > ç səs əvəzlənməsi qanunauyğun haldır.[522] Bu fikri türk dillərində “dik, sıldırım sahil, yarğan” mənasında işlənən çar və yar sözlərində də özünü göstərir.[523]

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, XX əsrin inzibati ərazi bölgüsünə əsasən Qərbi Zəngəzurun Qafan rayonuun ərazisi daxilində mövcud olmuş **Çobanlı** kəndində tarixən azərbaycanlılar yaşamışdır. Kənd Qafan şəhərindən 15 km şimal-şərqdə yerləşirdi. 1847-ci ildə tərtib edilmiş “Qafqaz Diyarının xəritəsi”ndə Naxçıvan qəzasının Meğri sahəsində Ermənistana qatılan yaşayış məntəqələrindən biri kimi Çobanlı kəndinin adı əksini tapmışdır[524] . Zəngəzur mahalının 1832-1833-cü illərə aid kameral təsvirindən görünür ki, Çobanlı kəndinin əhalisi oturaq həyat sürən müsəlmanlardan (azərbaycanlılardan-İ.B.) ibarətdir. Onlar baramaçılıqla məşğul olurlar. Çobanlı kəndində 8 müsəlman ailəsi və kişi cinsindən 16 nəfər müsəlman

---

520 B.Ə. Budaqov. Türk ülusların yer yaddaşı, Bakı: Elm, 1994, s. 184.

521 H. Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997, s. 202-203.

522 Б.А.Серебренников, Н.Э. Гаджиева. Сравнительно историческая грамматика тюркских языков, Баку: Маариф, 1979, с. 54.

523 Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 238, 607, 650.

524 İ.Bayramov, N.Mustafa. “Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

yaşayır[525]. Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində göstərilir ki, kənddə xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir və əkinçiliklə məşğul olan müsəlman tatarlar (azərbaycanlılar-İ.B.) yaşayır. Kənddə 15 ailə, 46 kişi və 22 qadın yaşamışdır ki, hamısı da tatar (azərbaycanlı-İ.B.) olmuşdur[526] .

Çobanlı kəndində 1831-ci ildə 16 nəfər, 1873-cü ildə 195 nəfər, 1886-cı ildə 96 nəfər, 1897-ci ildə 152 nəfər, 1904-cü ildə 130 nəfər, 1914-cü ildə 156 nəfər azərbaycanlı yaşamışdır[527].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar[528]. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz evlərinə dönə bilmişlər. Çobanlı kəndində 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır[529]. Kənd sonradan keçmiş Qafan rayonunun Noraşenik kəndinə birləşdirilmiş, inzibati-ərazi vahidi kimi ləğv edilmişdir. Keçmiş Çobanlı kəndinin ərazisində 1988-ci ildə 18 azərbaycanlı ailəsi

---

[525] N. Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s.253-254

[526] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 659-660

[527] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

[528] История Азербайджана по документам и публикациям,Баку: Элм 1990, с. 205.

[529] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

yaşamışdır. 1988-ci ilin noyabrın axırlarında burada yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur.

Çobanlı toponimi oğuzların çapanlu (çobanlı - İ.B.) etnonimi[530] əsasında əmələ gələn etnotoponimdir.

İrəvan quberniyasının Yeni Bayazid qəzasındakı, indiki Axta (Hrazdan) rayonu ərazisindəki kəndlərdən biri də **Çopur Əli kəndi** adlanırdı. Yaşayış məntəqəsi rayonun Qorçulu, Dədəqışlaq kəndlərinin ortasında yerləşirdi. 1831-ci ildə burada 28 nəfər azərbaycanlı yaşamışdır[531]. XIX əsrin ortalarında kənd ləğv edilmişdir.

Çopur Əli toponim şəxs adı əsasında əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, XX əsrin inzibati ərazi bölgüsünə əsasən Qərbi Zəngəzurun Qafan rayonuun ərazisi daxilində **Çullu** kəndi olmuşdur. Kənddə 1897-ci ildə 109 nəfər, 1904-cü ildə 85 nəfər, 1914-cü ildə 110 nəfər azərbaycanlı yaşamışdır[532]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur[533].

---

530 Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 186.

531 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 102.

532Yenə orada, s. 60-61, 136-137.

533 История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 205.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Çullu kəndində 1922-ci ildə 39 nəfər, 1926-cı ildə 56 nəfər, 1931-ci ildə 69 nəfər azərbaycanlı yaşamışdır[534]. Çullu kəndi yaşayış məntəqəsi kimi XX əsrin 40-cı illərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Çullu toponimi qədim türk mənşəli çul (çol) türk etnoniminə[535] mənsubluq bildirən -lu şəkilçisinin artırılması əsasında əmələ gəlib "çul tayfasına mənsub yaşayış məntəqəsi" mənasını bildirir.

**Damagirməz** İrəvan quberniyasının İrəvan qəzasında indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 12-14 km cənub-şərqdə yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[536].

Damagirməz kəndində 1873-cü ildə 254 nəfər, 1886-cı ildə 353 nəfər, 1897-ci ildə 380 nəfər, 1904-cü ildə 387 nəfər,1914-cü ildə 474 nəfər, 1916-cı ildə 549 nəfər azərbaycanlı yaşamışdır[537].

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq

---

[534] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.
[535] Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историкоэтнографическое исследование), Баку: Элм, 1986, с. 31.
[536] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 74.
[537] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46-47, 126-127.

sakinləri- azərbaycanlılar 1918-ci ilin fevral ayında qırğınlarla öz yurdlarından qovulmuş[538] və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Damagirməz toponimi dam sözü ilə qeyri-qəti gələcək zamanda işlənmiş girmək feilindən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, XX əsrdə indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində qeydə alınmış **Daşaltı** kəndi rayon mərkəzindən 6-7 km cənubda, Arpaçay çayının sahilində yerləşirdi. Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Daşaltı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[539]. Daşaltı kəndində 1873-cü ildə 32 nəfər, 1886-cı ildə 37 nəfər, 1897-ci ildə 73 nəfər, 1904 - cü ildə 28 nəfər, 1914-cü ildə 30 nəfər, 1916-cı ildə 24 nəfər azərbaycanlı yaşamışdır[540]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində erməni hərbçiləri 1918-ci ildə kəndə hücum edərək azərbaycanlıları qırğınlarla qovmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar doğma evlərinə dönə bilmişdir. Daşaltı kəndində 1922-ci ildə 15 nəfər azərbaycanlı qeydə alınmışdır[541].

---

[538] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 216.

[539] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 202.

[540] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

[541] Yenə orada, s. 159.

1924-1925-cı illərdə azərbaycanlılar yenidən Ermənistab SSR rəhbərliyinin təcavüzə məruz qalaraq doğma yurdlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1926-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, 1918-ci ildə Daşaltı kəndinin əhalisi qovulduqdan sonra kənd dağıldılmışdır[542]. Bu fikir həqiqəti əks etdirmir.Çünki Daşaltı kəndində 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamış, mənbələrdə sonrakı illərdə kənddə yaşayanlar haqqında hər hansı bir məlumata rast gəlinmir. Deməli, Daşaltı kəndində 1922-1924-cü illərdə yaşayış olmamışdır.

Daşaltı toponimi "dağ, qaya" mənasında işlənən daş sözü ilə mənsubiyyət şəkilçisi qəbul etmiş aşağı mənasını bildirən alt sözünün birləşməsindən əmələ gəlmişdir. Yaşayış məntəqəsi qayalıq yerdə yerləşdiyi üçün Daşaltı kəndi adlandırılmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonu ərazisində **Daşbaşı** kəndi mənbələrdə qeyd edilib. Yaşayış məntəqəsi Qafan şəhərinin mərkəzindən 23 km şimal-qərbdə, Kığı çayının sol sahilində yerləşirdi.

Daşbaşı kəndində 1897-ci ildə 53 nəfər, 1922-ci ildə 42 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır[543].

Daşbaşı kəndi 1950-ci ildə Kığı kəndi ilə birləşdirilərək inzibati-ərazi vahidi kimi ləğv edilmişdir.

---

[542]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press 1998, s. 227.

[543]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

Daşbaşı toponimi Azərbaycan dilində “dağ, qaya” mənasında işlənən daş sözü ilə “yuxarı”, “zirvə”, “yüksəklik” mənasında işlənən baş sözündən əmələ gəlmişdir. “Baş” sözü türk mənşəli toponimlərin tərkibində “dağın zirvəsi” mənasında işlənir[544].

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda azərbaycanlların tarixən yaşadığı yaşayış məntəqələrindən biri **Daşkeyti** kəndi idi.

Daşkeyti kəndində 1831-ci ildə 124 nəfər yalnız azərbaycanlılar yaşamışdır[545].1850-1860-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və yaşayış məntəqəsi kimi kənd ləğv edilmişdir.

Daşkeyti toponimi “dağ, qaya” mənasında işlənən daş sözü ilə türk dilində “axır, arxa hissə” mənasında işlənən ket sözü[546] əsasında əmələ gəlmişdir. Toponimin tərkibində işlənmiş “keyti” sözü “ket” sözünün fonetik formasıdır.

Qərbi Azərbaycanda mənbələrdə daha bir **Daşaltı** kəndinin adına İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasınında, indiki Ermənistanın Paşalı (Əzizbəyov, Vayk) rayonunda rast gəlinir. Bu kənd rayondakı Azadeğ kəndindən 2 km cənubda yerləşirdi[547]. Yeri gəlmişkən onu da qeyd edək ki, Daşaltı kəndini Arpaçayın sahilində yerləşən Daşaltı kəndi ilə

---

544 О.Т. Молчанова . Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Изд-ство Саратовского Университета, 1982, с. 238

545 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 110.

546 Древнетюркский словарь. Л.: Наука, 1969, с. 303.

547 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:41.

qarışdırmaq olmaz. Hər iki Daşaltı kəndi ayrı-ayrı kəndlər olmuşdur. XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasınındakı, XX əsrdə indiki Ermənistanın Paşalı (Əzizbəyov, Vayk) rayonundakı Daşaltı kəndinin indi yalnız xarabalıqları qalır.

Daşaltı toponimi "dağ, qaya" mənasında işlənən daş sözü ilə mənsubiyyət şəkilçisi qəbul etmiş aşağı mənasını bildirən alt sözünün birləşməsindən əmələ gəlmişdir.

Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda Daşkənd adında xeyli yaşayış məntəqələri indi də mövcuddur. **Daşkənd** adında yaşayış məntəqəsindən biri də Paşalı (Vayk) rayonu ərazisində yerləşir.

Daşkəndi kəndi XIX əsrin inzibati ərazi bölgüsünə görə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının, XX əsrin inzibati ərazi bölgüsünə görə indiki Ermənistanın Paşalı (Vayk) rayonunun ərazisinə daxil olmuşdur. Bu kənddə Dərələyəz mahalının 1831-il kameral təsvirinə əsasən qaraçorluların xələcli tayfası yaşamışdır[548].

Daşkənd kəndində 1831-ci ildə 62 nəfər azərbaycanlı yaşamışdır[549]. 1840-cı illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Daşkənd toponimi Azərbaycan dilində "qaya, dağ" mənasında işlənən daş sözü ilə, türk dilində "yaşayış məntəqəsi"

---

[548] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 132.

[549]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 158.

mənasında işlənən kənd sözünün[550] birləşməsindən əmələ gəlmişdir. Daşkənd kəndi "dağlıq, qayalıq yerdə olan yaşayış yeri, kənd" mənasını ifadə edir.

Azərbaycanlıların tarixən yaşadığı qədim yaşayış məntəqəsi Daşxırman kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, XX əsrin inzibati ərazi bölgüsünə əsasən isə Ermənistanın indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində yerləşirdi.

Daşxırman kəndində 1897-ci ildə 23 nəfər, 1904-cü ildə 82 nəfər, 1914-cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır[551].

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri- azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur. Elə 1918-ci ildə də Daşxırman kəndi dağıdılıb xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Daşxırman toponimi qədim türk dilində "kənar, uzaq" mənasında[552] işlənən daş sözü ilə türk dilində "qala, şəhər" mənasında işlənən xırman (əsli kerman//kermen) sözündən[553] əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının İrəvan qəzasının, XX əsrin inzibati ərazi

---

[550]Древнетюркский словарь. Л.: Наука, 1969, с. 290.
[551]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.
[552]Древнетюркский словарь. Л.: Наука, 1969, с. 539.
[553]Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 271.

bölgüsünə əsasən isə indiki Vedi (Ararat) rayonunun ərazisinə daxil olan **Daşnov** kəndi azərbaycanlıların yaşadığı qədim yurd yerlərimizdən biri idi. Daşnov kəndində 1931-ci ildə 72 nəfər azərbaycanlı yaşamışdır[554]. Daşnov kəndi 1937-1948-ci illərdə Ermənistan SSR-in rayonlarından biri olan Qarabağlar rayonunun tərkibində olmuşdur. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən azərbaycanlılar Qərbi Azərbaycandan köçürülməsi ilə əlaqədar Qarabağlar rayonu ləğv edilmiş, rayonun Daşnov kəndinin əhalisi də digər azərbaycanlılar kimi öz tarixi yurdlarından deportasiya edilmiş, yaşayış məntəqəsi kimi Daşnov kəndi XX əsrin 40-cı illərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Daşnov toponimi Azərbaycan dilində "bərk cisim, suxur" mənasında işlənən daş sözü ilə "su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş su yolu, arx, kanal" mənasında işlənən nov sözünün[555] birləşməsindən əmələ gəlmişdir.

---

[554] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 155.

[555] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 114; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 395.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonu ərazisində **Daşnov** kəndi olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 18 km şimal-şərqdə yerləşirdi. Kəndin digər adı erməni mənbələrində Daşnav formasında qeyd edilir[556].

Daşnov kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[557]. Daşnov kəndində 1831-ci ildə 18 nəfər, 1873-cü ildə 30 nəfər, 1886-cı ildə 31 nəfər, 1897-ci ildə 30 nəfər, 1904-cü ildə 39 nəfər azərbaycanlı yaşamışdır[558].

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə erməni hərbi dəstələri tərəfindən qırğınlarla deportasiya olunmuşdur. 1918-ci ildə Daşnov kəndi dağıdılıb xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Daşnov toponimi Azərbaycan dilində işlənən daş sözü ilə ilə "su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş su yolu, arx, kanal" mənasında işlənən nov sözünün[559] birləşməsindən əmələ gəlmişdir.

Mənbələrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonu ərazisində qeydə alınmış **Dəlləkli** kəndi Tsav kəndindən 2 km qərbdə

---

[556] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56.
[557] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 76.
[558] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.
[559] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 114; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 395.

yerləşirdi.Kənddə 1907-ci ildə 336 nəfər azərbaycanlı yaşamışdır. **Dəlləkli** kəndi yaşayış məntəqəsi kimi 1907-ci ildən sonra ləğv edilmişdir.

Dəlləkli toponimi dəlləkli nəsil adı[560] əsasında yaranmışdır.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Hrazdan) rayonunda **Dəllər** kəndi olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 13 km şimal-qərbdə Zəngi çayının qolu olan Dəllər çayının sahilində, Zincirli dağının ətəyində yerləşirdi. Dəllər kəndinin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərzqan (Ərzəkan-İ.B.) kəndinin yaxınlığında yerləşən Dəlilər kəndi" kimi[561], Qafqazın 5 verstlik xəritəsində "Dəllər" (Далляр) formasında [562] qeyd edilmişdir. Dəllər kəndində 1831-ci ildə 181 nəfər, 1873 - cü ildə 227 nəfər, 1886-cı ildə 267 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildə 385 nəfər, 1914-cü ildə 597 nəfər, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır[563]. 1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri- azərbaycanlılar 1918-ci ilin payızında qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuş, kənd dağıdılıb xarabalığa çevrilmişdir. Dəllər İndi ölü kənddir.

---

[560]Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историкоэтнографическое исследование), Баку: Элм, 1986, с. 74.

[561] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 78.

[562]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 74.

[563]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 16-17, 100-101.

Dəllər toponimi Hun tayfa birliyinə daxil olan tele (dəli) türk etnonimi[564] əsasında formalaşmışdır. -lər cəmlik bildirən şəkilçidir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində mövcud olmuş **Dəmirçilər** kəndinin qədim tarixi vardır. Dəmirçilər kəndi rayon ərazisindəki Buzxana dağının yaxınlığında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[565].

Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən məlum olur ki, Dəmirçilər kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşayırlar. Onlar da dövlət kəndliləridir[566].

Dəmirçilər kəndində 1873-cü ildə 82 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 90 nəfər, 1904 - cü ildə 96 nəfər, 1914 -cü ildə 96 nəfər, 1916-cı ildə 133 nəfər yalnız azərbaycanlı yaşamışdır[567].

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ilin payızında qırğınlarla erməni hərbi

[564] L.N. Qumilyev. Qədim türklər (tərcümə edənlər: V.Quliyev, V.Həbiboğlu), Bakı: Gənclik, 1993, s. 21.

[565] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 78.

[566]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 201.

[567]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

dəstələri tərəfindən deportasiya olunmuşdur. 1918-ci ildə kənd dağıdılıb xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Dəmirçilər toponim dəmirçilər türk tayfasının adı[568] əsasında əmələ gəlmişdir.

**Dəmirçi Cəfərli** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Erməni mənbələrində kəndin başqa adları Günnüd, Günnüd Cəfərli, Günnüd Kalavan olduğu da göstərilir[569]. Kənd Çanaxçı kəndinin yaxınlığında, Boz Hunnu dağının ətəyində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Günnüt Cəfərli kimi qeyd edilmişdir[570].

Dəmirçi Cəfərli kəndində 1873-cü ildə 178 nəfər, 1886-cı ildə 209 nəfər, 1897-ci ildə 333 nəfər, 1904 - cü ildə 406 nəfər, 1914-cü ildə 409 nəfər, 1916-cı ildə 383 nəfər azərbaycanlı yaşamışdır.[571]

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-1919-cu illərdə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuş, erməni hərbçiləri kəndin sakinlərini vəhşicəsinə qırıb yandırmışlar. Erməni

---

[568] Azərbaycan Sovet Ensiklopediyası, III c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1979, s. 466.

[569] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

[570] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 71.

[571] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

vəhşiliyindən canlarını qurtaranlar öz kəndlərini tərk etməyə məcbur olmuşlar.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişdir. 1926-cı ildə burada 25 nəfər azərbaycanlı yaşamışdır[572] . 1929-1930-cu illərdə kənddə yaşayan azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir.

Dəmirçi Cəfərli **t**oponimi türk tayfasından olan dəmirçilər[573] və cəfərli nəsil adı[574] əsasında əmələ gəlib "dəmirçilər tayfasından olan cəfərli nəslinin saldığı kənd" mənasını ifadə edir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonu ərazisində **Dərəkənd** kəndi olmuşdur. Dərəkənd kəndi Bazarçay çayının sol sahilində, Ağudi kəndindən 2 km qərbdə yerləşirdi.

Dərəkənd kəndində 1831-ci ildə 164 nəfər, 1873 - cü ildə 515 nəfər, 1886-cı ildə 553 nəfər, 1897-ci ildə 200 nəfər, 1908-ci ildə 120 nəfər, 1914-cü ildə 155 nəfər azərbaycanlı yaşamışdır[575].

1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin

---

572 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85.

573 Azərbaycan Sovet Ensiklopediyası, III c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1979, s. 466.

574 И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 535.

575 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

nəticəsində kəndin sakinləri erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağıdılmışdır. Yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Vağudi kəndindən yaranmışdır[576]. Dərəkənd kəndinin 1918-ci ildə dağıdılması həqiqətə uyğun deyil. Çünki kənddə 1922-ci ildə 101 nəfər, 1926-cı ildə 91 nəfər, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır[577].

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişdir. Dərəkənd kəndində 1922-ci ildə 101 nəfər, 1926-cı ildə 91 nəfər, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır[578]. 1940-cı illərdə Dərəkənd kəndi yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Dərəkənd toponimi Azərbaycan dilində "iki dağ arasında dərin çuxur", "iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə dərin çuxur" mənasında işlənən dərə sözü ilə[579] "yaşayış yeri" mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlib "dərə ərazisində, dərəlikdə yerləşən, salınan kənd" mənasını bildirir.

Mənbələrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonunda **Dərəkənd** adında

---

[576] B.Ə.Budaqov , Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 235

[577] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

[578] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

[579] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s.74.

kəndə rast gəlinir. Dərəkənd kəndi dağ çayı olan Arpaçay çayının yanında, Kəlləqaya dağının ətəyində yerləşir. Erməni mənbələrində kəndin digər adı Dərələr, Daraxkənd olduğu da göstərilir[580].

Dərəkənd kəndində 1873-cü ildə 59 nəfər, 1886-cı ildə 62 nəfər, 1897-ci ildə 77 nəfər, 1904 -cü ildə 105 nəfər, 1914-cü ildə 105 nəfər, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır[581].

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ilin payızında qırğınlarla deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz evlərininə dönə bilmişdir. Burada 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 27 nəfər yalnız azərbaycanlı yaşamışdır[582]. 1928-1929-cu illərdə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Dərəkənd toponimi Azərbaycan dilində “iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə dərin çuxur” mənasında işlənən dərə sözü ilə[583] türk dilində “yaşayış yeri” mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir. ”Kənd” coğrafi

---

[580]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88.
[581] Yenə orada, s. 88-89, 158-159.
[582] Yenə orada, s. 89,159.
[583]Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s.74.

termin kimi türk dilində də “yaşayış məntəqəsi” mənasını ifadə edir[584]. Qədim türk dilində kənd “şəhər” mənasında işlənir[585].

XIX əsrin inzibati ərazi bölgüsündə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, XX əsrin inzibati ərazi bölgüsündə indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində **Dərətumb** kəndinə mənbələrdə rast gəlinir[586]. Kəndin ərazisində X əsrdən əvvələ aid albanlara məxsus tarixi abidələr vardır[587]. Dərələyəz mahalının 1831-ci il kameral təsvirində toponin Tərətün formasında qeyd edilmişdir[588].

M.Hüseynova toponimi Tərətum fonetik formasında araşdırmışdır[589].

Dərətumb toponimi Azərbaycan dilində “iki dağ və ya təpə arasında eləcə də düzənlikdə dərin çuxur”, “çay yatağı, çayın axdığı yer” mənasında işlənən dərə sözü ilə[590] türk dilində “təpə, dağ, zirvə” mənasında işlənən tumb sözünün[591] birləşməsindən əmələ gəlmişdir. Tumb sözü həm də “domba”,

---

[584] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 270-271.
[585] M. Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 353.
[586] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:171.
[587] Հ. Եղիազարյան. Ազիզբեկովի շրջանի կուլտուրայի հուշարձաններ. Երևան: Հայպետրաթ 1955, էջ: 72.
[588] Əhmədli N. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 81.
[589] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 156.
[590] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s.74; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 171.
[591] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 186-187.

"tomba, tump" formasında işlənir[592]. Domba sözü coğrafi termin kimi Azərbaycan dilinin Zəngilan şivəsində "dağ üzərində günbəzvari xırda təpəcik"[593], Qərbi Azərbaycanın Çəmbərək şivəsində "qabarıq, dik yer"[594] mənasında işlənir.

**Dərməzur** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun Qafan rayonu ərazisində, Ermənistan Respublikasının indiki inzibati ərazi bölgüsünə görə Syunik vilayətinin ərazisi daxilində yaşayış məntəqəsi kimi qeydə alınmışdır.

Yaşayış məntəqəsi Kığı çayının yuxarı axarının sol sahilində, Dərməzur çayının sahilində yerləşirdi. 1926-cı ildə 44 nəfər azərbaycanlı yaşamışdır. Dərməzur yaşayış məntəqəsi kimi 1930 - cu illərdə ləğv edilmişdir.

Mənbələrdə XIX əsrin inzibati ərazi bölgüsündə İrəvan quberniyasının Eçmiədzin qəzasında, XIX əsrin inzibati ərazi bölgüsündə Qərbi Azərbaycanın Əştərək rayonunda **Dığır** kəndinin adına rast gəlinir. Bu kənd Alagöz dağının ətəyində yerləşirdi. Dığır kəndinin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə, 1847-ci ilin "Qafqaz diyarının xəritəsində" Dığır[595], Qafqazın 5 verstlik xəritəsində Dıqir,

---

[592]Е.Н.Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 67; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 186.

[593] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 124.

[594]A.Bədəlova. Qərbi Azərbaycan şivələri lüğəti, Bakı:ADPU, 2022, s.128.

[595] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 163; İ.Bayramov, N. Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 18.

Dqir[596] fonetik formalarında qeyd edilmişdir. Apadığımız araşdırma nəticəsində məlum oldu ki, kəndin qədim adı Teger olmuşdur[597]. Dığır kəndində 1831-ci ildə 35 nəfər yalnız azərbaycanlı yaşamışdır[598]. 1840-1850-ci illərdə azərbaycanlılar qovulmuş və Türkiyədən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. 1950-ci ildə kənd ləğv edilmişdir.

Dığır toponimi türk dilində “geniş, böyük gillikli düzənlik yer”, “otsuz boş sahə”, “otsuz” mənasında işlənən takır[599] sözünün fonetik forması olan dığır sözü əsasında əmələ gəlmişdir. Bizim fikrimizcə, dığır teker>takır sözünün dəyişilmiş formasıdır.

İrəvan quberniyasının Eçmiədzin qəzasının, indiki Sərdarabad (Oktemberyan) rayonunun ərazisində **Düzkənd** kəndi olmuşdur. Yaşayış məntəqəsi kimi Düzkəndi kəndi XX əsrin əvvəllərində ləğv edilmişdir[600]. Düzkənd toponimi “düzən çöl, düzənlik” mənasında işlənən düz sözünə[601] “yaşayış yeri, şəhər” mənasında kənd sözünün[602] artırılması əsasında əmələ gəlmişdir.

---

[596] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 90.
[597]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22.
[598] Yenə orada, s. 106.
[599] В.В. Радлов. Опыт словарья тюркских наречий, т lll, ч.1 СПб, 1905, с. 783; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 540-541.
[600]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.
[601] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 70; Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 168.
[602] В.В. Радлов Опыт словарья тюркских наречий, т ll, ч.2, СПб, 1899, с. 1079-1080; Древнетюркский словарь. Л.: Наука, 1969, с. 290.

**Ernəzor** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, indi Qərbi Zəngəzurun Meğri rayonunun inzibati ərazisində mövcud olmuş kəndlərdən idi. Yaşayış məntəqəsi rayon mərkəzindən 16-18 km şimal-şərqdə, Meğri rayonunun Nüvədi kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin başqa adının Eynazor olduğu da qeyd edilir[603].

Ernəzor kəndində 1873-cü ildə 153 nəfər, 1886-cı ildə 204 nəfər, 1897-ci ildə 163 nəfər, 1904-cü ildə 238 nəfər, 1914-cü ildə 562 nəfər yalnız azərbaycanlı yaşamışdır[604].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri ata-baba torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Ernəzor kəndində 1922-ci ildə 207 nəfər, 1926-cı ildə 219 nəfər, 1931-ci ildə 219 nəfər yalnız azərbaycanlı yaşamışdır[605]. 1980-cı illərdə sakinləri kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Ernəzor toponimi türk dilində "arx" mənasında işlənən arna (ernə - İ.B) sözü ilə[606] türk dilində "yarğan, sıldırım",

---

[603] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66.

[604] Yenə orada, s. s.66-67, 142-143.

[605] Yenə orada, s. 66-67, 142-143.

[606] Э.В.Севортян. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.: Наука, 1974, с. 188.

"sıldırım dərə" mənasında işlənən çar sözünün[607] fonetik forması olan və erməni dilində dərə mənasında mənasında işlənən zor sözünün birləşməsindən əmələ gəlmişdir.

**Eşşəkquduran** kənd İrəvan xanlığında Dərəçiçək mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında yaşayış məntəqəsi idi. Bu kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmiş və gəliri 3.000 ağça olmuşdur[608]. Kənd yaşayış məntəqəsi kimi XVIII əsrin sonlarında ləğv edilmişdir.

Eşşəkquduran toponimi heyvan anlayışı bildirən eşşək və feili sifətin indiki zaman formasında işlənən quduran sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əbdüləlilər** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Gorus rayonu ərazisində kəndlərdən biri idi. Əbdüləlilər kəndində 1907-ci ildə 145 nəfər azərbaycanlı yaşamışdır[609].

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur. Əbdüləlilər kəndi 1919-cu ildə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim əbdüləlilər nəsil adı əsasında əmələ gəlmişdir.

---

[607] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 178-179.

[608] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 118.

[609]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s.166.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda qeydə alınmış **Əyrisubat** kəndi qədim tarixə malikdir.

Kəndin digər adı 1847-ci ildə tərtib edilmiş "Qafqaz Diyarının xəritəsi"ndə İrəvan qəzası Sərdarabad sahəsindəki yaşayış məntəqələrindən biri kimi[610], erməni mənbələrində[611] Əyrisifət formasında əksini tapır. Kənd 1940-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Əyrisubat toponimi "ayrılmış", "əyri-üyrü" mənasında işlənən əyri sözü ilə "malların su içdikləri yer", "çayda göldə heyvan suvarılan və ya su götürülən yer" mənasında işlənən suvat > subat sözünün[612] birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda tarixən azərbaycanlılar yaşamış **Əkərək** kəndi qədim tarixə malikdir. Kəndin adı XIII-XIV əsrlərdən çəkilir[613].

Əkərək kəndində 1873-cü ildə 114 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 204 nəfər, 1904-cü ildə 170 nəfər, 1914-cü ildə 211 nəfər, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır[614].

---

610 İ.Bayramov, N. Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 18.

611 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:249.

612 Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987, s. 110.

613 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:18.

614 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44- 45, 124-125.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Əkərək kəndi indi ölü kənddir.

Əkərək toponimi əkər türk etnonimi[615] əsasında formalaşmışdır. Toponimin sonunda işlənən -ək, şəkilçi funksiyasını ifadə edir.

**Əkərli** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Gorus rayonu ərazisində yerləşirdi.

Əkərli kəndində 1886-cı ildə 170 nəfər, 1906-cı ildə 253 nəfər azərbaycanlı yaşamışdır[616].

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmişdir[617]. Əslində 1918-ci ildə kənddən azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş və 1920-ci ildən sonra burada yaşayan olmamış, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Əkərli toponimi əkər türk tayfa adına[618] -li mənsubluq bildirən şəkilçinin artırılması ilə əmələ gəlib, "əkər tayfasına mənsub olan kənd" mənasını bildirir.

XIX əsrin inzibati ərazi bölgüsünə görə İrəvan quberniyasının İrəvan qəzasının, Ermənistan SSR-in inzibati

---

615 В.В. Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. 1, СПб, 1893, с. 97.

616 Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s.166.

617 B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 248.

618 В.В. Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. 1, СПб, 1893, s.97.

ərazi bölgüsünə görə indi Qəmərli (Artaşat) rayonunun ərazisindəki **Əliqırıq** kəndi Qəmərli rayonuna daxil olan Böyük Gilanlar kəndindən 10 km cənub-qərbdə, Əliqırıq bulağının yanında, Pirdağı dağının ətəyində yerləşirdi. Kənd 1930-cu ilin əvvəllərində Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur[619] .

Əliqırıq kəndinin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Əliqırıq[620], 1847-ci ildə tərtib edilmiş "Qafqaz Diyarının xəritəsi"ndə Əliqırıx[621], erməni mənbələrində Əliqrağı, Əlikrık fonetik formalarında qeyd edilir[622]. Əliqırıq kəndi XX əsrin 30-cu illərində Əliqoıx kəndi kimi rəsmi sənədlərdə əksini tapır[623].

Əliqırıq kəndində 1873-cü ildə 110 nəfər, 1886-cı ildə 175 nəfər, 1897-ci ildə 251 nəfər, 1904-cü ildə 202 nəfər, 1914-cü ildə 253 nəfər, 1916-cı ildə 355 nəfər[624], 1918-ci ilin yanvarında 202 nəfər[625] yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında

---

619 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

620 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 118.

621 İ.Bayramov, N. Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 20.

622 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:84.

623 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

624 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

625 История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990, с. 216.

kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar ata-baba torpaqlarından qırğınlarla qovulmuşdur[626]. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar öz dogma kəndlərinə dönə bilmişlər. Əliqırıq kəndində 1922-ci ildə 46 nəfər, 1926-cı ildə 55 nəfər azərbaycanlı yaşamışdır[627].

1929-1930-cu illərdə xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. 1931-ci ildə 46 nəfər azərbaycanlı[628], 1959-cu ildə 90, 1962-cı ildə 62 nəfər əhali (əksəriyyətini azərbaycanlılar təşkil etmişdir) yaşamışdır[629].

Erm.SSR AS RH-nin 10.09.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Blraşen qoyulmuşdur. 1962-cı ildən sonra azərbaycanlılar kənddən köçürülmüş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Əliqırıq toponimi əfşar türk tayfasına məxsus qırıqlı etnonimi[630] əsasında formalaşıb, "qırıqlı tayfasından olan Əliyə məxsus kənd" mənasını ifadə edir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasındakı, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisindəki **Əliqışlağı** kəndi rayondakı Həsənkənd kəndinin yaxınlığında yerləşirdi.

---

626 История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990, с. 216.

627 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84, 155.

628 Yenə orada,s. 155.

629 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:703.

630 T.M. Əhmədov. El-obamızın adları, Bakı: Gənclik, 1984, s. 46.

1847-ci ildə tərtib edilmiş Qafqaz diyarının xəritəsində Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Əliqışlağı kəndinin adı qeyd edilmişdir[631]. Əliqışlağı kəndində 1831-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır[632]. Sonrakı illərdə kənddə yaşayanlar haqqında əlavə məlumat yoxdur. İndi xaraba kənddir.

Əliqışlağı toponimi Əli şəxs adı ilə qışlaq sözünün birləşməsindən əmələ gəlib “Əliyə məxsus qışlaqda olan kənd” mənasını ifadə edir.

**Əlikənd** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi kimi Əlikənd kəndi XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir. Əlikənd toponimi Əli şəxs adı ilə kənd sözünün birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda mənbələrdə qeydə alınmış **Əliməmməd qışlağı** kəndi yaşayış məntəqəsi olaraq Avşar kəndindən cənubda, Araz çayının sol sahilində yerləşirdi.

Əliməmməd qışlağı kəndinin adı 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən kəndlərdən biri olaraq[633], həmçinin Qafqazın 5 verstlik xəritəsində[634] qeyd edilmişdir.

---

631 İ.Bayramov, N. Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

632 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 160.

633 İ.Bayramov, N. Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 22.

634 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 12.

İrəvan əyalətinin Vedibasar mahalının 1831-ci il tarixli kameral təsvirində kənddə 20 tatar (azərbaycanlı-İ.B.) ailəsinin yaşadığı qeydə alınmışdır[635].

Əliməmməd qışlağı kəndində 1831-ci ildə 102 nəfər, 1873-cü ildə 607 nəfər, 1886-cı ildə 691 nəfər, 1897-ci ildə 965 nəfər, 1904-cü ildə 990 nəfər, 1914-cü ildə 1089 nəfər, 1916-cı ildə 850 nəfər azərbaycanlı yaşamışdır[636].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar 1918-1919-cu illərdə ata-baba torpaqlarından deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz doğma torpaqlarına qayıda bilmişlər. Əliməmməd qışlağı kəndində 1922-ci ildə 293 nəfər, 1926-cı ildə 267 nəfər, 1931-ci ildə 373 nəfər azərbaycanlı yaşamışdır[637].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə

---

[635] N. Əhmədli. İrəvan əyalətinin kameral təsviri II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019, s.79-80.

[636] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

[637] Yenə orada, s. 85, 155.

əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən 1948-ci ildən sonra kəndin köklü sakinləri - azərbaycanlalar tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Əliməmməd qışlağı toponimi Əliməmməd şəxs adı ilə türk dilində "qış vaxtı yaşayış məntəqəsi", "daimi yaşayış məntəqəsi", "kənd"[638], Azərbaycan dilində "qoyun və başqa ev heyvanlarının gətirilib saxlandığı mötədil havalı və otlaqlı qışlama yeri"[639] mənasında işlənən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir.

Vedi rayonunda azərbaycanlılara məxsus, yəni tarixən azərbaycanlılar yaşamış kəndlərdən biri də **Əlimərdan** kəndi idi. Yaşayış məntəqəsi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əvvəlcə Qəmərli, daha sonra Vedi (Ararat) rayonunun ərazisinə daxil edilmişdir. Daha dəqiq desək, yaşayış məntəqəsi 1940-cı ilə kimi Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur.

Əlimərdan kəndi Qəmərli (Artaşat) rayonunundan 25 km şimal-şərqdə, Gərni çayının mənbəyində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[640].

Əlimərdan kəndində 1873-cü ildə 52 nəfər, 1886-cı ildə 57 nəfər, 1897-ci ildə 153 nəfər, 1904 - cü ildə 63 nəfər,1914-cü ildə 221 nəfər, 1916-cı ildə 206 nəfər azərbaycanlı yaşamışdır[641].

---

[638] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 276.

[639] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 531.

[640] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 12.

[641] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-1919 - cu illərdə kənddə yaşayan azərbaycanlılar erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. Əlimərdan kəndində 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 41 nəfər, 1931-ci ildə 65 nəfər[642], 1939-cu ildə 115 nəfər[643] yalnız azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarına əsasən 1948-1949-cu illərdə kəndin sakinləri zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir. B.Budaqov və Q.Qeybullayevin fikrincə, kəndin ilkin adı El Mərdin olmuşdur.

[642]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 85, 155.

[643]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:87.

Kəndin adı Anadolunun “Kitabi-Dədə Qorqud” eposunda çəkilən Mərdin qalasından gələnlər mənasını ifadə edir[644].

Əlimərdan toponimi ilə bağlı apardığımız araşdırma nəticəsində bu qənatə gəlirik ki, yaşayış məntəqəsinin adı Əlimardan şəxs adı əsasında formalaşmışdır.

**Əlirzalar** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda aborgen əhalisinin azərbaycanlılar yaşayan kənd olmuşdur. Erməni mənbələrində kəndin başqa adının Zəngili olduğu da qeyd edilir[645].

Əlirzalar kəndində 1873-cü ildə 57 nəfər, 1886-cı ildə 95 nəfər, 1897-ci ildə 126 nəfər, 1904 - cü ildə 103 nəfər, 1914-cü ildə 161 nəfər, 1916-cı ildə 131 nəfər azərbaycanlı yaşamışdır[646].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin yazında kənddə yaşayan azərbaycanlılar erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşlar.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Əlirzalar kəndində 1922-ci ildə 33 nəfər, 1926-cı ildə 47 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır[647]. 1948-49-cu illərdə kəndin əhalisi SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083

---

[644]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 251.

[645]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86.

[646] Yenə orada, s.86-87, 156-157.

[647]Yenə orada, s. 86-87, 156-157.

nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə zorla Azərbaycana köçürülərək kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Əlirzalar toponimi əlirzalar nəsil adı əsasında yaranmışdır.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasının, 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra Sərdarabad (Oktemberyan) rayonunun ərazisində **Əlisli** kəndi qeydə alınmışdır. Əlisli kəndidə 1931-ci ildə 155 nəfər azərbaycanlı yaşamışdır[648].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Əlisli toponimi əlisli nəsil adı əsasında əmələ gəlmişdir.

---

[648] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:91.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində qeydə alınmış **Əliçopur** kəndi azərbaycanlıların tarixi yurdu olduğu mənbələrdə təsbit olunub. Kənddə 1829-1832-ci illərdə 28 nəfər azərbaycanlı yaşamışdır[649]. 1

828-ci il Türkmənçay müqaviləsindən sonra Əliçopur kəndinin sakinləri də təzyiqlərə məruz qalmışdır. Nəticədə onlar doğma ev-eşiklərindən didərgin düşmüş,kənd də xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Əliçopur toponimi Əli şəxs adı ilə çopurlu tayfa adı[650] əsasında əmələ gəlmişdir. Çopurlu etnonimindəki -lu şəkilçisi toponimdə düşmüşdür. Toponim "çopurlu tayfasından olan Əliyə məxsus kənd, çopurlu tayfasından olan Əlinin saldığı kənd" mənasını ifadə edir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra Qərbi Zəngəzurun Qarakilsə (Sisyan) rayonunda aborigen əhalisi azərbaycanlılar olmuş **Əlişar** kəndi qədim etnik tarixə malikdir. Yaşayış məntəqəsi Qarakilsə rayonunun mərkəzindən 18-20 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Kaspi vilayətinin Zəngəzur sahəsindən Ermənistana qatılan kəndlərdən biri olraq Əlişar kəndinin adı göstərilir[651].

---

[649]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:89.
[650]E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 19.
[651] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 28.

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[652]. Əlişar kəndində 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 48 nəfər, 1908-ci ildə 160 nəfər, 1914-cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır[653].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan azərbaycanlı sakinnəri öz kəndlərinə dönə bilmişdir. Əlişar kəndində 1922-ci ildə 105 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır[654]. XX əsrin 30-cu illərin sonlarında kəndin köklü sakinləri qonşu Sofulu kəndinə köçürülərək yaşayış məntəqəsi kimi Əlişar kəndi ləğv edilmişdir.İndi xaraba kənddir.

Əlişar toponimi qədim türk dilində "alçaq dağ" mənasında işlənən alaşar sözünün[655] fonetik variantı kimi toponimin tərkibində sabitləşən alışar < əlişar sözü əsasında yaranmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda qədim kəndlərdən olan **Əmrəkar** kəndi Meğri rayonunun mərkəzindən 9-10 km şimal-qərbdə yerləşirdi. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan

---

[652]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 13.

[653] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77,146-147.

[654]Yenə orada, s. 76-77,146-147.

[655] В.В. Радлов. Опыт словарья тюркских наречий, т.l, ч. 1, СПб, 1893, с. 365.

mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı Əmirəqar formasında qeyd edilmişdir[656] . Əmrəkar kəndində 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 67 nəfər yalnız azərbaycanlı yaşamışdır[657]. Azərbaycanlılar doğma yurdlarından qovulması nəticəsində Əmrəkar kəndi 1940-cı illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Əmrəkar toponimi Əmir şəxs adı ilə türk dilində "sıldırımlı yer", "qaya", "sıldırımlı qaya" mənasında işlənən kayır //kair[658] sözünün fonetik forması kimi toponimin tərkibində "sıldırım qaya" mənasında işlənən kar[659] sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əpəkli** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonu ərazisində xutor kimi qeyd edilmişdir. Yaşayış məntəqəsində 1897-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır[660].

XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə onlar deportasiya olunaraq yaşayış məntəqəsi ləğv edilmişdir. İndi xarab kənddir.

Əpəkli toponimi əpəkli nəsil adı əsasında əmələ gələn patronim toponimdir.

---

656 B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 253.

657 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66-67,142-143.

658 Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 241.

659 Е.Койчубаев. Краткий толковый словарь топонимов Казахстана, АлмаАта: Наука, 1974, с. 107.

660 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 78-79.

**Ərikli** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir. 1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə görürük ki, Ərikli kəndi XVIII əsrin əvvəllərində Sisyan nahiyəsinə tabe olmuşdur[661]. Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində göstərilir ki, kənddə xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Onlar əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Kənddə 12 ailə, 37 kişi və 23 qadın yaşayır ki, onların hamısı tatar (azərbaycanlı-İ.B.) olmuşdur[662].

Ərikli kəndində 1873-cü ildə 60 nəfər, 1886-cı ildə 106 nəfər, 1897-ci ildə 88 nəfər, 1908-ci ildə 126 nəfər, 1914-cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır[663]. 1917-1918-cı illərdə azərbaycanlılar qırğınlarla deportasiya edilmiş və kənd dağıdılmışdır. İndi xaraba kənddir. Ərikli toponimi ərik meyvə adına -li sözdüzəldici şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

**Ərinc** kəndi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda, rayon mərkəzindən 16-17 km şimal-şərqdə, Arpaçay çayının sağ qolu olan Ərinc çayın sahilində yerləşirdi. Toponim "İrəvan

[661]Naxçıvan Sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, s. 252.

[662] N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.92

[663] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

əyalətinin icmal dəftəri"ndə Ərsinc[664], "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Ərnic[665], 1847-ci ildə tərtib edilmiş Qafqaz diyarının xəritəsində Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Arinc[666], Qafqazın 5 verstlik xəritəsində Arinc[667] formalarında, O.Yeğiazaryanın 1955-cı ildə erməni dilində çap olunmuş "Əzizbəyov rayonunun mədəniyyət abidələri" kitabında "Ərinc kənd yeri"[668] formasında qeyd edilmişdir. Kəndin adı erməni mənbələrində XIII əsrdən xatırlanır[669]. B.Budaqov və Q.Qeybullayev kəndin Qırxbulaq mhalında yerləşdiyini və Arınc adlandırıldığını, lakin mənasının məlum olmadığını[670], H.Mirzəyev[671], M.Hüseynova[672] kəndin Arınc adlandırıldığını göstərmişlər. Əslində Azərbaycan dilinin

---

664 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

665 Naxçıvan Sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, s. 60.

666 İ.Bayramov, N. Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

667 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 19.

668 Հ.Եղիազարյան. Ազիզբեկովի շրջանի կուլտուրայի հուշարձաններ. Երևան: Հայպետրաթ 1955, էջ: 109.

669 Հ.Եղիազարյան. Ազիզբեկովի շրջանի կուլտուրայի հուշարձաններ. Երևան: Հայպետրաթ 1955, էջ: 109; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:327.

670 B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 127.

671 H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 129.

672 M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 37.

ahəng qanununa yğun olaraq kəndin adının "Ərinc kəndi" olması daha məntiqidir. Ərinc kəndində 1831-ci ildə 177 nəfər, 1873 -cü ildə 129 nəfər, 1886-cı 152 nəfər, 1897-ci ildə 200 nəfər, 1904-cü ildə 264 nəfər, 1914 -cü ildə 290 nəfər, 1916-cı ildə 252 nəfər yalnız azərbaycanlı yaşamışdır[673]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının rəhbərliyinin göstərişi ilə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sağ qalan azərbaycanlıları doğma yurdlarına dönə bilmişdir. Ərinc kənddinə 1922-ci ildə 23, nəfər 1926-cı ildə 103 nəfər, 1931-ci ildə 171 nəfər yalnız azərbaycanlı yaşamışdır[674]. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə Ərinc kəndinin köklü sakinləri olan azərbaycanlılar 1948-1949-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1949 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

M.Hüseynova toponimin etimologiyası ilə bağlı yazır: "Arinc toponimi "ar+inc" modeli əsasında təşəkkül tapmış, formalaşmış, "ar" komponenti "igid, cəsur, qəhrəman, bahadır" mənasında, "-inc" hissəsi isə mənsubluq, aidlik bildirən

[673] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.
[674] Yenə orada, s. 88-89, 158-159.

şəkilçidir. Mənası "igid türk soyuna məxsus yer, məkan" deməkdir"[675]. Ərinc toponimi, fikrimizcə, türk dilində "möhkəm", "qüvvə", "qüvvətli", "dövlət» mənasınd işlənən erinq sözündən[676] əmələ gəlmişdir. Azərbaycan dilində e~ə, ç~c səs əvəzlənmələrinin qanunauyğunluğunu nəzərə alsaq, onda bu qənaətə gəlmək olar ki, Ərinc elə erinq sözünün dəyişilmiş fonetik formasıdır.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində **Ərgəz** kəndi olmuşdur. Kəndin adı erməni mənbələrində Arkazan kimi də göstərilir[677]. Yaşayış məntəqəsi rayondakı Keşişkənd kəndinin yaxınlığında, Ərgəzçay çayının və Axdərə çayının sahilində, Məlikşah kəndindən 5-6 km məsafədə yerləşirdi. Ərgəz kəndinin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə[678], 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri kimi[679], Qafqazın 5 verstlik xəritəsində[680] qeyd edilmişdir. Ərgəz kəndində Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində

---

[675]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 37.

[676] M.Ə. Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989, s.88.

[677]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ:455.

[678] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 59.

[679]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[680] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 18.

Qaraçorluların təhməzli tayfasının[681] yaşadığı göstərilir. Mahalın 1873-cü il kameral təsvirindən Ərgəz kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[682]. Apardığımız araşdırmalardan məlum olur ki, kəndin əsası 735-ci ildə qoyulmuşdur[683]. Ərgəz kəndində 1831-ci ildə 193 nəfər, 1873 - cü ildə 348 nəfər, 1886-cı ildə 479 nəfər, 1897-ci ildə 587 nəfər, 1904 - cü ildə 745 nəfər, 1914 - cü ildə 820 nəfər, 1916-cı ildə 758 nəfər yalnız azərbaycanlı yaşamışdır[684]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyi, etnik təmizləmə siyasəti və göstərişi ilə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kənddə yaşayan azərbaycanlılar qırğınlarla qovulmuşdur. Kənd 1920- ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.B.Budaqov və Q.Qeybullayev kəndin adını “Ərkəz” formasında göstərərək yazırlar ki, adı “Kitabi-Dədə Qorqud” eposunda çəkilir. Mənası məlum deyil[685].

H.Mirzəyev Ərgəz toponimini tayfa adı ilə bağlayır və qeyd edir ki, bu (Ərgəz toponimi-İ.B.) ya “oğuz”, ya da “kas”,

---

681N. Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 115, 200.

682N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 94.

683Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 455.

684Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 160-161.

685 B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 256.

"kaz" sözləri ilə bağlıdır[686].Apardığımız araşdırmalara əsasən belə qənaətə gəlirik ki, Ərgəz toponimi qədim türk dilində "dağın gün düşən tərəfi" mənasında işlənən er//ir sözünün[687] fonetik forması olan ər sözü ilə "gədiyin ən aşağı yeri" mənasında işlənən gəz sözünün[688] birləşməsindən əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində qeydə alınmış **Əhmədağa** kəndi Gorus rayonundakı Qarnidzor kəndindən 3-3,5 km şimal-şərqdə, dağ ətəyində yerləşirdi. İndi xaraba kənddir.

Əhmədağa toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində mövcud olmuş **Əhmədli** kəndi Göyçə mahalının Əyricə çayının sahilində yerləşirdi. XIX əsrin axırlarında kənd ləğv edilmişdir. XIX əsrin əvvəllərində burada 15 nəfər azərbaycanlı yaşamışdır.

Əhmədli toponimi səlcuq türklərindən olan əhmədli etnonimi[689] əsasında əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra Qərbi Zəngəzurun Qafan rayonunun inzibati ərazisinə daxil olan **Əcili** kəndi Qafan şəhərinin mərkəzindən 14 km şimal-qərbdə, Oxçu çayının sağ qolu olan Əfsərli çayının sağ sahilində yerləşidir. Erməni mənbələrində kəndin adı Acılu, Acrlu, Acrli,

---

686 H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 205.
687 Древнетюркский словарь. Л.: Наука, 1969, с. 175, 211
688R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm , 1966, s. 126.
689M.Vəlili (Baharlı) Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 43.

Tunis Acilu formalarında qeyd edilir[690]. Əhmədli kəndində 1831-ci ildə 9 nəfər, 1873 - cü ildə 134 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 126 nəfər, 1908-ci ildə 335 nəfər, 1914 - cü ildə 100 nəfər azərbaycanlı yaşamışdır[691].

1918-ci ildə kənd daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddən deportasiya edilmiş azərbaycanlılardan sağ qalanlar öz evlərinə dönə bilmişdir. Əcili kəndində 1922-ci ildə 126 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 78 nəfər[692], 1959-cu ildə 69 nəfər[693] azərbaycanlı yaşamışdır. 1950-ci illərdə Əcili kəndinin sakinləri qonşu Müsəlləm kəndinə köçürülmüş və 1960-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Əcili toponim acurlu (>acılu) türk etnonimi[694] əsasında əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində **Əskilum** kəndi qeydə alınmışdır. Yaşayış məntəqəsi Qafan

---

[690] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 316.
[691] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 54-55, 132-133.
[692] Yenə orada, s. 55, 133.
[693] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 316.
[694] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 184; T.Ə.İbrahimov (Şahin). Qaşqaylar, Bakı: Azərbaycan, 1988, s. 92.

şəhərindən 21 km cənub-şərqdə, Oxçu çayının sağ sahilində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[695]. Hazırda xaraba kənddir. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı Əskülüm formasında qeyd edilmiş və göstərilmişdir ki, kəndin adı Azərbaycan dilində əski "köhnə", "qədim" və türk dillərində olum-(olom) "keçid" sözlərindən əmələ gəlmişdir[696].

Türk mənşəli bulqar tayfasının tərkibində iskil //eskil (> əskil-İ.B.) tayfası olmuşdur[697]. Bu baxımdan belə qənaətə gəlirik ki, elə Əskülüm toponimi iskil //eskil (> əskil-İ.B.) tayfasının adı əsasında əmələ gəlmişdir.

Mənbələrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində rast gəlinən **Genalı** kəndi Keşişkənd rayonundakı Arpa (Areni) kəndindən 12 km şimal-şərqdə, Yelpin çayının sahilində, Yelpin kəndən 6 km şimalda yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[698].

Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, Genalı kəndinin əhalisi şiə məzhəbindən olan müsəlman tatarlarıdır (azərbaycanlılardır-İ.B.). Burada yaşayanlar xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli

---

[695]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 21.

[696]B. Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 258.

[697] Г.А.Гейбуллаев.К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 135.

[698]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 60.

kənd əhalisidir[699].Genalı kəndində 1873-cü ildə 96 nəfər, 1886-cı ildə 125 nəfər, 1897-ci ildə 151 nəfər, 1904 - cü ildə 169 nəfər, 1914-cü ildə 185 nəfər, 1916-cı ildə 216 nəfər yalnız azərbaycanlı yaşamışdır[700].

1918-ci ildə yaradılmış Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin payızında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Genalı kəndində 1922-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır[701]. 1924-1925-cı illərdə azərbaycanlılar Ermənista SSR rəhbərliyi tərəfindən sıxışdırılaraq tamamilə öz doğma yurdlarından qovulmuşdur. Kənd 1933 - cü ildə xarabalığa çevrilərək ləğv edilmişdir.

B.Budaqov və Q.Qeybullayev kəndin adının Genəli olduğunu göstərərək mənasının məlum olmadığı qənaətinə gəlmişlər[702].

H.Mirzəyev toponimin mənşəyinin böcək adını bildirən gənə sözü ilə bağlı olduğu qənaətinə gəlmişdir və bunula əlaqədar kəndin yaşlı adamların söylədiyi rəvayəti də

---

[699]N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 154.

[700]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163. հարյուրամյակում

[701] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 162-163.

[702]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 312.

xatırladır[703]. M.Hüseynova Genəli topniminin Gənəli formasında olduğunu göstərərək yazır: "...Gənəli toponimi "Genzək" və "Əli" şəxs adlarından yaranmışdır. Genzək tayfasından çıxmış Əli adlı şəxsin adından törəmiş bu oykotoponiminin birinci komponentindəki söz qədim "genəli" (-?) tayfa adının təhrifidir. "Genzək/Gencək" tayfalarının qədim kökü sakalara bağlanırı və Şərqi Türküstanda (qədimdə sakların yaşadığı ərazi) Oğuzların içərisində Gəncək tayfası da var idi. Bu tayfaların Azərbaycanda mövcudluğunu xeyli sayda etnotoponimlər də sübut edir. İndiki Ermənistanda "Gəncək" tayfası adı əsasında formalaşmış düzəltmə və mürəkkəb struktura malik etnotoponimlər sayı 10-a qədərdir (B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998,, 314-315). Ola bilsin ki, Əli adlı bir şəxs Gəncək tayfasından çıxmış və tarixən öz nəsli ilə bu kəndin bünövrəsini qoyduğuna görə oykonim təhrifə məruz qalaraq yerli danışıqda belə şəkil almışdır"[704].

Apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, Genalı toponiminin birinci komponenti gen sözündən ibarətdir. Mahmud Kaşğari gen sözü ilə bağlı yazır: "Gen-şərq ölkələrində hər şəhərə verilən bir addır. Bu kəlmə, kənd kəlməsinin qısaltmışıdır"[705].

R.Əsgər M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinin tərcüməsində "Lüğət"in türk dilinə tərcüməsində əksini tapan "gen" sözünü Azərbaycan dilində "kən" fonetik formasında

---

[703]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 218.
[704] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 94.
[705] M.Kaşğari. Divani - lügat - it türk, I, Ankara, 1992, s. 320.

vermişdir: "şərq öıkələrində hər şəhərə verilən addır. Bu söz (kən-İ.B.) "kənd" sözünün qısaldılmışıdır".[706] Deməli, Genalı toponimindəki gen sözü qədim türk dilində kənd mənasını ifadə etmişdir.Topnimin ikinci komponenti Alı (Əli) şəxs adından ibarətdir. Toponim "Alıya (Əliyə) məxsus kənd" mənasını ifadə edir.

**Gendərə** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində kənd olaraq mənbələrdə qeyd edilmişdir.

Gendərə yaşayış məntəqəsi olaraq Kotanlı düzənliyində, Qaraqayadərəsi çayının sahilində, rayondakı Kotanlı (Qarmraşen) kəndinin 4 km şimal-şərqində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [707].Gendərə kəndində 1873-cü ildə 152 nəfər, 1886-cı ildə 217 nəfər, 1897-ci ildə 330 nəfər, 1904-cü ildə 503 nəfər, 1914-cü ildə 553 nəfər, 1916-cı ildə 354 nəfər yalnız azərbaycanlılar yaşamışdır[708].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin sonlarında kəndin sakinləri - azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə uğrayaraq deportasiya olunmuşlar.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar ata-

---

[706] M.Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 350.

[707] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 60.

[708]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

baba torpaqlarına dönmüşdür. Gendərə kəndində 1922-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır[709].

1923-cü illərdə kəndin köklü sakinləri olan azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Gendərə toponimi Azərbaycan dilində "böyük, geniş" mənasında işlənən gen sözü ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir.

**Gəncə** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Kənd rayondakı Amağu kəndinin yaxınlığında yerləşirdi[710].

M.Hüseynova Gəncə toponiminin adı, tarixi və etimologiyası ilə bağlı yazır: "İndiki Ermənistan ərazisində "gənzək" türk mənşəli tayfalarının məskunlaşması IX-X əsrlər arasına təsadüf edir. Məlumdur ki, oğuzların Azərbaycan ərazisində mövcudluğu iki böyük dövrü əhatə edir: 1) ən qədim; 2) qədim və orta əsr dövrlərini. Gənzək tayfaları da oğuzların içərisindən ən qədim dövrlərdə çıxmış və Makedoniyalı İsgəndərinzamanında çox yaxşı tanınmışdır. Makedoniyalı İsgəndər dövründə gənzə sözü "xəzinə saxlanılan yer" mənasındaişlənirdi. Sonralar bu söz tayfa adına çevrilmiş və orta əsrlərdə Kaşğarı bu sözü bir oğuz tayfasının boyu kimi göstərmişdir. Kaşğarı dönəmində "gəncək-gencək" tayfaları Qərbi Azərbaycanda da mövcud idi.

---

[709]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:158-159.

[710]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 361.

Gənzək etnotoponimi istər leksik-semantik quruluşu, istərsə də areal-coğrafi cəhətdən türkdilli xalqlar yaşayan ərazilərdə geniş şəkildə yayıldığı üçün birmənalı şəkildə deyə bilərik ki, indiki Ermənistanda mövcud olmuş bu coğrafi ad və XX əsrin əvvəllərində ölü kəndə çevrilən bu yaşayış məntəqəsi Azərbaycan türklərinə məxsus olmuş, indiki "Gəncə" toponiminin yerli tələffüzdə tarixi fonetik dəyişmələrlə müşayiət edilmiş şəklidir."[711]

Kəndin adı erməni mənbələrində Qandzak formasında qeyd edilməklə XIII əsrdən xatırlandığı göstərilir.

Bununla yanaşı əlavə edək ki, kənd XIII-IX əsrlərdə mövcud olmuş və XVIII əsrin II yarısına qədər yaşayış məntəqəsi kimi fəaliyyət göstərmişdir[712]. Onu qeyd edək ki, erməni mənbələrində qədim Azərbaycan şəhəri Gəncənin adı Qandza, Qandzak formalarında qeyd edilir və bununla şəhərin tarixi adı təhrif edilərək erməni dilinə uyğunlaşdırılır. Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində tarixən mövcud olmuş Gəncə kəndi sonralar xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində qeydə alınmış Gəncə toponimi gencək türk tayfa adı[713] əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Giləkərli** kəndi olmuşdur**.** Giləkərli kəndi Qərbi Zəngəzurun

---

[711] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 18.

[712] Հ.Եղիազարյան. Ազիզբեկովի շրջանի կուլտուրայի հուշարձաններ. Երևան: Հայպետրաթ 1955, էջ: 34; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 783.

[713] M.Kaşğari. Divani - lügat - it türk, I, Ankara, 1992, s. 480.

indiki Gorus rayonu ərazisi daxilinə təsadüf edir.. Giləkərli kəndində  XX əsrin əvvəllərində 38 nəfər azərbaycanlı yaşamışdır[714].  1905-1906-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən kənddən qırğınlarla qovulmuş və kənd ləğv edilmişdir. B.Budaqov və Q.Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə göstərmişlər ki, toponimin mənası məlum deyil[715]. Əslində toponimin tərkibində əkər türk tayfa adı[716] əksini tapıb: gil+əkər+li. Bunun nəticəsində belə qənaətə gəlirik ki, kəndin adı əkər türk tayfa adı  əsasında formalaşmışdır.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində qədim yaşayış məntəqələrindən biri **Gomur** kəndi olmuşdur. Yaşayış məntəqəsi Qarakilsə rayonundakı Şəki kəndindən şərqdə yerləşirdi. Gomur  kəndinin  adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[717] 1727-ci iltə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə[718] Kömür formasında qeyd edilmişdir  və illik gəliri 2.110 ağça olmuşdur [719].  XX əsrin

---

[714]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 166.
[715]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press,  1998, s. 317.
[716]В.В.Радлов.Опыт словарья тюркских наречий, т.l, ч. 1, СПб, 1893, с. 97.
[717]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri  akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996,  s. 150.
[718] Naxçıvan Sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin  müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı: Sabah,  s.316.
[719] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri  akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996,  s. 150.

əvvəllərində Gomur kəndi yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Gomur toponimi "dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasında işlənən kömür sözündən[720] əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində qeydə alınmış **Göyabas** kəndi Paşalı rayonun mərkəzindən 15-17 km şimal-qərbdə, Herher çayının sahində yerəlşirdi.

1995-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuş "Ermənistan azərbaycanlılarnın tarixi coğrafiyası" kitabında kəndin adı Qayabas kimi verilir[721] .

Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, kəndin adı Göyabbas formasında qeyd edilmişdir Bu kəndin əhalisi şiə məzhəbindən olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Burada yaşayanlar xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kənd əhalisidir[722].

Göyabas kəndində 1873-cü ildə 132 nəfər, 1886-cı ildə 165 nəfər, 1897-ci ildə 202 nəfər, 1904-cü ildə 223 nəfər, 1914-cü ildə 245 nəfər, 1916-cı ildə 229 nəfər yalnız azərbaycanlı yaşamışdır[723]. Kəndin sakinləri 1918-ci ildə yaradılmış Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində

---

[720] В.В. Радлов. Опыт словарья тюркских наречий, т ll, 2, СПб, 1899, с. 1321.

[721]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 341.

[722]N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 175.

[723]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

1918-ci ilin payızında erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1918-ci ildə yaşayış məntəqəsi kimi Göyabas kəndi ləğv edilmişdir. İndi xaraba kənddir.

H.Mirzəyev yazır ki, Göyabas sözünün formalaşmasına gəldikdə, demək lazımdır ki, burada iki variant ola bilər:1) bu toponim iki sözün- "Göy" və "Abbas" sözlərinin birləşməsindən əmələ gəlmiş, toponimin ikinci tərəfində fonetik dəyişmə baş vermiş, kəndin adı ilk vaxtlar Göyabbas olmuş, daha sonra "b" səsinin biri düşərək Göyabas formasına düşmüşdür. 2) Altay dillərində sıldırım sözünün mənasını verən "bayas, bayaz" sözü də vardır. Ola bilsin ki, bu tarixən sıldırım qayalıqda olan kənd, qaya başında olan kənd mənasında işlənmişdir[724] .

M.Hüseynova Göyabas topnimin əmələ gəlməsi ilə bağlı yazır ki, oykonimin ikinci komponentindəki "Abbas" şəxs adındakı qoşa "b" samitinin birinin düşməsi nəticəsində yer adı Abas şəklini almışdır. Birinci komponentdəki "göy" sözü qədim türk, o cümlədən Azərbaycan dilində "uca, hündür, yüksək" mənalarını da bildirmişdir. Güman ki, kənd dağın hündür yerində, Abbas adlı şəxs tərəfindən bina edildiyinə görə belə adlandırılmışdır. Ehtimal ki, toponim Abbasın nəslindən olanlar, Abbasgillər anlamını da daşımış olsun[725].

Göyabas topniminin yaranması ilə bağlı mənbələr üzərində apardığımız araşdırmalardan bu nəticəyə gəlirik ki, toponim Göyabbas formasında deyil, Göyabas formasında mənbələrdə

---

[724] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 232-233.
[725] M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 20.

qeyd edilmişdir. Bu baxımdan deyə bilərik ki, Göyabas toponimi rəng bildirən göy sözü ilə xəzərlərin abas etnonimindən[726] əmələ gəlmişdir.

XİX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, XX əsrin inzibati ərazi bölgüsünə əsasən indiki Karavansaray (İcevan) rayonunda **Göyərçin** kəndinin adı qeyd edilir. Yaşayış məntəqəsi rayon mərkəzindən 16 km cənub-şərqdə yerləşirdi.

Göyərçin kəndi 1930-cu ilin axırlarına kimi fəaliyyət göstərən Dilican rayonunun (Dilican indi respublika tabeliyində şəhərdir) inzibati ərazi bölgüsünə daxil olmuşdur.

Göyərçin kəndində 1897-ci ildə 257 nəfər, 1904-cü ildə 89 nəfər, 1914-cü ildə 93 nəfər, 1916-cı ildə 132 nəfər, 1919-cu ildə 141 nəfər azərbaycanlı yaşamışdır[727].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1919-cu ilin əvvəllərində Andranikin quldur dəstəsi kəndə hücum edərək əhalinin var-yoxunu talan etmiş, əhalisini qırğınlarla öz doğma torpaqlarından qovmuşdur.

29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kənd sakinlərindən sağ qalanlar kəndlərinə dönə bilmişdir. Göyərçin kəndində 1922-ci ildə 143 nəfər, 1926-cı ildə 221 nəfər, 1931-ci ildə 205 nəfər[728], 1939-cu ildə 237 nəfər, 1959-cu

---

[726] Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 54.

[727]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31, 114-115.

[728]Yenə orada, s. 30-31, 114-115.

ildə 107 nəfər[729] azərbaycanlı yaşamışdır. Kənd 1950-ci ildə yaşayış məntəqəsi kimi ləğv edilərək sakinləri Azərbaycana və qonşu Salah kəndinə köçürülmüşdür. İndi xaraba kənddir.

Göyərçin toponimi peçeneqlərə məxsus göyərçi (kuyerçi) türk tayfasının adından[730] əmələ gəlmiş etnotoponimdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində qeydə alınmış yaşayış məntəqəklərindən biri olan **Göyərçin** kəndi Arpaçay çayının sahilində yerləşirdi.

Göyərçin kəndində Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində Qaraçorluların həsənanlı tayfasının yaşadığı göstərilmişdir[731].

Mahalın 1873-cü il kameral təsvirindən Göyərçin kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[732].

Göyərçin kəndində 1831-ci ildə 20 nəfər, 1873-cü ildə 48 nəfər, 1886-cı ildə 34 nəfər, 1897-ci ildə 84 nəfər, 1904 - cü ildə 60 nəfər, 1914-cü ildə 66 nəfər, 1916-cı ildə 72 nəfər yalnız azərbaycanlı yaşamışdır[733]. 1918-ci ildə yaradılmış daşnak Ararat

---

[729] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 895.

[730] Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 42.

[731] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s.112, 198.

[732] N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s.173.

[733] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.

Göyərçin kəndi yaşayış məntəqəsi kimi 1930-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Göyərçin toponimi peçeneq türk tayfasının bir qolu olan göyərçi (kuyerçi) etnonimi[734] əsasında əmələ gəlmişdir.

**Göyçay** İrəvan əyalətinin Göyçə mahalında, indiki Kəvər (Kamo) rayonu ərazisində qədim kənd kimi mənbələırdə əksini tapır.

Göyçay yaşayış məntəqəsi kimi XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Göyçə mahalında xarabalığa çevrilmiş kəndlərin siyahısında Göyçay kəndinin də adı çəkilir[735]. Kəndin adı Göyçə gölünə tökülən Göyçay çayından götürülmüşdür.

Göyçay toponimi "şəffaf, tərtəmiz" mənasında işlənən göy sözü ilə çay sözünün birləşməsindən əmələ gəlmişdir.

**Gölyand** Yelizavetpol (Gəncə) quberinyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində kənd olmuşdur.

Gölyand kəndi Murğuz dağının ətəyində yerləşirdi. İndi xaraba kənddir. Kəndin və eləcə də kəndə aid qəbirstanlığın xarabalıqları indi də durur.

---

[734] Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 42.

[735] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с.515;Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: XVII.

Gölyand toponimi "təbii su hövzəsi" mənasında işlənən göl sözü ilə türk dilində "yan, tərəf"[736], "dağın döşü, yamacı"[737] mənasında işlənən yan sözü əsasında əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında qeydə alınmış **Gölcük** kəndinin tarixi ərazisi Qərbi zəngəzurun indiki Gorus rayonunun ərazisinə təsadüf edir. **Gölcük** kəndi Gorus şəhərindən cənub-şərqdə, Bərgüşad çayının yuxarı axarında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindən Ermənistana qatılan kəndlərdən biri olaraq Gölcük kəndinin adı da qeyd edilmişdir[738]. XIX əsrin 70-ci illərində 1870-ci il "Əsasnaməsi"nə əsasən mülkədar torpaqlarında dövlət kəndliləri yaşamışdır. Kəndin əhalisini əkinçiliklə məşğul olan müsəlman tatarları (azərbaycanlılar-İ.B.) təşkil etmişdir. Kənddə cəmi 11 ailə yaşamışdır ki, onların da hamısı tatar (azərbaycanlılar-İ.B.) olmaqla 27-si kişi və 16-sı qadın idi[739]. İndi xaraba kənddir.

Kəndin adı Azərbaycan dilində "təbii su hövzəsi" mənasında işlənən göl sözünə kiçiltmə mənalı söz əmələ gətirən -cük şəkilçisinin artırılması ilə düzəlmişdir.

**Gödəkli** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayon ərazisində kənd olmuşdur. Kənd Şahverdçay çayının yuxarı tərəfində yerləşirdi. Kəndin adı 1728-ci il tarixli

---

[736]Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 649.

[737]Е.Н.Бушуева.Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 166.

[738]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 29.

[739] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.191.

“İrəvan əyalətinin icmal dəftəri”ndə Kötəkli formasında qeyd edilmişdir. Gəliri 4.500 ağça olmuşdur.[740] 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə Zəngibasar sahəsindəki kəndlərdən biri olaraq Gödəkli kəndinin adı əksini tapmışdır[741].Gödəkli kəndində 1831-ci ildə 80 nəfər, 1873-cü ildə 79 nəfər, 1886-cı ildə 133 nəfər, 1897-ci ildə 204 nəfər, 1908-ci ildə 242 nəfər, 1914-cü ildə 258 nəfər, 1916-cı ildə 237 nəfər[742], 1918-ci ildə 242 nəfər[743] yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1919-cu ildə kəndin əhalisi erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir[744]. Gödəkli indi xaraba kənddir.Gödəkli toponimi qazaxlar türk tayfasından olan gödəkli etnonimi[745] əsasında əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının, 1920-ci ildə Ermənistan SSR qurulduqdan sonra

---

[740] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 89.

[741] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 20.

[742] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 108 -109.

[743] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

[744] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

[745] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с.535.

yaradılan Paşalı (Vayk) rayonunun ərazisinə təsadüf edən yaşayış məntəqələrindən biri **Gümüşxana** kəndi adlanırdı. Yaşayış məntəqəsi Dağ çayının qolu olan Gümüşxana selavının yanında yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Gümüşcüq kimi qeyd edilmişdir. Kəndin gəliri 2.517 ağça təşkil etmişdir.[746] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Gümüşxana kəndinin adı qeyd edilmişdir[747].

1831-il kameral təsvirində Gümüşxana kəndində Dərələyəz mahalının qaraçorluların bozlu tayfasının yaşadığı göstərilmişdir[748].

Mahalın 1873-cü ilin kameral təsvirindən Gümüşxana kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[749].

Gümüşxana kəndində 1831-ci ildə 35 nəfər, 1873-cü ildə 145 nəfər, 1886-cı ildə 136 nəfər, 1897-ci ildə 203 nəfər, 1904-cü ildə 360 nəfər, 1914-cü ildə 394 nəfər, 1916-cı ildə 234 nəfər yalnız azərbaycanlı yaşamışdır[750]. 1918-ci ildə yaradılmış

---

[746]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Bünyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[747]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[748] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s.134.

[749]N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s.198.

[750]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına dönmüşdür.

Gümüşxana kəndində 1922-ci ildə 74 nəfər azərbaycanlı yaşamışdır[751]. 1923-1924-cü illərdə onlar da sıxışdırılaraq kənddən çıxarılmışdır. 1925-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənddə gümüş filizi olduğu üçün Gümüşxana adlandırılmışdır. Gümüşxana toponimi gümüş sözünə toponimiyada "yaşayış məntəqəsi", "ərazi, yer"mənasında işlənən xana sözünün[752] qoşulması yolu ilə əmələ gəlmişdir.

**Günbəz** İrəvan quberniyasının Abaran qəzasının, indiki Əştərək rayonunun ərazısinə uyğun gələn kəndlərdən biri idi. Yaşayış məntəqəsinin adı 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Günbəzli formasında qeyd edilmmişdir. Gəliri 1.500 ağça olmuşdur[753].

1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-1830-cu illərdə kəndə

---

751 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:158-159.

752 Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 590.

753 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 109.

Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir[754]. Kənd yaşayış məntəqəsi kimi 1850-ci illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Günbəz toponimi "yarımkürə şəklində bina damı, qübbə" mənasında işlənən günbəz sözü[755] əsasında əmələ gəlmişdir. Kəndin adı yerləşdiyi ərazinin relyefinə uyğun əmələ gəlmişdir.

**Güneyvaz** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, indi Qərbi Zəngəzurun Meğri rayonunun ərazisi daxilində yerləşirdi. Güneyvaz kəndi XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir.

Güneyvaz toponimi Azərbaycan dilində "cənub, gün düşən yer" mənasında işlənən güney sözü ilə türk dilində "dağ çökəyi", "düzən yerdə tirə, təpəcik, hündür yer", "çüxur, çökək" mənasında işlənən bazı//baz sözünün[756] dialekt variantı olan vaz sözündən əmələ gəlmişdir. Toponimin ikinci komponenti olan vaz buryat və monqol dillərində "bayz", "bays", "bayts" fonetik formalarında "dik qaya", "sıldırım dağ", "dağın ətəyində dar dərədə çay axan sıldırım qayalıq" mənalarını ifadə edir[757].

**Güneyvəng** XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, XX əsrin 20-ci illərində indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Güneyvəng

---

754 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 977.

755 Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 214.

756 R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 120; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, 64; Q.Qeybullayev. Bəzz toponiminin mənşəyi. - Tarix və onun problemləri, № 2, 1992, s.136.

757 Q.Qeybullayev. Bəzz toponiminin mənşəyi. - Tarix və onun problemləri, № 2, 1992, s.136.

kəndi Alagöz çayının yanında, Alagöz kəndi ilə Qovuşuq kəndi arasında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[758].

Dərələyəz mahalının 1831-il kameral təsvində Güneyvəng kəndində qaraçorluların hacısamlı tayfasının yaşadığı göstərilmişdir[759]. Mahalın 1873-cü il kameral təsvirindən Güneyvəng kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[760]. Güneyvəng kəndində 1831-ci ildə 58 nəfər, 1873-cü ildə 40 nəfər, 1886-cı ildə 75 nəfər, 1897-ci ildə 103 nəfər, 1904-cü ildə 124 nəfər, 1914-cü ildə 136 nəfər, 1916-cı ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır[761].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar doğma yurdlarına dönə bilmişdir.

---

[758] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 71.

[759] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s.96.

[760] N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s.187.

[761] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.

Güneyvəng kəndində 1922-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır[762]. 1924-1925-cı illərdə kənddə yaşayan azərbaycanlılar çıxışdırılaraq qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

B.Budaqov, Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə Güneyvəng kəndinin XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar dağıdılıb ləğv olunduğu göstərilib[763] .

M.Hüseynova Güneyvəng toponiminin tarixi və etimologiyası ilə bağlı yazır: "Dərələyəz mahalında ən qədim kəndlərdən olan Günəvəng mürəkkəb struktura malik olub, "güney" və "vəng" sözləri əsasında formalaşmışdır. Bu yaşayış məntəqəsi Keşkəndi (Keşişkənd-İ.B.) rayonunda, Arpa çayının sağ qoluna qoşulan Canı çayının üstündə yerləşmiş və şərq tərəfində Qovuşuq kəndi, sol tərəfində isə Ələyəz kəndi ilə sərhədlənirdi. Cənub və Şimal tərəfləri dağlarla əhatə olunmuş bu kənd zəngin flora və faunayası ilə seçilirdi. XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə kimi kameral sənədlərdə əhalinin sayına nəzar salıdıqda burada tək-tük sayda ermənin yaşadığı məlum olur. Günəvəyin kəndi də 1930-cu ildə erməniləşdirmə siyasətinin qurbanı olmnuş, kənd yandırılmış, dağıdılmış, viran edildikdən sonra ləğv olunmuşdur. Güneyvəng toponimi ilk coğrafi termin səciyyəli leksik vahidlər əsasında tarixən yaranasa da, bu kənddə Türkiyədən XI əsrdə gəlmiş Hacısamlı tayfası və onun müyəyyən qolları yaşamışdır.

---

[762] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:160-161.

[763] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.327.

Hacısamlı tayfasının 10 qolu olmış və onların bir hissəsi Dərələyəzin Qoqus, Qozulca, Ağlagöz, Qaraqaya kəndlərində, bir hissəsi Qotur, Ayasısi, Qabaxlı kəndlərində, digər bir hissəsi isə Naxçıvan də yaşamışdır”[764].

Güneyvəng kəndində “tək-tük sayda ermənінin yaşaması” da həqiqəti əks etdirmir. Ümumiyyətlə, Güneyvəng kəndində bir nəfər belə azərbaycanlılardan başqa, digər millətin nümayəndəsi, o cümlədən erməni yaşamamışdır[765].

B.Budaqov, Q.Qeybullayev və M.Hüseynovanın Güneyvəng kəndinin 1930-cu illərdə dağıdılıb xarabalığa çevrilməsi vələğv edilməsi fikri həqiqəti əks etdirmir. Tarixi mənbələrə əsasən Güneyvəng kəndində 1922-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır və Ermənistan SSR-də sonrakı illərdə-1926-cı və 1931-ci illərdə əhalinin siyahıya alınmasında Güneyvəng kəndində əhalinin yaşamadığı mənbələrdə qeyd edilmişdir[766]

Güneyvəng kəndinin adı bu kəndin üstündəki güneydə, döşdə tikilmiş alban abidəsindən götürülmüşdür[767]. Deməli, Güneyvəng toponimi Azərbaycan dilində “gün düşən yer, cənub” mənasında işlənən güney sözü ilə türk dilində “qala” mənasında işlənən vəng sözündən əmlə gəlmişdir.

---

[764]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 24.

[765] Ətraflı məlumat üçün bax: Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:92-93,160-161.

[766] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:160-161.

[767]H.Mirzəyev.Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997, s. 211.

XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasında **Güneyqoruq** kəndi qeydə alınmışdır**.** Bu kənd indiki Axta (Hrazdan) rayonu ərazisi daxilinə düşür.

Yaşayış məntəqəsi Axta rayonundakı Dərəçiçək kəndinin yaxınlığında yerləşirdi. XIX əsrin axırlarında kənddə 7 nəfər azərbaycanlı yaşamışdır.

Güneyqoruq kəndi XX əsrin əvvəllərində ləğv edilmişdir[768].

Güneyqoruq toponimi Azərbaycan dilində "cənub", "gün düşən yer" mənasında işlənən güney sözü ilə "əkilmiş yerlər", "istifadə edilməsi qadağan olunmuş yerlər" mənasında işlənən qoruq sözündən[769] əmələ gəlib.

İrəvan quberinyasının İrəvan qəzasının, indiki Vedi (Ararat) rayonunun ərazisi daxilinə uyğun gələn **Güneyyurd** kəndi Avşar kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır[770].

XX əsrin əvəllərində, 1905-1906-cı illərdə erməni-azərbaycanlı savaşı nəticəsində azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiyaya olunmuş və kənd xarabalığa çevrilmişdir.

Güneyyurd toponimi Azərbaycan dilində "cənub", "gün düşən yer" mənasında işlənən güney sözü ilə yaşayış yeri mənasını bildirən yurd sözündən əmələ gəlmişdir.

---

[768] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 920.
[769] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 548.
[770] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda qeydə alınmış **Hamamlı** kəndi Abaran çayının sahilində yerləşirdi.

Hamamlə kəndinin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə[771], Qafqazın 5 verstlik xəritəsində[772] qeyd edilmişdir.

Hamamlı kəndində 1873-cü ildə 340 nəfər, 1886-cı ildə 353 nəfər, 1897-ci ildə 445 nəfər, 1908-ci ildə 600 nəfər, 1914-cü ildə 636 nəfər, 1916-cı ildə 526 nəfər, 1918-ci ildə 208 nəfər, 1919-cu ildə 360 nəfər azərbaycanlı yaşamışdır[773].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinn və göstərişinin nəticəsi olaraq 1919-cu ilin mart-aprel aylarında azərbaycanlılar erməni hərçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar ata yurdlarına dönə bilmişdir. Hamamlı kəndində 1922-ci ildə 96 nəfər, 1926-cı ildə 88 nəfər, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlılar yaşamışdır[774].

---

[771] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 114.

[772] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 14.

[773] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107; История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

[774] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-1953-cü illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir, İndi xaraba kənddir.

Qeyd edək ki, IX əsrin ortalarında yaşamış alban hökmdarının adı Hamam olmuşdur[775]. Fikrimizcə, Hamamlı toponimi Hamam şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılmasından əmələ gəlmiş hamamlı nəsil adı əsasında yaranmışdır.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda qeydə alınan **Hand** kəndi Vedi çayının sağ qolu olan Xosrov çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində And formasında qeyd edilmişdir[776]. Kəndin adı erməni mənbələrində Hand kimi qeyd edilir[777].

1937-1948-ci illərdə Ermənistan SSR-in inzibati rayonlarından biri olan Qarabağlar rayonunun tərkibində olmuşdur. Qrabağlar rayonu SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər

---

[775] Г.А. Гейбуллаев К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, s.464.
[776] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 16.
[777] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86.

azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarının nəticəsi kimi ləğv edilmişdir. Rayonun yaşayış məntəqələrinin bir neçəsi, o cümlədən Hand kəndi Vedi rayonunun tərkibinə verilmişdir Hand kəndində 1873-cü ildə 106, 1886-cı ildə 158, 1897-ci ildə 201, 1904 - cü ildə 173, 1914-cü ildə 297, 1916-cı ildə 241 nəfər azərbaycanlı yaşamışdır[778]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-1919-cu illərdə sakinləri-azərbaycanlılar vəhşicəsinə qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Hand kəndində 1922-ci ildə 47,1926-cı ildə 63, 1931-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır[779].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi

[778] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.
[779]Yenə orada, s. 86-87, 154-155.

ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1948-1949-cu illərdə Azərbaycana köçürümş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. B.Budaqov və Q.Qeybullayev Hand toponimi ilə And toponimini eyni mənşəli adlandıraraq Hand toponimin izahını And toponimi ilə eyniləşdirmişlər. And toponimini türk dillərində anta, anda, andı, andi sözləri ilə əlaqələndirərək "izləmək", "gözləmək", "keşik çəkmək" sözündən düzəldiyini göstərir və əlavə edirlər ki, and tərkibli toponimlər mənşəcə qaravul (keşikçi) məntəqələri (qalaçaları) əsasında yaranmışdır[780].

Ə.Ələkbərlinin fikrincə, Hand toponimi hun etnonimindən əmələ gəlmişdir[781].

Bizim fikrimizcə, Ant toponimi "çöl, tarla", "həndəvər, ətraf" mənasında işlənən hənd sözü[782] əsasında yaranmışdır.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunun ərazisi daxilində **Haramlı** kəndi olmuşdur. Haramlı kəndində 1831-ci ildə 17 nəfər, 1873 - cü ildə 46 nəfər, 1886-cı ildə 63 nəfər, 1897-ci ildə 79 nəfər, 1904 - cü ildə 84 nəfər, 1914-cü ildə 102 nəfər, 1916-cı ildə 103 nəfər[783], 1918-ci ildə 162 nəfər[784] yalnız azərbaycanlı yaşamışdır.

---

[780] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.122-123, 408.

[781] Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 467-468

[782] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 132.

[783] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-84, 152-153.

[784] История Азербайджана по документам и публикациям. Баку: Элм, с.218.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1919-cu ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur[785]. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlalırdan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Haramlı kəndində 1922-ci ildə 22 nəfər azərbaycanlı yaşamışdır[786]. 1923-1924-cü illərdə kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq ata-baba torpaqlarından qovulmuş və kənd 1926-cı ildə ləğv edilmişdir. Haramlı indi xaraba kənddir.

Haramlı toponimi, fikrimizcə, “qaçaq”, “quldur” mənası bildirən haramı sözündən düzələn tayfa adı əsasında yaranmışdır.

Tarixi mənbələrdə **Hasar** XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında, XX əsrdə Qərbi Azərbaycanın indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisi daxilinə düşən kənd kimi Sərdarabad rayonunun mərkəzindən 36 km qərbdə, Araz çayının sol sahilində yerləşirdi. 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq Hasar kəndinin adı əksini tapmışdır[787]. Hasar kəndinin adı Qafqazın 5 verstlik xəritəsində rus dilinin fonetik qaydalar uyğun Assar formasında qeyd edil-

---

[785]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

[786]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 152-153.

[787]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 18.

mişdir[788].

Hasar kəndində 1831-ci ildə 92 nəfər, 1873-cü ildə 110 nəfər, 1886-cı ildə 114 nəfər, 1897-ci ildə 130 nəfər, 1908-ci ildə 113 nəfər, 1914 - cü ildə 134 nəfər, 1916-cı ildə 76 nəfər yalnız azərbaycanlı yaşamışdır[789].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir.

Hasar kəndində 1922-ci ildə 32 nəfər, 1926-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır [790]. 1928-1929-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1930-cu ildə kənd ləğv edilmişdir. Hasar kəndi indi xarabalığa çevrilmişdir.

Hasar toponimi türk dilində "düzənlikdə qala, istehkamlanmış şəhər" mənasında işlənən hisar (hasar) sözü[791] əsasında əmələ gəlmişdir.

**Hacı Bağır** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunun ərazisinə düşən kənd olmuşdur. Yaşayış

[788] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 21.

[789] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63, 138-139.

[790] Yenə orada, s. 62-63, 138-139.

[791] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 593.

məntəqəsi Abaran çayının yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq Hacı Bağır kəndinin adı göstərilmişdir[792]. Hacı Bağır kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[793]. Kənd 1950-ci illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Hacı Bağır toponimi Hacı Bağır şəxs adı əsasında əmələ gəlmişdir. Kənd Hacı Bağır adlı mülkədara məxsus olmuşdur.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda olan **Heşin** kəndi qədim tarixə malikdir. Azərbaycanlılar tarixən burada yaşamışdır.

Yaşayış məntəqəsi rayon mərkəzindən 14 km şərqdə, Yelpinçay çayının sağ qolu olan Heşin çayının sahilində yerləşirdi.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Heşin kəndinin adı əksini tapmışdır[794]. Heşin kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[795]. Fikrimizcə, 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə adı çəkilən Meşin kəndi[796] elə Heşin kəndidir. Yəni

---

[792]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 18.

[793]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 54.

[794]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[795] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 61.

[796]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 57.

Heşin kəndinin adı XVIII əsrin göstərilən mənbəyində Meşin formasında qeyd edilib.

Dərələyəz mahalının 1831-ci il kameral təsvirində Heşin kəndində qaraçorluların bozlu tayfasının yaşadığı əksini tapmışdır[797]. Heşin kəndində Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[798].

Heşin kəndində 1831-ci ildə 62 nəfər, 1873-cü ildə 174 nəfər, 1886-cı ildə 272 nəfər, 1897-ci ildə 229 nəfər, 1904-cü ildə 237 nəfər, 1914 -cü ildə 260 nəfər, 1916-cı ildə 311 nəfər yalnız azərbaycanlı yaşamışdır[799].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Heşin kəndində 1922-ci ildə 116 nəfər, 1926-cı ildə 136 nəfər, 1931-ci ildə 164 nəfər yalnız azərbaycanlı yaşamışdır[800].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin

---

[797] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s.135.

[798]N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s.431.

[799]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.

[800] Yenə orada, s. 92-93, 160-161.

Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kənd sakinləri-azərbaycanlılar 1948-1949-cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. M.Hüseynova Heşin toponiminin monqol dilinə məxsus "xasun" sözündən əmələ gəldiyi qənaətindədir: "Heşin toponimində tarixən müəyyən fonetik hadisələr baş vermiş və nəticədə monqol dilindən Azərbaycan dilinə keçmiş "xasun" sözü yerli tələffüzə uyğunlaşdırılaraq belə şəklini (Heşin-İ.B.) almışdır. Heşin coğrafi adının mənası fikrimizcə, "sıldırım qayalıqda yerləşən kənd" mənasını ifadə edir."[801]

Apardığımız araşdırmalardan bu qənaətə gəlirik ki, Heşin toponimi türk dilində "yaşayış məntəqəsi" mənasında işlənən keş (heş - İ.B.) sözünə[802], türk dilində (daxma, koma, mağara) mənasında işlənən in sözünün[803] birləşməsi əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində **Həsənli** kəndi mənbələrdə qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[804]. Həsənli kəndində 1831-ci ildə 192

---

[801]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 27.

[802]Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 273.

[803] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 209.

[804] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 57.

nəfər, 1873 - cü ildə 539 nəfər, 1886-cı ildə 503 nəfər, 1897-ci ildə 252 nəfər, 1904 -cü ildə 501 nəfər, 1914-cü ildə 608 nəfər yalnız azərbaycanlı yaşamışdır[805].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ilin payızında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanları 1922-1924-cü illərdə ata-baba torpaqlarına qayıda bilmişdir. Həsənli kəndində 1926-cı ildə 74 nəfər, 1931-ci ildə 87 nəfər azərbaycanlı yaşamışdır[806].

Toponim Həsənli nəsil adı əsasında əmələ gəlmişdir.

**Həsənsu** kəndi İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində erməni mənbələrində qeydə alınan, azərbaycanlıların yaşadığı kəndlərdən biri idi. Həsənsu kəndi Zod kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 48 nəfər azərbaycanlı yaşamışdır[807]. 1928-1930-cu illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğvedilmişdir.

Həsənsu toponimi Həsən şəxs adı ilə türk dilində çay mənasında işlənən su sözünün birləşməsindən əmələ gəlmişdir.

**Hisarxalac** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.

---

[805] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.
[806] Yenə orada, s.82-83, 152-153.
[807] Yenə orada, s. 26-27.

Hisarxalac kəndində 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır[808]. 1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilərək ləğv edilmişdir. İndi xaraba kənddir.

Hisarxalac toponimi türk dilində "düzənlikdə qala", "möhkəmləndirilmiş şəhər" mənasında işlənən qisar (xisar) sözü ilə[809] xalac türk etnonimi əsasında əmələ gəlmişdir.

Qərbi Azərbaycanda azərbaycanlıların yaşadığı qədim tarixə malik yaşayış məntəqələrindən biri də **Hostun** kəndi adlanırdı. Hostun kəndi XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının inzibati ərazisinə daxil idi. Bu kəndin ərazisi Qərbi Azərbaycanın indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisinə düşür. Yaşayış məntəqəsi Alagöz çayının sähilində, Həsənkənd kəndi ilə Alagöz kəndinin arasında yerləşirdi. Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Hostun kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan müsəlmanların (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[810].

Hostun kəndində 1873-cü ildə 61 nəfər, 1886-cı ildə 94 nəfər, 1897-ci ildə 126 nəfər, 1904-cü ildə 125 nəfər, 1914-cü ildə 137 nəfər, 1916-cı ildə 146 nəfər, 1919 - cu ildə 58 nəfər (1918-ci ildə baş verən erməni təcavüzündən sonra) yalnız

---

808 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 868.

809 Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 143, 593.

810 N.Əhmədli.Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 446.

azərbaycanlı yaşamışdır[811]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1919-cu ilin sonlarında azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülmüş ermənilər yerləşdirilmişdir.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Hostun kəndində 1922- ci ildə 29 nəfər, 1926-cı ildə 19 nəfər, 1931-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır[812]. Kənd 1940-cı illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

H.Mirzəyev Hostun toponimin etimologiyası ilə bağlı yazır: "Fikrimizcə, Hosdun toponimi ilə Hors tayfasının adı bir mənbədən təşəkkül tapmışdır. Burada Hosdun sözündən "r" samiti düşmüş, söz kökünə isə türk dillərində tarixən müstəqil söz olan və isimlərə artırılaraq məkan mənası (istirahət yeri, sakit yer və s.) bildirən sözlər əmələ gətirən "-dun"//tun, -tin, -din, - tin, -din; -in, -in, -un, -ün şəkilçisi artırılmışdır. Bu şəkilçilərin isimlərə artırılib yer adları əmələ gətirməsi faktlarına türk-oğuz yurdunun bir çox bölgələrində rast gəlmək olur.

Ağcabədidə "Qiyamadın", "Gələbədin", Naxçıvanda "Zeyneddin", Culfada "Camaldın", Ağdaş və Qəbələdə "Qaradeyin", Şamaxıda "Keşməddin" kənd adları söylədiyimiz fikrə canlı sübutdur"[813].

---

[811]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.

[812] Yenə orada, s. 92-93, 160-161.

[813]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı: Elm, 2004, s. 285.

Apardığımız araşdırmalardan bu qənaətə gəlirik ki, Hostun toponimi türk dilində "çay ağızı, mənsəb" mənasında işlənən os sözü ilə[814] türk dilində "bağlı, sərbəst çıxışı olmayan" mənasında işlənən tun sözünün[815] birləşməsindən əmələ gəlmişdir.

**Hunud** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda kənd olaraq Qafan rayonun mərkəzindən 15 km şimal-şərqdə yerləşirdi. Kəndin adı mənbələrdə Hünüt formasında da qeyd edilir.

Hunud toponimi qədim türk mənşəli hun etnoniminə[816] türk dilində cəmlik bildirən -ud şəkilçisinin artırılması əsasında əmələ gələn etnotoponimdir. "Hunlar kəndi" mənasını verir.

Türk tədqiqatçısı "Türk tarixi" əsərində yazır: "Hunlar çox qüvvətli, döyüşdə çox cəsur və mahir olan türklərdir"[817].

**Hüseynbəyli** İrəvan qüberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonu ərazisində kənd olmuşdur. Kənddə 1906-cı ildə 658 nəfər azərbaycanlı yaşamışdır.

1906-cı ilin sonlarında azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. Hüseynbəyli indi xaraba kənddir.

---

[814]О.Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Издство Саратовского Университета, 1982, 237.

[815] В.В. Радлов. Опыт словарья тюркских наречий, т. III, ч. 2, СПб, 1905, с. 1436.

[816]M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 37-38; Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, 124-126, 351- 352.

[817] C.Qəhrəmanov, Ş.Xəlilov. Mustafa Zərir. Yusif və Züleyxa (Poemanın mətni və tarixi qrammatik oçerk), Bakı: Elm, 1991, s. 52.

B.Budaqov və Q.Qeybullayev göstərirlər ki, kənd Hüseyn bəyə mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır[818].

Bizim fikrimizcə, Hüseynbəyli toponimi hüseynbəyli nəsil adı əsasında əmələ gəlmişdir.

**Xancallı** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd olmuşdur. Kənd rayon mərkəzindən 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 2110 m hündürlükdə yerləşirdi. Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və eyni zamanda qarapapaqlar müstəqil xalq kimi verilir[819]. Halbuki qarapapaqlar müstəqil xalq yox, azərbaycanlılarn etnoqrafik qruplanndan biri və peçeneqlərə daxil olan türk tayfalarından birinin adıdır[820]. Xancallı kəndində 1886-cı ildə 178 nəfər, 1897-ci ildə 253 nəfər, 1908-ci ildə 303 nəfər, 1914-cü ildə 392 nəfər azərbaycanlı yaşamışdır[821]. 1915-cı ildə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən öz kəndlərindən qovulmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişlər. Xancallı kəndində 1922-ci ildə kənddə 95 nəfər, 1926-cı ildə137 nəfər, 1931-ci ildə 134 nəfər azərbaycanlı yaşamışdır[822].

---

818B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.415.

819Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20.

820M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 42.

821Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20-21, 104-105.

822 Yenə orada, s. 20-21, 104-105.

1940-cı illərdə Xancallı kəndinin əhalisi Amasiya rayonunda yerləşən Balıqlı kəndinə köçürülmüş və kənd yaşayış məntəqəsi kimi ləğv edilərək kənd xarabalığa çevrilmişdir.

Xancallı toponimi xancallı tayfa adı əsasında yaranmış etnotoponimdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda qədim tarixi olan **Xaraba Kotanlı** kəndi Vedi rayonunun Böyük Gilanlar kəndinin yaxınlığında, Allahüəkbər dağının ətəyində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[823] .

Xaraba Kotanlı kəndində 1873-cü ildə 64 nəfər, 1886-cı ildə 105 nəfər, 1897-ci ildə 253 nəfər, 1904 - cü ildə 174 nəfər, 1914-cü ildə 219 nəfər, 1916-cı ildə 207 nəfər azərbaycanlı yaşamışdır[824].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasəttinin və göstərişinin nəticəsi olaraq 1918-1919-cu illərdə azərbaycanlılar erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur. Xaraba Kotanlı kəndi yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir.

Xaraba Kotanlı toponimi "dağıdılmış, viran edilmiş" mənasında işlənən xaraba sözü ilə -lı mənsubluq bildirən şəkilçi qəbul etmiş kotan türk etnonimindən[825] əmələ gəlmişdir.

---

[823] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 261.

[824]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[825]Г.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм , 1986, с. 50.

XIII-XIV əsrlərdə Ön Asiyada yaşayan türk tayfalarından birinin adı godan adlanırdı[826]. Görünür, godan tayfa adı sonralar kotan formasına düşmüşərək toponim yaradıcılığında kotan formasında sabitləşmişdir.

**Xaratgah** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican adlı rayon mövcud olduğu dövrdə Dilican rayonunun inzibati ərazisi daxilində yaşayış məntəqəsi kimi mənbələrdə qeyd edilir. Bu yaşayış məntəqəsi Karvansaray (İcevan) rayonunun Polad Ayrım kəndinin yaxınlığında yerləşirdi. Yaşayış məntəqəsində 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır[827].

1905-1906-cı il hadisələrində azərbaycanlılar erməni quldur dəstələri tərəfindən kənddən qovulmuş və yaşayış məntəqəsi 1908-ci ildə ləğv edilmişdir.

Xaratgah toponimi xaratlı (toponimdə -lı şəkilçisi düşüb) türk tayfa adına "qayalıqda, dağda təbii və ya süni oyuq, mağara" mənasında işlənən gah//kaha sözünün[828] birləşməsindən əmələ gəlib "xarat tayfasının yaşadığı kaha yanında yaşayış məntəqəsi" mənasında bildirir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Yeni Bayazid qəzasında, XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Göyçə mahalının indiki Qaranlıq (Martuni) rayonunun ərazisi daxilindən mənbələrdə qeyd olunan, tarixən yalnız azərbaycanlılar yaşamış **Xartlıq** kəndi Qaranlıq kəndinin

---

[826]S.Mirmahmudova. Ermənistanda türk mənşəli yer adları, Bakı: Yazıçı, 1995, s. 8.
[827]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30-31.
[828]Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 26.

(Martuni kəndi) yaxınlığında, Qaranlıq çayının yanında, Şalıbulaq dağının ətəyində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[829]. 1918-ci ildə kəndin adı dəyişdirilib Tsaxkaşen qoyulmuşdur.Yeni Bayazid qəzasının 1873-cü il kameral təsvirində göstərilir ki, kəndin sakinləri müsəlman tatatarlardır (azərbaycanlılardır-İ.B.)[830]

Xartlıq kəndində 1873-cü ildə 144 nəfər, 1886-cı ildə 162 nəfər, 1897-ci ildə 190 nəfər, 1914 - cü ildə 282 nəfər, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır[831].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kəndin sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq tarixi torpaqlarından deportasiya olunmuşdur və bunun da nəticəsində 1930-cu ildə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Kəndin adı 1930-cu ildən sonra mənbələrdə adı çəkilmir.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, kənd Xartlıq adlı yerdə qışlaq əsasında yaranmışdır. Toponim “Xart daşı olan yer” mənasını bildirir[832].

Bizim fikrimizcə, toponim qədim türk dilində “uca, hündür, yaşlı, qoca” mənasında işlənən qart[833] sözünə -lıq

---

[829]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 262.

[830] N.Əhmədli. Yeni Bayazid qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 324..

[831]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66-67, 140-141.

[832]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.400.

[833] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 429.

şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Azərbaycan dilində q~x səs əvəzlənməsi qanunauyğun haldır[834].

**Xatın bağı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kənd Zeyvə kəndinin yaxınlığında yerləşirdi. Xatın bağı kəndində 1897-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır[835]. Xatın bağı kəndində yaşayan azərbaycanlılar XX əsrin əvvəllərində, 1906-cı ildə erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq dogma yurdlarından qırğınlarla qovulmuş və nəticədə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev kəndin adını "Xatnibağı" formasında göstərərək (mümkündür ki, texniki səhv olaraq "Xatinbağı" toponimi "Xatnibağı" formasında kitabda əksini tapıb-İ.B.) yazırlar ki, kənd "Xatun bağı" adlı yerdə qışlaq əsasında yaranmışdır[836].

Xatın bağı toponimi sintaktik yolla yaranan mürəkkəb quruluşlu toponimdir. Birinci tərəfi qədim türk dilində "qadın" mənasında işlənən xatın, ikinci tərəfi bağ sözündən ibarətdir.

**Xış** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Qafan rayonundakı Baharlı kəndinin yaxınlığında, Kığı çayının sol sahilində yerləşirdi.

---

[834]H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Bakı Universiteti nəşriyyatı, 1990, s. 20, 117.

[835]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57.

[836]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.400.

Erməni mənbələrində kəndin adı həm də Xıçi, Xeç olduğu göstərilir. Kənddə 1897-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır[837]. XX əsrin əvəllərində, 1905-1906-cı illərdə erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Xış kəndi indi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, kəndin əsli Kiş olmuşdur. Kiş fars dilində “kult”, “ziyarətgah” mənasını bildirir[838] . Onu qeyd edək ki, heç bir mənbədə, hətta erməni mənbələrində kəndin əsl adının və ya kəndin başqa adının Kiş olmasına rast gəlinmədi.

Apardığımız araşdırma nəticəsində belə qənaətə gəlirik ki, toponim Azərbaycan dilində “güney yamacında çöküntü sularının fiziki aşınmasında əmələ gələn çoxtipli qırıntı” mənasında işlənən xıç sözü[839] əsasında əmələ gəlmişdir. “Xış” xıç sözünün fonetik formasıdır.

Azərbaycan dilində ç~ş səs əvəzlənınəsi danışıq dili üçün (açdı-aşdı, qaçdı-qaşdı) xarakterik haldır. Toponim kəndin relyefini özündə əks etdirir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, XX əsrdə indiki Vedi (Ararat) rayonunun ərazisi daxilində **Xunut** kəndinin adına mənbələrdə rast gəlinir.

---

[837] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57.

[838] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.405.

[839] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 131.

Kəndin digər adı Xnut Qaraqoyunlu olmuşdur. Yaşayış məntəqəsi Vedi rayonundakı Kolanlı kəndinin yanında, Cığın dərəsində, Cığınsu çayının yanında yerləşirdi. Xnut kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[840].Xunut kəndində 1873-cü ildə 114 nəfər, 1886-cı ildə 143 nəfər, 1897-ci ildə 253 nəfər, 1904-cü ildə 315 nəfər, 1914-cü ildə 346 nəfər, 1916-cı ildə 213 nəfər azərbaycanlı yaşamışdır[841]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kəndin sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq min bir vəhşiliklərlə tarixi torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişlər. Xunut kəndində 1922-ci ildə 42 nəfər azərbaycanlı yaşamışdır[842]. 1924-1925-cı illərdə azərbaycanlılar kənddən köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Xunut toponimi qədim türk tayfası olan hun (xun) etnoniminə[843] cəmlik bildirən -ut şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda tarixən mövcud olmuş Hunud toponimi

---

[840] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 266.

[841] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[842] Yenə orada, s. 154-155.

[843] Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 37-38; Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, 124-126, 351- 352.

ilə Xunut toponimi eyni mənşəli toponimlər olduğu qənaətindəyik.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, XX əsrdə indiki Vedi (Ararat) rayonunun ərazisi daxilində **Xosrov** kəndinin adına mənbələrdə rast gəlinir. Yaşayış məntəqəsi Vedi rayonu ərazisindən axan Kusqayasu çayının yanında yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir. Kəndin illik gəliri 3.500 ağça olmuşdur.[844] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Şərur sahəsindəki Vedibasar nahiyəsini əhatə edən kəndlərdən biri olaraq Xosrov kəndinin adı əksini tapmışdır .[845]

Xosrov kəndində 1873-cü ildə 155 nəfər, 1886-cı ildə 182 nəfər, 1897-ci ildə 269 nəfər, 1904-cü ildə 199 nəfər, 1914-cü ildə 388 nəfər, 1916-cı ildə 315 nəfər azərbaycanlı yaşamışdır.[846]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kəndin sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq qırğınlarla tarixi torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Azərbaycanlılar öz doğma yurdlarına qayıtdıqdan sonra Xosrov kəndində 1922-ci ildə 24

[844] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 104.

[845] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 22.

[846] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

nəfər, 1926-cı ildə 34 nəfər, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır[847]. Kənd yaşayış məntəqəsi kimi 1930-cu illərin ortalarında ləğv edilmişdir. Xosrov kəndi indi xaraba kənd kimi tarxə qovuşmuşdur.

Xosrov toponimi ilə bağlı Ə.Ələkbərli yazır: “Kəndin adının Anadoludan gətirilmə olması fikrini (B.Budaqov, Q.Qeybullayev) kökündən səhv hesab edirik. XIX yüzildə Qars əyalətinin Ərdəhan nahiyəsində Xosrov adlı iki kənd və çay adının mövcudluğu da bu adın Vedibasar ərazisinə kənardan gətirilmə olması üçün əsas ola bilməz. Bizcə, kənd və onun yaxınlığındakı Xosrov meşəsinin adları Xosrov adlı hökmdarın adını daşımaqdadır. Lakin hansı Xosrovun? Bu mövzuya maraq göstərənlərin çoxu 591-628-ci illərdə İran taxtında əyləşən Sasani hökmdarı Xosrovun (Xosrov Pərvizin) üzərində dayanırlar. Ən tutarlı dəlilləri isə Xosrov Pərvizin tərkibinə Vedibasar ərazisinin də daxil olduğu Arman ölkəsinin şahzadəsi Şirinlə evlənməsi faktıdır. 531-579-cu illərdə hakimiyyətdə olan, öz ədalətliliyi ilə tarixdə ad qoyan Sasani hökmdarı I Xosrovun - Ənuşirvanın da adına Arman torpağında yaşayış məntəqəsi olması ehtimal etmək olar. Lakin Armaniyanın özünün Xosrov adlı hökmdarlarının olması bu versiyaları şübhə altına alır. Xatırladırıq ki, Armaniyanın böyük çarı I Xosrov 215-ci ildə vəfat etmişdir. Onun nəticəsi, Arman çarı III Tiridat (Tiridağ) və ya III Tiridat (Diridağ) isə 330-cu ildə vəfat etdikdən sonra onun yerinə oğlu II Xosrov keçmişdir.

---

[847]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

Bu həmin Xosrovdur ki, 350-ci ildə Dvin şəhərinin tikintisini başa çatdırmış və Arman ölkəsinin paytaxtını Valarşakabad şəhərindən bura köçürmüşdü. Bu faktı xatırladan Girakos Gəncəli II Xosrovun həm də ov üçün yaxınlıqda palıd meşəliyi saldırdığını qeyd edir. M.Xorenli də bu faktı təsdiq edir. Təbii ki, söhbət gələcək Xosrov meşəsindən gedir. Üstəlik, adları çəkilən Arman hökmdarları həmişə İran Sasani xanədanı ilə düşmənçilik mövqeyində olmuş, ona qarşı müharibə aparmışlar.

Bütün bunlar deməyə əsas verir ki, Vedibasar ərazisindəki Xosrov toponimləri Arman çarı II Xosrovun buradakı şəxsi mülkü yerində salınmış yaşayış məntəqəsidir və xalq sevimli hökmdarının adını daşıyan bu toponimləri sevə-sevə yaşatmışdır".[848]

Yuxarıdakı izahdan aydın olur ki, Xosrov toponimi Xosrov şəxs adı əsasında yaranmışdır.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, XX əsrdə Qərbi Zəngəzurun indiki Gorus rayonunun ərazisi daxilində qeydə alınmış yaşayış məntəqələrindən biri **Xotanan** kəndi adlanırdı. Xotanan kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[849] Xotanan kəndində 1873 -cü ildə 53 nəfər, 1886-cı ildə 58 nəfər, 1897- ci ildə 74 nəfər, 1904 -cü ildə 91 nəfər, 1914 -cü ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır.[850] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası

---

[848]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 461-462.

[849]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 268.

[850]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 28-29, 112-113.

rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.[851] Xotanan kəndi 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir. Xotanan toponimi xotan türk tayfa adına[852] cəmlik bildirən -an şəkilçisinin artırılması ilə düzəlmişdir və "xotan tayfasının (Xotanların) yaşadığı yer" mənasını ifadə edir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktembeıyan) rayonu ərazisində **Xocayarlı** kəndinin adına qaynaqlarda rast gəlinir. Kəndin qədim adı Xocaayarlı olmuşdur.[853] Kəndin adı həm də Xocayar formasında mənbələrdə öz əksini tapmışdır.[854] Yaşayış məntəqəsi rayon mərkəzindən 14-15 km məsafədə, Araz çayının sol sahilində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[855] Xocayarlı kəndində 1831-ci ildə 85 nəfər, 1873-cü ildə 176 nəfər, 1886-cı ildə 207 nəfər, 1897-ci ildə 210 nəfər, 1908-ci ildə 236 nəfər, 1914-cü ildə 250 nəfər, 1916-cı ildə 229 nəfər,[856] 1918- ci ildə

---

[851]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 206.

[852]С.И. Брук. Население мира. Этнодемографический справочник, М.: Наука 1986, с. 399.

[853]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62.

[854]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

[855]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 266.

[856]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63, 138-139.

236 nəfər,[857] 1919-cu ildə 200 nəfər[858] yalnız azərbaycanlı yaşamışdır.

1918-ci ildə yaradılan daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1919-cu ilin sonlarında azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. Kənd 1924-cü ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Xocayarlı **t**oponimi xocaayarlı nəsil adı əsasında əmələ gəlmişdir.

**İkinci Arıqlı** XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, XX əsrdə Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisi daxilinə təsadüf edilən kənd olmuşdur.

İkinci Arıqlı kəndində 1907-ci ildə 150 nəfər azərbaycanlı yaşamışdır. Kənd 1918-ci ildə xarabalığa çevrilib.

İkinci Arıqlı toponimi qaşqay türk tayfasından olan arıqlı etnonimi[859] əsasında əmələ gəlmişdir. Toponimin əvvəlində işlənən "ikinci" sözü fərqləndirici əlamət bildirir.

**İkinci Bəhlul** kəndi İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonunda tarixən mövcud olmuş kəndlərdən idi . Yaşayış məntəqəsi rayondakı Mastara kəndindən 8-9 km cənub-qərbdə, Sabunçu kəndinin cənub-qərbində yerləşirdi.

---

[857]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

[858]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 138-139.

[859]T.Ə.İbrahimov (Şahin). Qaşqaylar, Bakı: Elm, 1988, c. 40.

İkinci Bəhlul kəndində 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır.[860] Kənd 1940-cı ildə ləğv edilmişdir .[861]

İkinci Bəhlul toponimi Bəhlul şəxs adı əsasında əmələ gəlmişdir. Oykonimin əvvəlindəki "ikinci" sözü fərqləndirici əlamət bildirir.

**İkinci Qayaxaraba** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd olmuşdur. Erməni mənbələrində kəndin başqa adının Kafir qalası olduğu da qeyd edilmişdir. Kənddə 1897-ci ildə 68 nəfər azərbaycanlı yaşamışdır[862]. XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar kənddən deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

İkinci Qayaxaraba toponimi Azərbaycan dilində "qayalı sıldırım yer" mənasında işlənən qaya sözü ilə "viranəlik, dağıdılmış yer" mənasında işlənən xaraba sözünün birləşməsindən əmələ gəlmişdir. "İkinci" sözü fərqləndirici əlamət bildirir.

**İkinci Qılıcyataq** kəndi İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Talin rayonu ərazisində qeydə alınmışdır. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeydə alınmışdır[863]

---

860 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 34-35.

861 Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 868.

862 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44-45.

863 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 137.

İkinci Qılıcyataq kəndində 1897-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır[864]. 1914-1916-cı illərdə kənddə həm də müsəlman kürdlər yaşamışdır. İkinci Qılıcyataq kəndi 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin göstərişi ilə 1918-ci ilin payızında erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və nəticədə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

İkinci Qılıcyataq toponimi fərqləndirici əlamət bildirən ikinci sözündən və Azərbaycan dilində "dağın təpəsi, yoxuşun başı" mənasında işlənən qılıc sözü ilə[865], "payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer" mənasında işlənən yataq sözünün[866] birləşməsindən əmələgəlmişdir.

**İkinci Qoşabulaq** XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasında, XX əsrdə Göyçə mahalının indiki Basarkeçər rayonu ərazisində kənd olmuşdur. Kənd rayon mərkəzindən 8 km cənub-qərbdə, Qoşabulaq kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin adının Qırxbulaq, Kefli olduğu da göstərilir[867].

İkinci Qoşabulaq kəndində 1897-ci ildə 178 nəfər, 1908-ci ildə 262 nəfər, 1914-cü ildə 274 nəfər, 1916-cı ildə 244 nəfər azərbaycanlı, eyni zamanda müsəlman kürdlər yaşamışdır[868].

---

[864] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 36-37.

[865] Geologiya terminləri lüğəti, Bakı: Elm, 1958, s. 18 ; R. Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı; Elm, 1966, s. 16.

[866] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 510.

[867] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 26.

[868] Yenə orada, s. 26-27, 112-113.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin göstərişi ilə 1918-1919-cu illərdə kəndin əhalisi erməni quldur dəstələri, eləcə də erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalan kənd əhalisi öz doğma yurdlarına dönə bilmişdir. İkinci Qoşabulaq kəndində 1922-ci ildə burada 59 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır[869]. 1923-cü ildən sonra kənd xarabalığa çevrilmiş, kəndin əhalisi Qoşabulaq kəndinə köçmüşdür.

İkinci Qoşabulaq kəndi indi ölü kənd kimi tarixə qovuşmuşdur.

İkinci Qoşabulaq toponimi Azərbaycan dilində "cüt" mənasında işlənən qoşa sözü ilə bulaq hidronimi əsasında əmələ gəlmişdir. "İkinci" fərqləndirici əlamət bildirən sözdür.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində **İkinci Əliyanlı** kəndinin adı tarixi mənbələrdə adı çəkilir. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə kəndin adı "İkinci Alyanlı" formasında göstərilmişdir[870]. İkinci Əliyanlı kəndində 1886-cı ildə 137 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri

---

[869] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 112-113.

[870] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.266.

olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir[871]. 1920-ci ildə yaşayış məntəqəsi kimi kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

İkinci Əliyanlı toponimi fərqləndirici əlamət bildirən "ikinci" sözü və kəngərli türk tayfasından olan əliyanlı etnonimi[872] əsasında əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, XX əsrdə indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində **İlanlı** kəndi olmuşdur. Yaşayış məntəqəsi rayondakı Qovşuq kəndinin yaxınlığında yerləşirmiş. İlanlı kəndində 1897-ci ildə 13 nəfər, 1916-cı ildə 59 nəfər yalnız azərbaycanlı yaşamışdır[873]. 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində və göstərişi ilə 1918-ci ilin payızında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

İlanlı toponimı ilanlı türk tayfa adı[874] əsasında formalaşmışdır.

**İlxı qoruğu** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində yerləşirdi . Yaşayış

---

[871]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s.163.

[872] И. И. Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 538.

[873]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92- 93, 160-161.

[874]E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 15.

məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[875].

İlxı qoruğu kəndində 1873-cü ildə 242 nəfər, 1886-cı ildə 345 nəfər, 1897-ci ildə 432 nəfər, 1904-cü ildə 215 nəfər, 1914-cü ildə 375 nəfər, 1916-cı ildə 136 nəfər yalnız azərbaycanlı yaşamışdır[876].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin sentyabr-oktyabr aylarında kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İlxı qoruğu kəndi 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

İlxı qoruğu toponimi Azərbaycan dilində toplu isim kimi işlənən ilxı (at ilxısı) sözü ilə qoruq sözündən əmələ gəlib "atlar üçün qoruğun yanındakı kənd" mənasını verir.

**İmirzik** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. Kənd Dəvəgözü çayının yanında, Gərniçayın sol axarında yerləşirdi. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Əmirzik[877], Qafqazın 5 verstlik xəritəsində İmirzik[878] formasında qeyd edilmişdir. Yaşayış məntəqəsi kimi

---

[875]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 102.

[876]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան փոնդի, 1932, էջ: 82- 83, 152-153.

[877]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 170.

[878] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 102.

İmirzik kəndi 1930-cu illərdə Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur[879].

İmirzik kəndində 1873 - cü ildə 188 nəfər, 1886-cı ildə 232 nəfər, 1897-ci ildə 348 nəfər, 1904-cü ildə 254 nəfər, 1914-cü ildə 328 nəfər, 1916-cı ildə 456 nəfər azərbaycanlı yaşamışdır[880].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-1919-cu illərdə kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişlər. İmirzik kəndində 1922-ci ildə 65 nəfər, 1926-cı ildə 96 nəfər, 1931-ci ildə 151 nəfər,[881] 1939-cu ildə 269 nəfər[882] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə

---

[879] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86.

[880] Yenə orada, s. 86-87, 154-155.

[881] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[882] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 227.

1949-1952-ci illərdə kənddə yaşayan azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilərək xarabalığa çevrilmişdir.[883] İndi ölü kənddir.

B.Budaqov və Q.Qeybullayev kəndin adının Mirzik formasında olduğunu göstərərək yazırlar ki, toponim mərznik kürd tayfa adı əsasında yaranmışdır.[884]

Onu qeyd edək ki, hər hansı bir mənbədə kəndin adı “Mirzik kəndi” formasında qeydə alınmamışdır. Digər tərəfdən kənin köklü sakinləri azərbaycanlılar olmuşdur, daha doğrusu, İmirzik kəndində tarixən yalnız azərbaycanlılar yaşamışdır. Ona görə də, İmirzik toponiminin mərznik kürd tayfa adı əsasında yaranması inandırıcı deyil.

Ə.Ələkbərli toponimin etimologiyası ilə bağlı bir neçə versiya üzərində dayansa da, toponimin oğuzların imir (əsli eymur) tayfa adından əmələ gəldiyini göstərir: “Kəndin adının etimologiyası ilə bağlı müxtəlif versiyalar var. Birinci versiya ondan ibarətdir ki, kənd qədim Oğuz tayfalarından olan İmir tayfasının adını daşıyır. İmir isə (bəzən Eymur), məlum olduğu kimi, Oğuz xanın "üç ox" adlandırdığı üç oğlundan (Göy xan, Tək xan və Tenzik xan) ikincisinin - Tək xanın ikinci oğlunun adıdır. Qərbi Azərbaycanda İmir adı ilə bir sıra toponimlərin (XIX yüzildə Gümrü qəzasında İmirxan, Üçkilsə qəzasında İmirli kəndlərinin və s.) mövcudluğu da bu ərazidə sözügedən tayfanın geniş yayıldığını təsdiq edir. Biz bu versiyada israrlıyıq.

---

[883]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988, էջ: 52.

[884]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.338.

Digər versiya isə ondan ibarətdir ki, kəndin əsl adı Mirzikdir, İmirzik adın tələffüz formasıdır və bu, orta yüzillərdə Anadoluda yaşamış kürd mənşəli Morznik tayfasının adını daşıyır (B.Budaqov, Q.Qeybullayev). Kəndin etnik tərkibi (mənbələrdə "şiə məzhəbli tatarlar" kimi qeyd olunur) bu versiyanı təkzib edir”.[885]

Apardığımız tədqiqat təsdiq edir ki, İmirzik toponim 24 oğuz tayfalarından biri olan eymür (imir) etnoniminə[886] -zik şəkilçisinin artırılması ilə düzəlmişdir. -zik kiçiltmə mənası bildirən -cik şəkilçisinin dialekt formasıdır.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunun ərazisində **İnqala** kəndi olmuşdur. İnqala kəndi rayon mərkəzindən 22-24 km şimal-şərqdə, Vediçay çayının sol sahilində yerləşmişdir.

İnqala kəndində 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 124 nəfər, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır[887].

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri 1918-ci ilin sonunda, 1919-cu ilin əvvəlində qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənddə 1922-ci ilə kimi heç kim yaşamamışdır. İndiki Ermənistanda 29 noyabr 1920-ci ildə sovet hakimiyyətinin

---

[885] Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 332.

[886] M. Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 128; Sümər Faruq. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 324.

[887] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

qurulmasından istifadə edən kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar 1922-1925-ci illərdə öz doğma kəndlərinə dönə bilmişdir. İnqala kəndində 1926-cı ildə 30 nəfər, 1931-ci ildə 33 nəfər,[888] 1939-cu ildə 124 nəfər[889] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri azərbaycanlılar 1948-1953-cü illərdə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

İnqala toponimi ilə bağlı Ə.Ələkbərli yazır: "Kəndin adının etimologiyası haqqında belə bir versiya var ki, İnqala qalasının adı qədim türk dillərindəki in (mağara) və qala sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev). Lakin biz adın Hunqala variantına daha böyük üstünlük veririk. Qərbi Azərbaycan, o cümlədən Vedibasar ərazisində qədimdən məskunlaşan hunların (xəzərlərin) adı ilə bir çox toponimin olması da (Hunut, Hand, Hortun, Harunburun və s.) təsadüfi

---

[888] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 87, 155.

[889] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988, էջ: 522.

deyil. XV-XVI yüzillərdə Vedibasar ərazisində qeydə alınmış Haxıs kəndinin yaxınlığında hələ o vaxt qədim İnqala qalasının mövcudluğu da onun tarixinin daha qədimlərlə, ən azı eramızın ilk yüzillərində Vedibasar ərazisinə hun-xəzərlərin kütləvi axını dövrü ilə bağlı olduğunu söyləməyə əsas verir. Adın izahında üçüncü yozum qalanın adının Önqala olmasıdır. Bunu qalanın coğrafi mövqeyi də şərtləndirir. Belə ki, Haxıs və Yuxarı Ərmik, Aşağı Ərmik kəndləri arasında bir Səngər dağı var. Əgər o, səngərdirsə dəməli, İnqala da On qaladır. Doğrudan da, Haxıs, Yuxarı Ərmik yol məhz İnqaladan keçir" .[890] Göründüyü kimi, Ə.Ələkbərli toponimin etimologiyası ilə bağlı üç versiya yürüdür.

İnqala tipli toponimlər üzərində apardığımız tədqiqatlara əsasən bu qənaətə gəlirik ki, İnqala toponimi qədim türk dilində "daxma", "koma", "mağara" mənasında işlənən in sözü ilə[891] qala sözünün birləşməsindən əmələ gəlmişdir.

**İncəvar** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda kənd olmuşdur. Kənd Xalac çayının sol sahilində yerləşirdi. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində İncəvar kəndi Qarakilsə (Sisyan) rayonunun inzibati ərazisi daxilində verilmişdir. Eyni zamanda göstərilmişdir ki, 1918-ci ildə kəndin əhalisi qovulduqdan sonra (kəndin əhalisi 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə kənd erməni

[890] Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 335.
[891] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 209.

hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur -İ.B.) kənd dağıdılmışdır. 1922-ci ildə geri qayıtmış əhali qonşu Xələc kəndində yerləşdirilmişdir[892]. Bu məlumatın "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabından götürüldüyü qeyd edilmişdir. Əslində "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında İncəvar kəndi Qafan rayonunun inzibati ərazisinə daxil olmuş yaşayış məntəqəsi olduğu aydın şəkildə göstərilmişdir. Həmin əsərdə İncəvar kəndi ilə bağlı tarixi faktlar daha dəqiq əksini tapmışdır: "1918-cı il qaçqınlığından sonra cəmi 38 nəfər (1922) qayıtmış, 1930-cu illərdə kənd ləğv edilmiş, əhalisi Xələc kəndində məskunlaşmışdır."[893] 1874-cü ildə tərtib edilmiş Zəngəzur qəzasının Kameral təsvirində İncəvar kəndinə dair məlumatdan aydın olur ki, kəndin köklü sakinləri müsəlman tatarlar (azərbaycanlılar-İ.B.) olmuşdur. Göstərilən kameral təsvirdə İncəvar kəndi ilə bağlı qeyd edilmişdir ki, kənddə əkinçiliklə məşğul olan müsəlman tatarlar (azərbaycanlılar-İ.B) yaşayır. Onlar Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Kənddə yaşayan 14 ailənin (33 kişi və 33 qadın) hamısı tatar (azərbaycanlı-İ.B.) idi.[894] İncəvar kəndində 1873-cü ildə 66 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 129 nəfər, 1904 - cü ildə 140 nəfər, 1914-cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır[895].

---

[892]B.Budaqov,Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.269.

[893] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s.144.

[894] N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 301-302.

[895]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci il oktyabr-noyabr aylarında kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri-azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistanda 29 noyabr 1920-ci ildə sovet hökuməti qurulandan sonra kəndin keçmiş sakinlərindən sağ qalan azərbaycanlılar öz evlərinə dönə bilmişdir. İncəvar kəndində 1922-ci ildə 38 nəfər, 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 45 nəfər azərbaycanlı yaşamışdır.[896] XX əsrin 30-cu illərin sonunda kənd ləğv edilmişdir. İcəvar kəndi indi ölü kənddir, tarix səhnəsindən silinmişdir.

İncəvar toponimi türk mənşəli qıpçaq tayfasından olan incə etnonimindən[897] və "möhkəmləndirilmiş kənd, bənd, qala" mənasında işlənən var sözündən[898] əmələ gəlmişdir və "incə tayfasına mənsub qala, kənd" mənasını bildirir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **İrimis** kəndinin olduğu mənbələrdə əksini tapır. Kəndin tarixi ərazisi indi Qərbi Zəngəzurun Qarakilsə (Sisyan) rayonunun inzibati ərazisi daxilinə təsadüf edir. Yaşayış məntəqəsi Dərəbas kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[899]

---

[896] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

[897] Г.А.Гейбуллаев. Топонимия Азербайджана (историкоэтнографическое исследование), Баку: Элм, 1986, с. 49.

[898] Э.М.Мурзаев . Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 113.

[899] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 104.

Zəngəzur mahalının 1832-1833-cü illərə aid Kameral təsvirində göstərilir ki, kənddə oturaq həyat tərzi keçirən müsəlmanlar (azərbaycanlılar-İ.B.) yaşayır. Onlar əkinçiliklə məşğul olurlar. İremis kəndində 8 ailə və kişi cinsindən 14 nəfər müsəlman (azərbaycanlı -İ.B) yaşayır.[900] Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində kəndin adı İremis formasında qeydə alınmış və kəndlə bağlı göstərilmişdir ki, kəndin sakinləri bəylərlə kəndlilər arasındakı münasibətləri tənzimləyən 1870-ci il Əsasnaməsi ilə mülkədar torpaqlarında yaşayan dövlət kəndliləridir. Kənddə 26 ailə olmaqla əkinçiliklə məşğul olan 98 nəfər (onların 56-sı kişi, 42-si qadın) müsəlman tatarları (azərbaycanlılar – İ.B.) yaşamışdır.[901]

Erməni mənbələrində kəndin Aramis, Yeremiz, Göranis kimi də adlandırıldığı göstərilir.[902]

İrimis kəndində 1831-ci ildə 14 nəfər, 1873-cü ildə 108 nəfər, 1886-cı ildə 150 nəfər, 1897-ci ildə 225 nəfər, 1908-ci ildə 327 nəfər, 1914-cü ildə 616 nəfər yalnız azərbaycanlı yaşamışdır.[903] 1917-ci ilin dekabrında ermənilərdən yaradılmış hərbi dəstələri azərbaycanlıları qırğınlarla deportasiya etmiş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev kəndin adını İrmis formasında qeyd edərək toponimin izahı ilə bağlı yazmışlar: "Əsli

---

[900] N.Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s.161.

[901] N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 299.

[902]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76.

[903] Yenə orada, s. 76-77, 146-147.

Urumis. Urumis isə Rum (Bizans) toponimləri və qədim türk dillərində "s" cəm şəkilçisindən ibarətdir".[904]

Apardığımız araşdırma əsasında belə bir qənaətə gəlirik ki, İrimis toponimi qədim türk dilində "dağın gün düşən tərəfi" mənasında işlənən ir sözü[905] əsasında formalaşmışdır.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınmış **İskəndərabad** adlı yaşayış məntəqəsi indi Üçkilsə (Eçmiədzin) rayonunun inzibati ərazisi daxilinə təsadüf edir. İskəndərabad kəndində 1886-cı ildə 87 nəfər, 1897-ci ildə 135 nəfər, 1904 - cü ildə 81 nəfər, 1914 - cü ildə 201 nəfər, 1919-cu ildə 555 nəfər yalnız azərbaycanlı yaşamışdır.[906]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1919-cu ilin axırlarında kənd erməni hərbçilərinin təcavüzünün qurbanı olmuş, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. İskəndərabad kəndində 1922-ci ildə 38 nəfər azərbaycanlı yaşamışdır.[907] 1923-1924-cü illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. 1925-ci ildə kənd ləğv edilmişdir. İndi

---

[904]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.270.

[905] Древнетюркский словарь, Л., 1969, с. 211.

[906]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

[907]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

İskəndərabad kəndi xaraba kənd kimi tarixin səhifəsindən silinmişdir.

İskəndərabad toponimi İskəndər şəxs adı ilə abad sözünün əsasında əmələ gəlib "İskəndərin saldığı kənd" mənasını verir.

**İtqıran Ortakənd** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonun ərazisində kənd kimi mənbələrdə qeyd edilir.

İtqıran Ortakənd kəndində 1897-ci ildə 169 nəfər yalnız azərbaycanlı yaşamışdır.[908] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar sıxışdırılaraq qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Onu da əlavə edək ki, İtqıran Ortakənd kəndi mənbələrdə İtqıran kəndi formasında qeyd edilir.

Məhz 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq kəndin adı İtqıran kəndi formasında əksini tapmışdır.[909] M.Hüseynova yazır ki, kəndin ilkin adı Etkuran fonetik formasında olmuş, sonradan kəndin adı şivələrdə güclü təhrifə məruz qalaraq İtqıran şəklini almışdır. Etkuran coğrafi adı "et//etil//ed//edil"qədim türk mənşəli tayfa adının relyef bildirən apelyativə qoşulması yolu ilə formalaşmışdır. Dərələyəz mahalında tarixən mövcud olmuş Etkuran etnotoponiminin mənası "et tayfasının yaşayış yeri" deməkdir. "Kuran" sözü türk dillərində coğrafi termin kimi çıxış edərək "maldar elin dayanacaq yeri, yaşayış yeri" mənaları bildirir[910].

---

[908]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91.

[909]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[910]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 54-55.

İtqıran Ortakənd toponimi itbarak etnonimində öz əksini tapan it tayfa adı ilə[911] türk dilində "kənd, yaşayış yeri meşədə yurd, dəyə, maldarların müvəqqəti yaşayış yeri" mənasında işlənən qıran (kuren // kuran) sözündən[912] və "aralıqda, ortalıqda, iki obyektin arasında yerləşən kənd" mənasında işlənən ortakənd söz birləşməsindən əmələ gəlmişdir. Eyni zamanda qeyd edək ki, qıpçaqların tayfalarından biri elə et (> it) adlanırdı.[913]

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında, ərazisi indi Nairi rayonunun daxilinə təsadüf edən **Kamal** kəndi rayon mərkəzindən 8 km şimal-şərqdə, Zəngi çayının sağ sahilində yerləşir. Kənd 1972-ci ilə kimi Ellər (Kotayk, Abovyan) rayonunun inzibati ərazisinə daxil olmuşdur. 15 mart 1972-ci ildə Nairi rayonu yaradıldıqdan sonra Kamal kəndi Ellər rayonunun inzibati ərazi bölgüsündən çıxarılıb Nairi rayonuna verilmişdir. Kamal kəndinin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlinir və illik gəliri 3.500 ağça olmuşdur.[914] Həm də kənd yaşayış məntəqəsi kimi Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[915].

Kamal kəndində 1831-ci ildə 37 nəfər, 1873 - cü ildə 395 nəfər, 1886-cı ildə 565 nəfər, 1897-ci ildə 597 nəfər, 1904 -cü ildə

---

911 Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafıya Birliyi, 1992, s. 16-18; А.Н. Кононов. Родословная туркмен. Сочинение Абул Гази хана Хивинского, М. Л.: АН СССР, 1958, с. 43-45.

912 Э.М.Мурзаев . Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 317-318.

913 B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.271.

914 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 80.

915 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 155.

621 nəfər, 1914-cü ildə 780 nəfər, 1916-cı ildə 715 nəfər,[916] 1918-ci ilin yanvarında 625 nəfər[917] azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında kəndin azərbaycanlılardan ibarət sakinləri erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir.[918] İndi ölü kənddir.

Kamal toponimi şəxs adı əsasında yaranmışdır.

**Karvansara** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Yaşayış məntəqəsi Alagöz dağının cənub ətəyində yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq kəndin adı Karvansaray formasında göstərilmişdir.[919]. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[920]

Karvansara kəndində 1873 - cü ildə 136 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 184 nəfər, 1908-ci ildə 140 nəfər, 1914 -cü ildə 148 nəfər, 1916-cı üdə 288 nəfər,[921] 1918-ci ilin yanvarında 210 nəfər[922] yalnız azərbaycanlı yaşamışdır.

---

916 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46-47, 126-127.
917 История Азербайджана по документам и публикациям. Баку: Элм, 1990, с. 216.
918 Yenə orada, s. 216.
919 İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 18.
920 Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 115.
921 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 36-37, 118-119.
922 История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1918-1919-cu illərdə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, yerli sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevlilmişdir.[923] Karvansara kəndi yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir. İndi ölü kənddir.

Karvansara toponimi "dəvə dəstəsi" mənasında işlənən karvan sözü ilə türk dilində "ev, təsərrüfat tikilisi" mənasında işlənən saray sözünün[924] birləşməsindən əmələ gələn, "özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanması üçün böyük həyəti olan, xüsusi binası olan tikili" mənasını bildirə karvansara sözündən yaranmışdır. Yəni toponim "karvansara yanında salınmış kənd" mənasını ifadə edirmənasını ifadə edir.

Karvansara adında yaşayış məntəqələrinə Qərbi Azərbaycanın bütün bölgələrində rast gəlinir. Bu da Qərbi azərbaycanın karvan yollarının üstündə yerləşdiyini göstərir. Belə yaşayış məntəqəsindən biridə XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında rast gəlinən **Karvansara** kəndidir. Kəndin ərazisi indiki Vedi (Ararat) rayonunun inzibati ərazisi daxilinə düşür. Yaşayış məntəqəsi Vedi rayonundakı Armaş kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Karvansara məzrəsi

---

[923] История Азербайджана по документам и публикациям. Баку: Элм, с.221.
[924]Э.М.Мурзаев . Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 496.

formasında,[925] Qafqazın 5 verstlik xəritəsində Karvansara kimi[926] qeyd edilmişdir. Karvansara kəndində 1897-ci ildə 68 nəfər, 1914 - cü ildə 76 nəfər azərbaycanlı yaşamışdır.[927] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində kəndin sakinləri zorla, qırğınlarla qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.Karvansara toponimi Azərbaycan dilində "özgə yerlərdən gələn karvanların, qoşqu heyvanların və yolçuların müvəqqəti yaşayış yeri" mənasında işlənən karvansara sözündən[928] əmələ gəlib.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, Göyçə mahalının indiki Qaranlıq (Martuni) rayonunda tarixi baxımından azərbaycanlıların yaşadığı qədim kəndlərdənn biri də **Karvansara** kəndidir. Yaşayış məntəqəsi rayon mərkəzindən 10-12 km cənub-şərqdə, Mədinə kəndinin yanında, Əyriçay çayının sahilində yerləşirdi. Toponim 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Göyçə sahəsindəki kəndlərdən biri olaraq Karvansaray,[929] erməni mənbələrində Əyriçay Karvansara kimi də [930] qeyd edilmişdir.

---

[925]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 173.

[926]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 115.

[927]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[928]Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 18.

[929]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[930] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 192, էջ: 66.

Karvansara kəndində 1873 - cü ildə 168 nəfər, 1886-cı ildə 205 nəfər, 1897-ci 309 nəfər, 1904 - cü ildə 341 nəfər, 1914 -cü ildə 441 nəfər, 1916-cı ildə 294 nəfər yalnız azərbaycanlı yaşamışdır.[931]1

918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1918-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz doğma yurdlarına dönə bilmişlər. Karvansara kəndində 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 45 nəfər azərbaycanlı, 193-ci ildə 80 nəfər azərbaycanlı, 69 erməni, 29 kürd yaşamışdır. Ermənilər kəndə 1928-1930 - cu illərdə köçürülmüşdür.[932]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kənddə yaşayan azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd Mədinə kəndi ilə birləşdirilmişdir.

---

[931] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 192, էջ: 66 67, 142-143.

[932]Yenə orada, s. 66-67, 142-143.

Karvansara toponimi “özgə yerlərdən gələn karvanların, qoşqu heyvanların və yolçuların müvəqqəti yaşayış yeri” mənasında işlənən karvansara sözündən[933] əmələ gəlib.

**Keçəl təpə** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd olmuşdur. Yaşayış məntəqəsi rayondakı Zeyvə kəndinin yaxınlığında yerləşirdi. Keçəl təpə kəndində 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır.[934] 1930-cu illərdə kənd ləğv edilmişdir.

Keçəl təpə toponimi Azərbaycan dilində “çılpaq, otsuz, ot bitməyən yer” mənasında işlənən keçəl sözü ilə[935] “alçaq dağ” mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında **Kələşkənd** yaşayış məntəqəsi qeydə alınmışdır. Kənd indiki Abaran rayonu ərazisində, Zəngi çayının sağ qolunun üzərində yerləşirdi. Erməni mənbəyində kəndin adı Kyalaşkənd,[936] Qafqazın 5 verstlik xəritəsində Kələskənd formasında[937] qeyd edilmişdir. Kələşkənd kəndində 1831-ci ildə 96 nəfər, 1873 -cü ildə 288 nəfər, 1886-cı ildə 363 nəfər, 1897-ci ildə 404 nəfər, 1904 -cü ildə 373 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə372 nəfər yalnız azərbaycanlı yaşamışdır[938]

---

933 Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 18.

934 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում 1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.

935 Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 32.

936 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 67.

937 Д.Д. Пагирев. Алфавитный указçатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 155.

938 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 67, 98-99.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1918-ci ilin payızın sonu, qışın əvvəllərində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq yerli sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Kənd 1926-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Kələşkənd toponimi Kələş şəxs adına kənd sözünün qoşulması yolu ilə əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Eçmiədzin qəzasında, XX əsrin inzibati ərazi bölgüsünə əsasən indiki Abaran rayonu ərazisində azərbaycanlıların tarixən yaşadığı **Kirəşli** kəndinin adına mənbələrdə rast gəlinir.

Yaşyış məntəqəsi Zəngi çayının yanında yerləşirdi. Kəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə Kərəcli kimi,[939] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq Kirəşli şəklində,[940] Qafqazın 5 verstlik xəritəsində Kiraşlu formasında[941] qeyd edilmişdir.

Kirəşli kəndində 1831-ci ildə 76 nəfər, 1873-cü ildə 464 nəfər, 1886-cı ildə 744 nəfər, 1897-ci ildə 802 nəfər, 1908-ci ildə 1061 nəfər, 1914-cü ildə 1196 nəfər, 1916-cı ildə 973 nəfər,

---

[939]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 134.

[940] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 18.

[941]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 134.

1919-cu ildə 207 nəfər yalnız azərbaycanda yaşamışdır.[942] Yuxarıdakı statistik məlumatlardan göründüyü kimi, 1916-cı ildən başlayaraq azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar mərhələ-mərhələ sıxışdırılaraq deportasiya olunmuşdur.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1919-cu ilin sonlarında azərbaycanlılar bir nəfər kimi doğma torpaqlarından qovulmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Kirəşli kəndində 1922-ci ildə 108 nəfər, 1926-cı ildə 86 nəfər, 1931-ci ildə 135 nəfər yalnız azərbaycanlılar yaşamışdır.[943]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[942]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 67, 98-99.

[943]Yenə orada, s. 67, 98-99.

Kirəşli toponimi kirəcli türk tayfa adı[944] əsasında əmələ gəlmişdir.

Mənbələrdə **Kiçik Armudlu** kəndi İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda qeydə alınmışdır. Kiçik Armudlu kəndi rayon mərkəzindən 6 km cənubda yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[945]

Erməni mənbələrində göstərilir ki, kəndin qədim, ilkin adı Türk (tatar) Armutlusu (Armtlu türk (tatar) olmuşdur [946]. Kənddə 1831-ci ildə 72 nəfər, 1873-cü ildə 178 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 289 nəfər, 1904 -cü ildə 309 nəfər, 1914-cü ildə 327 nəfər, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır.[947]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1918-ci ilin payız aylarında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur və kəndə Türkiyənin Bayazid və Alaşkerd vilayətlərindən köçürülən ermənilər yerləşdirilmişdir. Kiçik Armudlu kəndi 1930-cu ildə rayondakı Böyük Armudlu kəndi ilə birləşdirilərək ayrıca yaşayış məntəqəsi kimi rayonun inzibati ərazi bölgüsündən adı silinmişdir.

---

[944] B.Ə. Budaqov. Türk üluslarının yer yaddaşı, Bakı: Elm, 1994, s. 166.

[945] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 19.

[946] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62.

[947] Yenə orada,s. 62-63, 138-139.

Kiçik Armudlu toponimi armud bitki adına mənsubluq bildirən -lu şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. “Kiçik” sözü fərqləndirici əlamət bildirir.

XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasında, XX əsrdə Ermənistan Respublikasında indiki Basarkeçər (Vardenis) rayonunda mənbələrdə **Kiçik Qaraqoyunlu** kəndi qeydə alınmışdır. Yaşayış məntəqəsi Basarkeçər rayonunun mərkəzindən 14 km cənub-qərbdə yerləşirdi.

Kiçik Qaraqoyunlu kəndində 1897-ci ildə 235 nəfər, 1908-ci ildə 253 nəfər, 1914-cü ildə 328 nəfər, 1916-cı ildə 301 nəfər azərbaycanlı yaşamışdır.[948] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1919-cu ilin aprel ayında azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq kənddən qovulmuşlar.[949] 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. Kiçik Qaraqoyunlu kəndində 1922-ci ildə 197 nəfər, 1926-cı ildə 212 nəfər, 1931-ci ildə 209 nəfər azərbaycanlı yaşamışdır.[950] Kiçik Qaraqoyunlu kəndi rayon rəhbərliyinin göstərişi ilə Böyük Qaraqoyunlu kəndinə birləşdirilərək ayrıca yaşayış məntəqəsi kimi rayonun inzibati ərazi bölgüsündən adı silinərək ləğv edilmişdir.

---

[948] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 26-27, 112-113.

[949] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 305.

[950] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 26-27, 112-113.

Kiçik Qaraqoyunlu toponimi qaraqoyunlu türk tayfasının adı[951] əsasında əmələ gəlmişdir. “Kiçik” fərqləndirici əlaməti bildirən sözdür.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, Ermənistan SSR dönəmində indiki Əştərək rayonunda **Kiçikkənd** kəndi mövcud olmuşdur. Yaşayış məntəqəsi Abaran çayının sağ sahilində, Karbi kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı “İrəvan əyalətinin icmal dəftəri”ndə qeyd edilir və kəndin başqa adının Uş olduğu da göstərilir[952]. Kiçikkənd kəndi yaşayış məntəqəsi kimi hətta XIX əsrin rus mənbələrində[953] qeydə alınmışdır.

Kiçikkənd kəndində 1831-ci ildə 77 nəfər, 1873-cü ildə 166 nəfər, 1886-cı ildə 235 nəfər, 1897-ci ildə 296 nəfər, 1908-ci ildə 366 nəfər, 1914-cü ildə 292 nəfər, 1916-cı ildə 249 nəfər, 1918-ci ildə 370 nəfər, 1919-cu ildə 233 nəfər yalnız azərbaycanlı yaşamışdır.[954]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1919-cu ilin aprel ayında kənd sakinləri erməni hərbçilərinin təcavüzünə

---

[951]Qızılbaşlar tarixi (tərcümə və şərhlər M.Ə.Məhəmmədindir), Bakı: Azərbaycan, 1993, s.18; M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 52.

[952] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 88.

[953] Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №349.

[954]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 108-109.

məruz qalaraq deportasiya olunmuşdur[955]. Sağ qalan azərbaycanlılar ata-baba yurdlarına 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra qayıda bilmişlər. Kiçikkənd kəndində 1922-ci ildə 56 nəfər, 1931-ci ildə 55 nəfər yalnız azərbaycanlı əhali yaşamışdır.[956]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1949-cu illərdə yenidən zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kiçikkənd toponimi Azərbaycan dilində "balaca, sahəsi az olan, xırda" mənasında işlənən kiçik sözü ilə "yaşayış məntəqəsi" mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir.

**Kiçik Gilanlar** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd olmuşdur.

Kənd rayon mərkəzindən 28 km şimal-şərqdə yerləşirdi. Yaşayış məntəqəsi Yelincə çayının inzibati ərazi bölgüsünün tabeliyində olmuşdur[957]

---

[955]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

[956]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 108-109.

[957] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

Kəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə Kiçik Gilan,[958] Qafqazın 5 verstlik xəritəsində Kiçik Gilyanar[959] formasında qeyd edilmişdir.

Kiçik Gilanlar kəndində 1873 -cü ildə 96 nəfər, 1886-cı ildə 167 nəfər, 1897-ci ildə 178 nəfər, 1904-cü ildə 183 nəfər, 1914-cü ildə 201 nəfər, 1916-cı ildə 194 nəfər azərbaycanlı yaşamışdır.[960]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin sentyabr-noyabr aylarında azərbaycanlılar erməni quldur dəstələrinin tərəfindən qırğınlarla qovulmmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişdir.

Kiçik Gilanlar kəndində 1922-ci ildə 21 nəfər erməni ilə yanaşı 11 nəfər azərbaycanlı yaşamışdır.[961] 1922-ci ildən sonra kənddə yaşayan 11 nəfər azərbaycanlı da qovulmuşdur. 1950-ci illərdə Kiçik Gilanlar kəndi ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[958] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 102.

[959] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 62.

[960] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 154-155.

[961] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932,, s.154- 155.

Qars vilayətinin Qars qəzasında, indiki Amasiya rayonunda azərbaycanlıların yaşadığı yaşayış məntəqələrindən biri **Kiçik Təpəköy** kəndi adlanırdı. Yaşayış məntəqəsi rayon mərkəzindən 17 km şimal-qərbdə, Arpaçayın sol tərəfində yerləşirdi. **Kiçik Təpəköy** kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[962] Erməni mənbələrində kənddə yaşayan azərbaycanlılar qarapapaqlar (azərbaycanlılarn etnogenizində iştirak edən tayfa) kimi göstərilərək onlar müstəqil xalq olaraq qeyd edilir.[963] Kiçik Təpəköy kəndində 1886-cı ildə 164 nəfər, 1897-ci ildə 206 nəfər, 1908-ci ildə 321 nəfər, 1914-cü ildə 209 nəfər azərbaycanlı yaşamışdır.[964]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin payızında ərazidə baş verən ictimai-siyasi hadisələrlə bağlı azərbaycanlılar erməni hərbçiləri tərəfindən öz doğma kəndlərindən qırğınlarla qovulmuşlar. Kiçik Təpəköy kəndi yaşayış məntəqəsi kimi 1950-ci ildə Böyük Təpəköy kəndi ilə birləşdirilərək Amasiya rayonunun inzibati ərazi vahidi kimi kəndlərin siyahısından çıxarılmışdır.

Kiçik Təpəköy toponimi Azərbaycan dilində "kiçik dağ" mənasında işlənən təpə sözü ilə müasir türk dilində "kənd" mənasında işlənən köy sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "kiçik" sözü fərqləndirici əlamət bildirir.

---

[962] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 237.
[963] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20.
[964] Yenə orada, s. 20-21, 104-105.

**Kolanlı** XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasının, XX əsrdə indi Ermənistan adlanan Qərbi Azərbaycanın Zəngibasar (Masis) rayonunun ərazisinin inzibati ərazi bölgüsünə aid olan kəndlərdə biri idi. Kənd 1937-ci ilə kimi Vağarşabad (Eçmiədzin) rayonunun tərkibinə daxil olmuşdur. Erməni mənbələrinə əsasən kəndin digər adı Kolanlı Aralıq olmuşdur.[965] Kolanlı kəndində 1831-ci ildə 284 nəfər, 1873-cü ildə 673 nəfər, 1886-cı il də 701 nəfər, 1897-ci ildə 886 nəfər, 1904-cü ildə 768 nəfər, 1914-cü ildə 887 nəfər, 1918-ci ildə 768 nəfər,1919-cu ildə 1118 nəfər yalnız azərbaycanlı yaşamışdır.[966] 1918-ci ildə yaradılan daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1919-cü ilin sonlarında kənd sakinləri erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş[967] və xaricdən (İran və Türkiyədən) köçürülən ermənilər kənddə yerləşdirilmişdir. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Kolanlı kəndində ermənilərlə yanaşı 1922-ci ildə 224 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 294 nəfər azərbaycanlı yaşamışdır.[968] Sonradan azərbaycanlıların ciddi və haqlı tələbləri

---

965 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84.

966 Yenə orada, s.84-85, 152-153; История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

967 История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

968 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 84-85, 152-153.

ilə ermənilər kənddən çıxarılaraq başqa kəndə göndərilmişlər.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1949-cu illərdə zorla tarixi-etnik vətənlərindən çıxarılaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.

Kolanlı toponimi kolani türk etnoniminə[969] mənsubluq bildirən -lı şəkilçisi artırmaqla əmələ gəlib "kolanı tayfasına məxsus yer" mənasını bildirir.

Qərbi Azərbaycanda **Kolanlı** adlı daha bir yaşayış məntəqəsi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında qeydə alınmışdır. **Kolanlı** kəndinin ərazisi indiki Vedi (Ararat) rayonunun ərazisi daxilinə təsadüf edir. Erməni mənbələrində kəndin adı həm də Kolani, Cermanis Kolanlı kimi göstərilir.[970]

Kolanlı kəndində 1831-ci ildə 105 nəfər, 1873-cü ildə 545 nəfər, 1886-cı ildə 663 nəfər, 1897-ci ildə 886 nəfər, 1904-cü ildə 728 nəfər, 1914 - cü ildə 800 nəfər, 1916-cı ildə 939 nəfər azərbaycanlı yaşamışdır.[971]

---

[969]И.И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 535.

[970]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88.

[Y]enə orada, s. 88-89, 156-157.

1918-ci ildə yaradılan daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin sentyabr-oktyabr aylarında azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Kolanlı kəndində 1922-ci ildə 207 nəfər, 1926-cı ildə 300 nəfər, 1931-ci ildə 430 nəfər azərbaycanlı yaşamışdır.[972]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin sakinləri 1948-1949-cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Bundan sonra Kolanlı kəndi xarabalığa çevrilmişdir. Urbesidə uğramış kənd kimi Kolanlı kəndi tarix səhifəsindən silinmişdir.

Kolanlı toponimi kolanı türk tayfasının adına[973] mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

---

[972] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[973] И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 535.

**Kolluqışlaq** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kənddə 1897-ci ildə 75 nəfər azərbaycanlı yaşamışdır.[974] 1905-1906-cı illərdə ermənilərin quldur dəstələrinin təcavüzü nəticəsində azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Kolluqışlaq toponimi "kol basmış, kolu çox olan" mənasında işlənən kollu sözü ilə[975] "qış vaxtı heyvandarların yaşadığı yer" mənasında işlənən qışlaq sözü əsasında yaranmışdır.

**Kosalı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kənd Qafan şəhərinin yaxınlığında yerləşirdi. Yaşayış məntəqəsi Qafan şəhərinə birləşdirilərək ləğv edilmişdir. İndi ölü kənddir.

Kosalı toponimi kosalı türk tayfasının adı[976] əsasında əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, XX əsrdə Ermənistan adlanan respublikada indiki Vedi (Ararat) rayonunun inzibati ərazisi daxilində **Kotuz** kəndi olmuşdur. Kənd Vedi rayonundakı Qarağac kəndinin yanında, Çanqlı çayının yanında, Kotuz dağının ətəyində yerləşirdi. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə

---

[974] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.
[975] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 83.
[976] E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 23.

Kütus,[977] Qafqazın 5 verstlik xəritəsində Kotuz[978], İrəvan əyalətinin Vedibasar mahalının 1842-ci il tarixli kameral təsvirində kəndin adı Ketuz kəndi[979] formasında qeyd edilmişdir. Erməni mənbəyində kəndi adı həm də Kyotuz, Kotız, Kyutuz fonetik formalarında əksini tapır.[980]

Kotuz kəndində 1842-ci ildə 8 ailə olmaqla islam dininə mənsub kişi cinsindən olan 17 nəfər [981], 1873-cü ildə 188 nəfər, 1886-cı ildə 266 nəfər, 1897-ci ildə 329 nəfər, 1904 - cü ildə 249 nəfər, 1914-cü ildə 493 nəfər, 1916-cı ildə 459 nəfər azərbaycanlı yaşamışdır.[982] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin payızında kəndin sakinləri-azərbaycanlılar erməni hərbçiləri tərəfindən zorla və qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda daşnak hökuməti devrilib 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi məcburi şəkildə tərk etmiş

---

[977]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 172.

[978] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 142.

[979] N.Əhmədli. İrəvan əyalətinin kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019,s. 265-266.

[980]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88.

[981] N.Əhmədli. İrəvan əyalətinin kameral təsviri.. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019,s. 265-266.

[982]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

azərbaycanlılardan sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişdir. Kotuz kəndində 1922-ci ildə 58 nəfər, 1926-cı ildə 110 nəfər, 1931-ci ildə 154 nəfər azərbaycanlı yaşamışdır.[983]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin əhalisi 1949-cu ildə zorla Azərbaycana köçürülərək kənd xarabalığa çevrilmşdir. Kotuz indi xaraba kənddir.

Ə.Ələkbərli toponimin etimologiyası ilə bağlı yazır: "Kəndin adı kot və uz hissələrindən ibarət olmaqla, kot//qot//kut variantlarında "möhkəmləndirilmiş yer","düşərgə", "dayanacaq" və s. mənalarında işlənilmişdir.

İkinci hissə (uz) isə bir neçə məna daşıya bilər: 1.Qədim türk tayfalarından olan Uz tayfasının adını; 2. Tərəf, yan anlamını; 3. Türk dillərindəki "dərə" anlamını; 4. Cəm şəkilçisi kimi".[984] Kotuz toponimi ilə bağlı apardığıməz araşdırmalardan bu qənaətə gəlmək olar ki, toponim qədim türk dilində "çöl sığırı",[985] "vəhşi öküz"[986]mənasında işlənən kituz // kutuz (sözdə

---

[983] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[984] Ə. Ələkbərli Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 386.

[985] M.Kaşğari Divani - lügat - it türk, I cilt, Ankara, 1992, s. 365.

[986] M.Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s.370.

i~o, u~o səs dəyişməsi baş verərək kotuz formasını almışdır) sözü əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində tarixən **Körpü qulağı** kəndi olmuşdur. Kənd Dəvəgözü çayının yanında, Aysor gölü kəndinin yaxınlığında yerləşmişdir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[987] Erməni mənbələrində Körpü qulağı kəndinin digər adı Körpükənd formasında göstərilir və kənd yaşayış məntəqəsi kimi 1930 - cu illərdə Vedi (Ararat) rayonunun tərkibində olmuşdur.[988]

Körpü qulağı kəndində 1831-ci ildə 129 nəfər, 1873 -cü ildə 143 nəfər, 1886-cı ildə 200 nəfər, 1897-ci ildə 351 nəfər, 1904-cü ildə 219 nəfər, 1914-cü ildə 470 nəfər, 1916-cı ildə 478 nəfər azərbaycanlı yaşamışdır.[989]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi məcburi şəkildə tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişdir. Kənddə 1922-ci ildə 150 nəfər, 1926-cı ildə 141 nəfər, 1931-ci ildə 174 nəfər azərbaycanlı yaşamışdır.[990]

---

[987] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 142.

[988] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88.

[989] Yenə orada, s.88-89, 156-157.

[990] Yenə orada, s.88-89, 156-157.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-1949-cu illərdə azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Körpü qulağı toponimi Azərbaycan dilində işlənən körpü və "kənar, uc" mənasında işlənən qulaq[991] sözünün birləşməsindən əmələ gəlib. Görünür, kənd körpü yanında salındığı üçün Körpü qulağı kəndi adlandırılmışdır.

İrəvan quberniyasının Eçmiədzin qəzasının, indiki Talin rayonunun ərazisində **Köhnəqışlaq** kəndinin adı mənbələrdə qeyd edilir. 1918-ci ildə yaradılmış Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində elə 1918-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Köhnəqışlaq toponimi Azərbaycan dilində işlənən köhnə və qışlaq sözləri əsasında yaranmışdşr.

**Köhnə kalafa** İrəvan quberniyasının Loru Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Köhnə kalafa kəndi 1930-cu illərdə Allahverdi rayonunun tabeliyində olmuşdur. Köhnə kalafa kəndi XX əsrin 30-cu illərində Ləmbəli kəndinə birləşdirilərək ayrıca yaşayış

---

[991] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 567.

məntəqəsi kimi ləğv edilmiş, rayonun inzibati ərazi vahidləri sırasından çıxarılmışdır.

Köhnə kalafa toponimi Azərbaycan dilində “qədim” mənasında işlənən köhnə və Azərbaycan dilinin qərb qrupu şivələrində “dağılmış yer, xaraba” mənasında işlənən kalafa sözünün[992] birləşməsindən əmələ gəlmişdir.

**Köhnə Şahablı** kəndi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında, XX əsrdə indiki Vedi (Ararat) rayonu ərazisində, Çapan çayının yanında, Vedi rayonundakı Qaraağac kəndinin yaxıqlığında yerləşirdi. Yaşayış məntəqəsinin adı 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə Şahablı formasında qeyd edilmişdir. 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən kəndlərdən biri olaraq Şahablı adında kənd əksini tapır.[993] Həmin mənbədə göstərilir ki, Zəncirli kəndinin yaxınlığında yerləşən Vedi nahiyəsinin Gəncəli kəndi. Kəndin başqa adı Şahablıdır. Gəliri 3.000 ağça olmuşdur.[994] Kəndin adına Qafqazın 5 verstlik xəritəsində rast gəlirik.[995]

Köhnə Şahablı kəndində 1897-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır.[996] Yaşayış məntəqəsi kimi Köhnə Şahablı kəndi XX

---

[992]Azərbaycan dilinin dialektoloji lüğəti, bircildlik, Bakı: Azərb.SSR Elmlər Akademiyası, 1964, s. 251.

[993] İ.Bayramov, N.Mustafa. “Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 22.

[994] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 106.

[995] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 290.

[996]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89.

əsrin əvəllərində (1905-1906-cı illərdə) ləğv edilmişdir. İndi xaraba kənddir.

Köhnə Şahablı toponimi Azərbaycan toponomiyasında fərqləndirici əlamət bildirən köhnə sözü ilə oğuzların şahablı etnonimi[997] əsasında əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında **Kömürlü** kənd olmuşdur. Bu kənd Qərbi Azərbaycanın indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisi daxilinə düşür . Kənd rayondakı Yelpin kəndinin yaxınlığında, Arpaçayın sol qolu olan Axtaçayın yaxınlığında yerləşirdi. Kəndin adı “İrəvan əyalətinin icmal dəftəri”ndə Kömür kimi[998], Qafqazın 5 verstlik xəritəsində Gomurlu formasında[999] qeyd edilmişdir. Erməni mənbələrində yaşayış məntəqəsinin adı Kyomurlu formasında göstərilir.[1000] Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, Kömürlü kəndinin əhalisi şiə məzhəbindən olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Burada xəzinə torpaqlarında vergi mükəlləfiyyətli kənd əhalisi yaşayır.[1001] Kömürlü kəndində 1873-cü ildə 95 nəfər, 1886-cı ildə 147 nəfər, 1897-ci ildə 192 nəfər, 1904 - cü ildə 205 nəfər, 1914-cü ildə 225 nəfər, 1916-cı

---

[997] F. Kırzıoğlu. Rəvan türkləri, “Vətən həsrəti”qəz., 18. VI. 1993

[998] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[999] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 162.

[1000] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92, 162.

[1001] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 271.

ildə 259 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1002] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə göstərişinin nəticəsində 1918-ci ilin payızında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuş və kənd xarabalığa çevrilmişdir. Kömürlü indi xaraba kənddir.

Kömürlü toponimi türk dilində "dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasında işlənən kömür sözünə[1003] -lu şəkilçisinin artırılması ilə düzəldilmişdir. Kömürlü toponimi "dağ başında dar, yarğanlı, uçurumlu yerdə salınan kənd" mənasını bildirir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, XX əsrin əvvəllərində Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində **Kumand** kəndi mənbələrdə qeydə alınmışdır.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı Kuman formasında tədqiq edilir.[1004]

Kumand kəndində 1897-ci ildə 42 nəfər,[1005] 1914-cü ildə 242 nəfər[1006] azərbaycanlı yaşamışdır.

---

[1002] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[1003] В.В. Радлов. Опыт словарья тюркских наречий, т ll, ч.1-2, СПб, 1899, 1814 стр. т lll, ч.2, СПб, 1905, с. 1321.

[1004] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.273

[1005] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57.

[1006] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 912.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə göstərişinin nəticəsində 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kumand toponimi qədim türk mənşəli koman ( > kuman-İ.B.) etnonimi[1007] əsasında əmələ gələn etnotoponimdir. Toponimin sonundakı "d" samiti toponim yaradıcılığında iştirak edən şəkilçidir.

**Küsüz** kəndi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, XX əsrdə indiki Vedi (Ararat) rayonunun inzibati ərazisində mövcud olmuş yaşayış məntəqəsi idi. Kənd rayon mərkəzindən 22-24 km şimal-şərqdə, Kosum çayının yanında, Əzizkənd kəndinin yaxınlığında yerləşirdi.

Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə[1008], İrəvan əyalətininVedibasar mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində[1009] Küsüsüz kimi və Qafqazın 5 verstlik xəritəsində Küsüz formasında[1010] qeyd edilmişdir.

Küsüz kəndində 1831-ci ildə 221 nəfər, 1873 - cü ildə 151 nəfər, 1886-cı ildə 203 nəfər, 1897-ci ildə 270 nəfər, 1904-cü ildə 792 nəfər, 1914-cü ildə 860 nəfər, 1916-cı ildə 268 nəfər

---

[1007] Г.Гейбуллаев.Топонимия Азербайджана (историко-этнографическое исследование), Баку: Элм, 1986, с. 50.

[1008] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 172.

[1009] N.Əhmədli. İrəvan əyalətininb kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019, s. 128, 246.

[1010] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 155.

azərbaycanlı yaşamışdır.[1011] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ilin payızında azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları öz doğma kəndlərinə dönə bilmişdir.

Küsüz kəndində 1922-ci ildə 46 nəfər, 1926-cı ildə 62 nəfər, 1931-ci ildə 70 nəfər,[1012] 1939-cu ildə 149 nəfər[1013] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1949 - cu illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Nəticədə Küsüz kəndində yaşayış olmamış və xarabalığa çevrilmişdir. Ə.Ələkbərli toponimin mənşəyi ilə bağlı yazır: "Bizcə, adın kökündə Quz türk tayfalarının adı dayanır və Quz ilə "tərəf, yan" və ya türk dillərində "dərə" anlamında olan

---

[1011]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[1012]Yenə orada, s. 88-89, 156-157.

[1013]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 231.

"uz" tərkib hissələrindən ibarət olub, "Quzlar yaşayan tərəf" və ya "Quzlar yaşayan dərə" mənalarındadır. Uz komponenti burada cəm mənası bildirməsi də istisna təşkil etmir".[1014]

Apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, toponim türk dilində payız mənasında işlənən küz (< küs) sözü əsasında əmələ gəlmişdir. -üz burada şəkilçidir.

Qərbi Azərbaycan mənşəli toponimlərdən biri də **Qabaqtəpə** toponimidir**. Bu toponim** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda qeydə alınmışdır. Yaşayış məntəqəsi kimi Qabaqtəbə kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1015] İndi xaraba kənddir.

Qabaqtəpə toponimi "ön hissə, ön tərəf" mənasında qabaq sözü ilə[1016] Azərbaycan dilində "kiçik, alçaq dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlib "qabaq təpə yanında olan kənd" anlamını verir.

**Qabaqlı** kəndi XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasında, XX əsrdə sovet Ermənistanının indiki Axta (Hrazdan) rayonunda azərbaycanlıların yaşadığı kənd kimi mənbələrdə əksini tapır. Yaşayış məntəqəsi Misxana (Marmarik) çayının yanında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində) qeyd edilmişdir.[1017] Qabaqlı kəndində 1873-cü ildə 94 nəfər, 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 154 nəfər, 1908-ci ildə 181 nəfər, 1914-cü ildə 431 nəfər, 1916-cı ildə 190 nəfər

[1014] Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 393.
[1015] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 106.
[1016] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 381.
[1017] Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 106.

yalnız azərbaycanlı yaşamışdır.[1018] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd 1918-ci ilin payız aylarında erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi qırğınlarla tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişlər. Qabaqlı kəndində 1922-ci ildə 87 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 128 nəfər azərbaycanlı yaşamışdır.[1019] SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçrülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qabaq türk etnoniminə[1020] mənsubluq bildirən -lı şəkilçisinin artırılması yolu ilə düzəlib "qabaq tayfasının yaşadığı kənd" anlamını ifadə edir.

---

[1018]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 16-17, 102-103.
[1019]Yenə orada, s. 16-17, 102-103.
[1020] M.Fahrettin Kırzıoğlu. 1593 (H.1001) yılı Osmanh vilayet Tahrir defterinde anılan GenceKarabağ sancakları: "Ulus" ve "Oymak"lan. - Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979, s. 200.

**Qabaxlı** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində kənd olaraq mənbələırdə əksinin tapır. Qabaqlı kəndi Paşalı rayonunun mərkəzindən 7-8 km cənub-qərbdə, Dərələyəz dağlarının ətəyində, Arpaçay çayının qolu olan Qabaxlı selavının sahilində yerləşirdi. Qabaxlı kəndinin adı 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri kimi,[1021] eyni zamanda Qafqazın 5 verstlik xəritəsində[1022] qeyd edilmişdir. Qabaxlı toponimi erməni mənbələrində Qapaxlı, Qapaxlıq formalarında göstərilir.[1023] Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində kənddə qaraçorluların kulakanlı tayfasının,[1024] 1873-cü il kameral təsvirində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarların (azərbaycanlıların-İ.B.) yaşadığı göstərilir ki, onlar da dövlət kəndliləridir.[1025]

Qabaxlı kəndində 1831-ci ildə 33 nəfər, 1873-cü ildə 201 nəfər, 1886-cı ildə 270 nəfər, 1897-ci ildə 273 nəfər, 1904 -cü ildə 235 nəfər, 1914-cü ildə 258 nəfər, 1916-cı ildə 364 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1026]

---

[1021] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[1022] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 106.

[1023] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

[1024] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. s.73, 167.

[1025] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 263.

[1026] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.Yalnız indiki Ermənistanda 29 noyabr 1920-ci ildə sovet hökuməti qurulandan sonra kəndi qırğınlarla tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz yurdlarına qayıda bilmişlər. Qabaxlı kəndində 1922-ci ildə 103 nəfər, 1926-cı ildə 90 nəfər, 1931-ci ildə 108 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1027]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kənd sakinləri -azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçrülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. F.Kırzıoğlunun "1593 yılde Osmanlı vilaget tahrir defterlerinde Gence-Karabağ sancakları: "ulus" ve "oymaklar" əsərində (1979) göstərilir ki, 1588-ci ilə aid mənbəyə görə yayı Qərbi Azərbaycanda, qışı Qarabağda keçirən bir türk tayfası qabaq adlanırdı.[1028] Məhz bu baxımdan demək olar ki, toponim qabaq

---

[1027]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:. 90-91, 158-159.

[1028]M.Fahrettin Kırzıoğlu. 1593 (H.1001) yılı Osmanh vilayet Tahrir defterinde anılan GenceKarabağ sancakları: «Ulus» ve «Oymak»lan. - Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979, s. 200.

türk tayfa adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Toponim "qabaq tayfasına mənsub yaşayış yeri" mənasını verir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlıların yaşadığı kəndlərdən olan **Qayalı** kəndi qədim tarixə malikdir. Bu kənd Ermənistanda sovet hakimiyyəti qurulandan sonra Ermənistan SSR-in indiki Paşalı (Vayk) rayonunun inzibati ərazisinə verilmişdir. Yaşayış məntəqəsi rayondakı Paşalı kəndinin yaxınlığında, Arpaçay çayının sahilində yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəfəri"ndə qeyd edilmiş, gəliri 3.037 ağça olmuşdur.[1029]Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində kənddə qaraçorluların külükçü tayfasının[1030], 1873-cü il kameral təsvirində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı göstərilir ki, onlar da dövlət kəndliləridir.[1031]

Qayalı kəndində 1831-ci ildə 40 nəfər, 1873-cü ildə 130 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 223 nəfər, 1904-cü ildə 240 nəfər, 1914-cü ildə 264 nəfər, 1916-cı ildə 292 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1032]

---

[1029]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[1030]N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. s. 146, 218.

[1031]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 269.

[1032]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Qayalı kəndində 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır.[1033] Azərbaycanlılar Ermənistan dövlətinin yeritdiyi siyasətin qurbanı olmuş, 1923-1924-cü illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından çıxarılmış və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

B.Budaqov, Q.Qeybullayev,[1034] H.Mirzəyev[1035] yazırlar ki, Qayalı toponimi qayı oğuz tayfasının adından əmələ gəlmişdir. Bizim fikrimizcə, bu həqiqətə uğun izah deyil. Belə ki, kənd qayalıq bir ərazidə yrləşirdi. Kəndin ərazisi, dərələrdəki torpaqları daş-kəsəklidir.[1036] Buradan da belə qənaətə gəlirik ki, toponim "dağ, daş" mənasında işlənən qaya sözünə çoxluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib "qayalıq ərazidə yerləşən kənd" mənasını bildirir.

**Qalax** kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında yaşayış məntəqəsi olaraq mənbələrdə rast gəlirnir.

[1033]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 159.
[1034]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.173.
[1035]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 352.
[1036] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 146, 219.

Kəndin ərazisi indi Qərbi Zəngəzurun Gorus rayonunun ərazisində daxilinə düşür. Qalax kəndi tarixən mövcud olmuş II Bayandur kəndinin yaxınlığında yerləşirmiş.

Z.Qorqodyan Qalax kəndini II Bayandur kəndinin başqa adı və ya qədim adı kimi qeyd etmişdir.[1037] Qalax kəndi II Bayandur kəndinin yaxınlığında yerləşdiyindən Z.Qorqodyan Qalax kəndi ilə II Bayandur kəndini eyni kənd hesab etmişdir. Daha doğrusu, II Bayandur kəndinin digər adının Qalax olduğunu göstərməklə, tarixi həqiqəti saxtalaşdırmışdır.

Tarixi həqiqətdəsə, Qalax kəndi ləğv edilərək ərazisi II Bayandur kəndinin ərazisinə qatılmışdır.

Qalax toponimi Azərbaycan dilində "topa, yığın" mənasında işlənən qalax sözündən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının, Ermənistan SSR dövründə indi Qəmərli (Artaşat) rayonunun tabeliyində **Qaladibi** kəndi mövcud olmuşdur. Qaladibi yaşayış məntəqəsi Dəvəgölü çayının yanında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Zəngibasar sahəsindəki kəndlərdən biri olaraq Qaladibi kəndinin adı göstərilmişdir .[1038] Həmçinin kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir .[1039] Qaladibi kəndi 1930-cu illərdə Vedi (Ararat) rayonunun inzibati ərazisinə daxil olmuşdur.[1040]

---

[1037]Զ.Կորկոդյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 28.

[1038]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 21.

[1039]Д.Д. Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 110.

[1040]Զ.Կորկոդյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 85-86.

Qaladibi kəndində 1873 - cü ildə 155 nəfər, 1886-cı ildə 221 nəfər, 1897-ci ildə 300 nəfər, 1904-cü ildə 242 nəfər,1914-cü ildə 399 nəfər, 1916-cı ildə 428 nəfər azərbaycanlı yaşamışdır.[1041]

1918-ci ildə yaradılmış Ararat Respublikasının zamanı kəndin sakinləri zorla və qırğınlarla ermənilər və erməni hərbçiləri tərəfindən qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə qayıda bilmişdir. Qaladibi kəndində 1922-ci ildə 126 nəfər, 1926-cı ildə 130 nəfər, 1931-ci ildə 189 nəfər,[1042] 1939-cu ildə 387 nəfər[1043] azərbaycanlı yaşamışdır. Lakin Erməni nmənbələrində 1939-cu ildə Qaladibi kəndinddə yaşayan azərbaycanlıların sayı məqsədli şəkildə azaldılmış və kənddə 266 nəfər azərbaycanlının yaşadığı göstərilmişdir.[1044] Eyni zamanda göstərilən erməni mənbəyində qeyd edilir ki, 1950-ci ildə kənddə yaşayan əhalinin sayı azalmışdır.[1045] "Əhali" deyiləndə kəndin etnik tərkibi bilərəkdən göstərilmir. Məhz bu baxımdan əlavə edək ki, kənddə 1949-cu ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Halbuki indiki Ermənistanda 1873-1939-cu illərdə əhalinin siyahıya alınmasını əks etdirən statistik məlumatda görürük ki, Qaladibi kəndində yalnız azərbaycanlılar yaşamışdır. Kənddə əhalinin, yəni

---

[1041]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:86-87, 156-157.

[1042]Yenə orada, s. 87, 157.

[1043]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 222.

[1044]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988, էջ: 888.

[1045]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988, էջ: 888.

azərbaycanlıların sayının azalmasının səbəbi bilərəkdən izah edilmir. Əslində SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1948-1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçmürülmüşdür. Qaladibi kəndi 1950-ci ildə yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Qaladibi toponimi iki sözün- "uzun müddət içində qapanıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam" mənasını bildirən ərəb mənşəli qala və "bir yerin ən uzaq, ən dərin yeri" mənasında işlənən dib sözünün[1046] birləşməsindən ibarətdir.

Görünür, kənd qalanın yanında salındığı üçün kənd Qaladibi kəndi adlandırılıb.

**Qalayçı** kəndi XIX əsrdə .İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınmışdır. Kəndin ərazisi Ermənistanın indiki Abaran rayonunun ərazisi daxilində, Abaran çayının sağ qolu üzərində yerləşirdi. Qalayçı kəndinin digər adı erməni mənbələrində,[1047] Qafqazın 5 verstlik xəritəsində[1048]

---

[1046] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 90.

[1047]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 4.

[1048]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 110.

Qalaça formasında qeyd edilmişdir. Kənd 1950-ci illərdə ləğv edilmişdir.

Qalayçı toponimi oğuzların bayandır tayfasından olan qalayçı etnonimi[1049] əsasında əmələ gəlmişdir.

**Qalakənd** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur.

Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Qalabəy kəndi formasında qeyd edilmiş, gəliri 1.299 ağça olmuşdir. [1050] 1898-cı ildə burada 40 bağ olmuşdur.[1051] İndi ölü kənddir.

M.Hüseynova yazır ki, coğrafi mövqeyi baxımından bu kənd qalaya bənzər istehkamlı dağın zirvəsində yerləşirmiş, burada eyni zamanda təbii üsulla qala da tikilmişdir.[1052]

Qalakənd toponimi qala və kənd sözlərindən əmələ gəlib "qala yaxınlığında olan kənd mənasını ifadə edir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində **Qalaça** kəndi qeydə alınmışdır. Yaşayış məntəqəsi Alagöl dağının ətəyində yerləşirdi. Kənd yaşayış məntəqəsi kimi 1926-cı ildə ləğv edilmişdir. İndi ölü kənddir.

Qalaça toponimi ərəb mənşəli qala sözünə kiçiltmə mənası bildirən -ça şəkilçisinin qoşulması ilə əmələ gəlib "kiçik qala yaxınlığında olan kənd" mənasını verir.

---

[1049] Sümər Faruq. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 305.

[1050]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[1051]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 355.

[1052]M.Hüseynova. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı:ADPU, 2024, s. 106.

**Qanalı** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Yelpin kəndinin şimal-şərqində yerləşən Qanalı kəndində azərbaycanlılar yaşamışdır.

1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Kənd 1924- cü ildə ləğv edilmişdir .[1053] Qanalı indi xaraba kənddir.

Qanalı toponiminin ilk komponenti qana, qano formasında "arx, kanal" mənasını bildirir. Bu söz qədim türk tayfalarına aid termin olub, hazırda ancaq Azərbaycan dilində işlənir. S.E.Malovun göstərdiyinə görə, sözün ilkin forması "qanu" olmuş, su anbarı və hovuz mənalarını ifadə edir.[1054] -lı sözdüzəldici şəkilçidir.

**Qapıcıq** kəndi XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının inzibati ərazisinə daxil olan yaşayış məntəqələrindən biri idi.

Qapıcıq kəndinin tarixi ərazisi müasir coğrafi en dairəsinə görə Qərbi Zəngəzurun Qafan rayonunun ərazisinə uyğun gəlir. Qapıcıq kəndi Oxçu çayının sağ sahilində yerləşirdi. Burada 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır.[1055]

[1053]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 782.
[1054]R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 122.
[1055]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 137.

Qapıcıq toponimi türk dilində "dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi", "dağ yamacında dar dərə" mənasında işlənən qapı (kapu) sözünə[1056] kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılılması ilə düzəlib.

**Qarabaşlar** kəndi XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, Ermənistan SSR-in inzibati ərazi bölgüsünə əsasən Qərbi Zəngəzurun Qafan rayonunun tabeliyində olmuşdur. Kənd rayon mərkəzindən 15 km şimal-şərqdə, Kığı çayının sol tərəfində yerləşirdi. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində Qarabaş formasında qeyd edilmişdir.[1057]

B.Budaqov və Q.Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində yazırlar ki, Qarabaş kəndi keçmiş Gorus rayonunun inzibati ərazisində kənd olmuşdur.

XX əsrin 80-ci illərinə aid məlumata görə Kilətaq kəndindən yaranmış obalardan biridir. Mənbədə obanın adı Qarabaş kimidir.[1058] Göründüyü kimi Qafan rayonuna aid olan Qarabaş kəndi Gorus rayonunun kəndi kimi verilib. Əslində Qarabaşlar kəndi Qafan rayonunun yaşayış məntəqələrindən biri olmuşdur.

Qarabaşlar kəndində 1897-ci ildə 60 nəfər, 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 39 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı

---

[1056]Э.М.Мурзаев.Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 253.

[1057]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 114.

[1058]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.179.

yaşamışdır.[1059] 1926-cı ilin siyahıyalmasında kənddə yaşayan azərbaycanlılar farslar kimi göstərilmişdir.[1060] Bu, erməni tarixşünaslığında tarixi həqiqətin saxtalaşdırılmasıdır. Halbuki Qafan rayonunda, ümumiyyətlə, Qərbi Azərbaycanda, eləcə də Qərbi Zəngəzurda farslar yaşamamışdır. XX əsrin 30-cu illərin sonunda kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Qarabaşlar toponimi muğanlı türk tayfasından olan qarabaş tayfa adına[1061] -lar şəkilçisinin qoşulmasından yaranmış qarabaşlar tayfa adı əsasında əmələ gəlmişdir.

**Qaraboya** kəndi İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınmışdır. Kənd indiki Sərdarabad (Oktemberyan) rayonunun ərazisinə təsadüf edir. Qaraboya kəndi Araz çayının yanında yerləşirdi. Qaraboya kəndinin tarixi ərazisi 1930-cu ildə isə inzibati ərazi vahidi kimi fəaliyyət göstərən Leninakan (Gümrü) rayonunun inzibati bölgüsünə daxil olmuşdur. 1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Yaşayış məntəqəsi kimi kənd 1918-ci ildə ləğv edilmişdir.

Qaraboya toponimi qaraboya nəsil adı əsasında əmələ gəlmişdir.

---

[1059] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

[1060] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 57.

[1061] Г.Гейбуллаев. Топонимия Азербайджана (историко-этнографическое исследование), Баку: Элм, 1986, с. 72.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlıların qədimdən yaşadığı yaşayış məntəqələrindən biri də **Qaravəng** kəndi idi. Kəndin ərazisi indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun inzibati ərazi daxilinə uyğun gəlir. Qaravəng kəndi rayon mərkəzinin yaxınlığında, Təkədonduran çayından axan qolun yanında yerləşirdi. Qaravəng kəndinin adı 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq,[1062] "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1063] Qafqazın 5 verstlik xəritəsində[1064] qeyd edilmişdir.

Dərələyəz mahalının 1831-ci il, 1842-ci il[1065] və 1873-cü il[1066] kameral təsvirlərində kəndin adı Qaravənk kəndi formasında qeyd edilmişdir Dərələyəz mahalının kameral təsvirlərinə əsasən Qaravəng kəndində 1873-ci ildə tatarların (azərbaycanlıların-İ.B.) şıxanlı tayfası yaşamışdır[1067]. 1873-cü il kameral təsvirindən xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarların (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1068]

---

[1062] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[1063] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 60.

[1064] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 115.

[1065] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 100, 188.

[1066] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 266.

[1067] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 266.

[1068] Yenə orada, s. 266.

Qaravəng kəndində 1831-ci ildə 80 nəfər, 1873-cü ildə 187 nəfər, 1886-cı ildə 205 nəfər, 1897-ci ildə 260 nəfər, 1904-cü ildə 414 nəfər, 1914 - cü ildə 455 nəfər, 1916-cı ildə 300 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1069] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistanda 29 noyabr 1920-ci ildə sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz ata-baba torpaqlarına dönə bilmişdir. Qaravəng kəndində 1922-ci ildə 66 nəfər yalnız azərbaycanlı yaşamışdır. [1070]1923-1925-cı illərdə kəndin sakinləri-azərbaycanlılar rayon rəhbərliyi tərəfindən sıxışdırılmışdır. Onlar öz doğma kəndlərindən çıxarılaraq rayondakı Qabaxlı və Kotanlı kəndlərində məskunlaşdırılmış və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.Qaravəng kəndi ərazisindəki böyük alban abidəsinin-vəngin yanında salınmışdır.

Vəng 1151-cı ildə tikilmiş,1273-cü ildə yenidən bərpa edilib təkmilləşdirilmişdir.[1071]

Qaravəng toponimi "böyük, əzamətli, yekə" mənasında işlənən qara sözü ilə qədim türk dilində "abidə, möhkəm abidə" mənasında işlənən "bengü", "mengü" sözünün fonetik forması kimi sabitləşən vəng[1072] sözünün birləşməsindən əmələ gəlmişdir.

---

[1069]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 160-161.

[1070]Yenə orada, s. 161.

[1071]Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №753.

[1072] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s.208-210.

**Qaraqayalı** kəndi İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində yerləşirdi. Kəndin adı erməni mənbələrində Təzəkənd kəndi formasında da göstərilir

Kənddə 1897-ci ildə 55 nəfər azərbaycanlı yaşamışdır.[1073] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qovulmuş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Qaraqayalı toponimi Qaraqaya oroniminə -lı şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Qaraqala** kəndi XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasının, XX əsrdə indi Axta (Hrazdan) rayonunun inzibati ərazisində. Misxana (Marmarik) çayının sahilində, Tayçarıx kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Göyçə sahəsindəki kəndlərdən biri olaraq Qaraqala kəndinin adı göstərilmişdir.[1074] Kəndin adı haqqında "İrəvan əyalətinin icmal dəftəri"ndə belə bir məlumat verilmişdir: "Zar kəndinin yaxınlığında yerləşən Qaracalar kəndu. Kəndin başqa adı Aşağı Qaraqala kəndidir. Gəliri 3.000 ağça."[1075] Fikrimizcə, XVIII əsrdə İrəvan əyalətinin Qırxbulaq nahiyəsindəki Aşağı Qaraqala kəndi XIX-XX əsrlərdə Qaraqala kəndi kimi sabitləşmiş formada sənədlərdə əksini tapır.

---

[1073].Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89.

[1074] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 24.

[1075]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 81.

Qaraqala kəndində 1831-ci ildə 76 nəfər, 1873 - cü ildə 140 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 261 nəfər, 1908-ci ildə 290 nəfər, 1914-cü ildə 413 nəfər, 1916-cı ildə 247 nəfər azərbaycanlı yaşamışdır.[1076] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar doğma kəndlərinə qayıda bilmişdir. Qaraqala kəndində 1922-ci ildə 83 nəfər, 1926-cı ildə 132 nəfər, 1931-ci ildə 193 nəfər azərbaycanlı yaşamışdır.[1077]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-1949-cu illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş, tarixi-etnik torpaqlarından deportasiya olunaraq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.B.Budaqov və Q.Qeybullayev Qaraqla kəndinin adının 1948-ci ildə ermənicə Sevabert adlandırıldığını yazırlar[1078]. Əslində Ermənistan SSR-

---

[1076] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 16-17, 102-103.

[1077] Yenə orada, s. 16-17, 102-103

[1078] B.Budaqov,Q.Qeybullayev.Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.181.

nin inzibati ərazisində indiki Axta (Hrazdan) rayonunda Qaraqala kəndinin Sevabert adlandırılmasına rast gəlinmir.

Bununla yanaşı Qaraqala toponiminin etimologiyası ilə bağlı B.Budaqov və Q.Qeybullayevin fikrincə, qala adlarında "qara" sözü çox halda qara rəngini ifadə etmir.Qalanın divarları qara rəngə çala bilməzdi. Ona görə ki, təbiətdə qara rəngli daş yoxdur.

Fikrimizcə, "Qraqala"ların əksəriyyəti türk dillərində qarrı "əski, "köhnə", "qədim" sözünün danışıqda "qara" formasını kəsb etməsi nəticəsidir.[1079] Belə ki, daş düşündüyümüz qara rəngində olmur.

Onu əlavə edək ki, Qaraqala toponimlərində "qara" sözü daşın qara rəngə bənzər çaları ifadə edir.

Məhz bu baxımdan Qaraqala toponimi rəng bildirən qara sözü ilə qala sözünün birləşməsindən əmələ gəlmişdir. Kənd ərazidəki qara daşlardan tikilmiş qalanın yanında salındığı üçün Qaraqala kəndi adlandırılmışdır.

**Qaraqala** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd olmuşdur. Kənd XX əsrin 30 - cu illərində ləvğ edilmişdir.

Qaraqala toponimi Azərbaycan dilində rəng mənasında işlənən qara sözü ilə ərəb dilindən dilimizə keçən qala sözünün birləşməsindən əmələ gəlmişdir.

Qərbi Azərbaycanda **Qaraqoyunlu** adında bir neçə yaşayış məntəqəsi qeydə alınıb. Onlardan biri də İrəvan quberniyasının İrəvan qəzasının, indi Vedi (Ararat) rayonunun ərazisində qeydə

---

[1079]B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s.181.

alınmış Qaraqoyunlu kəndidir.Yaşayış məntəqəsi Gərnibasar çayının yaxınlığında, poçt yolunun üstündə yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1080] Qafqazın 5 verstlik xəritəsində[1081] qeyd edilmişdir. Qaraqoyunlu kəndində 1873-cü ildə 376 nəfər, 1886-cı ildə 464 nəfər, 1897-ci ildə 389 nəfər, 1904 -cü ildə 551 nəfər, 1914-cü ildə 606 nəfər, 1916-cı ildə 589 nəfər azərbaycanlı yaşamışdır.[1082] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar 1918-ci ilin payız aylarında qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.[1083] 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Qaraqoyunlu kəndində 1922-ci ildə 60 nəfər, 1926-cı ildə 101 nəfər, 1931-ci ildə 119 nəfər,[1084] 1939-cu ildə 321 nəfər[1085] azərbaycanlı yaşamışdır.

---

[1080] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 99.

[1081] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 117.

[1082] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156- 157.

[1083] История Азербайджана по документам и публикациям,Баку, «Элм», 1990, с. 216.

[1084] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 87, 157.

[1085] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 223.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə Qaraqoyunlu kəndinin sakinləri-azərbaycanlılar 1948-1949-cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir.

Qaraqoyunlu toponimi qaraqoyunlu türk tayfasının adı[1086] əsasında əmələ gəlmişdir.

**Qaraqüzey** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd olmuşdur. İndi xaraba kənddir.

Qaraquzey toponimi qədim türk dilində "böyük, geniş" mənasında işlənən qara sözü ilə Azərbaycan dilində "gün düşməyən yer" mənasında işlənən qüzey sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Qarakənd** kəndi qeydə alınıb. Kəncdin ərazisi Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisinə dsşür. Yaşayış məntəqəsi Şəhərcik kəndinin şərqində, kənddən 3 km aralı yerləşirdi.[1087] B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində

---

[1086] Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 52.

[1087] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s. 139.

Qarakəndi formasında qeyd edilmişdir.[1088] XIX əsrin əvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Qarakənd toponimi türk dilində böyük mənasında işlənən qara sözünə kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Qaragədik** kəndi qeydə alınıb. Kəndin ərazisi coğrafi en dairəsinə görə Qərbi Zəngəzurun indiki Gorus rayonu ərazisi daxilinə təsadüf edir. kənd. Yaşayış məntəqəsi Gorus rayonunun mərkəzindən 27-28 km şimal-şərqdə, dağlıq və meşəlik sahədə yerləşirdi.

Kənddə XIX əsrin axırlarında 151 nəfər, XX əsrin əvvəllərində 108 nəfər azərbaycanlı yaşamışdır. Qaragədik kəndi daşnakların yaratdığı Ararat Respublikası dövründə-1918-1920-ci illərdə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin sakinləri qırğınlarla deportasiya olunmuş və kənd ləğv edilmişdir.[1089]

Qaragədik toponimi Azərbaycan dilində "böyük, uca, hündür" mənasında işlənən qara sözü ilə "dağ belində batıq, aşırım" mənasında işlənən gədik sözünün[1090] birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan toponimdir. Kənd yerləşdiyi relyef uyğun Qaragədik adlandırılmışdır.

Qərbi Azərbaycanda "qara" komponentli toponimlər geniş yayılıb. Belə toponimlərdən biri də Şərur-Dərələyəz qəzasındakı **Qaralar** toponimidir.

---

[1088] B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bak: Nafta-Pres, 1998, s. 166.

[1089] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s. 164-165.

[1090] R. Yüzbaşov.Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı:Elm, 1966, s.126.

Qaralar kəndi XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasnın yaşayış məntəqələrindən olmuşdur. Coğrafi em dairəsinə görə Qaralar kəndinin ərazisi Qərbi Azərbaycanın indiki Paşalı (Vayk) rayonunun ərazisinə düşür.

Yaşayış məntəqəsi Paşalı kəndinin Pordərəsinin yaxınlığında yerləşirdi. Qaralar kəndinin adı 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq göstərilmiş,[1091] Qafqazın 5 verstlik xəritəsində[1092] qeyd edilmişdir.

Bu kənddə Dərələyəz mahalının 1831-ci il və 1842-ci il kameral təsvirlərində Qaraçorluların bozlu tayfasının yaşadığı göstərilir.[1093] Mahalın 1873-cü il kameral təsvirindən xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1094] Qaralar kəndində 1831-ci ildə 49 nəfər, 1873-cü ildə 84 nəfər, 1886-cı ildə 101 nəfər, 1897-ci ildə 113 nəfər, 1904-cü ildə 108 nəfər, 1914-cü ildə 118 nəfər, 1916-cı ildə 148 nəfər azərbaycanlı yaşamışdır.[1095]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində

[1091] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 27.

[1092] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 118.

[1093] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 100, 266.

[1094] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 266.

[1095] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-ci ilin payızında kəndin köklü sakinləri olan azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Erməni quldur hərbçiləri kəndi talan etmiş və yandırmışlar. Beləliklə, Qaralar kəndi xarabalığa çevrilmişdir. Nəticədə 1920-ci ildə kənd ləğv edilmişdir.[1096] İndi xaraba kənddir.

Qaralar kəndinin adı qaralar türk etnonimi[1097] əsasında əmələ gəlmişdir.

Qərbi Azərbaycanda türk etnonomləri əsaında formalaşan yaşayış məntəqə adlarına geniş şəkildə rast gəlinir. Bu da ərazinin köklü sakinlərinin azərbaycanlılar olduğunu təsdiq edən ən mühüm amillərdən biridir. Belə yaşayış məntəqələrindən biri də **Qarapapaq** kəndidir.

Qarapapaq kəndi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasınının, XX əsrəd, daha doğrusu, sovet Ermənistanının inzibati ərazi bölgüsünə əsasən indiki Qəmərli (Artaşat) rayonunun tərkibinə daxil idi. Kəndin başqa adı Seyidkənd olmuşdur. Qarapapaq kəndində 1831-ci ildə 130 nəfər, 1873-cü ildə 345 nəfər, 1886-cı ildə 346 nəfər, 1897-ci ildə 483 nəfər, 1904-cü ildə 410 nəfər, 1914-cü ildə 705 nəfə, 1916-cı ildə 382 nəfər azərbaycanlı yaşamışdır.[1098]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində

---

[1096] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 530.

[1097] E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 24.

[1098] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq elə 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri-azərbaycanlılar öz yurdlarına dönə bilmişdir. Qarapapaq kəndində 1922-ci ildə 99 nəfər, 1926-cı ildə 131 nəfər, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır.[1099] SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-ci ildə kənddə yaşayan azərbaycanlılar Azərbaycana köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Qarapapaq toponimi qazaxlar tayfasından olan qarapapaq etnonimi əsasında [1100] əmələ gəlmişdir.

**Qarasaqqal** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunun ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi rayondakı Alçalı kəndinin yaxınlığında yerləşirdi[1101]. İndi xaraba kənddir.

---

[1099] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[1100] И.Шопен.Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 535-536

[1101] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66.

Qarasaqqal toponimi qarasaqqal etnonimi[1102] əsasında düzəlmişdir.

**Qaratəpə** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunun ərazisi daxilində kənd olmuşdur. Kənd Ağhəmzəli kəndinin yaxınlığında yerləşirdi. Kəndin tarixi ilə bağlı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə göstərilir ki, Qaratəpə kəndi Karni nahiyəsinin Cəbəçəli kəndinin yaxınlığında yerləşir. Gəliri 3.000 ağçadır.[1103] Qaratəpə kəndinin adı Qafqazın 5 verstlik xəritəsində[1104] qeyd edilmişdir.

Qaratəpə kəndində 1831-ci ildə 45 nəfər, 1873-cü ildə 49 nəfər, 1886-cı ildə 32 nəfər, 1897-ci ildə 32 nəfər, 1908-ci ildə 59 nəfər, 1914 -cü ildə 89 nəfər, 1916-cı ildə 30 nəfər, 1919-cu ildə 38 nəfər azərbaycanlı yaşamışdır.[1105]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1919-cu ilin sonlarında, 1920-ci ilin əvvəllərində qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir.

Qaratəpə indi xaraba kənddir.

---

1102 E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 20.

1103 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 99.

1104 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 119.

1105 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 48-49, 128-129.

Qaratəpə toponimi türk dilində “böyük, geniş, hündür, şiş, uca” mənasında işlənən qara sözü ilə[1106] Azərbaycan dilində “kiçik dağ” mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında qeydə alınan **Qaratəpə** kəndi indi Qərbi Azərbaycanın Zəngibasar (Masis) rayonunun ərazisində, rayonun Ağhəmzəli (Marmaraşen) kəndinin yanında yerləşirdi. Kənddə 1831-ci ildə 68 nəfər, 1897-ci ildə 32 nəfər, 1919-cu ildə 38 nəfər azərbaycanlı yaşamışdır.[1107] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri- azərbaycanlılar 1919-cu ilin sonlarında, 1920-ci ilin əvvəllərində qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Qaratəpə kəndinin xarabalığı indi də qalmaqdadır və kənd yaşayış məntəqəsi kimi erməni vandalizminin qurbanı olmuşdur.

Qaratəpə toponimi türk dilində “böyük, geniş, hündür, şiş, uca” mənasında işlənən qara sözü ilə[1108] Azərbaycan dilində

---

[1106] T.M. Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985, s. 71; Е.Н. Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М.: 1971, с. 80-81.

[1107] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 529.

[1108] T.M. Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985, s. 71; Е.Н. Бушуева. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М.: 1971, с. 80-81.

"kiçik dağ" mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında yerləşən **Qaratorpaq** kəndi coğrafi en dairəsinə görə indi Dilican şəhəri ilə Çəmbərək (Krasnoselo) rayonunun Gölkənd kəndi arasına uyğun gəlir. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1109] Qaratorpaq kəndində 1926-cı ildə 23 nəfər azərbaycanlı yaşamışdır.[1110]

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində göstərilir ki, kəndin əhalisi, yəni azərbaycanlılar 1949-cu ildə Azərbaycana köçrülmüşdür.[1111] Bu fakt həqiqəti əks etdirmir.

Əslində Qaratorpaq kəndi 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Belə ki Ermənistan SSR-də 1931-ci ilin, eləcə də 1939-cu ilin əhalinin siyahıya alınmasında Qaratorpaq kəndində əhalinin yaşadığı qeydə alınmamışdır. Qaratorpaq indi ölü kənddir.

Qaratorpaq toponimi "münbit, keyfiyyətli, yararlı" mənasında işlənən qara sözü ilə torpaq sözünün birləşməsindən əmələ gəlmişdir.

Daha bir **Qaratorpaq** kəndi XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında qeydə alınmışdır. Bu kəndin ərazisi Qərbi Azərbaycanın indiki Vedi (Ararat) rayonunun

---

[1109] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 119.

[1110] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 32-33.

[1111] B.Ə. Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bak: Nafta-Pres, 1998, s. 188.

inzibati ərazisinə daxildir. Kənd rayondakı Kolanlı kəndinin yaxınlığında, Cığın dərəsində, Qaratorpaq çayının sahilində yerləşirdi. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1112]

Qaratorpaq kəndində 1873 - cü ildə 178 nəfər, 1886-cı ildə 15 nəfər, 1916-cı ildə 215 nəfər, 1931-ci ildə 64 nəfər, 1939-cu ildə 107 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1113]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-1949-cu illərdə kənddə yaşayan azərbaycanlılar zorla Azərbaycana köçürülərək kənd ləğv edilmişdir.

Qaratorpaq toponimi rəng mənasında işlənən qara sözü ilə torpaq sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin torpağı qara rəngində olduğu üçün (qara burada "münbit, keyfiyyətli" mənasını ifadə edir) Qaratorpaq adlandırılmışdır.

**Qaratorpaq** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək rayonunda kənd olmuşdur. Kənddə

---

[1112] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 119.

[1113] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156-157; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 529.

1926-cı ildə 23 nəfər, 1959-cu ildə 179 nəfər azərbaycanlı yaşamışdır. Kənd 1960-cı ildə ləğv edilib.[1114]

Qaratorpaq toponimi rəng mənasında işlənən qara sözü ilə torpaq sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin torpağı qara rəngində olduğu üçün (qara burada "münbit, keyfiyyətli" mənasını ifadə edir) Qaratorpaq adlandırılmışdır.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının İrəvan qəzasında **Qaraçorlu** kəndi mövcud olmuşdur. İndi kəndin ərazisi Qərbi Azərbaycanın indiki Qəmərli (Artaşat) rayonunun inzibati ərazisinə düşür. Qaraçorlu kəndi rayonun Yuva kəndinin yaxınlığında yerləşirdi.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-cu il payızında qırğınlarla deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Qaraçorlu toponimi qaraçorlu türk etnonimi[1115] əsasında əmələ gəlmişdir.

Mənbələrdə **Qaracalar** kəndinə İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində yaçayış məntəqəsi kimi rast gəlinir.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq

[1114] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 529.

[1115] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 631.

Qaracalar kəndinin adı göstərilmişdir.[1116] Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir .[1117] Qaracalar kəndinin başqa adı erməni mənbələrində Məmmədabad formasında da göstərilir.

Qaracalar kəndində 1873 - cü ildə 34 nəfər, 1886-cı ildə 33 nəfər, 1897-ci ildə 49 nəfər, 1904-cü ildə 72 nəfər, 1914-cü ildə 121 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1118]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba topaqlarına dönə bilmişdir. Qaracalar kəndində 1931-ci ildə 18 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1119]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan

---

[1116]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 19.

[1117]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 116.

[1118]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

[1119]Զ.Կորկոտյան.Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 152-153.

SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Qaracalar toponimi İrəvan əyalətində yaşamış türk tayfasından olan qaracalar etnonimi[1120] əsasında formalaşmışdır. F.Sümər dülqədirli türk tayfasından olan qaracallı adlı tayfanın adını çəkir.[1121] İ.Şopen qaracallı tayfasını kəngərli türk tayfasının bir qolu hesab edir.[1122] Qərbi Azərbaycanda qaraçalar türk tayfasının yaşadğına mənbələrdə rast gəlinir[1123]. Fikrimizcə, "qaraçalar", "qaracalar" və "qaracallı" eyni tayfanın müxtəlif fonetik formalarıdır.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonu ərazisində azərbaycanlıların yaşadığı **Qaracalar** kəndi müasir dövrümüzə qədər gəlib çıxmamışdır. Yaşayış məntəqəsi Alagöz dağının cənubunda yerləşirdi. Erməni mənbələrində kəndin adı Qalaçilar kimi də göstərilir.[1124] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Qaracalar formasında qeyd edilmişdir.[1125]

---

[1120] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 30.

[1121] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 184.

[1122] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 537.

[1123] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 30.

[1124] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22.

[1125] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 116.

Qaracalar kəndində 1831-ci ildə 104 nəfər, 1873-cü ildə 272 nəfər, 1886-cı ildə 279 nəfər, 1897-ci ildə 381 nəfər, 1908-ci ildə 360 nəfər, 1914-cü ildə 381 nəfər, 1916-cı ildə 526 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1126]

1918-ci ildə yaradılan daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbi dəstələrinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə deportasiya olunmuşdur Kənd 1940-cı illərdə ləğv edilmişdir.

Qaracalar toponimi Qərbi Azərbaycanda yaşamış qaraçalar türk tayfasının adı[1127] əsasında yaranmışdır.

Qərbi Azərbaycanda, xüsusilə İrəvan quberniyasının İrəvan qəzasında **Qaracalar** adlı bir neçə kənd olmuşdur. Belə kəndlərdən biri də İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda qeydə alınmışdır. Bu yaşayış məntəqəsi Vedi çayının yanında, Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Qaracalar kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1128]Erməni mənbələrində Qaracalar kəndində 1897-ci ildə 33 nəfər azərbaycanlının yaşadığı göstərilr.[1129] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar tarixi

[1126] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.
[1127] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 30.
[1128]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 116.
[1129]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87.

yurdlarından deportasiya olunmuş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Qaracalar toponimi qaracalar türk tayfasının adı[1130] əsasında əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsündə İrəvan quberniyasının İrəvan qəzasında qeydə alınmış **Qarınburun** kəndi azərbaycanlıların qədimdən yaşadığı kəndlərdən biri idi. Bu kənd indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində, rayondakı Gərni kəndindən 16 km cənub-şərqdə, Gərni çayının yanında yerləşirdi. Kəndin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Karni nahiyəsinin tərkibində Harunburun kəndi formasında, [1131] 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətininicmal dəftəri"ndə Harunberun kəndi formasında qeyd eilmişdir ki, gəliri 3.000 ağça olmuşdur. [1132] Qarınburun kəndində 1897-ci ildə 99 nəfər, 1914-cü ildə 102 nəfər, 1916-cı ildə 98 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri- azərbaycanlılar 1918-ci ildə deportasiya olunaraq xarabalığa çevrilmişdir. Kənd 1920-ci ildə ləğv edilmişdir. İndi ölü kənddir.Toponim Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində "sel keçməmək üçün alaçığın, dəyənin ətrafına çəkilmiş ensiz, dayaz arx" mənasında işlənən qarım[1133], "kiçik arx, kiçik su yolu" mə-

---

[1130] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 30.

[1131] Yenə orada, s. 171.

[1132] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 50.

[1133] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı: Azərb SSR EA,1967, s.205.

nasında işlənən qarnım sözü[1134] əsasında formalaşan və yuxarıda göstərilən mənalarda işlənən qarın sözü ilə Azərbaycan dilində "qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsi"[1135] mənasında işlənən burun sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Ermənistanın Qərbi Zəngəzurun Qafan rayonunda azərbaycanlıların yaşadığı kəndlərdən olan **Qatar** kəndinin qədim tarixi, həm də faciəli tarixi vardır.

Qatar kəndi Qafan şəhərinin bir hissəsini (indi Hünan Avetisyan qəsəbəsi adlandırılır) və Oxçu çayının sahilində indi də Qatar şamı adlandırılan düzənlikdən başlamış Kavard kəndinədək uzanan bütün mədən şəhərciyini əhatə edirdi.[1136] Buna görə də mənbələrdə kəndin adı həm də Qatar Kavard kəndi formasında qeyd edilmiş,[1137] əhalisinin "əkinçiliklə məşğul olan müsəlman tatarlar" (azərbaycanlılar-İ.B.) olduğu göstərilmişdir.[1138]

Erməni mənbələrində kəndin digər adının Qatar mağarası olduğu da qeyd edilir.[1139]

---

[1134] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s.122.

[1135] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s.330.

[1136] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı: Gənclik, 1995, s. 13.

[1137] N. Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s.257.

[1138] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1873-cü il. Bakı: Elm və təhsil, 2021, s.391.

[1139] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 58.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Qatar mağarası olduğu da qeyd edilir.[1140] Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Qatar kəndinin adı göstərilmişdir.[1141]

Qatar kəndi sıra ilə düzülmüş qayaların ətəyində salınmışdır. Qatar kəndində 1831-ci ildə 12 nəfər, 1873-cü ildə 132 nəfər, 1886-cı ildə 250 nəfər, 1904-cü ildə 380 nəfər, 1914-cü ildə 139 nəfər, 1916-cı ildə 5124 nəfər azərbaycanlı yaşamışdır.[1142] 1906-cı il iyulun 29-da[1143] və 1918-ci ilin payızında erməni hərbi dəstələri azərbaycanlıları qırğınlarla kənddən deportasiya etmişlər. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir.

XX əsrin əvvəllərində Qatar kəndi inzibati ərazi vahidi kimi ləğv edilmiş, ərazisi Qafan şəhəri ilə birləşdirildilmişdir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində göstərilir ki, 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Kəndin tam adı "Qatar şamı" olmuşdur.[1144]

---

[1140] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 58.

[1141] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 30.

[1142] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 134-135.

[1143] M.S.Ordubadi. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), Bakı, Qarabağa XalqYardımı Komitəsi, 1991, s.119-125.

[1144] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta- Press,1998, s. 195.

Buradan belə çıxır ki, Qatar kəndində 1988-ci ilə kimi yaşayış olmuşdur və burada azərbaycanlılar yaşamışdır. Əsil həqiqətdə isə, azərbaycanlılar erməni silahlıları tərəfindən 1918-ci ildə qırğınlarla kənddən qovulmuş və kənd inzibati ərazi vahidi kimi 1920-ci ildə ləğv edilmişdir.

Qatar toponimi Azərbaycan dilində "zəncirvari qaya, təpə" mənasında işlənən qatar sözü əsasında əmələ gəlmişdir.

Bir neçə dəfə **Qatırabad** kəndi inzibati ərazi vahidinə görə dəyişmişdir. Qatırabad kəndi XVIII əsr inzibati ərazi bölgüsünə görə İrəvan xanlığının Sərdarabad mahalına, XIX əsr inzibati ərazi bölgüsünə görə İrəvan quberniyasının Eçmiədzin qəzasına tabe olmuşdur.

Qatırabad kəndinin ərazisi müasir inzibati ərazi vahidlərindən indiki Sərdarabad (Oktemberyan) rayonunun daxilində Araz çayının sol sahilində yerləşirdi. Kənd XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ləğv edilmişdir.[1145]

Qatırabad toponimi türk dilində "sıldırım yarğanlı yer" mənasında işlənən kadır, qatır sözü ilə[1146] abad sözünün birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda **Qafarlı** kəndi qeydə alınıb. Qafarlı kəndi Gərni çayından axan arxın yanında yerləşirdi.

Qafarlı kəndində 1831-ci ildə 652 nəfər, 1873-cü ildə 515 nəfər, 1886-cı ildə 435 nəfər, 1897-ci ildə 105 nəfər, 1908-ci ildə 540 nəfər, 1914-cü ildə 594 nəfər, 1916-cı ildə 273 nəfər

---

[1145] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.

[1146] О.Т. Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов, Изд-ство Саратовского Университета, 1982, с. 115.

azərbaycanlı yaşamışdır.[1147] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Qafarlı toponimi türk mənşəli qazaxların çobankərə tayfasından olan qafarlı etnonimindən[1148] əmələ gəlmişdir.

1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə **Qıvraq** kəndinin Sisyan nahiyyəsinə tabe olduğu göstərilmişdir.[1149] Bu kənd XX əsrin əvvəllərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, indi Qərbi Zəngəzurun Qarakilsə (Sisyan) rayonunun inzibati ərazi bölgüsündə **Qıvraq** kəndi mövcud olmuşdur. Qıvraq kəndi rayon mərkəzindən 21 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə,[1150] Qafqazın 5 verstlik xəritəsində[1151] qeyd edilmişdir. Qıvraq kəndində 1886-cı ildə 69 nəfər, 1897-ci ildə 80 nəfər, 1908-ci ildə 148 nəfər, 1914-cü ildə

---

[1147] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 48-49, 128-129

[1148] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 631.

[1149] Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri: akad. Z.Bünyatov və t.e.n. H.Məmmədov (Qaramanlı), Bakı: Sabah, 1997, s. 238.

[1150] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 183.

[1151] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 131.

220 nəfər azərbaycanlı yaşamışdır.[1152] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində erməni hərbçiləri azərbaycanlıları qırğınlarla deportasiya etmişdir.

29 noyabr 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etməyə məcbur olan qıvraqlılardan sağ qalamlar öz doğma yerlərinə dönə bilmişdir. Qıvraq kəndində 1922-ci ildə 77 nəfər, 1926-cı ildə 122 nəfər, 1931-ci ildə 111 nəfər azərbaycanlı yaşamışdır.[1153] Kənd XX əsrin 30-cu illərin sonunda ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev Qıvraq toponimi ilə bağlı yazırlar ki, kəngərlilərin sofulu tayfasının Naxçıvandan özləri ilə gətirdikləri addır. Naxçıvanda Qıvraq toponiminin özü isə qədim türk dillərində qiy "kənd", örək "qala", "möhkəmləndirilmiş yer" sözlərindən ibarət adın təhrifidir.[1154]

Kəndin ilk adı Kırqax olmuşdur.[1155] Fikrimizcə, bu Qıvraq, Qırxaq oykoniminin dəyişdirilmiş formasıdır.

Kəndin ilkin adına istinad edib deyə bilərik ki, toponim türk dilində "çöl", "dağ, dağ başı" mənasında işlənən kır sözü ilə[1156]

---

[1152] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-80, 146-147.

[1153] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 80, 147.

[1154] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta- Press,1998, s. 200.

[1155] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76.

[1156] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 327.

türk dillərində (teleut, Altay, qırğız, qaraqırğız) dillərində "bərk", "möhkəm" mənasında işlənən "qax" sözünün[1157] birləşməsindən əmələ gəlmişdir.

**Qızqala** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd kimi qeydə alınıb.

Qızqala kəndi rayon mərkəzindən 26 km şimal-şərqdə yerləşir. Kəndin adı 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Qızqala kimi,[1158] Qafqazın 5 verstlik xəritəsində Qızqalası kurqan formasında[1159] əksini tapır.

Qızqala kəndində 1873-cü ildə 149 nəfər, 1886-cı ildə 210 nəfər, 1897-ci ildə 237 nəfər, 1904-cü ildə 297 nəfər, 1914-cü ildə 345 nəfər, 1916-cı ildə 380 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1160]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə azərbaycanlılar dövlət səviyyəsində erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir.[1161] 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddə 1922-ci ildə 4 nəfər azərbaycanlı

---

[1157] M.Ə. Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989, s. 89.

[1158] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 81.

[1159] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 153.

[1160] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44-45, 124-125.

[1161] Yenə orada, s. 44.

yaşamışdır.[1162] 1923-1925-ci illərdə onlar da kənddən qovulur. Kənd 1960-cı illərdə ləğv edilmişdir.

Qızqala toponimi ərəb mənbələrində oğuz etnoniminin fonetik forması olan qız (ğuz>ğız) tayfa adı ilə[1163] qala sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında **Qızılqışlaq** kəndinin adınamənbələrdə rast gəlinir. Kəndin tarixi ərazisi Dərələyəz mahalının indiki Keşişkənd (Yeğeqnadzor) rayonu nun ərazisi daxilnə düşür. Kənd Keşişkənd rayonundakı Qovuşuq kəndinin yaxınlığında yerləşirdi.

Qızılqışlaq kəndində 1831-ci ildə 85 nəfər, 1897-ci ildə 44 nəfər azərbaycanlı yaşamışdır.[1164] XX əsrin əvvəllərində (1905-1906-ci illər) azərbaycanlılar qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Qızılqışlaq toponimi Azərbaycan dilində qırmızı mənasında (torpağın suxurunun rənginə görə) işlənən qızıl sözü ilə "qışda mal-qara saxlanan yer" mənasında işlənən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qızılxaraba** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Kəndin adı erməni mənbələrində Qızılabad, Tulunəbi kimi də göstərilir.[1165] Yaşayış məntəqəsinin adı 1728-ci il tarixli "İrəvan əyalətinin

---

[1162] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 125.

[1163] Faruq Sümər. Oğuzlar, Bakı:Yazıçı, 1992, s. 48.;T.Hacıyev, K.Vəliyev. Azərbaycan dili tarixi, Bakı: Maarif, 1983, s. 27.

[1164] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93,163.

[1165] Yenə orada, s. 22.

icmal dəftəri"ndə Qızılviran,[1166] Qafqazın 5 verstlik xəritəsində Qızılxaraba formasında[1167] qeyd edilmişdir.

Qızılxaraba kəndində 1897-ci ildə 102 nəfər, 1908-ci ildə 56 nəfər, 1914-cü ildə 60 nəfər, 1916-cı ildə 38 nəfər azərbaycanlı yaşamışdır.[1168]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin payızında azərbaycanlılar erməni hərbi dəstələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.Qızılxaraba toponimi torpağın rənginə bildirən qırmızı mənasında işlənən qızıl sözü ilə "dağıdılmış" mənasında işlənən xaraba sözündən əmələ gəlmişdir. Aydınlıq naminə qeyd edək ki, türklər xarabalıqlar yanında yeni yaşayış məntəqələri salarkən xaraba, viran, örən (hər üçü sinonim sözdür) sözlərinin əvvəlinə ya mənsub olduqları tayfanı, oymaq və ya obanın, ya da torpağın rənginə görə müvafiq şəkildə ağ, qara, qızıl (qırmızı mənasında) sifətlərini əlavə edirlər.[1169] Qızılxaraba kənd adı da həmin konstruksiya əsasında yaranmışdır. "Qırmızı suxurları olan torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yanındakı kənd" mənasını verir.

---

[1166]İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 97.

[1167]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 133.

[1168]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[1169] Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26, s.105.

Qərbi Azərbaycanda **Qızılxaraba** adlı kəndə İrəvan quberniyasının Yeni Bayazid qəzasında da rast gəlinir. Kəndin tarixi ərazisi Göyçə mahalının indiki Qaranlıq (Martuni) rayonunun inzibati ərazisinə düşür. Bu kənd Yeni bayazid qəzasının Əyricə kəndinin yanında, Arxaşan və Əbdülasar dağları arasında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1170]

Qızılxaraba kəndində 1873-cü ildə 188 nəfər, 1886-cı ildə 136 nəfər, 1897-ci ildə 125 nəfər, 1908-ci ildə 215 nəfər, 1914-cü ildə 421 nəfər, 1916-cı ildə 249 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1171]

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar dövlət səviyyəsində 1918-ci ilin mart ayında erməni hərbçiləri tərəfindən vəhşicəsinə qovulmuşdur. Kənddə 1930-cu illərə kimi heç kim yaşamamışdır. İndi xaraba kənddir.

Qızılxaraba toponimi qırmızı süxurlu ərazini, torpağı bildirən qızıl və xaraba sözlərinin birləşməsindən əmələ gəlmişdir. Türklər xarabalıqlar yanında yeni yaşayış məntəqələri salarkən xaraba, viran, örən (hər üçü sinonim sözdür) sözlərinin əvvəlinə ya mənsub olduqları tayfanı, oymaq və ya obanın, ya da torpağın rənginə görə müvafiq şəkildə ağ, qara, qızıl (qırmızı

[1170] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 133.

[1171] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66-67, 140-141.

mənasında) sifətlərini əlavə edirlər.[1172] Qızılxaraba kənd adı da həmin konstruksiya əsasında yaranmışdır. “Qırmızı torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yanındakı kənd” mənasını verir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının tərkibində olan **Qılıclı** kəndinin ərazisi Dərələyəz mahalının indki Paşalı (Vayk) rayonu ərazisində, Qılıclıdərə selavının sahilində yerləşirdi. Kəndin adı 1847-ci ilin Qfqaz diyarının xəritəsində Qılıclar,[1173] Qafqazın 5 verstlik xəritəsində Qılıclı formasında qeyd edilmişdir.[1174]

Dərələyəz mahalın 1873-cü il kameral təsvirindən xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1175]

Qılıclı kəndində 1873-cü ildə 52 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 117 nəfər, 1904-cü ildə 117 nəfər, 1914-cü ildə 128 nəfər, 1916-cı ildə 127 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1176]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində

---

[1172] Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26, s.105.

[1173] İ.Bayramov, N.Mustafa. “Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 27.

[1174] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 133.

[1175] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 266.

[1176] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Qılıclı kəndi indi xarabalığa çevrilmişdir.

Qılıclı toponimi qılıclı türk etnonimi[1177] əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlıların yaşadığı yaşayış məntəqələrindən biri **Qısırxaraba** kəndi adlanırdı. Kəndin tarixi ərazisi Dərələyəz mahalının indiki Paşalı (Vayk) rayonu ərazisinə təsadüf edir. Bu yaşayış məntəqəsi rayon mərkəzindən 15-17 km şərqdə, rayondakı Terp kəndinin yaxınlığında yerləşirdi. Kəndin digər adı erməni mənbələrində Qısır kimi qeyd edilir.[1178]

Qısırxaraba kəndində 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 136 nəfər, 1904-cü ildə 152 nəfər, 1914-cü ildə 167 nəfər, 1916-cı ildə 187 nəfər yalnız azərbaycanlı yaşamışdır[1179].

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş sakinlərdən

---

[1177]Г.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 63-64.

[1178]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

[1179] Yenə orada, s. 90-91, 158-159.

sağ qalanların müəyyən qismi doğma yurda dönə bilmişdir. Qısırxaraba ənddə 1922-ci ildə 4 nəfər, 1926-cı ildə 18 nəfər azərbaycanlı yaşamışdır.[1180]1928-1929-cu illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. Kənd 1930-cu ildə ləğv edilmişdir.

Qısırxaraba toponimi Azərbaycan dilində "otsuz, bitkisi olmayan torpaq" mənasında işlənən qısır sözü ilə "dağılmış, viran edilmiş" mənasında işlənən xaraba sözü əsasında əmələ gəlmişdir. Türklər xarabalıqlar yanında yeni yaşayış məntəqələri salarkən xaraba, viran, örən (hər üçü sinonim sözdür) sözlərinin əvvəlinə ya mənsub olduqları tayfanı, oymaq və ya obanın, ya da torpağın rənginə görə müvafiq şəkildə ağ, qara, qızıl (qırmızı mənasında) sifətlərini[1181], həm də torpağın keyfiyyətini bildirən "qısır" sözünü əlavə edirlər. Qızılxaraba kənd adı da həmin konstruksiya əsasında yaranmışdır. "Otsuz, bitkisi olmayan torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yanındakı kənd" mənasını verir.

**Qisar xalac** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olaraq mənbələrdə adı çəkilr.

Qisar xalac kəndində 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır.[1182] 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya

---

[1180]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

[1181] Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26, s.105.

[1182]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:56-57.

olunmuş və kənd xarabalığa çevrilmişdir. Kəndin xarabalıqları indiki Xalac kəndinin ərazisindədir.

Qisar xalac toponimi türk dilində "düzənlikdə qala, möhkəmləndirilmiş şəhər" mənasında işlənən qisar (xisar) sözü ilə[1183] xalac türk tayfa adı[1184] əsasında yaranmışdır.

Qərbi Azərbaycanda qədim yaşayış məntəqələrindən olan **Qozluca** kəndi XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında qeydə alınmışdır.

Kəndin tarixi ərazisi indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun ərazisinə düşür. Qozluca kəndi Keşişkənd rayonunun mərkəzindən 3-5 km şərqdə, Qoytul kəndinin yaxınlığında, Ulqyurd çayının sahilində yerləşirdi.

Kəndin adı 1728-ci ildə aid "İrəvan əyalətinin icmal dəftəri" ndə,[1185] 1847-ci ilin Qafqaz diyarının xəritəsində [1186], Qafqazın
5 verstlik xəritəsində[1187] qeyd edilmişdir. Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Qozluca kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar

---

[1183] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 143, 593.

[1184] Rəşidəddin Fəzlullah. Oğuznamə, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafıya Birliyi, 1992, s. 35; Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 42-43; Rəfiq Özdək. Türkün qızıl kitabı, I kitab, Bakı: Yazıçı,1992, s. 50-51.

[1185]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 57.

[1186] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 27.

[1187]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 138.

da dövlət kəndliləridir.[1188] Qozluca kəndində 1831-ci ildə 60 nəfər, 1873 - cü ildə 342 nəfər, 1886-cı ildə 549 nəfər, 1897-ci ildə 630 nəfər, 1904 -cü ildə 647 nəfər, 1914-cü ildə 711 nəfər, 1916-cı ildə 791 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1189] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş kənd sakinlərindən sağ qalanların müəyyən qismi doğma yurda dönə bilmişdir.

Qozluca kəndində 1922-ci ildə 92 nəfər azərbaycanlı yaşamışdır.[1190] 1923-1925-cı illərdə onlar yeni qurulan sovet Ermənistanı rəhbərliyi tərəfindən sıxışdırılaraq qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

H.Mirzəyev Qozluca toponiminin payız mənasını özündə əks etdirən quz sözü ilə əlaqəlndirmişdir.[1191]

Qozluca toponimi qoz bitki adına -lu və sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən -ca şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Qonaqgörməz** İrəvan xanlığının Dərəçiçək mahalında kənd olmuşsdur. XVII əsrin sonlarında ləğv edilmişdir.

---

[1188]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 273.

[1189]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[1190]Yenə orada, s. 162-163.

[1191]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 378-379.

Qonaqgörməz toponimi "dayanacaq, dincəlmək yeri" mənasında işlənən qonaq sözü ilə[1192] və qeyri-qəti gələcək zamanın inkarında işlənən görməz sözünün birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində qeydə alınan **Qotur** kəndi Abaran çayının sağ qolu üzərində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1193] Kəndin digər adı mənbələrdə həm də Qoytur kimi göstərilir.[1194] 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1830-40-cı illərdə İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir.[1195] Qotur kəndində ermənilərlə yanaşı 1873-cü ildə 72 nəfər, 1886-cı ildə 80 nəfər, 1897-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır.[1196] Erməni mənbələrində 1904-cü və 1914-cü illərin əhalinin siyahıya alınmasında kənddə yaşayan azərbaycanlı və ermənilər qarışıq şəkildə göstərilmişdir.[1197]

1918-ci ildə kənd yaşayan azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

1931-ci ildən sonrakı mənbələrdə kəndin adı çəkilmir. İndi xaraba kənddir.

---

[1192] Древнетюркский словарь, Л.: Наука, 1969, с. 455.

[1193] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 142.

[1194] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44.

[1195] Yenə orada, s. 96-100.

[1196] Yenə orada, s.45, 96-97.

[1197] Yenə orada, s. 96-97.

Qotur toponimi Azərbaycan dilində "bitkisiz, otsuz yer" mənasında işlənən qotur sözü[1198] əsasında əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasının tərkibində qeydə alınmış **Qoşabulaq** kəndinin ərazisi indi Vedi (Ararat) rayonunun ərazisində yerləşir . Qoşabulaq kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1199] 1916-cı ilə qədər burada azərbaycanlı yaşamışdır.

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar 1918-ci ildə qırğınlarla erməni hərbi dəstələri tərəfindən deportasiya olunmuşdur. 1918-ci ildə kənd dağıdılıb xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Qoşabulaq toponimi Azərbaycan dilində "çoxlu, cüt, iki" mənasında işlənən qoşa işlənən qoşa və bulaq sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Qoşabulaq** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonunda kənd olmuşdur. Kənd rayon mərkəzindən 22-24 km şimal-qərbdə, Bazarçay kəndinin yaxınlığında, Bazarçay çayının sağ tərəfində yerləşirdi. XX əsrin əvvəllərində yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Qoşabulaq toponimi Azərbaycan dilində "çoxlu, cüt, iki" mənasında işlənən qoşa sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir.

---

[1198] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 296.

[1199] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 143.

XIX əsrdə Qərbi Azərbaycan ərazisində Qoşabulaq adlı kəndlər İrəvan quberniyasının İrəvan qəzasında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında qeydə alınmışdır. Qərbi Azərbaycanın İrəvan quberniyasının, Eçmiədzin qəzasında da **Qoşabulaq** kəndi olmuşdur. Kənd indiki Əştərək rayonu ərazisi daxilində yerləşirdi. Kəndin adı 1847-ci ilin Qafqaz diyarının xəritəsində ,[1200] Qafqazın 5 verstlik xəritəsində[1201] qeyd edilmişdir. Qoşabulaq kəndində 1873- cü ildə 101 nəfər, 1886-cı ildə 152 nəfər, 1897-ci ildə 173 nəfər, 1908-ci ildə 211 nəfər, 1914-cü ildə 214 nəfər, 1916-cı ildə 211 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1202] 1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kənddə yaşayan azərbaycanlılar 1919 cu ildə qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir.[1203] Indi xaraba kənddir.

Qoşabulaq toponimi Azərbaycan dilində "cüt, yanaşı, iki" mənasında işlənən qoşa sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir.

İndi Ermənistan adlanan Qərbi Azərbaycanda qədim türk tayfalarının yurd yerləri olann yaşayış məntəqələri kifayət qədər

---

[1200] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 19.

[1201] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 143.

[1202] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[1203] История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990, с. 221.

olmuşdur. Onlardan biri də İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Talin rayonu ərazisində yerləşən **Qerqer** kəndidir. Erməni mənbələrində kəndin adı Qrqor, Kyorqir, Kyurqir formalarında da göstərilir.[1204]1918-ci ildə yaradılmış Arar at Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri- azərbaycanlılar 1919-cu ildə qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir.

Kənd yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Qerqer toponimi yunan tarixçisi Strabonun "Coğrafiya" əsərində adı çəkilən qarqar etnonimi[1205] əsasında əmələ gəlmişdir. Qerqer qarqar etnoniminin fonetik formasıdır. Qarqarlar ən qədim türk tayfalarından biridir.[1206] Qarqar tayfasının adına qerqer, herher, xarxar formalarında toponimlərdə rast gəlinir.

**Qurbağalı** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1207] Kəndin digər adları Qurbakali, Qurbağalı ulya formalarında da

---

[1204]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:34; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986,. էջ: 961.

[1205] Страбон. География, В 17-ти кн., Л., 1964, с. 477.

[1206] Q.Ə. Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair), Bakı: Elm, 1990, s. 78-83.

[1207]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 149.

göstərilir.[1208]Qurbağalı kəndində 1873-cü ildə 118 nəfər, 1886-cı ildə 185 nəfər, 1897-ci ildə 332 nəfər, 1904-cü ildə 203 nəfər, 1914-cü ildə 415 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1209]

1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Qurbağalı toponimi qurbağlı nəsil adı əsasında yaranmışdır.

**Qurbankəsilən** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd kimi mənbələrdə qeydə alınmışdır. Yaşayış məntəqəsi Keşişkənd rayonundakı Qoytul kəndinin yaxınlığında yerləşirdi.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Qurbankəsilən kəndinin adı göstərilmişdir.[1210]

Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Qurbankəsilən kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[1211]. Qurbankəsilən kəndində 1873-cü ildə 163 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 325 nəfər, 1904-cü ildə 427 nəfər, 1914-cü ildə

---

[1208]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:44.

[1209] Yenə orada, s. 44-45, 124-125.

[1210] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 27.

[1211] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 283.

470 nəfər, 1916-cı ildə 417 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1212]
1918-ci ildə yaradılmış Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişlər. Qurbankəsilən kəndində 1922-ci ildə 48 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1213]1923-1924-cü illərdə kəndin sakinləri yenidən ata-baba yurdlarından qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. H.Mirzəyev yazır: "Kəndin (Qurban kəsilən kəndinin -İ.B.) qarşısındakı dağın üstündə kəmər qayalar var. Deyilənə görə, həmin düzüm qayalıqda ziyarət olub. O ziyarətdə qurban kəsilirmiş. Elə kəndin adı da onunla bağlıdır".[1214]

Qurbankəsilən toponimi dini mənada işlənən qurban sözü ilə kəsilən feili sifətin birləşməsindən əmələ gəlmişdir.

**Qurumsulu** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda mövcud olmuş, lakin sonradan xarabalığa çevrilmiş kəndlərdən biri idi. Yaşayış məntəqəsi rayon mərkəzindən 9 km şərqdə yerləşirdi. Kənd Azərbaycanın Qazax rayonundakı Qaymaqlı kəndi ilə həmsərhəddir. İndi xaraba kənddir.

---

[1212]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.
[1213]Yenə orada, s. 162-163.
[1214] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 384.

Qurumsulu toponimi türk dilində "yamacda və yaylanın yastı zirvəsində daş qırıqları, qaya parçası" mənasında işlənən qurum sözü ilə[1215] -lu şəkilçisi qəbul etmiş su sözünün birləşməsindən əmələ gəlmişdir. Qurum sözü qədim türk dilində "qaya parçası" mənasında işlənən qorum (qorum) formasında işlənmişdir.[1216] Kəndin adı ilə relyefi uyğun gəlir. Belə ki, kənd daşlı, çınqıllı, dağlıq ərazidə yerləşir.

Qərbi Azərbaycanda qədim yaşayış məntəqələrindən biri də **Quşçu** kəndidir. Bu kənd XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Eçmiədzin qəzasının tərkibində qeydə alınmışdır.

Kəndin tarixi ərazisi indiki Abaran rayonunun ərazisinə uyğun gəlir.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq Quşçu kəndinin adı göstərilmişdir.[1217] Yaşayış məntəqəsinin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Quşçu məzrəsi,[1218] Qafqazın 5 verstlik xəritəsində Quşi[1219] formasında qeyd edilmişdir. 1931-ci ildən sonra mənbələrdə kəndin adına rast gəlinmir. 1940-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1215] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 320.

[1216] Древнетюркский словарь, Л.:Наука, 1969, с. 46.

[1217] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 19.

[1218] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 174.

[1219] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 152.

Quşçu toponimi Hunların quş tayfa adı[1220] əsasında düzələn quşçu türk tayfasının adından yaranmışdır. Ə.Hüseynzadə quşçu tayfasını mənşəcə qıpçaqlardan olduğunu qeyd edir.[1221]

A.Qurbanovun fikrincə, Kuşçu etnonimi Azərbaycana hazır vəziyyətdə gətirilmişdir, başqa sözlə "çu" şəkilçisi "kuş" (quş) komponentinə Azərbaycandan kənarda əlavə edilmişdir.[1222]

Quşçu tayfa adını özündə yaşadan kəndlərdən biri Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qərbi Zəngəzurun Qafan rayonunda qeydə alınmış kəndlərdən biri **Quşçulu** kəndidir.

Yaşayış məntəqəsi Qafan rayonunun mərkəzindən 12 km şimal-şərqdə, Oxçu çayının sağ sahilində, Xustup dağının cənub-şərq ətəyində yerləşir. Quşçulu kəndində 1831-ci ildə 38 nəfər, 1873-cü ildə 149 nəfər, 1886-cı ildə 221 nəfər, 1897-ci 144 nəfər, 1904-cü ildə 400 nəfər, 1914-cü ildə 93 nəfər azərbaycanlı yaşamışdır.[1223]

1918-ci ildə yaradılan Ararat Respublikasının yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur.

---

[1220] Rəşid bəy İsmayılov. Azərbaycan tarixi, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.18; M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s.38-39.

[1221] А.Гусейнзаде. К этимологии топонима Kuşçu // Советская тюркология, №6, 1971, с.91-95.

[1222] A.Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı: Maarif, 1988, s. 313.

[1223] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 58 -59, 136-137.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1918-ci ildə kəndi tərk etməyə məcbur olan azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Quşçulu kəndində 1922-ci ildə 109 nəfər, 1926-cı ildə 126 nəfər, 1931-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır .[1224] 1950-ci ildə kənd ləğv edilmişdir.

Quşçulu toponimi qədim türk tayfası olan quşçu etnonimi[1225] əsasında əmələ gəlmişdir. -lu mənsubluq bildirən şəkilçidir. Quşçulu kəndi "quşçu tayfasına mənsub kənd" deməkdir.

**Leyliköçən** kəndi İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında qədim yaşayış məntəqələrindən olmuşdur. Kəndin ərazisi Dərələyəz mahalının indiki Paşalı (Vayk) rayonu ərazisi daxilinə təsadüf edir. Yaşayış məntəqəsi Culçay çayının sağ qolu olan Köçbəkçay çayının yaxınlığında yerləşirdi. Leyliköçən kəndinin adı erməni mənbələrində Leyliqaçan kimi də göstərilir.[1226] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1227]

Dərələyəz mahalının 1873-cü il kameral təsvirində Leyliköçən kəndinin adı Leyliqaçan kəndi formasında əksini tapmışdır.

---

[1224] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 58 -59, 136-137.

[1225] Rəşid bəy İsmayılov. Azərbaycan tarixi, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.18; M.Vəlili (Baharlı). Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s.38-39.

[1226] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

[1227] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 159.

Həmin kameral təsvirdən kənddə xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir .[1228]

Leyliköçən kəndində 1873 - cü ildə 139 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 352 nəfər, 1904-cü ildə 384 nəfər, 1914-cü ildə 422 nəfər, 1916-cı ildə 420 nəfər yalnız azərbaycanlılar yaşamışdır.[1229]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və bilavasitə göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Kənd 1920-ci ildə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev kəndin əhalisinin 1988-ci ildə Azərbaycana qovulmasını göstərmişlər.[1230] Bu, həqiqətə uyğun deyil. Belə ki, kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə erməni quldur dəstələri tərəfindən deportasiya olunmuş, kənd ləğv edilmişdir. 1920-ci ildən sonra indi Ermənistan adlanan Qərbi Azərbaycanda yaşayış məntəqələri siyahısında Leyliköçən və ya Leyliqaçan adlı kəndin adına rast gəlinmir. Eyni zamanda əslən Dərələyəz mahalından olan Həsən Mirzəyev yazır ki, 1918-ci ildən Leyliköçən// Leyliqaçan kəndi xarabalığa

---

[1228] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 347.

[1229] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

[1230] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 328.

çevrilmişdir. Kəndin uçqunlarının və qəbiristanlığının izləri qalmaqdadır.[1231]Leyliqaçan variantı əsasında B. Budaqov və Q.Qeybillayev toponimin etimologiyası ilə bağlı yazırlar ki, kənd XIX əsrin ortalarında qışlaq olmuşdur. Qışlaq isə Leyli adlı qızın oğlana qoşulub qaçması ilə əlaqədar adlanmışdır .[1232]

Toponim Leyli şəxs adı ilə köçən feili sifətin birləşməsindən əmələ gəlib "Leylinin köçünün düşdüyü yer" mənasını verir.

**Ləlvar** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində kənd olaraq qeydə alınmışdır. Yaşayış məntəqəsi rayon mərkəzindən 28 km şimal-qərbdə, Tona (Debed) çayının sahilində, Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Sonralar Ləmbəli kəndi ilə birləşdirilərək kənd ləğv edilmişdir.

Ləlvər dağının ətəyində yerləşdiyi üçün kənd Ləlvar adlandırılmışdır. B.Budaqov və Q.Qeybullayev toponimin etimologiyası barədə yazırlar ki, kəndin ilkin adı Ləlpar olmuşdur. Ləlvar dağının yamacında XIX əsrin birinci yarısında mis mədəni vardır. Orada mis qədim zamanlarda çıxarılırdı. Günəşin işığında mis filizi parıldadığına görə Azərbaycan dilində "ləl" (ləl kimi parıldayan mənasında) və "par" (parıldayan) sözlərindən ibarətdir.[1233] Ləlvər toponimi ilə bağlı apardığımız araşdırmadan bu qənaətə gəlirik ki, kəndin ilkin və qədim adı Lələvar olmuş, dildə Ləlvar kimi sabitləşmişdir. Ləlvar toponimi Azərbaycan dilinin qərb qrupu şivələrində "böyük tərbiyəçi"

---

[1231]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s.390.
[1232]B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 328.
[1233]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 329.

mənasında işlənən “lələ” sözünün qısaldılmış forması olan ləl sözü ilə “möhkəmləndirilmiş kənd, qala, bənd” mənasında işlənən “var” sözündən[1234] əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Mac** kəndi qeydə alınmışdır. Bu kəndin ərazisi indi Qərbi Zəngəzurun Gorus rayonu ərazisində yerləşir.

B.Budaqov və Q.Qeybullayevin “Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti”ndə səhv olaraq kəndin Qafan rayonunun inzibati ərazisinə daxil olduğunu göstərilmişdir.[1235] Mac kəndində 1897-ci ildə 55 nəfər, 1904-cü ildə 87 nəfər, 1914-cü ildə 458 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1236]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə dəstəyinin nəticəsində 1918-ci ildə kənd erməni hərbi dəstələrinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuş[1237] və kəndə ermənilər yerləşdirilmişdir. Kənd 1930-cu illərdə qonşuluqdakı Yerisatumb erməni kəndi ilə birləşdirilərək ləğv edilmişdir.

Fikrimizcə, Mac toponimi türk dilində “təpə” mənasında işlənən majalık, meje sözünün[1238] kökünü əks etdirən mac sözü əsasında formalaşmışdır.

---

[1234]Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 113

[1235]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 333.

[1236]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 114-115.

[1237]История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990, с. 205.

[1238]Э.М. Мурзаев .Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 35-36

**Mangüz** kəndi XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının İrəvan qəzasının, sovet Ermənistanı dövrünün inzibati ərazi bölgüsünə əsasən isə indiki Ellər (Kotayk, Abovyan) rayonunun tərkibində olmuşdur. Yaşayış məntəqəsi Ellər rayonunun mərkəzindən 12 km cənub-şərqdə yerləşirdi. Mangüz kəndi 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə[1239], Qafqazın 5 verstlik xəritəsində[1240] qeyd edilmişdir. Kəndin adı erməni mənblərində Mangus, Mangyok (Məngük - İ. B.) kimi də göstərilir[1241] və adının 1487-ci ildən xatırlandığı qeyd edilir.[1242] Mənbələrdən tam aydın olur ki, kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur.

Mangüz kəndində 1831-ci ildə 60 nəfər, 1873 - cü ildə 316 nəfər, 1886-cı ildə 383 nəfər, 1897-ci ildə 450 nəfər, 1904-cü ildə 420 nəfər, 1914-cü ildə 639 nəfər, 1916-cı ildə 621 nəfər,[1243] 1918-ci ildə yanvarında 426 nəfər[1244] yalnız azərbaycanlı yaşamışdır.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə

---

[1239]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s.83.

[1240]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 167.

[1241]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46.

[1242]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 685.

[1243]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46-47, 126-127.

[1244] История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990, с. 216.

siyasətinin və bilavasitə göstərişinin nəticəsində 1918-ci ilin yayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.[1245]

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz evlərinə dönə bilmişdir.

Mangüz kəndində 1922-ci ildə 145 nəfər, 1926-cı ildə 55 nəfər, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır.[1246] Göründüyü kimi, Z.Qorqodya kənddə 1931-ci ildə 77 nəfər yalnız azərbaycanlılnını yaşadığını göstərmişdir. Lakin "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"nin III cildində 1931-ci ildə kənddə yaşayanlar haqqında məlumat verilmir.[1247]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1949-cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Mangüz toponimi qədim türk dilində "möhkəm abidə, yazılı daş abidə, əbədi abidə" mənasında işlənən məngü

---

[1245] История Азербайджана по документам и публикациям,Баку: Элм, 1990,216.

[1246] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 46-47, 126-127.

[1247]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 685.

sözünə[1248] -z şəkilçisinin (topoformant) qoşulması əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasının kənlərdən biri **Məngük** adlanırdı. Kəndin tarixi ərazisi sovet Ermənistanının kinzibati ərazi bölgüsünə əsasən indiki Vedi (Ararat) rayonunun tərkibinə düşür. Yaşayış məntəqəsi 1937-1948-ci illərdə mövcud olmuş Qarabağlar rayonunun tərkibində olmuşdur. Qarabağlar rayonu SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlarından sonra ləğv edilmiş, kəndlərinin bir neçəsi Vedi rayonuna verilmiş, rayonun köklü sakinləri olan azərbaycanlılar isə tarixi-etnik torpaqlarından deportasiya məruz qalmışdır.

Məngük kəndi erməni mənbələrində həm də Mangük adlandırılır.[1249] Kənd Qırxbulaq çayının yuxarı axarında yerləşirdi. Məngük toponimi 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Mənkik[1250], 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Mənkük kimi[1251], Qafqazın 5

---

[1248] Древнетюркский словарь. Л.: Наука, 1969, с.341; В.В. Радлов. Опыт словарья тюркских наречий, т.lV, ч. 2, СПб, 1911, с. 2082.

[1249] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86.

[1250] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s.173.

[1251] Yenə orada, s. 106.

verstlik xəritəsində Mangyuk (Мангюк) formasında[1252] qeyd edilmişdir.

Məngük kəndində 1873 - cü ildə 100 nəfər, 1886-cı ildə 259 nəfər, 1897-ci ildə 291 nəfər, 1904 - cü ildə 163 nəfər, 1914 - cü ildə 180 nəfər, 1916-cı ildə 379 nəfər azərbaycanlı yaşamışdır.[1253]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və bilavasitə gödtərişinin nəticəsində 1918-ci ildə erməni quldur dəstələri azərbaycanlıları qırğınlarla və zorla kənddən qovmuşlar. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. Məngük kəndində 1922-ci ildə 86 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır.[1254]

Məngük kəndinin acı taleyinə aydınlıq gətirilməsi məqsədilə qeyd etməyi lazım bilirik ki, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-

---

[1252] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 167.

[1253] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156-157 .

[1254] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156-157 .

in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-1949-cu illərdə kəndin sakinləri zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Ə.Ələkbəli Məngük toponiminin etimologiyası ilə bağlı üç mülahizə üzərində dayanır: "Kəndin adının etimologiyası barədə bir neçə mülahizə irəli sürmək olar. Birincisi, mənkü//mənü sözü qədim türklərdə abidə, yazılı daş abidə, əbədi abidə anlamında işlənmişdir. (Sonralar bu söz vənk şəklinə düşmüşdür). Kəndin yerli tələffüzdə Mənküy adlanması isə onun, bəzi mənbələrdəki kimi, əvvəlcə məhz Mənküköy adı daşıdığını təsdiq edir. 1873-cü ilin statistik məlumatlarında kəndin ərazisində qədim qəbirüstü abidələrin, kilsa xarabalıqlarının qeydə alınması da kənd adının bu izahını məqbul edir. İkincisi, Manku//Mənkü xan böyük türk sərkərdələrindən birinin adıdır. Həmin Mənkü xan ki, monqol-tatar xanı Batı xanın ən yaxın silahdaşlarından biri idi və monqol-tatar işğalından sonra Vedibasər mahalının da daxil olduğu Qərbi Azərbaycan torpaqları Mənkü xanın hakimiyyəti altında olmuşdur. Üçüncüsü, manqut türk tayfalarından birinin adıdır".[1255]

Məngük toponimi qədim türk dilində "abidə, əbədi abidə, yazılı daş abidə, möhkəm abidə" mənasında işlənən məngü sözü[1256] əsasında əmələ gəlmişdir. Toponimin sonundakı "k" topoformantdır.

---

[1255]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 417.

[1256]Л.З.Будагов. Сравнительный словарь турецкотатарских наречий, СПб, Типография Императорской АН, т, II, СПб, 1871, с. 259; В.В. Радлов. Опыт словарья тюркских наречий, т.lV, ч. 2, СПб, 1911, с. 2082; Древнетюркский словарь. Л.: Наука, 1969, с.341; Ə.Rəcəbov, Y. Məmmədov. Orxon-Yenisey abidələri, Bakı: Yazıçı, 1993, s. 370 .

XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında **Maratuz** kəndi qeydə alınmışdır. Bu kəndin ərazisi sovet Ermənisindiki Dərələyəz mahalının Paşalı (Vayk) rayonu ərazisində, Culçay çayının sağ qolu olan Kilsəbulaq çayının yanında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Maratuz kəndinin adı göstərilmişdir.[1257] Erməni mənbələrində kəndin başqa adının Məratuk[1258] , Mratuz qışlağı[1259] da olduğu göstərilir. Kəndin adı 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftərin"də Məradik kimi,[1260] Qafqazın 5 verstlik xəritəsində Maratuz,[1261] Dərələyəz mahalının 1831-ci il,[1262] 1873-cü il[1263] kameral təsvirlərində Mərətüz formalarında qeyd edilmişdir. Maratuz kəndində Dərələyəz mahalının 1831-ci il kameral təsvirində Qaraçorluların

---

[1257] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 27.

[1258] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90 .

[1259] И.И.Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 619-620; Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

[1260] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 57.

[1261] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 168.

[1262] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 115.

[1263] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 378.

həsənanlı tayfasının yaşadığı göstərilməklə kəndin adı Mərətüz kəndi formasında əksini tapmışdır.[1264]

Mahalın 1873-cü il kameral təsvirindən Maratuz kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1265] Maratuz kəndində 1831-ci ildə 32 nəfər, 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 220 nəfər, 1897-cı ildə 242 nəfər, 1904-cü ildə 284 nəfər, 1914 -cü ildə 273 nəfər, 1916-cı ildə 321 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1266]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. Kənd 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayev toponimin etimologiyası ilə bağlı iki fikrin ola bildiyini qeyd etmişlər: "1.Ad (Maratuz toponimi-İ.B.) türk dillərində *mərə* "örüş yeri" və düz sözlərindən ibarətdir. 2. Türk dillərində *ma*r "təpə" və atiz "iki arx arasında əkin yeri" sözlərindən ibarətdir".[1267] H.Mirzəyev kəndin tarixi ilə bağlı yazır: "Kəndin əsl adı isə Maraldüz kəndi,

---

[1264] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 115.

[1265] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 378.

[1266]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

[1267]B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 332.

yaxud Maraldüz qışlağı olmuşdur. Ağsaqqalların dediyinə görə. Kəndin yuxarı hissəsində (Güneydə) duzlu daşlar var”.[1268]

Apardığıımız araşdırmalardan belə nəticəyə gəlirik ki, Maratuz toponim türk dilində “təpə” mənasında işlənən mara sözü ilə[1269] türk dillərində işlənən tuz//duz sözünün[1270] birləşməsindən əmələ gəlmişdir.

**Məmərza qışlağı** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində azərbaycanlıların yaşadığı qədim kəndlərdən idi. Kəndin adı rəsmi sənədlərdə, o cümlədən erməni mənbələrində Məmərza kəndi[1271] formasında (Məmmədrza şəxs adının dialekt variantı) əksini tapır. Yaşyış məntəqəsi Arpaçay çayının sağ sahilində yerləşirdi.

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində[1272] qeyd edilmişdir.

Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Məmədrza qışlağı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1273]

---

[1268]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 392

[1269] В.В. Радлов. Опыт словарья тюркских наречий, т.lV, ч. 2, СПб, 1911, с. 20-25.

[1270] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 562.

[1271]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90.

[1272]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 166.

[1273] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 377.

Məmərza qışlağı kəndində 1873-cü ildə 67 nəfər, 1886-cı ildə 52 nəfər, 1897-ci ildə 96 nəfər, 1904 - cü ildə 104 nəfər, 1914-cü ildə 114 nəfər, 1916-cı ildə 106 nəfər yalınz azərbaycanlı yaşamışdır.[1274]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsi olaraq 1918-ci ilin payızında kəndə erməni quldur dəstələri hücum edərək sakinlərini deporitasiya etmişlər.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi məcburi tərk etmiş azərbaycanlılardan sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Məmədrza qışlağı kəndində 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 77 nəfər, 1931-ci ildə 104 nəfər,[1275] 1939-cu ildə 137 nəfər[1276] yalnız azərbaycanlılar yaşamışdır. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin sakinləri-azərbaycanlılar 1948-1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1274] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91, 158-159.

[1275] Yenə orada, s. 90-91, 158-159.

[1276] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 667.

Məmərza qışlağı toponimi Məmərza (Məmmədrza) şəxs adı ilə qışlaq sözü əsasında əmələ gəlmişdir.

**Məmmədrəsul** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunun ərazisində kənd. Yaşayış məntəqəsi Dəvəli kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1897-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır[1277]. XX əsrin əvvəllərində (1905-1906) kəndin sakinləri deportasiya olunmuş və kənd ləğv edilmişdir.

Məmmədrəsul toponimi Məmmədrəsul şəxs adı əsasında yaranmışdır. Antropotoponimdir.

XIX əsrdə və XX əsrin əvvəllərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Mərzqat** kəndinə rast gəlinir. Mərzqat kəndinin ərazisi Qərbi Zəngəzurun indiki Meğri rayonunun ərazisinə düşür. Yaşayış məntəqəsi Meğri rayonunun mərkəzindən 12-14 km cənub-şərqdə, Araz çayının sol sahilində, Aldərə kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin digər adının Mərzkit olduğu qeyd edilmişdir.[1278] Bizim fikrimizcə, Zəngəzur mahalının 1832-1833-cü illərə aid kameral təsvirində Meğrigüney minbaşılığında qeydə alınmış Marzeit kəndi elə Mərzqat kəndidir. Kənddə XIX əsrin 30-cu illərində oturaq həyat tərzi keçirən, əkinçilik və bağçılıqla məşğul olan cəmi 24 ailə və kişi cinsindən 54 nəfər müsəlman (azərbaycanlı-İ.B.) yaşamışdır .[1279]

---

[1277] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991, էջ: 86-87.

[1278] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68.

[1279] N. Əhmədli. Zəngəzur mahalının Kameral təsviri 1832-1833-cü illər. Bakı,: Elm və təhsil, 2021, s.176

Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində Marzişt adlı kənd qeydə alınmışdır.[1280] Fikrimizcə, Marzişt kəndi ilə Mərzqat kəndi eyni kənddir.

Mərzqat kəndində 1831-ci ildə 54 nəfər, 1873 - cü ildə 255 nəfər, 1886-cı ildə 301 nəfər, 1897-ci ildə 281 nəfər, 1904- cü ildə 766 nəfər, 1914-cü ildə 751 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1281] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişi nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar lar 1923-1924-cü illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Kənddə 1926-cı ildə 34 nəfər, 1931-ci ildə 29 nəfər azərbaycanlı yaşamışdır.[1282] Kollektivləşmə ilə bağlı kəndin sakinləri Aldərə kəndinə köçürülərək kənd yaşayış məntəqəsi kimi ləğv edilmiş və rayonun inzibati ərazi bölgüsünün siyahısından çıxarılmışdır. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ində kəndin adı Mərziqid formasında qeyd edilmiş və mənşəyi ilə bağlı yazılmışdır ki, toponimin əsli Məzrəqit olmuşdur. Məzrə (əkin yeri) və monqolca qid (xit) "monastır" sözlərindən ibarətdir.[1283]

---

[1280] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.483-486

[1281] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69,142-143.

[1282] Yenə orada, s. 68-69,142-143.

[1283] B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 336.

Ə.Rüstəmli kəndin adının Məzrəğat formasında olduğunu qeyd edir və mənası ilə bağlı yazır ki, Zəngəzur bölgəsinin Meğri//Mehri ərazisində Məzrəğat kənd olmuş və sonralar erməni qırğınının qurbanı olmuş, ölü kəndlər sırasına daxil olmuşdur. Şübhə etmirik ki, həmin sözün birinci tərəfi məzrə sözü ilə bağlıdır. Qat//ğat ünsürü isə nomenklatur termin olub ev, kənd, qala, şəhər mənasında işlənməkdədir.[1284]

Mərzqat toponiminin üzərində apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, kəndin adı fars dilində “tarla, bağ, bostan və s. sahəsini bir-birindən ayıran xətt, sərhəd” mənasında işlənən mərz sözü ilə[1285] türk dilində “yaşayış məntəqəsi, ev, kənd, şəhər, qala” mənasında işlənən kat (qat - İ.B.) sözünün[1286] birləşməsindən əmələ gəlmişdir.

**Məçidli** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunun Zəngilər kəndinin ərazisində kənd olmuşdur.

Kəndin adı 1728-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”ndə Məscidli kəndi adında qeyd edilmiş və gəliri 3.000 ağça olmuşdur.[1287] XVIII əsrin əvvəllərində kənd xarabalığa çevrilmiş, onun yaxınlığında 1712-cı ildə indiki Zəngilər kəndi salınmışdır.[1288]

---

[1284] Ə.Rüstəmli. Zəngəzurun toponimləri- tarixin izi ilə, Bakı: Zəka Print MMC, 2016, s. 103.
[1285] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 299.
[1286] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 263.
[1287] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 97.
[1288]Հայկական Սովետական Հանրագիտարան, 3 հատոր, Երեվան,1978, էջ: 657.

Məçidli toponimi məçitli tayfa adı əsasında əmələ gəlmişdir.

**Məşədilər** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Kənd Keşişkənd rayonundakı Həsənkənd və Qoytul kəndləri arasında yerləşirdi. Kənddə 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır.[1289] 1923-cü illərdə kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmaş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Məşədilər toponimi məşədilər tayfa adı əsasında əmələ gəlmişdir.

XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlıların qədimdən yaşadığı **Moz** kəndi həm erməni, həm də Azərbaycan mənbələrində qeyd edilmişdir.

Moz kəndinin ərazisi Dərələyəz mahalının indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisinə təsadüf edir. Yaşayış məntəqəsi Arpa çayının cənub qolu boyu Keşişkənddən Paşalı rayonuna və İstisuya (Cermuxa) gedən şose yolunun üstündə yerləşirdi.[1290]

Moz kəndinin adı 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq göstərilmişdir.[1291]

---

[1289] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 162-163.

[1290] H.Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997, s. 220.

[1291] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Mor kimi qeyd edilmiş, gəliri 2.851 ağça olmuşdur.[1292] Erməni mənbələrində kəndina adı Mozrov formasında da qeyd edilir.[1293] Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Moz kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1294] Moz kəndində 1873-cü ildə 80 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 145 nəfər, 1904-cü ildə 161 nəfər, 1914 - cü ildə 177 nəfər, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışıdır.[1295] 1918-ci ilin mart ayında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Moz toponimi qədim türk dilində "ağ, çal, boz, bozumtul" mənasında işələnən moz sözündən[1296] əmələ gəlmişdir. Görünür, kəndin yerləşdiyi ərazinin torpağı boz, bozumtul rəngdə olmuşdur.

Moz sözü böz sözünün fonetik formasıdır. Türk dillərində, eləcə də Azərbaycan dili şivələrində b~m səsəvəzlənməsi

---

[1292] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 59.

[1293] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92.

[1294] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 381.

[1295] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[1296] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 346.

qanunauyğundur: bən~mən, buna-muna və s. Ona görə də toponimin boz sözü əsasında formalaşması inandırıcıdır və kəndə də relyefə uyğun olaraq Moz kəndi adı verilmişdir.

**Molla Abdal** İrəvan quberinyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd kimi qeydə alınıb.

Erməni mənblərində Molla Abdal, Molla Bədəl kəndinin başqa adı kimi göstərilmişdir.[1297] Əslində Molla Abdal, Molla Bədəl kəndinin yaxınlığında olan başqa bir kənddir. Kəndin xarabalığı Molla Bədəl (Yexeknut) kəndinin yaxınlığındadır.

Molla Abdal toponimi dini anlayış bildirən molla sözünün abdal türk etnoniminə[1298] qoşulması nəticəsində yaranmışdır.

XIX əsrdə İrəvan quberinyasının Eçmiədzin qəzasında **Molla Qasım** kəndinin adı qeydə alınıb**.** Kənd sovet Ermənistanının inzibati ərazi bölgüsünə görə Abaran rayonuna daxil edilmişdir. Yaşayış məntəqəsi Abaran çayının yanında yerləşirdi. Molla Qasım kəndinin adı 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmiş və gəliri 12.000 ağça olmuşdur. [1299] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə[1300] İrəvan qəzasının Sərdarabad sahəsindəki

---

[1297]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 64.

[1298]Г.Гейбуллаев Топонимия Азербайджана (историко-этнографическое исследование), Баку:Элм, 1986, с. 59.

[1299] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 110.

[1300] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

kəndlərdən biri olaraq Molla Qasım kəndinin adı göstərilmişdir. Kəndin adı 1931-ci ildən sonra sənədlərdə çəkilmir.

Toponim Molla Qasım şəxs adı əsasında əmələ gəlmişdir.

**Molla Əhməd** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunun ərazisində kənd olmuşdur.

Yaşayış məntəqəsi rayon mərkəzindən 30 km şimal-şərqdə, Molla Əhməd bulağının ətəyində, Böyük Gilanlar kəndinin yaxınlığında yerləşirdi.Kənd 1930-cu ilə kimi Vedi (Ararat) rayonunun tərkibinə daxil olmuşdur.[1301] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1302]

Molla Əhməd kəndində 1873 -cü ildə 28 nəfər, 1886-cı ildə 34 nəfər, 1897-ci ildə 65 nəfər, 1904-cü ildə 51 nəfər, 1914-cü ildə 88 nəfər, 1916-cı ildə 71 nəfər azərbaycanlı yaşamışdır.[1303]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə erməni hərbçiləri azərbaycanlıları doğma yurdlarından sıxışdırıb qovmuşlar.

29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonrakəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişlər. Molla Əhməd kəndində 1922-ci ildə 25 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 10 nəfər azərbaycanlı[1304]

---

[1301]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86.

[1302]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 176.

[1303]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156-157.

[1304] Yenə orada, s. 86-87, 156-157.

yaşamışdır. 1930-cu illərin sonunda kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Molla Əhməd toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

**Mollalı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda kənd olmuşdur. Kənd rayon mərkəzindən 16 km şimal-şərqdə, Kığı çayının sağ sahilində yerləşmişdir.Mollalı kəndində 1914 - cü ildə 156 nəfər, 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır.[1305] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1919-cu ildə kəndin sakinləri - azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar tarixi torpaqlarına dönə bilmişlər. Mollalı kəndində 1922-ci ildə 45 nəfər, 1926-cı ildə 38 nəfər, 1931-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır.[1306] Mollalı kəndi 1940-cı illərdə ləğv edilmişdir.

Mollalı toponimi qaraçorlu türk tayfasının əliyanlı tirəsinə mənsub olan mollalı etnonimindən[1307] əmələ gəlmişdir.

XIX əsrdə Qars vilayətinin Qars qəzasında qeydə alınan **Musluqlu** kəndi indiki Amasiya rayonunun ərazisi daxilində, rayon mərkəzindən 17 km şimal-qərbdə yerləşirdi. Erməni mənbələrində kəndin azərbaycanlı sakinləri qarapapaqlar kimi

---

[1305] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136- 137.

[1306]Yenə orada, s. 60-61, 136-137.

[1307]Г.Гейбуллаев Топонимия Азербайджана (историко-этнографическое исследование), Баку:Элм, 1986, с. 73.

göstərilir və onlar müstəqil xalq kimi təqdim edilir.[1308] Əslində qarapapaqlar azərbaycanlıların etnoqrafik qrupudur və türk tayfalarından biridir.

Musluqlu kəndində 1886-cı ildə 150 nəfər, 1897-ci ildə 199 nəfər, 1908-ci ildə 223 nəfər, 1914 -cü ildə 317 nəfər azərbaycanlı yaşamışdır.[1309] 1916-cı ildən sonra, daha doğrusu, 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kəndin sakinləri-azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradılmasından sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişlər. Musluqlu kəndində 1922-ci ildə 57 nəfər, 1926-cı ildə 82 nəfər azərbaycanlı yaşamışdır .[1310] Kənd 1930-cu illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Musluqlu toponimi türk dilində “kran, kiçik turba kranı” (кран трубочка) mənasında işlənən musluk sözünə[1311] -lu şəkilçisinin qoşulması əsasında düzəlmişdir. Ağbaba mahalında “daşdan düzəldilən su qabı” mənasında mustuq sözü işlədilir. Mustuq musluq sözünün (Azərbaycan dili şivəsində l~t səs əvəzlənməsi qanunaıuyğun haldır) fonetik variantıdır.

---

[1308] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20.
[1309] Yenə orada, s. 20-21, 104-105
[1310] Yenə orada, . 20-21, 104-105.
[1311] Л.З.Будагов. Сравнительный словарь турецкотатарских наречий, т., I, СПб, Типография Императорской АН, 1869, 810 с., т, II, СПб, 1871, с. 264; В.В. Радлов Опыт словарья тюркских наречий, т II, ч. 2, СПб, 1905, с. 2206.

**Mülk kəndi** XIX əsrdə və XX əsrin 20-ci illərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, sovet Ermənistanı yaradıldıqdan sonra ərazisi Qərbi Zəngəzurun indiki Meğri rayonunun tərkibində olmuşdur. Mülk kəndi rayon mərkəzindən 16-18 km şimal-qərbdə yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Mülk kəndinin adı göstərilmişdir.[1312] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1313] Kənddə 1914-cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1314] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kəndin sakinləri-azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradılmasından sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Mülk kəndində 1922-ci ildə 56 nəfər, 1926-cı ildə 48 nəfər, 1931-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1315] Kollektivləşmə adı ilə bağlı 1930-cu illərin axırlarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1312] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[1313] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 181.

[1314] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 142-143.

[1315] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

Mülk toponimi ərəb dilində "mülkiyyət, mal-mülk, malikanə", "torpaq sahəsi, malikanə, daşınmaz əmlak" mənasında işlənən mülk sözü[1316] əsasında əmələ gəlmişdir.

**Nəbilər** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd kimi mənbələrdə əksinin tapır. Yaşayış məntəqəsi rayondakı Qovşuq və Gülüdüzü kəndləri arasında yerləşirdi.[1317] İndi xaraba kənddir.

Toponim nəbilər nəsil adı əsasında əmələ gəlmişdir.

**Novlar** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Kənd Qoytul kəndinin yaxınlığında, Dəliktəpə dağının ətəyində, Paşadüz düzündə yerləşirdi. Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Novlar kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1318] Novlar kəndində 1873 - cü ildə 71 nəfər, 1886-cı ildə 100 nəfər, 1897-ci ildə 179 nəfər, 1904 -cü ildə 285 nəfər, 1914-cü ildə 313 nəfər, 1916-cı ildə 217 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1319]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə

---

[1316] Ərəb və fars sözləri lüğəti, Bakı, Azərb.SSR Elmlər Akademiyası nəşriyyatı, 1966, s. 416; Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s.360.

[1317]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 362.

[1318]N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 390.

[1319]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Kənd yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Novlar toponimi Azərbaycan dilində "kanal, arx" mənasında işlənən nov sözünə[1320] -lar şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının tərkibində **Novlu** kəndi qeydə alınmışdır. Kəndin tarixi ərazisi indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun ərazisinə təsadüf edir. Yaşayış məntəqəsi Keşişkənd kəndinin yaxınlığında, Təpəsidəlik dağının şimal-qərbində yerləşirdi.Dərələyəz mahalının 1873-cü il kameral təsvirində göstərilir ki, Novlu kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlar (azərbaycanlılar-İ.B.) yaşayır. Onlar da vergi mükəlləfiyyətli dövlət kəndliləridir.[1321]

Novlu kəndində 1873-cü ildə 157 nəfər, 1886-cı ildə 216 nəfər, 1897-ci ildə 215 nəfər, 1904-cü 398 nəfər, 1914-cü ildə 437 nəfər, 1916-cı ildə 235 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1322]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni

---

[1320] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s.422.
[1321] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 388.
[1322] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1924-1925-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Novlu toponimi Azərbaycan dilində "su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş axıntı yolu, su yolu, arx, kanal" mənasında işlənən nov sözünə[1323] mənsubluq bildirən -lu şəkilçisinin artırılması ilə düzəlmişdir.

**Noraşenik axta** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda yaşayış məntəqəsi olmuşdur. 1897-ci ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır.[1324] XX əsrin əvvəllərində kənddə yaşayan azərbaycanlılar deportasiya olunmuş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Noraşenik axta toponimi nora (türk dilində "qayalıq, dərin dərə, uçurum" mənasını ifadə edir), şenik (türk dilində "yaşayış yeri, kənd" mənasında bildirən şenlik sözünün fonetik forması) və türk mənşəli axta etnonimindən[1325] ibarətdir.

İrəvan xanlığının Göyçə mahalında qədim yurd yerlərimizdən biri də **Oğruca** kəndi adlanırdı. Oğruca kəndi indiki Basarkeçər (Vardenis) rayonunun ərazisi daxilində, Basarkeçər rayonundakı Qaraiman kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Göyçə sahəsindəki kəndlərdən biri olaraq Oğruca kəndinin adı göstərilmişdir.[1326] İndi xaraba kənddir. Göyçə

---

[1323] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s.422.
[1324] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.
[1325] T.M. Əhmədov. El-obamızın adları, Bakı: Gənclik, 1984, s. 28.
[1326] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 23.

mahalında ləğv edilən kəndlərin sırasında Oğruca kəndinin adı həm İ.Şopenin, [1327] həm də Z.Qorqodoyanın[1328] əsərində Ağrıca kəndi formasında qeyd edilmişdir.

B.Budaqov və Q.Qeybullayev Oğruca toponiminin etimologiyası ilə bağlı yazırlar ki, kəndin adı 1728-ci ilə aid mənbədə (İrəvan əyalətinin icmal dəftəri Bakı:Elm, 1996,-İ.B.) Qırxbulaq nahiyəsində Oğrunca kimidir[1329].

Qeyd edək ki, əslində Oğrunca kəndinin adı Qırxbulaq nahiyəsində deyil, Karbi nahiyəsində olan yaşayış məntəqələrindən birinin adı olaraq, özü də Oğrunca məzrəsi formasında qeyd edilimişdir.[1330] Digər tərəfdən Karbi nahiyəsində qeydə alınmış Oğrunca məzrəsinin Basarkeçər rayonunda tarixən mövcud olmuş Oğruca kəndi ilə heç bir əlaqəsi yoxdur.

Apardığımıız araşdırmalar nəticəsində deyə bilərik ki, Oğruca toponimi oğuzlardan olan oğur türklərinin adı əsasında əmələ gəlmişdir. Bu tayfa haqqında Rəfik Özdək yazır: "Oğur və oğuz sözləri eyni mənalıdır. Oğuzların qardaşı olan oğurlar onlardan miladdan öncəki zamanlarda ayrılmışdır. Qərbə doğru yayılanların dilində "z" hərfinin yerini zamanla "r" hərfi

---

1327 И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 515.

1328 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: XVII.

1329 B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 349.

1330 İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 87.

almışdır. Onun üçün qərb türklərinə (Oğuzlara) “r”-lı danışanlar, Şərq oğuzlarına isə “z”-lı danışanlar deyilmişdir”.[1331] Toponimin tərkibindəki -ca şəkilçisi çoxluq mənasını ifadə edir.

XIX əsrdə İrəvan quberinyasının Yeni Bayazid qəzasında, sovet Ermənistanı zamanında indiki Axta (Hrazdan) rayonunda qeydə alınmış **Ozanlar** kəndi azərbaycanlıların qədimdən yaşadığı kəndlərdən biri idi. Yaşayış məntəqəsi Axta rayonunun mərkəzindən 10 km cənub-qərbdə, Alapars kəndinin yaxınlığında, Zəngi çayının sahilində yerləşirdi. 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə Göyçə sahəsindəki kəndlərdən biri olaraq Ozanlar kəndinin adı göstərilmişdir.[1332] Kəndin adı 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”ndə,[1333] Qafqazın 5 verstlik xəritəsində[1334] qeyd edilmişdir.Göyçə mahalının 1831-ci il kameral təsvirindən məlum olur ki, Ozanlar kəndində qarapapaqlar yaşamışdır.[1335]

Ozanlar kəndində 1831-ci ildə 15 nəfər, 1873 - cü ildə 179 nəfər, 1886-cı ildə 229 nəfər, 1897-ci 288 nəfər, 1908-ci 357 nəfər, 1914-cü ildə 416 nəfər, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır.[1336]1918-ci ildə yaradılmış daşnak Ararat

---

[1331] Rəfiq Özdək. Türkün qızıl kitabı, I kitab, Bakı: Yazıçı,1992, s. 172.

[1332] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[1333]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 79.

[1334]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 192.

[1335] N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 97.

[1336]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 18-19, 102-103

Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradılmasından sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar kəndlərinə dönə bilmişdir. Kənddə 1922-ci ildə 118 nəfər,[1337] 1939 - cu ildə 198 nəfər, 1959 - cu ildə 111 nəfər azərbaycanlı və erməni[1338] yaşamışdır. Erm. SSR AS RH-nin 31.05.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Avazan qoyulmuşdur. 1960-cı ildə kəndin azərbaycanlı sakinləri tamamilə deportasiya olunmuş və kənd ləğv edilmiş, azərbaycanlılara məxsus tarixi abidələr dağıldılmışdır. İndi kəndin yeri əkin sahəsinə çevrilmişdir.

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə göstərilir ki, kəndin azərbaycanlı əhalisi 1918-ci ildə kənddən qovyulmuşdur.[1339] Doğrudur, kənddən azərbaycanlılar 1918-ci ildə erməni hərbçiləri tərəfindən qırğınlarla qovulmuşdur. Lakin 29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradılmasından sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar kəndlərinə dönmüş, 1959-cu ilə kimi doğma yurdlarında yaşamışlar.

---

[1337] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 102-103.

[1338] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 355.

[1339] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 340.

Ozanlar toponimi "Kitabi-Dədə Qorqud" dastanında aşıq mənasında işlənən ozan sözünə, cəmlik, topluluq bildirən -lar şəkilçisi artırmaqla nəsil adı formalaşmışdır. Elə Ozanlar toponimi də ozanlar nəsil adı əsasında yaranmışdır.

Aydınlıq naminə qeyd edək ki, 1988-ci ilə qədər Göyçə mahalının Çəmbərək (Krasnoselo) rayonundakı Ağbulaq kəndində ozanlar tayfası yaşamışdır.

İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında qeydə alınmış **Ortakənd** kəndi azərbaycanlıların yaşadığı kəndlərdən idi. Kəndin ərazisi Dərələyəz mahalının indiki Paşalı (Vayk) rayonunun ərazisinə təsadüf edir. Yaşayış məntəqəsi Arpaçay çayının sağ qolu olan Başkəndçay çayının yanında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Ortakənd kəndinin adı göstərilmişdir.[1340] Erməni mənbələrində kəndin adı İtqıran Ortakənd formasında da göstərilir.[1341] Kənd İtqıran kəndinin yaxınlığında yerləşdiyi üçün toponim "İtqıran Ortakənd" kimi verilmişdir.Ortakənd kəndində 1897-ci ildə 169 nəfər azərbaycanlı yaşamışdır.[1342] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni-azərbaycanlı

---

[1340]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 27.

[1341]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932,էջ:90; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1991, էջ: 510.

[1342]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90; Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1991, էջ: 510.

münaqişəsi nəticəsində azərbaycanlılar erməni quldur dəstələri tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənd İtqıran kəndi ilə Almalı kəndinin ortasında yerləşdiyi üçün Ortakənd kəndi, erməni mənbələrində isə İtqıran Ortakənd kəndi adlandırılmışdır.

**Oxtar binəsi** Yelizavetpol (Gəncə) quberinyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Burada 1897-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır.[1343]

XX əsrin əvvəllərində-1905-1906-cı illərdə erməni quldur dəstələrinin təcavüzü nəticəsində kənddə yaşayan azərbaycanlılar tamamilə deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. B.Budaqov və Q.Qeybullayev Oxtar kəndində 1988-ci ilə kimi azərbaycanlıların yaşadığını göstərmiş və qeyd etmişlər ki, 1918-ci idə kəndin əhalisi qovulmuşdur. 1926-cı ildə əhalisinin az hissəsi kəndə qayıdaraq yenidən məskunlaşmış, 1988-ci ildə Azərbaycana qovulmuşdur .[1344] Oxtar kəndi ilə bağlı bu məlumat həqiqəti əks etdirmir. Oxtar kəndinin əhalisi 1905-1906-cı illərdə erməni quldur dəstələri tərəfindən doğma yurdlarından birdəfəlik qovulmuşlar.

Oxtar binəsi toponimi "qəbilə, boy, tayfa ittifaqları" mənasında işlənən oxtar // oxdar sözü ilə Azərbaycan dilində "köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskan

---

[1343] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

[1344] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 351.

saldıqları yer, yurd” mənasında işlənən binə sözündən[1345] əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonu ərazisində **Oxçu** kəndi qədim kəndlərdən biri idi. Kənd Qafan şəhərindən 32 km şimalda, Oxçu çayının sahilində yerləşirdi. 1847-ci ildə tərtib edilmiş “Qafqaz diyarının xəritəsi”ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Oxçu kəndinin adı göstərilmişdir.[1346]

Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1347]

Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində göstərilir ki, kənddə xəzinə torpaqlarında yaşayan və əkinçiliklə məşğul olan müsəlman tatarlarıdır (azərbaycanlılar-İ.B.). Onlar dövlət kəndliləridir.

Həmin dövrdə kənddə yaşayan 97 ailənin, 319-nu kişi, 223-nü qadın təşkil etmişdir ki, onların da hamısı tatar (azərbaycanlı-İ.B.) olmuşdur.[1348]

Oxçu kəndində 1831-ci ildə 143 nəfər, 1873-cü ildə 541 nəfər, 1886-cı ildə 1122 nəfər, 1897-ci ildə 1246 nəfər, 1904-cü ildə 1709 nəfər, 1914-cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır.[1349] 1918-ci ildə yaradılmış daşnak Ararat

---

[1345] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s. 273.

[1346]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 23.

[1347]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 197.

[1348] N. Əhmədli.Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil 2021, s. 512-518.

[1349]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

Resbublikasının yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla kənddən deportasiya olunmuşlar və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Oxçu kəndində ermənilərlə yanaşı 1922-ci ildə 16 nəfər, 1926-cı ildə 13 nəfər azərbaycanlı yaşamışdır.[1350] 1930-cu illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşlar. Kənd 1940-cı illərdə ləğv edilmişdir. Yaşayış məntəqəsinin adı "Kitabi-Dədə Qorqud" dastanının XII-sonuncu boyunda adı çəkilən oğuz qəhrəmanı Ənsə Qoca oğlu Oxçu şəxs adında əksini tapan oxçu tayfa adı əsasında yaranmışdır.

**Oxçu Şabadini** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonunda azərbaycanlıların qədimdən yaşadığı kənd olmuşdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 4 km şimalda, Oxçu çayının sahilində yerləşirdi. Oxçu çayının sahilində yerləşdiyi üçün Azərbaycan dilində yazılmış kitablarda kəndin adı Oxçu Şabadini[1351], Şabadın[1352] formalarında da qeyd edilir.

Oxçu Şabadini **k**ənddə 1831-ci ildə 65 nəfər, 1873-cü ildə 371 nəfər, 1886-cı ildə 582 nəfər, 1897-ci ildə 433 nəfər, 1904 -

---

[1350] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

[1351] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 157.

[1352] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 434.

cü ildə 789 nəfər, 1914 - cü ildə 516 nəfər azərbaycanlı yaşamışdır.[1353] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Oxçu Şabadini **t**oponimi türk mənşəli oxçu etnonimi ilə, türk dilində "uçurum, yamac, dağın döşü", "iki dağarası çökəklikdə yüksəklik" mənasında işlənən çap ( > şab - İ. B.) sözündən[1354] və türk dilində "dincəlmək üçün dayanmaq", "istirahət", "dincəlmək" mənasında işlənən din (dın) sözünün[1355] birləşməsindən əmələ gəlmişdir.

Qars vilayətinin Qars qəzasında qeydə alınan **Ördəkli** kəndi, indiki Amasiya rayonunun ərazisində, rayon mərkəzindən 15 km şimali-qərbdə, Arpagölün cənub-şərqində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir.[1356] Erməni mənbələrində qeyd edilir ki, kənddə qarapapaqlar yaşamışdır. Onlar müstəqil xalq kimi göstərilir.[1357] Əslində

---

[1353] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

[1354] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 607.

[1355] Э.В.Севортян.Этимологический словарь тюркских языков (Обшетюркские и межтюркские основы на букву «В», «Г»и «Д»), М.: Наука, 1980, с. 341-343.

[1356] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 194.

[1357] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20, 105.

qarapapaqlar müstəqil xalq deyil, türk tayfalarından biridir. Onlar azərbaycanlılarn etnogenezində iştirak etmişlər. Ördəkli kəndində 1886-cı ildə 253 nəfər, 1897-ci ildə 146 nəfər, 1908-ci ildə 346 nəfər, 1914 -cü ildə 531 nəfər azərbaycanlı yaşamışdır.[1358]

Azərbaycanlılar 1916-cı ildə qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Ördəkli toponimi ördəkli türk tayfasının adı[1359] əsasında formalaşmışdır.

**Paşakənd** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində qədim kəndlərdən biri olmuşdur. Kənd kimi sonralar əhalisi azalmış, qışlağa çevrilmişdir. Burada yaşayanlar kəndin ərazisindən qışlaq kimi istifadə etmişlər. Paşakənd kəndində 1897-ci ildə ermənilərlə yanaşı 21 nəfər azərbaycanlı yaşamışdır.[1360] XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuş və 1930-cu illərdə yaşayış məntəqəsi kimi Paşakənd kəndi ləğv edilmişdir.

Paşakənd toponimi Paşa şəxs adı ilə kənd sözü əsasında əmələ gələn antropotoponimdir.

**Pəyədərə** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonu ərazisində kənd olmuşdur.

---

[1358] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20-21, 104-105.

[1359]Qızılbaşlar tarixi (tərcümə və şərhlər M.Ə.Məhəmmədindir), Bakı: Azərbaycan, 1993, s. 6.

[1360]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-83.

Burada 1897-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır.[1361] XX əsrin əvvəllirndə (1905-1906-cı illərdə) azərbaycanlılar deportasiya edilərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Pəyədərə toponimi Azərbaycan dili şivəsində "tövlə" mənasında işlənən pəyə sözü ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberniaysının Zəngəzur qəzasında **Pircavidan** kəndlərdən biri olaraq mənbələrdə rast gəlinir. Kəndin ərazisi Qərbi Zəngəzurun indiki Qafan rayonunun inzibati ərazisinə təsadüf edir. Pircavidan kəndi Qafan şəhərindən 37 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri kimi Pirdovudan formasında göstərilmişdir.[1362] Kəndin adı erməni mənbələrində Pirdavdan,[1363] rus dilli mənbədə Pirdovudan[1364] formalarında da qeyd edilir. Lakin kəndin əsl adı Pircavidan olmuşdur. Zəngəzur mahalının 1832-1833-cü illərə aid kameral təsvirində kəndin adı Pirdavudan kəndi formasında qeyd edilmiş və əhalisinin oturaq həyat tərzi keçirən, əkinçiliklə məşğul müsəlmanlar olduğu göstərilmişdir.[1365] Zəngəzur

---

[1361] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 90-91.

[1362] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[1363] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 30.

[1364] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 202.

[1365] N.Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı:Elm və təhsil, 2021, s. 260

qəzasının 1874-cü ilə aid kameral təsvirində kəndin adı Pirdavudan formasında göstərilmişdir. Kəndin əhalisi xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Onlar əkinçiliklə məşğul olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Pirdavudan kəndində hamısı tatar (azərbaycanlı-İ.B.) olmaqla 24 ailə, 84 kişi, 51 qadın yaşamışdır.[1366]

B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı Pirdavidan formasında qeyd edilir və göstərilir ki, Azərbaycan xalqının tarixi ilə bağlı maraqlı toponimdir. Kənd oradakı Pir-Cavidan ziyarətgahının adı ilə adlanmışdır. Xürrəmilər hərəkatının başçısı Cavidanın qəbri orada yerləşir.[1367] Buradan belə bir nəticə çıxarmaq olar ki, əgər kənd Pir Cavidan ziyarətgahının adı ilə adlanmışdırsa, onda kənd Pirdavidan kəndi deyil, Pircavidan adlanmalıdır.

Pircavidan kəndində 1831-ci ildə 17 nəfər, 1873-cü ildə 135 nəfər, 1886-cı ildə 223 nəfər, 1897-ci ildə 254 nəfər, 1904-cü ildə 231 nəfər, 1914-cü ildə 360 nəfər azərbaycanlı yaşamışdır.[1368]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq

---

[1366] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 512-518.

[1367] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 356.

[1368] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-64, 136-137.

deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradımasından sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Pircavidan kəndində 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır.[1369] Sonralar kənd Gecalan şəhərinə birləşdirilmiş və xüsusi yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Pircavidan toponimi Babəkin qəhrəmanlarından olan Cavidanın adı ilə bağlıdır və "Cavidana aid olan pir, Cavidan piri yanındakı kənd" mənasını ifadə edir. Qafan rayonu ərazisində Babəkin Bəzzeyn qalasının olması fikrimizə bir doğruluq gətirir.

**Porsuq** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi kimi Porsuq kəndi 1905-1906-cı ildən sonra xarabalığa çevrilmişdir. Toponim porsuq heyvan adı əsasında əmələgəlmişdir.

**Porsuqlu** XVI əsrdə İrəvan nahiyəsində, XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd kimi mənbələrdə qeyd edilir. İrəvan nahiyəsinin inzibati ərazisinə daxil olan yaşayış məntəqələrdən biri olaraq kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir.[1370] Kənd XIX əsrin ortalarında ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim porsuq heyvan adına -lu şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Pulkənd** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu

---

[1369] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 136-137.

[1370] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 161.

ərazisində kənd olmuşdur. Kənd rayon mərkəzindən 22 km şimal-qərbdə yerləşirdi. Kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1371] Qafqazın 5 verstlik xəritəsində[1372] qeyd edilmişdir."Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Sisyan nahiyyəsinə tabe olan Pulkənd kəndi yaşayış məntəqəsi olaraq qeyd edilmişdir. Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində kəndin adı Pul kəndi formasında qeydə alınaraq kəndlə bağlı göstərilmişdir ki, kənddə xəzinə torpaqlarında vergi mükəlləfiyyətli 14 ailə, 41 kişi, 31 qadın yaşayır. Onların hamısı müsəlman tatarlardır (azərbaycanlılardır- İ.B.).[1373] Pulkənd kəndində 1831-ci ildə 75 nəfər, 1886-cı ildə 122 nəfər, 1897-ci ildə 153 nəfər, 1908-ci ildə 193 nəfər, 1914-cü ildə 282 nəfər azərbaycanlı yaşamışdır.[1374] 1917-ci ilin dekabrında azərbaycanlılar erməni quldur dəstələrinin soyqırımına məruz qalaraq deportasiya edilmiş, kənd dağıdılaraq xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Pulkənd toponimi fars dilində "körpü" mənasında işlənən pül (pul) sözünə,[1375] "yaşayış məntəqəsi" mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir.

---

[1371] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 151.

[1372] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 207.

[1373] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı, 2021, s. 534.

[1374] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 78-79, 148-149.

[1375] В.В. Радлов. Опыт словарья тюркских наречий, т.lV, ч. 2, СПб, 1911, с. 1372; Ərəb və fars sözləri lüğəti, Bakı: Azərb.SSR Elmlər Akademiyası nəşriyyatı, 1966, s. 503.

XIX əsrdə Yelizavetpol (Gəncə) quberinyasının Zəngəzur qəzasında, Ermənistan SSR-in Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində qeydə alınan **Puşanlı** kəndi Qafan rayonundakı Baharlı kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin adı Pşan formasında qeyd edilir və qışlaq olduğu göstərilir.[1376]Puşanlı kəndində 1831-ci ildə 34 nəfər, 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır.[1377] 1905-1906-cı illərdə kənd erməni quldur dəstələrinin təcavüzünə məruz qalmış və dağıdılmışdır.[1378] 29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra kəndin sakinlərindən sağ qalan azərbaycanlılar tarixi torpaqlarına dönə bilmişdir. Puşanlı kəndində 1926-cı ildə 20 nəfər azərbaycanlı yaşamışdır.[1379] Kənd XX əsrin 30-cu illərində yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Puşanlı toponimi türk mənşəli puşanlı tayfasının adı[1380] əsasında əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, Ermənistan SSR-in inzibati ərazi bölgüsünə əsasən Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonunun tərkibində olan **Püsək** kəndi Qarakilsə rayonunun mərkəzindən 18 km cənub-qərbdə, Sofulu

---

[1376]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62.
[1377] Yenə orada, s. 62-63, 136
[1378] История Азербайджана по документам и публикациям. Баку: Элм, с.206.
[1379]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 62-63.
[1380]Зелинский С.П. Экономический быть государственных крестьян в Зангезурском уезде, Елисаветпольской губернии.-Материалы для изучения экономического быта государственных крестьян Кавказского края, т.lV, ч. l, Тифлис, 1886, с. 11, 24.

kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl tarixi"ndə Pisək,[1381] 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1382] 1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Püsyak[1383] formasında qeyd edilmişdir. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Kaspi vilayətinin Zəngəzur sahəsindəki kəndlərdən biri olaraq Püsək kəndinin adı əksini tapmışdır .[1384] Erməni araşdırıcısı Z.Qorqodyanın əsərində kəndin qədim adı Püsyək olduğu göstərilmişdir.[1385]Püsək **k**əndində 1886-cı ildə 332 nəfər, 1897-ci ildə 153 nəfər, 1908-ci ildə 260 nəfər, 1914-cü ildə 310 nəfər azərbaycanlı yaşamışdır.[1386]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə erməni hərbçiləri azərbaycanlıları qırğınlarla deportasiya etmişlər. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra Püsək kəndinin deportasiya edilmiş azərbaycanlı sakinlərindən sağ qalanlar öz kəndlərinə dönmüşdür. Püsək kəndində 1922-ci ildə 150 nəfər, 1926-cı ildə 149 nəfər, 1931-ci

---

[1381] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 183.

[1382] Yenə orada, s. 150.

[1383] Naxçıvan Sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, s. 259.

[1384]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 28.

[1385]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 94.

[1386] Yenə orada, s.78-79, 148-149.

ildə 197 nəfər azərbaycanlı yaşamışdır.[1387] Kənd kollektivləşmə bəhanəsi ilə digər kəndlə birləşdirilərək 1930-cu illərin sonunda ləğv edilmişdir. İndi xaraba kənddir.

Püsək toponimi qədim türk dilində "gül çələngi" mənasında işlənən püsək (əsli psak) sözündən[1388] əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında **Rəsul qışlağı** kəndi qeydə alınıb. Kəndin ərazisi coğrafi en dairəsinə görən Dərələyəz mahalının indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun ərazisinə uyğun gəlir. Rəsul qışlağı kəndi Keşişkənd rayonundakı Hors kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki kəndlərdən biri olaraq Rəsul qışlağı kəndinin adı qeyd edilmişdir.[1389] Kənddə 1831-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır.[1390] Dərələyəz mahalının 1831-ci ilin kameral təsvirində kənddə kəngərlərin əliyanlı tayfasının yaşadığı göstərilmişdir.[1391] 1860-cı illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1387] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ 78-79, 148-149.

[1388] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 398.

[1389] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 27.

[1390] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 162.

[1391] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 87.

Rəsul qışlağı toponimi Rəsul şəxs adı ilə qışlaq sözündən əmələ gəlmişdir. “Rəsula məxsus qışlağın yaxınlığındakı kənd” mənasını bildirir.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında, Ermənistan SSR-in indiki Əştərək rayonunda qeydə alınmış **Sağmosavəng** kəndində azərbaycanlıların qədimdən yaşamışdır. Sağmosavəng kəndi Əştərək rayonunun mərkəzindən 12 km şərqdə yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”ndə Savmosavəng formasında qeyd edilmişdir.[1392]

Sağmosavəng kəndində 1831-ci ildə 131 nəfər yalnız azərbaycanlı yaşamışdır. Türkmənçay müqaviləsindən sonra İrandan və Türkiyədən köçürülən ermənilər Sağmosavəng kəndinə də yerləşdirilmişdir. Bunun nəticəsi kimi Sağmosavəng kəndində ermənilərlə yanaşı 1873 - cü ildə 100 nəfər, 1886-cı ildə 141 nəfər, 1897-ci ildə 185 nəfər, 1914-cü ildə 404 nəfər azərbaycanlı yaşamışdır.[1393] Yuxarıdakı statistik məlumatlardan göründüyü kimi ermənlər kəndə 1850-ci illərdən sonra köçürülmüşdür.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız 29 noyabr 1920-ci ildə Ermənistan

---

[1392] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsamməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 112.

[1393] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 108-109.

SSR yaradıldıqdan sonra kəndin deportasiya olunmuş sakinlərindən sağ qalan azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Sağmosavəng kəndində 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 53 nəfər, 1931-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır .[1394]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə azərbaycanlılar 1948-1953-cü illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür.

Sağmosavəng toponimi türk dilində "cığır", "bataqlıqdan keçən çay keçidi" mənalarında işlənən sakma // sokma[1395] və türk dilində "qala" mənasında işlənən bengü, mengü sözünün fonetik forması kimi sabitləşən vəng[1396] sözlərindən əmələ gəlmişdir. Sakma // sokma sözü fonetik dəyişikliyə uğrayıb sağma // soğma formasına düşmüşdür. Toponim "cığır kənarında yerləşən qala yanında kənd, yaşayış yeri" mənasını ifadə edir.

**Sanalı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.

---

[1394] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 108-109.

[1395] Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984 , с. 493.

[1396] H.Mirzəyev. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, ADPU, 1997, s. 208-209.

B.Budaqov və Q.Qeybullayev Sanalı yaşayış məntəqəsini həm kənd, həm də qışlaq kimi göstərmişlər.[1397]

Əslində Sanalı inzibati vahid olaraq qışlaq deyil, kənd olmuşdur. Kənddə 1897-ci ildə 82 nəfər azərbaycanlı yaşamışdır.[1398] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

**Sarıbudaq** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində qədim kəndlərdən biri olaraq mənbələrdə rast gəlinir.

Yaşayış məntəqəsinin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir.[1399] Qafqazın 5 verstlik xəritəsində kəndin adı Sarıbulaq kəndi kimi göstərilmişdir.[1400]

1831-ci ildən sonra kənddə heç kim yaşamamışdır.[1401] İndi xaraba kənddir.

Sarıbudaq toponimi qədim türk dilində "böyük, iri, yüksək, nəhəng, uca, hündür" mənasında işlənən sarı sözü ilə[1402]

---

[1397] B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 363.

[1398] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

[1399] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 174.

[1400] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 220.

[1401] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 96-97.

[1402] T.M. Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985, s. 74.

"çayın qolu" mənasında işlənən budaq sözünün[1403] birləşməsindən əmələ gəlmişdir.

**Sarıqaya** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kənddə 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır.[1404] XX əsrin əvvəllərində-1905-1906-cı illərdə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən qovularaq kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Sarıqaya toponimi qədim türk dilində "böyük, iri, yüksək, nəhəng, uca, hündür" mənasında işlənən sarı sözü ilə[1405] Azərbaycan dilində "dağ, daş" mənasında işlənən qaya sözündən əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında **Sarıxanlı** yaşayış məntəqəsi kimi qeydə alınəb. Kəndin ərazisi Ermənistanın indiki Vedi (Ararat) rayonunun ərazisi daxilinə təsadüf edir.

Yaşayış məntəqəsi rayon mərkəzindən 14-16 km cənub-şərqdə, Araz çayının sahilində, Vedi çayından axan arxın yaxınlığında, Əliməmməd kəndinin yanında yerləşirdi. Suraxanlı kəndində 1873-cü ildə 288 nəfər, 1886-cı ildə 338 nəfər, 1897-ci ildə 358 nəfər, 1904-cü ildə 160 nəfər, 1914-cü ildə 176 nəfər, 1916-cı ildə 204 nəfər azərbaycanlı yaşamışdır.[1406]

---

1403 Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 105.

1404 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

1405 T.M. Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985, s. 74.

1406 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ilin payızında kəndin sakinləri erməni hərbçiləri tərəfindən qırğınlarla qovmuşdur. Həmin vaxtdan kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.B.Budaqov və Q.Qeybullayev toponimin Saruxan şəxs adı əsasında düzəldiyini qeyd etmişlər .[1407]

Ə.Ələkbərli yazır ki, kəndin adı şahsevən türklərinin sarıxanlı tayfasının adından yaranmışdır.[1408]

Apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, toponim təklə türk tayfasının bir qolunu təşkil edən sarıxanlı etnonimi[1409] əsasında əmələ gəlmişdir.

**Sarıcalar** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd olmuşdur. Kənd rayon mərkəzindən 8 km cənub-qərbdə, Zəngi çayının yanında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Zəngibasar sahəsindəki kəndlərdən biri olaraq Sarcalar kəndi adında göstərilmişdir.[1410] Yaşayış məntəqəsi Zəngibasar rayonu yaradılanadək Qəmərli (Artaşat) rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Sarıcalar kəndi,[1411] erməni mənbələrində

---

[1407]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 366.

[1408]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 433.

[1409]Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 72.

[1410] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 21.

[1411]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 218.

Saracalar kəndi[1412] formasında qeyd edilmişdir. Sarıcalar kəndində 1831-ci ildə 107 nəfər, 1873-cü ildə 354 nəfər, 1886-cı ildə 440 nəfər, 1897-ci ildə 460 nəfər, 1904-cü ildə 638 nəfər, 1914-cü ildə 811 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1413]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Sarıcalar kəndində 1922-ci ildə 207 nəfər, 1926-cı ildə 224 nəfər, 1931-ci ildə 168 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1414]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin sakinləri 1948-1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.

---

[1412] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50.
[1413] Yenə orada, s. 50-51, 130-131.
[1414] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

Kəndin ərazisi Həbilkəndə (Kalinin adına qəsəbə) birləşdirilimişdir.

Sarıcalar toponimi sarıcalılar türk tayfasının adı[1415] əsasında yaranıb, "sarıcalı tayfasına mənsub kənd" mənasını ifadə cdir.

XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında **Sahatlı** kəndi qeydə alınıb. Kəndin tarixi ərazisi indiki Sərdarabad (Oktemberyan) rayonunun ərazisində, Araz çayının sol sahilində yerləşirdi.

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə İrəvan qəzasının Sərdarabad sahəsindəki kəndlərdən biri olaraq Səədli kəndi formasında göstərilmişdir.[1416] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Sohutlu (Согутлу) formasında qeyd edilmişdir.[1417] Tarixən burada azərbaycanlılar yaşamışdır. Kənddə 1840-cı ildən azərbaycanlılarla yanaşı əcəmi (müsəlman) kürdləri də yaşamışdır. 1930 - cu illərdə kənd ləğv edilmişdir.

Sahatlı toponimi saatlı türk tayfasının adı[1418] əsasında yaranmışdır.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında, Ermənistan SSR-in indiki Qəmərli (Artaşat) rayonunda **Seyid kotanlı** kəndinə mənbələrdə rast gəlinir. Yaşayış məntəqəsi rayon

---

[1415]Mir Mehdi Xəzani. Kitabi-tarixi – Qarabağ. Qarabağnamələr, II kitab, Bakı: Yazıçı, 1991, səh.104-105.

[1416]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 26.

[1417]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 227.

[1418]Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, s. 44.

mərkəzindən 30 km şimal-şərqdə yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1419]

Seyid kotanlı kəndi 1930-cu illərdə Vedi (Ararat) rayonunun inzibati - ərazi bölgüsünə daxil olmuşdur. Kənddə 1873-cü ildə 156 nəfər, 1886-cı ildə 201 nəfər, 1897-ci ildə 279 nəfər, 1904-cü ildə 128 nəfər, 1914-cü ildə 377 nəfər, 1916-cı ildə 356 nəfər azərbaycanlı yaşamışdır.[1420]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə erməni hərbçiləri azərbaycanlıları qırmış və onları öz doğma kəndlərindən qovmuşlar.

29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra 1918-ci ildə kənddən qovulmuş azərbaycanlılardan sağ qalanlar kəndlərinə dönə bilmişdir. Seyid kotanlı kəndində 1922-ci ildə 63 nəfər, 1926-cı ildə 67 nəfər, 1931-ci ildə 106 nəfər,[1421] 1939-cu ildə 221 nəfər[1422] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan

---

[1419] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 223.

[1420] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[1421] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 156-157.

[1422] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 232-233.

SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunaraq Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Seyid kotanlı toponimi ərəblərin Qürreyş qəbiləsindən olan dini təbəqəni bildirən seyid sözü ilə[1423] kotanlı türk etnoniminin[1424] birləşməsindən əmələ gəlmişdir.

**Seyidlər** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunun ərazisində kənd olmuşdur. Seyidlər kəndi Basarkeçər rayonundakı Nərimanlı kəndinin yaxınlığında yerləşirdi. Z.Qorqodyanın əsərində Seyidner (erməni dilində "er" cəmlik bildirir) förmasmda qeyd edilmişdir. Kənddə 1926-cı ildə 36 nəfər azərbaycanlı yaşamışdır.[1425] 1930-cu illərdə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Seyidlər toponimi ərəbləri Qürreyş qəbiləsindən olan seyid dini təbəqə əsasında formalaşmış seyidlər tayfa adından[1426] əmələ gəlmişdir.

**Seyid Məmiş** XIX əsrdə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur.

---

[1423] Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 55.

[1424]Г.Гейбуллаев. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 50.

[1425]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 26-27.

[1426]Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, s. 55.

Yaşayış məntəqəsi rayondan 19-20 km şiaml-qərbdə, Səlim çayının sahilində, rayondakı Ağkənd kəndinin yaxınlığında yerləşirdi.[1427]Seyid Məmiş toponimi seyid nəsil adı ilə Məmiş şəxs adı əsasında yaranmışdır. "Seyid nəslindən olan Məmişin saldığı kənd" mənasını bildirir.

XIX əsrdə Qars vilayətinin Qars qəzasında **Seldağılan** kəndi qeydə alınıb. Kəndin tarixi ərazisi indi Amasiya rayonunun ərazinə təsadüf edir. Seldağılan kəndi rayon mərkəzindən 15 km şimal-qərbdə, Ağbaba dağının ətəyində yerləşirdi. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kəndin sakinləri qarapapaqlar göstərilir və onlar müstəqil bir xalq kimi təqdim edilir.[1428] Əslində kənddə yaşayan qarapapaqlar müstəqil xalq yox, azərbaycanlıların etnoqrafik qruplarından biridir.Seldağılan kəndində 1886-cı ildə 231 nəfər, 1887-cı ildə 360 nəfər, 1908-ci ildə 359 nəfər, 1914-cü ildə 414 nəfər azərbaycanlı yaşamışdır.[1429] 1916-cı ildə azərbaycanlılar erməni quldur dəstələri tərəfindən öz doğma torpaqlarından qovulmuş, kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Seldağılan toponimi "su daşqını" mənasında işlənən sel sözü ilə dağılan feili sifətinin birləşməsindən əmələ gəlmişdir. "Böyük Ağbaba və Kiçik Ağbaba dağlarından axıb gələn güclü sel suları göstərilən kəndin yanında müxtəlif tərəflərə dağılıb selovlarla axdığından seldağılan demişlər".[1430]

[1427]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 365.

[1428]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20.

[1429] Yenə orada, s.20-21, 104-105

[1430] A.Bayramov. Qədim Oğuz ellərinin - Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, s. 180.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində **Səncərli** kəndi olmuşdur.

Kəndin digər adı "Səncər oğlu" formasında erməni mənbələrində qeyd edilmişdir.[1431]

1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Səncərli kəndinin adı göstərilmişdir.[1432]

B.Budaqov və Q.Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adını Səncərəli formasında qeyd edərək yazırlar ki, mənbədə Sancaraqlı kimidir. XX əsrin əvvəllərində kənd dağıdılmışdır. Səncər Əxili adının təhrifidir.

XIX əsrdə Zəngəzur qəzasında yaşayan sofulu tayfasının bir qışlağı Səncərəxili idi. Qışlaq, görünür səncər (dərviş, sufi) əxiyə məxsus olduğuna görə Səncər Əxili adlanırdı.[1433] Əslində yuxarıda göstərilib ki, mənbələrdə kəndin adı Səncərəli, Səncər Əxili deyil, Səncərli, "Səncər oğlu" formasında qeydə alınmışdır.Səncərli kəndi rayon mərkəzindən 35 km şimal-qərbdə yerləşirdi. Burada 1926-cı ildə 27 nəfər azərbaycanlı yaşamışdır.[1434] 1930 - cu illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1431]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60.

[1432]İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 30.

[1433]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 368.

[1434]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

Fikrimizcə, toponim N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasının ikinci hekayəti "Sultan Səncər və qarı" əsərində adı çəkilən Böyük Səlcuq Sultanı Səncərin adı ilə bağlı yaranmışdır və elə kəndin tarixi XII əsrə təsadüf edir. Səncərli toponimi Səncər nəslindən olan səncərli türk etnonimi əsasında əmələ gələn etnotoponimdir.

İrəvan quberniyasının İrəvan qəzasında **Səfərli** kəndi olmuşdur. Kənd indiki Vedi (Ararat) rayonunun ərazisi daxilinə təsadüf edir. Yaşayış məntəqəsi Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1435] İ.Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimlər" kitabında (2002) toponim Səfərəli şəklində verilmişdir. Əslində kəndin adı Səfərli olmuşdur.

Səfərli kəndində 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdırı.[1436] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni quldur dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınların nəticəsində azərbaycanlılar kənddən deportaisiya olunmuş və kənd 1908-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Səfərli toponimi səfərəli nəsil adı əsasında əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınan **Səfiabad** kəndi indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisinə təsadüf edir. Yaşayış məntəqəsi 1930-cu illərdə Qurduqulu rayonunun tərkibində olmuşdur.

---

[1435] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 221.

[1436] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89.

Erməni mənbələrində kəndin adı Sefiabad, Səfiabad formalarında çəkilir.[1437] Kəndin adı Qafqazın 5 verstlik xəaritəsində qeyd edilmişdir.[1438] Səfiabad kəndi rayon mərkəzindən 14 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında yerləşirdi. Səfiabad kəndində 1831-ci ildə 49 nəfər, 1873 - cü ildə 190 nəfər, 1886-cı ildə 145 nəfər, 1897-ci ildə 223 nəfər, 1908-ci ildə 203 nəfər, 1914-cü ildə 234 nəfər, 1916-cı ildə 218 nəfər, 1918-ci ildə 243 nəfər, 1919-cu ildə 1640 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1439]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1919-cu ilin sonunda kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur.[1440] Kənd 1930 - cu illərdə ləğv edilmişdir.

XVII əsrin 70-cı illərində Çüxur-Səd bəylərbəyi Səfixan Qarasu çayından susuz torpağa arx çəkdirmiş və həmin yerdə kənd saldırmışdır. Həmin kənd Səfiabad adlanmışdır.[1441] Deməli, Səfiabad toponimi şəxs adı əsasında yaranmış antropotoponimdir.

---

[1437] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 64.

[1438] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 221.

[1439] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 64-65, 140-141.

[1440] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 221.

[1441] С.А.Мамедов Азербайджан по источникам XУпервой половины XVIII вв., Баку: Элм, 1993, с. 55 .

**Səfolar** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Arpaçay çayının yaxınlığında yerləşirdi. Toponim səfolar nəsil adından əmələ gəlmişdir.

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində **Siçanlı** kəndi qeydə alınmışdır. Yaşayış məntəqəsi Təzəkənd kəndinin yanında yerləşirdi.Siçanlı kəndində 1886-cı ildə 302 nəfər, 1897-ci ildə 310 nəfər, 1904-cü ildə 499 nəfər, 1914-cü ildə 582 nəfər, 1916-cı ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır .[1442]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kəndin sakinləri erməni hərbçilərinin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuş və 1918-ci ildə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Siçanlı toponimi oğuzların bəydili tayfasına mənsub olan sincan etnoniminə[1443] mənsubluq, bildirən -lı şəkilçisinin qoşulması ilə düzəlmişdir. Fikrimizcə, sincan etnonimi -lı şəkilçisi qəbul edərək yerli tələffüzə uyğunlaşmış və "siçanlı" formasında toponim yaradıcılığında iştirak etmişdir.

XIX əsrdə Qars vilayətinin Qars qəzasında, sovet Ermənistanının indiki Amasiya rayonunun ərazisində mənbələrdə əksini tapan **Sınıq** kəndi rayon mərkəzindən 12 km şimal-şərqdə, Mögüz çayının sol tərəfində yerləşirdi. Kəndin adı

[1442] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 66-67, 142-143.
[1443] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 290.

erməni mənbələrində Snığ kimi qeyd edilmişdir.[1444] Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində göstərilir ki, kənddə qarapapaqlar yaşamışdır. Qarapapaqlar müstəqil xalq kimi verilir.[1445] Əslində qarapapaqlar türk tayfalarından biri olmaqla azərbaycanlıların etnogenezində iştirak etmişdir.

Sınıq kəndində 1886-cı ildə 130 nəfər, 1897-ci ildə 118 nəfər, 1908-ci ildə 164 nəfər, 1914-cü ildə 241 nəfər azərbaycanlı yaşamışdır.[1446] Kəndin əhalisi 1915-cı ildə ermənilər tərəfindən qovulmuş və kənd 1920-ci ildə xarabalığa çevrilmişdir

Fikrimizcə, Sınıq toponimi "kənd", "şenlik, yaşayış məntəqəsi" mənasında işlənən şınıx (əsli şenlik) sözü əsasında formalaşmışdır. Azərbaycan, o cümlədən türk dillərində "ş" samitinin "s" samitinə keçməsi qanunauyğun haldır.[1447]

XIX əsrdə Qars vilayətinin Qars qəzasında **Söyüdlü** kəndi qeydə alınıb. Kəndin tarixi ərazisi indiki Amasiya rayonu ərazisi daxilində, rayon mərkəzindən 35 km şimal-qərbdə, Arpagöldən 10 km qərbdə yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1448] Qafqazın 5 verstlik xəritəsində[1449] qeyd edilmişdir. 1847-ci ildə tərtib edilmiş

---

[1444]Ձ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20, 104.
[1445]Yenə orada, s. 20, 105.
[1446] Yenə orada,s. 20, 104-105.
[1447]Н.А.Баскаков. Историко-типологическая фонология тюркских языков, М.:Наука, 1988, с.128
[1448] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 124.
[1449]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 227.

"Qafqaz diyarının xəritəsi"ndə Aleksandropol qəzası üzrə Şörəyel sahəsindəki kəndlərdən biri olaraq Söyüdlü kəndinin adı göstərilmişdir.[1450] Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Lakin erməni mənbələrində kəndin sakinləri millət kimi azərbaycanlılar yox, qarapapaqlar göstərilir.[1451] Halbuki qarapapaqlar azərbaycanlıların etnoqrafik qruplarından biridir.

Söyüdlü kəndində 1886-cı ildə 73 nəfər, 1897-ci ildə 118 nəfər, 1908-ci ildə 89 nəfər, 1914-cü ildə 179 nəfər azərbaycanlı yaşamışdır.[1452] 1916-cı ildə azərbaycanlılar kənddən erməni quldur dəstələri tərəfindən qovulmuşdur. 1920-ci ildə kənd xarabalığa çevrilmişdir.

Söyüdlü toponimi oğuzların söyüt etnonimi[1453] əsasında əmələ gələn söyüdlü tayfa adından formalaşmışdır. N. Sevinc Türkiyənin Maraş, Eçgani və Diyarbəkir bölgələrində söyüdlü (sogütlü) tayfasının yaşadığını göstərmişdir.[1454]

**Sultanabad** İrəvan quberniyasının Eçmiədzin qəzasının, indiki Talin rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Alagöz dağının cənub-qərbində yerləşirdi. Kənd həm də Məhəmmədabad adlandırılmışdır.[1455] Sultanabad kəndində 1873-cü ildə 49 nəfər, 1897-ci ildə 22 nəfər yalnız azərbaycanlı

---

[1450] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 16.

[1451] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 20, 105.

[1452] Yenə orada, s.20-21, 104-105.

[1453] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 326.

[1454] Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları // Türk dünyası araştırmaları, 1983, № 26, s.103.

[1455] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 36.

yaşamışdır.[1456] XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə yerli sakinlər-azərbaycanlılar erməni quldur dəstələri tərəfindən tarixi-etnik torpaqlarandan deportasiya edilmiş və 1906-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Sultanabad toponimi Sultan şəxs adı ilə abad sözünün birləşməsindən əmələ gəlib "Sultanın tikdiyi, abad etdiyi kənd" mənasını ifadə edir.

**Sultanlı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonunda qədim kəndlərdən olmuşdur. Sultanlı kəndi rayon mərkəzindən 32 km şimal-şərqdə, Bazarçay kəndinin 8 km-də yerləşirdi. Zəngəzur mahalının 1832-1833-cü illərə aid kameral təsvirində yaşayış məntəqəsi "Sultanlı obası" adında qeyd edilmişdir. XIX əsrin 30-cu illərində kənddə əkinçilik və heyvandarlıqla məşğul olan 48 ailə və kişi cinsindən 111 nəfər müsəlman (azərbaycanlı-İ.B) yaşamışdır.[1457] Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində Sultanlı yaşayış məntəqəsi kimi deyil, "Sultanlı icması" adında qeydə alınmışdır.[1458] Kənd yaşayış məntəqəsi kimi XIX əsrin 70-ci illərində ləğv edilmişdir.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə qovulmuş və kənd ləğv edilmişdir.[1459] Əslində Sultanlı kəndinin köklü sakinləri olan

---

[1456] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 36-37, 118-119.
[1457] N.Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s.331-334.
[1458] Nazir Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 709.
[1459] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 376.

azərbaycanlılar XIX əsrin 70-ci illərində doğma yurdlarından qovulmuş, kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Sultanlı toponimi türk mənşəli sultanlı etnonimi[1460] əsasında əmələ gəlmişdir.

**Suxan** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Suxan kəndi rayonun Güdgüm kəndinin yaxınlığında yerləşirdi. Suxan kəndində 1897-ci ildə 32 nəfər, 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır.[1461] 1930-cu illərdə kənd ləğv edilmişdir. İndi ölü kənddir. B.Budaqov və Q.Qeybullayev ehtimal edirlər ki, kəndin adı Suaxan adının təhrifidir.[1462] Suxan toponimi türk dilində "su" mənasın bildirən suğ (sux) sözünə[1463] -an şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir.

**Südlü bulaq** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd kimi mənbələrdə qeyd edilmişdir. Yaşayış məntəqəsi 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Abaran nahiyəsinin Təkəcik kimi də tanınan Qarabulaq kəndinin yaxınlığında yerləşən Südlübulaq kəndi adında qeyd edilmişdir. Gəliri 3.000 ağça olmuşdur[1464]

---

[1460]Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886, с. 13.

[1461]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

[1462]B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 377.

[1463] Древнетюркский словарь. Л.: Наука, 1969, с. 513.

[1464] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 113.

Kəndin adı erməni mənbələrində isə yerli tələffüzə uyğun olaraq Suddi bulaq formasında əksini tapır.[1465] Südlü bulaq kəndində 1897-ci ildə 70 nəfər, 1914-cü ildə 28 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1466] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Südlü bulaq toponimi Azərbaycan dilində "keyfiyyətli, içməyə yararlı, süd kimi ağ" mənasında işlənən südlü sözü ilə bulaq sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

**Şabadin Axund yeri** Yelizavetpol (Gəncə) quberniyasınıın Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi rayondakı Oxçu kəndinin yaxınlığında yerləşirdi. Burada 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır.[1467] Kəndin sakinləri XX əsrin əvvəllərində, 1906-cı ildə erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Şabadin Axund yeri toponimi türk dilində "bitkisiz qumlu, daşlı dağ yamacı", "yastı sıldırım sahili"[1468], "uçurum, sıldırım",

---

[1465]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 45.
[1466]Yenə orada, s. 45, 98-99.
[1467] Yenə orada, s. 60-61.
[1468] Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 477; Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 607.

"yamac", "dərin dağarası çuxurda yüksəklik" mənasında işlənən çap (> şab -İ. B.) sözü və türk dilində "dincəlmək üçün dayanmaq", "istirahət", "dincəlmək" mənasında işlənən din (dın) sözü ilə "axund yeri" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Şaqarda** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonu ərazisində kənd kimi qeydə alınıb. Burada tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci ildə Türkmənçay müqaviləsi bağlanandan sonra, indiki Ermənistanın başqa bölgələri kimi Şaqarda kəndinə də Türkiyədən ermənilər köçürülüb yerləşdirilmişdir. Şaqarda kəndində ermənilərlə yanaşı 1897-ci ildə 5 nəfər, 1916-cı ildə 21 nəfər, 1922-ci ildə 11 nəfər, 1926-cı ildə 67 nəfər, 1931-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır.[1469]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kənddə yaşayan azərbaycanlılar 1948-1953-cü illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq zorla Azərbaycana köçürülmüş və bundan sonra kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Azərbaycan dilində s~ş səs əvəzlənməsinin qanunauyğun hal olduğunu nəzərə alıb belə qənaətə gələ bilərik ki, Şaqarda toponiminin birinci komponenti şaq, sak // saq etnonimini əks

[1469] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 80- 81, 150-151.

etdirir. Sak//saq etnonimi ilə bağlı ilk məlumata Strabonun "Coğrafiya" əsərində rast gəlinir. Saq qədim türk tayfalarından biridir.[1470]

Şaqarda toponimi saq türk etnonimi ilə türk dilində "dağ beli",[1471] "arxa tərəf, yayla, dağ, dağ keçidi",[1472] "təpə"[1473] mənalarında işlənən art sözünün birləşməsindən əmələ gəlib "dağ keçidində, yaylada, dağda sakların yaşadığı yer, yaşayış məntəqəsi" mənasını ifadə edir.

**Şamsız** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Gorus rayonunda kənd kimi mənbələrdə rast gəlinir.

Şamsız kəndində 1897-ci ildə 124 nəfər, 1914-cü ildə 186 nəfər, 1916-cı ildə 911 nəfər azərbaycanlı yaşamışdır.[1474]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Yalnız 29 noyabr 1920-ci ildə Ermənistan SSR yarandıqdan sonra kəndin sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına dönmüşdür. Kənddə 1926-cı

---

[1470]Kirzıoğlu F. Kars tarihi, I cilt, İstanbul: İşil matbası, 1953, s. 73, 91-96; M.Ə. Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı», 1989, s. 24-28; Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991, с. 82-101.

[1471] Kaşğari M. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 116;

[1472]Древнетюркский словарь, Л.: Наука, 1969, с. 55.

[1473]Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 56.

[1474]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 28-29, 114-115.

ildə 54 nəfər, 1931-ci ildə 52 nəfər azərbaycanlı yaşamışdır.[1475] 1940-cı illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

B.Budaqov və Q.Qeybullayevin fikrincə, Şamsız toponimi Şam və Sis toponimlərindən ibarət olub "Şam yaxınlığında Sis mənasındadır".[1476] Toponimin etimologiyası ilə bağlı verilmiş bu izah inandırıcı görünmür.

Bizim fikrimizcə, Şamsız toponimi bitki adı bildirən şam sözünə -sız şəkilçisinin artırılması ilə düzəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində qeydə alınan **Şirəqala** kəndi Abaran çayının sağ qolu olan Duluçay çayının yanında yerləşirdi.

Kənd yaşayış məntəqəsi kimi 1840-1850-ci illərdə ləğv edilmişdir. İndi xaraba kənddir. Ola bilsin ki, yaşayış məntəqəsinin ilkin adı Şirəkqala olmuş, sonradan Şirəqala kimi sabitləşmişdir. B.Budaqov və Q.Qeybullayev toponimi Şirakqala formasında qeyd etmişlər.[1477] Bu baxımdan deyə bilərik ki, Şirəqala toponimi şirak etnonimi ilə qala sözününə birləşməsindən əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Şahverdilər** kəndi azərbaycanlıların tarixi yurdu olub. Kəndin tarixi ərazisi Qərbi Zəngəzurun indiki Gorus rayonunun inzibati ərazisinə uyğun

---

[1475] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 28-29, 114-115.

[1476] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 436.

[1477] B.Ə.Budaqov,Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 441.

gəlir. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Şahverdi kəndi adında göstərilmişdir.[1478] Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir .[1479] Kəndin digər adı, Şahverdiuşağı kəndi olmuşdur.[1480] Şahverdilər kəndində 1886-cı ildə 238 nəfər, 1897-ci ildə 217 nəfər, 1904-cü ildə 111 nəfər, 1914-cü ildə 147 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1481] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.

Yalnız 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndin sakinlərindən sağ qalanlar 1923-1924-cü illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Şahverdilər kəndində 1926-cı ildə 87 nəfər azərbaycanlı yaşamışdır.[1482] 1930-cu ildə kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Şahverdilər toponimi şahverdilər (Şahverdilər uşağı) nəsil adı əsasında əmələ gəlmişdir.

**Şahgəldi qışlağı** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, sovet Ermənistanı zamanında Dərələyəz mahalının

---

1478 İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı, 2023, s. 30.

1479 Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 293.

1480 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 28.

1481 Yenə orada, s.28-29, 114-115.

1482 Yenə orada, s. 28-29.

indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun ərazisində qədim kəndlərdən biri olaraq mənbələrdə rast gəlinir. Yaşayış məntəqəsi rayondakı Hors kəndinin yaxınlığında, Səlim çayının sahilində, Arpaçay çayının sağ qolunun yanında yerləşirdi. Erməni,[1483] rus[1484] mənbələrində kəndin adı həm də Qışlaq kimi qeyd edilir.

Şahgəldi qışlağı kəndində Dərələyəz mahalının 1831-il kameral təsvirində qaraçorluların əliyanlı tayfasının,[1485] 1842-ci il kameral təsvirində milli tayfasının[1486] yaşadığı göstərilmişdir. Mahalın 1873-cü il kameral təsvirindən Şahgəldi qışlağı kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da vergi mükəlləfiyyətli dövlət kəndliləridir.[1487]

Şahgəldi qışlağı kəndində 1831-ci ildə 36 nəfər, 1873-cü ildə 80 nəfər,1886-cı ildə 112 nəfər, 1897-ci ildə 133 nəfər, 1904-cü ildə 133 nəfər, 1914-cü ildə 146 nəfər, 1916-cı ildə 179 nəfər, 1919-cu ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1488]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə

[1483] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92.

[1484] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 135.

[1485] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017,s. 88.

[1486] Yenə orada, s. 178.

[1487] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 476.

[1488] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

siyasətinin və göstərişinin nəticəsi olaraq 1919-cu ilin sonlarında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə Ermənistan SSR yarandıqdan sonra kəndin sakinləriindən sağ qalanlar tarixi-etnik torpaqlarına- öz doğma yurdlarına dönə bilmişdir. Şahgəldi qışlağı kəndində 1922-ci ildə 42 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 45 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1489] 1940-cı illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Şahgəldi sözü ilə qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Qışlaq şaha məxsus olduğunu ifadə edir.

**Şenqovit bayat** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonu ərazisində qədim kəndlərdən biri olaraq mənbələrdə qeyd edilir. Yaşayış məntəqəsi 1930-cu illərdə Qəmərli (Artaşat) rayonunun inzibati ərazisinə daxil olmuşdur. Şenqovit bayat kəndi Qəmərli (Artaşat) rayonunun tabeliyində olarkən İrəvan şəhərinin genişləndirilməsi ilə əlaqədar 1935-ci ildə İrəvan şəhərinin inzibati ərazi bölgüsünə daxil edilmişdir.[1490] Beləliklə, müstəqil yaşayış məntəqəsi (kənd statusunda) kimi ləğv edilmişdir. Onu da qeyd edək ki, 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar sıxışdırılaraq deportasiya olunmuş və kəndə İrandan köçürülən

---

[1489] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[1490] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 217-218.

ermənilər yerləşdirilmişdir.[1491] Şenqovit bayat kəndində 1831-ci ildə 75 nəfər, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır.[1492] XX əsrin əvəllərində kənddə yaşayan azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq kənddən tamamilə çıxarılmışdır.

Şenqovit bayat toponimi türk dilində "yaşayış məntəqəsi", "şenlik" mənasında işlənən şen və "suyun əmələ gətirdiyi çökək" mənasında işlənən qovu (< qobu) sözü ilə[1493] bayat türk tayfa adı[1494] əsasında əmələ gəlib, "bayat tayfasının çökəklikdə olan kəndi, yaşayış yeri, yaşayış məntəqəsi" mənasını ifadə edir.

**Şərdərə** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Xalac kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 59 nəfər azərbaycanlı yaşamışdır.[1495]

XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni quldur dəstələrinin təcavüzü nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.Toponim türk dilində "çay yatağı" mənası bildirən şara (**ШАРА** - русло реки (казах.) sözünün[1496] fonetik forması olan şər sözü ilə "iki dağ və ya təpə arasında, düzənlikdə

---

[1491] И. Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 547-550.

[1492] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 48-49, 128.

[1493] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı, «Elm», 1966, s. 22.

[1494] M. Kaşğari/ Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 128.

[1495] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

[1496] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 625.

dərin çüxur" mənasında işlənən dərə sözünün[1497] birləşməsindən əmələ gəlmişdir.

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Əştərək rayonunda qeydə alınmış **Şəhriyar** kəndi qədim kəndlərdən biri idi. Kənd Ermənistan SSR-in inzibati ərazi bölgüsünə əsasən 1930-cu ildə Vedi (Ararat) rayonunun tərkibində olmuşdur. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1498] Qafqazın 5 verstlik xəritəsində[1499] qeyd edilmişdir.Şəhriyar kəndində 1897-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır.[1500] 1905-1906-cı illərdə erməni qudur dəstələri tərəfindən azərbaycanlılar qovulmuşlar. 1922-ci ilə qədər kənddə yaşayış olmamışdır. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökumətinin qurulması ilə əlaqədar tarixən burada yaşamış azərbaycanlılardan sağ qalanlar 1922-ci ilin əvvəllərində öz dogma yurdlarına dönmüşdür. Şəhriyar kəndində 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 35 nəfər, 1931-ci ildə 37 nəfər[1501], 1939-cu ildə 67 nəfər[1502] azərbaycanlı yaşamışdır

---

[1497] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 74.

[1498] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 102.

[1499]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 290.

[1500]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87.

[1501] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87. 156-157.

[1502] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 4, Երևան, 1998, էջ: 60.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə kəndin köklü sakinləri olan azərbaycanlılar zorla 1948-1949-cu illərdə Azərbaycana köçürülmüşdür. İndi xaraba kənddir.

Şəhriyar toponimi şəxs adı əsasında əmələ gəlmişdir.

XIX əsrin inzibati ərazi vahidinə görə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında **Şorca** kəndinin adına rast gəlinir. Kəndin tarixi ərazisi Dərələyəz mahalının indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun ərazisində təsadüf edir. Şorca kəndi Keşişkənd rayonundakı Amağu, Arpa, Ertiş kəndlərinin yaxınlığında, Arpaçay çayının sahilində yerləşirdi.

Kənd XIII əsrdə Amağu alban məbədinin tabeliyində olmuşdur. Şorca kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1503]

Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən Şorca kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarlarının (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da vergi mükəlləfiyyətli dövlət kəndliləridir.[1504] Kənddə 1873 - cü ildə 31 nəfər, 1886-cı ildə 56 nəfər, 1897-ci ildə 73 nəfər, 1904-cü ildə 76 nəfər, 1914-cü ildə

[1503]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 297.

[1504] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 476.

83 nəfər, 1916-cı ildə 116 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1505] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq azərbaycanlılar kənddən deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

H.Mirzəyevin fikrincə, Şorca toponimi şor türk tayfasının adından əmələ gəlmişdir.[1506]Bizim fikrimizcə, Şorca toponimi Azəbaycan dilində "duzlu, şoranlıq yer" mənasında işlənən şor sözünə -ca şəkilçisinin artırılmasından düzəlmişdir.

**Şotalı** Yelizvetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində tarixən azərbaycanlıların yaşadığı kənd kimi mənbələrdə əksini tapır.

Şotalı kəndi Oxçu çayının sağ sahilində yerləşmişdir. Erməni mənbələrində kəndin bir adının da Şatanlı olduğu göstərilir.[1507]

Şotalı kəndində 1897-ci ildə 30 nəfər, 1922-ci ildə 25 nəfər, 1926-cı ildə 19 nəfər azərbaycanlı yaşamışdır.[1508] 1930-cu illərdə kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1505]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93, 162-163.

[1506] H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 433.

[1507]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60.

[1508] Yenə orada, s.60-61, 136-137.

B.Budaqov və Q.Qeybullayev yazırlar ki, toponim türk mənşəli şatı tayfasının adı əsasında əmələ gəlmişdir.[1509]

Apardığımız araşdırmalar əsasən belə qənaətə gəlirik ki, toponim "hunların varisi şato" etnoniminə[1510] mənsubluq bildirən -lı şəkilçisinin artıtrılması ilə düzəlib, "şato tayfasına mənsub kənd, şato tayfasının yaşadığı kənd" mənasını ifadə edir. Mənbələrdə qeyd edilən şato tayfasının adı toponimdə şata, şota fonetik formalarında öz əksini tapmışdır ki, Azərbaycan dilində o~a səs əvəzlənməsi qanunauyğun haldır.

**Şotulkənd** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur.Kənddə 1897-ci ildə 148 nəfər, 1904-cü ildə 353 nəfər, 1914-cü ildə 388 nəfər, 1916-cı ildə 127 nəfər azərbaycanlı yaşamışdır.[1511] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə erməni hərbçilərinin soyqırımına məruz qalan azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Şotulkənd toponimi təklə türk tayfasından olan şatul ( > şotul) etnoniminə (mənbələrdə təklə - şotullu formasında qeyd edilir)[1512] "yaşayış məntəqəsi", "şəhər" mənasında işlənən kənd sözünün qoşulması əsasında əmələ gəlmişdir.

---

[1509] B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 444.

[1510] L.N.Qumilyev. Qədim türklər (tərcümə edənlər: V.Quliyev, V.Həbiboğlu), Bakı: Gənclik, 1993, s. 253.

[1511] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 50-51, 130-131.

[1512] Г.Гейбуллаев Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 71.

**Şuqayıb** kəndi İrəvan quberniyasının İrəvan qəzasının, 1930-cu illərdə indiki Vedi (Ararat) rayonunun tərkibinə daxil olmuşdur. Artaşar rayonu təşkil edildikdən sonra Şuqayıb kəndi onun tərkibinə verilmişdir. Yaşayış məntəqəsin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1513]Şuqayıb kəndində 1886-cı ildə 109 nəfər, 1897-ci ildə 163 nəfər, 1904-cü ildə 90 nəfər, 1914-cü ildə 200 nəfər, 1916-cı ildə 192 nəfər azərbaycanlı yaşamışdır.[1514] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar erməni hərbçilərinin törətdiyi qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişlər.

Şuqayıb kəndində 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 35 nəfər, 1931-ci ildə 47 nəfər[1515], 1939-cu ildə 215 nəfər[1516] azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına

---

[1513]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 297.

[1514]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[1515] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[1516]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 4, Երևան, 1998, էջ: 158

köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd 1949-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Ə.Ələkbərlinin fikrincə, toponim sak türk tayfasının adı əsasında yaranmışdır.[1517]Bizim fikrimizcə, Şuqayıb toponimi türk dilində (qırğız, qazax) "konusvari zirvə" mənasında işlənən çokuku > şokı (şoku) sözünün əsasında[1518] əmələ gəlmişdir.

**Şükar** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi Sisyan şəhərindən 22-24 km şimal-qərbdə, Şağat kəndinin yaxınlığında yerləşir.

1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Şikar,[1519] Qafqazın 5 verstlik xəritəsində Şukyar,[1520] erməni mənbələrində erməni dilinin qaydalarına uyğun olaraq Şukar[1521] fonetik formalarında qeyd edilmişdir.

Zəngəzur qəzasının 1874-cü ilə aid Kameral təsvirində kəndin adı Şükar formasında əksini tapmır və həmin mənbədə

---

[1517]Ə.Ələkbərli. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, s. 569.

[1518] Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 618, 630.

[1519] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 151.

[1520]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 208.

[1521]Ձ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 94.

kəndlə bağlı qeyd edilir ki, kəndin sakinləri əkinçiliklə məşğul olan 32 ailə (onların 105-i kişi və 81-i qadın) yaşmışdır ki, onlar da müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Kəndin sakinləri bəylərlə kəndlilər arasındakı münasibətləri tənzimləyən 1870-ci il Əsasnaməsi ilə mülkədar torpaqlarında yaşayan dövlət kəndliləridir.[1522] Şükar kəndində 1873-cü ildə 186 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 238 nəfər, 1908-ci ildə 280 nəfər, 1914-cü ildə 514 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1523]

1918-ci ilcə yaradılan daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin iyun ayında kənddə yaşamış azərbaycanlılar erməni hərbçilərinin soyqırımına məruz qalaraq deportasiya olunmuş, kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir. B.Budaqov və Q.Qeybullayevin fikrincə, Şükar kəndinin adı, ehtimal ki, türk dillərində şoku- "konusvarı yüksəklik" və yar "çay sahili qaya", "yarğan" sözlərindəndir.[1524] Kəndin adının 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə qeydə alınmış Şikar formasına əsaslanıb belə qənaətə gəlmək olar ki, toponim xalac türk tayfasından olan şikarlı etnonimi[1525] əsasında əmələ gəlmişdir.

---

[1522] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.693-695

[1523] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

[1524] B.Ə.Budaqov , Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 445

[1525] Г.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986, с. 54

-Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Meğri rayonu ərazisində qədim kəndlərdən biri **Tağəmir** kəndi idi. Bu yaşayış məntəqəsi rayon mərkəzindən 16-18 km şimal-qərbdə yerləşirdi.

Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində qeyd edilir ki, Tağəmir kəndində xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Kəndin sakinləri əkinçiliklə məşğul olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Kənddə 14 ailə, 44 kişi və 30 qadın yaşayır. Hamısı tatardır (azərbaycanlıdır-İ.B.).[1526] Tağəmir kəndində 1831-ci ildə 19 nəfər, 1873-cü ildə 74 nəfər, 1886-cı ildə 129 nəfər, 1897-ci ildə 163 nəfər, 1904 -cü ildə 194 nəfər, 1914-cü ildə 255 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1527]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir.

Tağəmir kəndində 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 43 nəfər, 1931-ci ildə 51 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1528]

Kollektivləşmə adı ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1930-cu illərin axırlarında qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1526] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1873-cü il. Bakı: Elm və təhsil, 2021, s. 609-610.

[1527] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

[1528] Yenə orada, s. 68-69, 142-143.

B.Budaqov və Q.Qeybullayevin fikrincə, toponimdəki "taq" sözünün türk dillərində taq (Azərbaycan dilində dağ) sözündən ibarət olması aydın deyil. Onu həm də "taqvarı tikinti" kimi də başa düşmək olar.[1529]

Tağəmir toponiminin etimoloji təhlilinə əsasən demək olar ki, kəndin adı türk dilində "dağ" mənasında işlənən taq // tağ sözü ilə[1530] Əmr şəxs adı əsasında əmələ gəlmişdir. "Əmir adlı şəxsin dağın yaxınlığında saldığı kənd" mənasındadır.

**Tatlı** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Şəmşəddin rayonu ərazisində kənd olmuşdur. Yaşayış məntəqəsi 1930-cu ildə rayondakı Paravakar kəndi ilə birləşdirilərək ləğv edilmişdir.[1531]

Tatlı toponimi ulu yörük türk tayfasına mənsub olan tatlı etnonimi[1532] əsasında əmələ gəlmişdir.

**Tatulqışlaq** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, Göyçə mahalının indiki Basarkeçər (Vardenis) rayonu ərazisində azərbaycanlıların yaşadığı kənd olraq mənbələrdə qeyd edilir.

Yaşayış məntəqəsi Basarkeçər rayonundakı Daşkənd kəndinin yaxınlığında yerləşirdi

.B.Budaqov və Q.Qeybullayev kəndin adını Tatluqışlaq formasında olduğunu qeyd edərək göstərirlər ki, toponim

---

1529 B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 378.

1530 Древнетюркский словарь, Л.: Наука, 1969, с. 526; Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 537.

1531 Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 72.

1532 Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s.186.

Anadoluda yaşamış ulu yörük tayfa birləşməsinin tatlu qolunun əsasında formalaşmışdır.[1533]

Qeyd etmək yerinə düşər ki, kəndin adı heç bir mənbədə Tatluqışlaq kəndi kimi qeydə alınmamışdır. Göyçə mahalının 1831-ci il kameral təsvirində həmçinin kəndin adı Tatulqışlaq kəndi formasında göstərilmişdir. Kənddə azərbaycanlıların etnogenezində iştirak etmiş qarapapaqlar və qarapapaqların qaraqoyunlu tayfaları yaşamışdır .[1534]

Tatulqışlaq kəndində 1831-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır.[1535] 1828-ci il Türkmənçay müqaviləsindən sonra xaricdən-İrandan, Türkiyədən köçürülən ermənilər Basarkeçər rayonuna da yerləşdirilmişdir. Bundan sonra azərbaycanlılar sıxışdırılmışdır. Nəticədə XIX əsrin 40-cı illərində azərbaycanlılar buradan qovularaq kənd ləğv olmuşdur. İndi xaraba kənddir.Tatulqışlaq toponimi şəxs adına qışlaq sözünün artırılmasından düzəlmişdir.

**Tacədin** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Tacədin kəndi Qafan şəhərindən 4 km şimal-şərqdə, Bəydağ çayının sol sahilində yerləşirdi.
Tacədin kəndin adı erməni mənbələrində Tecadin kimi qeyd edilir .[1536] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən

---

[1533]B.Ə.Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 382.
[1534] N.Əhmədli. Göyçə mahalının kameral təsviri (1831 və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 85-86.
[1535]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 110.
[1536]Yenə orada, s. 134.

biri olaraq Tacədin kəndi də göstərilmişdir.[1537]Tacədin **k**əndində 1897-ci ildə 58 nəfər, 1926-cı ildə 25 nəfər, 1931-ci ildə 32 nəfər azərbaycanlı yaşamışdır .[1538]

Yaşayış məntəqəsi kimi kənd 1930-cu illərin ortasında ləğv edilmişdir. İndi xaraba kənddir.

Tacədin toponimi Azərbaycan dilində "son zirvə, ən yüksək zirvə" mənasında işlənən tac sözünə[1539] türk dilində "dincəlmək üçün fasilə etmək", "fasilə", "dincəlmək" mənasında işlənən din sözünün[1540] birləşməsindən əmələ gəlmişdir.

**Tezxarab** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd olmuşdur.

Dərələyəz mahalının 1831-ci il kameral təsvirində kənddə qaraçorluların kulakanlı tayfasının yaşadığı göstərilir.[1541]

Tezxarab kəndində 1831-ci ildə 22 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1542] 1870-ci ildə kənddə yaşayan azərbaycanlılar rus ordusu tərəfindən sıxışdırılıb çıxarılmış və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

---

[1537] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[1538] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

[1539] Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987, s.141.

[1540] Э.В. Севортян . Этимологический словарь тюркских языков (Обшетюркские и межтюркские основы на букву "В", "Г" и "Д"), М.: Наука, 1980, с. 341-342

[1541] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 109.

[1542]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 158.

Tezxarab toponimi Azərbaycan dilində işlənən "tez" və "xarab" sözlərindən əmələ gəlmişdir.

İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınan **Tezxarab** kəndi XVI əsrdə İrəvan nahiyəsinin tabeliyində olmuşdur. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Tezxarab kəndinin adı çəkilir.[1543] Kəndin adına 1728-cil tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə də Tezxarab kimi rast gəlirik. Gəliri 3.000 ağça olmuş dur.[1544]

Toponim tez sözü ilə Azərbaycan dilində "dağıdılmış, uçulmuş, xaraba qalmış", "viranə, yıxıq, uçuq" mənasında işlənən xaraba sözü[1545] əsasında əmələ gəlmişdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Meğri rayonunda **Tey** kəndi mənbələrdə qeydə alınıb.

Zəngəzur qəzasının 1874-cü ilə aid Kameral təsvirində qeyd edilir ki, Tey kəndinin sakinləri (başqa adı "Hedşalı"dır) 1870-ci il Əsasnaməsi ilə mülkədar torpaqlarında yaşayan dövlət kəndliləridir. Kəndin sakinləri əkinçiliklə məşğul olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Mülkədar torpaqlarında yaşayan əhalidən 81-i kişi və 45-i qadındır. Kənddə 23 ailə yaşayır ki, onların hamısı tatardır (azərbaycanlıdır-İ.B.).[1546] Tey kəndində 1873-cü ildə 126 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci

---

[1543] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 159.
[1544] Yenə orada, s. 77.
[1545] Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm", 1987, s. 301.
[1546] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1873-cü il. Bakı: Elm və təhsil, 2021, s. 613-615.

ildə 293 nəfər, 1904 -cü ildə 425 nəfər azərbaycanlı yaşamışdır.[1547] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur.[1548] Yalnız 29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndin sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Tey kəndində 1922-ci ildə 53 nəfər, 1926-cı ildə 62 nəfər, 1931-ci ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1549] Kollektivləşmə adı ilə kənddə yaşayan azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi ölü kənddir.Tey toponimi türk dilində "təpə" mənasında işlənən tey sözü[1550] əsasında əmələ gəlmişdir.

**Təzə Abdallar** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Kənd 1929 - cu ildə ləğv edilmişdir.

Toponim qədim türk mənşəli abdal etnoniminə[1551] -lar şə-

---

[1547] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

[1548] История Азербайджана по документам и публикациям. Баку: Элм, 1990, с. 205.

[1549] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

[1550] О.Т. Молчанова. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов:Издство Саратовского Университета, 1982, с. 239; Э.М.Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 548.

[1551] Н.Пигулевская. Сирийские источники по истории народов СССР, М.Л.: АН СССР, 1941, с. 165; Azərbaycan toponimləri. Ensiklopedik lüğət, Bakı: Azərbaycan Ensiklopediyası, 1999, s.8.

kilçisinin artırılmasından əmələ gələn etnonim əsasında formalaşmışdır. Toponim əvvəlindəki "təzə" sözü fərqləndirici əlamət bildirir.

**Təzəkənd** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur.

Yaşayış məntəqəsi Qarakilsə rayonundakı Şəki kəndinin yaxınlığında yerləşirdi.Təzəkənd kəndində 1897-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır.[1552] Təzəkənd kəndi XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Təzəkənd toponimi "yeni" mənasında işlənən təzə və yaşayış məntəqəsini bildirən kənd sözləri əsasında yaranmışdır.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında qeydə alınan **Tərəkəmələr** kəndi indiki Vedi (Ararat) rayonunun ərazisinə düşür.

Yaşayış məntəqəsi rayon mərkəzindən 28-30 km şimal-şərqdə yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə,[1553] Qafqazın 5 verstlik xəritəsində[1554] qeyd edilmişdir.

---

[1552] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77.

[1553] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 98.

[1554] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 238.

Tərəkəmələr kəndində 1873-cü ildə 32 nəfər, 1886-cı ildə 46 nəfər, 1897-ci ildə 35 nəfər, 1904-cü ildə 50 nəfər, 1914-cü ildə 83 nəfər, 1916-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır.[1555]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Kənd 1920-ci ildə xarabalığa çevrilmişdir.

Tərəkəmələr toponimi azərbaycanlılarn etnogenezində iştirak etmiş türkdilli tərəkəmələr etnonimi əsasında yaranmışdır. Köçəri həyat keçirən oğuzların bir hissəsi tərəkəmə (ərəb dilində türkmən tayfa adının cəmidir) adlandırılmışdır.[1556]

XIX əsrin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının, sovet Erməniztanının inzibati ərazi bölgüsünə əsasən Dərələyəz mahalının indiki Paşalı (Vayk) rayonu ərazisinə daxil olan Tərp kəndi XIII əsrdə tarixi mənbələrdə adı çəkilən Derb kəndidir .[1557] Kənd XIV əsrdə xarabalığa çevrilmiş, XVII əsrdə yenidən bərpa edilmişdir. Kənd Tərpçay çayının yaxınlığında yerləşirdi.

1831-ildə Tərp kəndində qaraçorluların bozlu tayfası yaşamışdır.[1558] Mahalın 1873-cü il kameral təsvirindən Tərp

---

[1555] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[1556] Azərbaycan Sovet Ensiklopediyası, IX cild, Bakı, 1986, s. 256.

[1557] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 93.

[1558] N.Əhmədli. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017, s. 135.

kəndində xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarların (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir.[1559]

Tərp kəndində 1831-ci ildə 96 nəfər, 1873-cü ildə 192 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 187 nəfər, 1904 - cü ildə 223 nəfər, 1914-cü ildə 245 nəfər, 1916-cı ildə 281 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1560]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Tərp kəndində 1922-ci ildə 67 nəfər, 1926-cı ildə 86 nəfər, 1931-ci ildə 191 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1561]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarı ilə kəndin sakinləri - azərbaycanlılar 1947-ci ildə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1559] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 431.

[1560]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: .90-91, 158-159.

[1561]Yenə orada, s.90-91, 158-159.

Tərp toponimi Azərbaycan dilində "kiçik təpə" mənasında işlənən tarp sözü[1562] əsasında əmələ gəlmişdir. Tərp sözü ərəb dilində dərb kimi "dağ keçidi, aşırım, dərə" mənasında işlənir.[1563]

**Tuqanlar-**Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kənd Qafan şəhərinin yaxınlığında yerləşirdi. Burada 1897-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır.[1564] XX əsrin əvvəllərində, 1906-cı ildə kənddə yaşayan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Tuqanlar yaşayış məntəqəsinin adı eyni adlı nəsil (tuqanlar) adından əmələ gələn patronomik toponimdir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Meğri rayonunda tarixən mövcud olmuş **Tuğut** kəndinə mənbələrdə rast gəlinir. Yaşayış məntəqəsi rayon mərkəzindən 11-13 km şimal-şərqdə, Araz çayının sol sahilində yerləşirdi. Erməni mənbələrində kəndin adı Teğut formasında qeyd edilir.[1565] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq kəndinin adı əslində olduğu kimi Tuğut formasında göstərilmişdir.[1566]Zəngəzur mahalının 1832-1833-cü illərə aid

---

[1562] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 130.

[1563] В.И.Савина. Словарь географических терминов и других слов, формирующих топонимию Ирана, М.: Наука, 1971, с.69.

[1564]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57.

[1565] Yenə orada, s. 68.

[1566] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

kameral təsvirində kəndinin adı Tuqut formasında qeyd edilmiş və kəndlə bağlı göstərilmişdir ki, əhalisi islam dininə mənsubdurlar. Əkinçiliklə və bağçılıqla məşğul olurlar. 12 ailə müsəlman (azərbaycanlı-İ.B.) yaşayır.[1567]

Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində qeyd edilir ki, Tuqut kəndində xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Kəndin sakinləri əkinçiliklə məşğul olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Kənddə 33 ailə, 99 kişi və 63 qadın yaşayır. Hamısı tatardır (azərbaycanlıdır-İ.B.).[1568] Tuğut kəndində 1831-ci ildə 31 nəfər, 1873-cü ildə 162 nəfər, 1886-cı ildə 199 nəfər, 1897-ci ildə 237 nəfər, 1904-cü ildə 294 nəfər, 1914-cü ildə 513 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1569]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur.[1570] 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Tuğut kəndində 1922-ci ildə 131 nəfər, 1926-cı ildə 85 nəfər, 1931-ci ildə 78 nəfər yalnız

[1567]N.Əhmədli. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil, 2021, s. 178.

[1568] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri 1874-cü il, Bakı:Elm və təhsil, 2024, s. 622-624.

[1569] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

[1570] История Азербайджана по документам и публикациям. Баку: Элм, 1990, с. 216.

azərbaycanlı yaşamışdır.[1571] Kollektivləşmə adı ilə kəndin sakinləri qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Tuğut toponimi qıpçaq türk tayfasından olan tuq etnoniminə[1572] qədim türk dilində cəmlik bildirən -ut şəkilçisinin qoşulması ilə əmələ gəlib "tuğlara, yəni tuğ tayfasına mənsub kənd" mənasını bildirir.

Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisində qeydə alınan **Tunus** kəndi Qafan rayonundakı Əcili kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Naxçıvan qəzasının Meğri sahəsindəki kəndlərdən biri olaraq Tunus kəndinin adı göstərilmişdir.[1573] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1574] Kənddə 1922-ci ildə 94 nəfər azərbaycanlı yaşamışdır.[1575] 1924-1925-cı illərdə azərbaycanlılar rayonunun qonşu kəndlərinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

**Tut pir qışlağı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qafan rayonu əraziində kənd olmuşdur. Burada 1897-ci ildə 71 nəfər

---

[1571] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 68-69, 142-143.

[1572] Г.А. Гейбуллаев. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991,5с. 56.

[1573] İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 26.

[1574] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 248.

[1575] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 134-135.

azərbaycanlı yaşamışdır .[1576] 1905-1906-cı illərin hadisələri nəticəsində azərbaycanlılar erməni quldur dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və 1908-ci ildə kənd ləğv edilmişdir. Tut pir qışlağı toponimi dini məna bildirə pir sözü ilə qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir.

**Turabxanlı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.Turabxanlı kəndində 1897-ci ildə 105 nəfər, 1904-cü ildə 123 nəfər azərbaycanlı yaşamışdır.[1577] 1914-1918-ci illərdə azərbaycanlılar deportasiya olunmuş, yalnız 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edənlərdən sağ qalanlar öz evlərinə dönə bilmişlər. Turabxanlı kəndində 1922-ci ildə 27 nəfər, 1926-cı ildə 19 nəfər, 1931-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır.[1578] 1930-cu illərin sonunda azərbaycanlılar doğma yurdlarından köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Turabxanl toponimi turabxanlı nəsil adı əsasında əmələ gəlmişdir.

**Türk Qarakilsəsi** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kalinino rayonunun ərazisində azərbaycanlıların yaşadığı qədim kəndlərdən biri olraq erməni mənbələrində qeyd olunur. Kəndin başqa adı mənbələrdə Təzəkənd kəndi formasında da göstərilir. Yaşayış məntəqəsi

---

[1576]Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 154.

[1577]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

[1578] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

Noraşen kəndinin yaxınlığında yerləşirdi.Türk Qarakilsəsi kəndində 1886-cı ildə 122 nəfər, 1897-ci ildə 172 nəfər,1914-cü ildə 420 nəfər azərbaycanlı yaşamışdır.[1579] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Türk Qarakilsəsi toponimi “azərbaycanlı adını ifadə edən türk sözü ilə Qarakilsə yaşayış məntəqəsinin adı əsasında əmələ gəlib, “azərbaycanlılara məxsus, azərbaycanlıların yaşadığı Qarakilsə kəndi” mənasını bildirir. 1930-cu illərə kimi azərbaycanlılar “türk” etnonimi ifadə edilmişdir. Kəndin adı aydın şəkildə göstərir ki, yaşayış məntəqəsini azərbaycanlılar salıb, kəndin köklü sakinləri də elə azərbaycanlılar olub.

XIX əsrdə və XX əsrin 20-ci illərində İrəvan quberniyasının Aleksandropol qəzasında, sovet Ermənistanının inzibati ərazi bölgüsündə indiki Abaran raoynunda əksini tapan **Türk Düzkəndi** kəndi Qarabulaq çayının sahilində, Alagöz dağının ətəyində yerləşirdi. Mənbələrdə kəndin adı Düzkənd, Türk Düzkəndi (Düzkənd türk), Tatar Düzkəndi,[1580] Düzkənd[1581] formalarında qeyd edilmişdir. Bu da onu aydın şəkildə göstərir ki, kəndin köklü sakinləri azərbaycanlılar (türklər) olub və yaşayış

---

[1579]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 42-43, 122-123.

[1580]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 4, 96; Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 1188.

[1581]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 90.

məntəqəsini azərbaycanlılar salıb. Sonralar toponimin əvvəlindəki "türk", "tatar" sözləri -etnonimləri ixtisar edilərək rəsmi sənədlərdə Düzkənd formasında göstərilmişdir.[1582] Türk Düzkəndi kəndində 1873 - cü ildə 379 nəfər, 1886-cı ildə 449 nəfər, 1897-ci ildə 592 nəfər, 1908-ci ildə 713 nəfər, 1914-cü ildə 784 nəfər, 1916-cı ildə 703 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1583] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuş, Türkiyədən köçürülən ermənilər və yezidi kürdlər kəndə yerləşdirilmişdir.[1584] 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir.

Düzkənd kəndində erməni və kürdlərlə yanaşı 1922-ci ildə 170 nəfər, 1926-cı ildə 50 nəfər azərbaycanlı yaşamışdır.[1585] Azərbaycanlılar 1928-1930 - cu illərdə sıxışdırılaraq kənddən çıxarılmışdır. Kənd 1959-cu ildə ləğv edilmişdir.

Türk Düzkəndi toponimi türk etnonimi ilə (azərbaycanlı xalqı mənasında-İ.B.) relyef bildirən düz sözünə kənd sözünün

---

[1582] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 4, 96; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 95; H. Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar, Bakı: Azərnəşr, 1997, s. 154.

[1583] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 45, 96-97.

[1584] Yenə orada, s. 97.

[1585] Yenə orada, s.45, 96- 97.

qoşulmasından yaranıb "türklərin (azərbaycanlıların) yaşadığı Düzkənd kəndi" mənasını bildirir.

XIX əsrdə və XX əsrin 20-ci illərində İrəvan quberniyasının Yeni Bayazid qəzasında, Ermənistan SSR-in indiki Axta (Razdan) rayonunda qeydə alınan **Üləşik** kəndi Axta rayonunun mərkəzindən 18 km şimal-qərbdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində, Təkəli kəndinin yaxınlığında yerləşirdi. 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Göyçə sahəsindəki kəndlərdən biri olaraq Üləşik kəndinin adı göstərilmişdir.[1586] Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1587] Erməni mənbələrində kəndin adı Ulaşik formasında qeyd edilməklə onun qədim və ya başqa adının Ulyaşeyx olduğu göstərilir. [1588]Üləşik kəndində 1831-ci ildə 66 nəfər, 1873 - cü ildə 225 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 337 nəfər, 1908-ci ildə 425 nəfər, 1914-cü ildə 733 nəfər, 1916-cı ildə 385 nəfər azərbaycanlı yaşamışdır.[1589]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar doğma kəndlərinə qayıda bilmişlər. Üləşik kəndində 1922-ci ildə

---

[1586]İ.Bayramov, N.Mustafa. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 24.

[1587]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 252.

[1588]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 18.

[1589] Yenə orada, s. 18-19, 102-103.

121 nəfər, 1926-cı ildə 209 nəfər, 1931-ci ildə 302 nəfər azərbaycanlı yaşamışdır.[1590]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə 1950-ci ildə azərbaycanlılar öz doğma kəndlərindən zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Üləşik toponimi ulaş tayfa adına[1591] cəmlik bildirən -ik şəkilçisinin qoşulması yolu ilə düzəlmişdir.

**Yavərkənd** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində azərbaycanlıların yaşadığı kəndlərdən biri idi. Yaşayış məntəqəsi rayon mərkəzindən 18 km şimal-şərqdə, Ağkənd kəndinin yanında yerləşirdi.[1592] Kənddə 1922-ci ildə 2 nəfər azərbaycanlı yaşamışdır.[1593] 1924-1925-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.Yavərkənd toponimi Azərbaycan dilində "yuxarı rütbəli zabitlərin yanında xidməti tapşırıqları və ya qərargah

---

[1590] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 18-19, 102-103.
[1591] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 304.
[1592] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995, s. 361.
[1593] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 162-163.

işlərini yerinə yetirən kiçik rütbəli hərbi vəzifəli şəxs" mənasında işlənən yavər sözü ilə[1594] kənd coğrafi nomeni əsasında əmələ gəlmişdir.

**Yaqublu** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı mənbələrdə Yaqubi kimi də qeyd edilir ("Грузия" qəzeti, 9.XI.1918).

1918-ci ildə yaradılan daşnak Ararat Respublikası rəhbərliyinin milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin avqust ayında azərbaycanlılar qırğınlarla deportasiya edilərək kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.Yaqublu toponimi yaqublu tayfa adı[1595] əsasında əmələ gəlmişdir.

XIX əsrdə və XX əsrin 20-ci illərində İrəvan quberniyasının Eçmiədzin qəzasında qeydə alınan **Yaqublu** kəndinin tarixi ərazisi Ermənistanın indiki Abaran rayonu ərazisi daxilinə təsadüf edir. Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1596] Kəndin digər adı Təzə Kələş olmuşdur.[1597] Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində Baba Yaqublu kəndinin adı qeyd edilmişdir ( v.800-809). Yaqublu kəndində 1870-ci il Əsasnaməsi ilə mülkədar torpaqlarında yaşayan dövlət kəndliləridir. Əhalisi əkinçiliklə məşğul olan müsəlman tatarları (azərbaycanlılar-İ.B.) olmuşdur.

---

[1594] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, s. 468.

[1595] E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 23.

[1596]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 305.

[1597]Ձ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 45.

Baba Yaqublu kəndində 1874-cü ildə 114 nəfər azərbaycanlı yaşamışdır.[1598] Fikrimizcə, Baba Yaqublu kəndinin adı sonradan keçmiş Qarakilsə (Sisyan) rayonu, indi Syunik vilayətində ərazisində yerləşən Yaqublu kəndi kimi sabitləşmişdir. Yaqublu kəndində 1897-ci ildə 120 nəfər, 1908-ci ildə 200 nəfər, 1914-cü ildə 213 nəfər, 1916-cı ildə 208 nəfər yalnız azərbaycanlı yaşamışdır[1599].1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq yerli sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya edilmişdir. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Yaqublu toponimi yaqublu etnonimi[1600] əsasında əmələ gəlmişdir.

**Yağdan** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu rayonunun ərazisində kənd kimi tarixdən məlumdur. Yaşayış məntəqəsi rayon mərkəzindən 15 km məsafədə yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1601]

Yağdan toponimi türk dilində "yurd, el" mənasında işlənən yaq sözünə[1602] türk dilində "təpə" mənasını bildirən don

---

[1598] N. Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s. 147-148

[1599] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: s.45, 96-97.

[1600]E.Əhmədova. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, s. 23.

[1601]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 104.

[1602] Древнетюркский словарь, Л.: Наука, 1969, с. 237.

( > dan-İ.B) sözünün[1603] birləşməsindən əmələ gəlib, "təpədə olan el, yurd" mənasını bildirir.

XIX əsrdə və XX əsrin 20-ci illərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında **Yelaxlı Mehdikənd** kəndi tarixi sənədlərdə əksini tapır. Kəndin tarixi ərazisi Qərbi Zəngəzurun indiki Qafan rayonu ərazisinə düşür. Yaşayış məntəqəsi Zeyvə kəndinin yaxınlığında yerləşirdi. B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kəndin adı Yaylaxlı formasında keçmiş Qarakilsə (Sisyan) rayonu inzibati ərazisi daxilində verilmişdir. Eyni zamanda göstərilmişdir ki, 1918-ci ildə kəndin əhalisi qovulduqdan sonra (kəndin əhalisi erməni hərbçiləri tərəfindən qovulmuşdur-İ.B.) kənd dağıdılmışdır. Kəndin digər adı da Mehdikənd olmuşdur. Kəndin adı Qafqaqazın 5 verstlik xəritəsində Yaylaxlı formasında qeyd edilmişdir.[1604] Onu qeyd edək ki, Qafqazın 5 verstlik xəritəsində Yaylaxlı kəndi adında yaşayış məntəqəsi qeydə alınmamışdır.[1605]

Yelaxlı Mehdikəndi kəndində 1897-ci ildə 164 nəfər azərbaycanlı yaşamışdır.[1606] XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Yelaxlı Mehdikəndi toponimi üç komponentdən ibarətdir. Birinci komponenti olan yelaxlı, fikrimizcə, dialekt və

---

[1603] M.Kaşğari Divani - lügat - it türk, I cilt, Ankara, 1992 s. 188.

[1604] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 273

[1605] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 304.-307.

[1606] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երևան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61.

şvələrimizdə "çuxur", "çökək yer" mənasında işlənən yalax sözünə qoşulan -lı şəkilçisindən düzəlmişdir. İkinci komponenti Mehdi şəxs adını bildirir. Toponimin üçüncü komponenti kənd sözü coğrafi nomendir. Yelaxlı Mehdikəndi toponimi "çökəklik yerdə Mehdinin saldığı kənd" mənasını bildirir.

**Yamaxlı** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Yaşayış məntəqəsi Zeyvə kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 231 nəfər azərbaycanlı yaşamışdır[1607]. XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olu-kənd ləğv edilmişdir. İndi ölü kənddir.Toponim yamaxlı tayfa adı əsasında əmələ gəlmişdir.

**Yappa** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd kimi qeydə alınıb.Yaşayış məntəqəsinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1608] XX əsrin 20-30-cu illərində kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.Yappa toponimi oğuzların atçəkənlər tayfasından olan yapa etnonimi[1609] əsasında əmələ gəlmişdir. Eyni zamanda türk mənşəli yapma tayfa adı da tarixdə mövcud olmuşdur.[1610]

İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində **Yappa** kəndi olmuşdur. Kəndin adı

---

[1607] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան փոնդի, 1932, էջ: 60-61.

[1608] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 306.

[1609] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 187.

[1610] С. Атаниязов. Словарь туркменских этнонимов, Ашхабад: Ылым, 1988, s. 143; Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 187.

Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1611]Yappa kəndində 1897-ci ildə 62 nəfər, 1908-ci ildə 55 nəfər, 1914cü ildə 124 nəfər, 1916-cı ildə 68 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1612] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyin və etnik təmizləmə siyasətinin nəticəsində 1918-ci ilin fevral ayında kəndin sakinləri-azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Yappa toponimi oğuzların atçəkənlər tayfasından olan yapa etnonimi[1613] əsasında əmələ gəlmişdir. Türkmən onomaloqu S.Ataniyazov şıx tayfasının bir qolunun yapma olduğunu qeyd edir.[1614] Fikrimizcə, yapa və yapma etnonimləri yappa tayfa adının fonetik formasıdır.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında **Yellicə** kəndinin adına rast gəlinir. Kəndin tarixi ərazisi indiki Ellər (Kotayk, Abovyan) rayonunun inzibati ərazisinə düşür.

Yellicə kəndinin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir[1615]. Erməni mənbələrində kəndin adı Yelicə formasında əksini tapır Yellicə kəndində 1897-ci ildə 31 nəfər

---

[1611]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 306.

[1612]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 48-49, 128-129.

[1613] Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 187.

[1614]С.Атаниязов. Словарь туркменских этнонимов, Ашхабад: Ылым, 1988, s. 143.

[1615]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 92.

azərbaycanlı yaşamışdır [1616]. XX əsrin əvəllərində azərbaycanlılar doğma yurdlarından qovulmuşlar. 1925-cı ildə kənd ləğv edilmişdir.

Yellicə toponimi "küləkli olan, külək tutan yer" mənasında işlənən yelli sözü ilə, çoxaltma dərəcəsinin əlamətini bildirən -cə şəkilçisinin birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə və XX əsrin əvvəllərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının, sovet Ermənistanı zamanında Qərbi Zəngəzurun indiki Qafan rayonunda qeydə alınan **Yeməzli** kəndi rayon mərkəzindən 10 km şərqdə, Xalac çayının sol sahilində yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1617]B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində kənd Qarakilsə (Sisyan) rayonunun inzibati ərazisi daxilində verilmişdir.[1618] Yeməzli kəndinin adı 1907-ci ildə erməni dilində çap edilmiş "Qafqazda erməni-türk vuruşması" əsərində Yemazlu formasında qeyd edilmişdir.[1619]

Yeməzli kəndində 1831-ci ildə 27 nəfər, 1873-cü ildə 278 nəfər, 1886-cı ildə 244 nəfər, 1897-ci ildə 110 nəfər, 1904-cü ildə 130 nəfər, 1914-cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır.[1620]

---

[1616]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:46-47.

[1617]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 92.

[1618] B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s. 276.

1619 Հայ-թուրքական հակամարտությունը Կովկասում (1905-1906 թթ.), Երևան: Սպարան Այվազեանսյև. Նազովրեցի, 1907, էջ: 306.

[1620]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və etnik təmizləmə siyasətinin nəticəsi olaraq 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. 29 noyabr 1920-ci ildə  indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişlər. Yeməzli  kəndində 1922-ci ildə 45 nəfər, 1926-cı ildə 46 nəfər, 1931-ci ildə 54 nəfər azərbaycanlı yaşamışdır.[1621] 1930-cu illərin sonunda kənd ləğv edilmişdir.

B.Budaqov və Q.Qeybullayev kəndin adının etimologiyası ilə bağlı yazırlar ki, Yeməzli "Amasiyalı" adının təhrifidir. Amasiyadan gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır.[1622] Qeyd edək ki,  Yeməzli topniminin etimologiası ilə bağlı izah inandırıcı görünmür.

Yeməzli toponimi yeməzli tayfa adı əsasında əmələ gəlmişdir. Qarabağda yaşayan tayfalardan biri elə ətyeməzli adlanırdı.[1623]

İrəvan quberniyasının Yeni Bayazid qəzasında qədim yaşayış məntəqələrindən biri **Yuxarı Altuntaxt**  kəndi adlanırdı., Kəndin tarixi ərazisi indiki indiki Sevan rayonunun inzibati ərazisinə düşür. Yuxarı Altuntaxt  kəndi  XVIII əsrdə İrəvan xanlığının Göyçə mahalının tərkibində olmuşdur. Yuxarı Altuntaxt kəndi  indiki Kəvər (Kamo) rayonu ilə Sevan rayonu

---

[1621]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 60-61, 136-137.

[1622]B.Ə. Budaqov, Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, s. 276

[1623] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məınınədov (Qaramanlı), Bakı: Şuşa, 2000, s. 468.

arasında, Aşağı Altuntaxt kəndinin yanında, Altuntaxt dağının ətəyində yerləşirdi. Kəndin adı 1728-ci ildə tərtib edilmiş İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə nahiyəsinin,[1624] XVIII əsrdə erməni katalikosu S.İrəvansinin "Cambr" əsərində Geğarkuni vilayətinin tərkibində "Altuntaxt" formasında[1625] qeyd edilmişdir. Kənd XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir. Erməni mənbələrində Verin Altuntaxt, Verin Altundağ ("Verin" erməni dilində "yuxarı" mənasında işlənir) formasında qeyd edilir.[1626] İ.Şopen Göyçə mahalında xarabalığa çevrilmiş 27 kəndin içərisində Yuxarı Altuntaxt kəndinin də adını göstərmişdir.[1627]Yuxarı Altuntaxt toponimi "vulkan mənşəli qaya adlarında qırmızı" mənasında işlənən altun sözü ilə Azərbaycan dilində "hündür düzənlik", "düzənlik", "dağda yerləşən düzənlik", "iki dərə arasındakı düzənlik" mənasında işlənən taxt (taxta) sözlərindən[1628] əmələ gəlmişdir.

XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında **Yuxarı Bəydili** kəndi yaşayış məntəqəsi kimi qeydə alınıb**.** Kəndin tarixi

---

[1624]İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 55.

[1625]С.Ереванци. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестых моностырей, М., Изд.во вост.литер., 1958, с. 361.

[1626]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 79.

[1627] И.И. Шопен. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 515-516.

[1628] Е.Н. Бушуева Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, с. 136; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с . 547.

ərazisinin coğrafi en dairəsi indiki Talin rayonunun ərazisinə uyğun gəlir. Yuxarı Bəydili kəndində 1897-ci ildə 45 nəfər azərbaycanlı yaşamışdır.[1629] 1905-1906-cı ildə erməni təcavüzünə məruz qalan kəndin sakinləri qırğınlarla qovularaq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Yuxarı Bəydili toponimi oğuzların bəydili (əsli bəgtili -İ.B) etnonimi[1630] əsasında əmələ gəlmişdir. "Yuxarı" toponimin tərkibində fərqləndirici əlamət bildirir.

**Yuxarı Qarabağlar** kəndi XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının İrəvan qəzasının, sovet Ermənistanı zamanında indiki Vedi (Ararat) rayonunun inzibati bölgüsünə daxil olmuşdur. Yuxarı Qarabağlar kəndi Vedi çayının yanında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Yuxarı Qarabağ[1631], 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Böyük Qarabağlar,[1632] Qafqazın 5 verstlik xəritəsində Yuxarı

Qarabağlar[1633] formasında qeyd edilmişdir. Yuxarı Qarabağlar yaşayış məntəqəsi 1937-ci ilə kimi Vedi rayonunun, 1937-ci ildə Qarabağlar rayonu yaradıldıqdan sonra onun tərkibinə verilmişdir. Yuxarı Qarabağlar həm də Qarabağlar

---

[1629] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 34-35.

[1630] M.Kaşğari. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər), I c., Bakı: Ozan, 2006, s. 128; Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992, s. 288.

[1631] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 172.

[1632] Yenə orada, s. 104.

[1633] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 114.

rayonunun mərkəzi olmuşdur. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarlara əsasən Qarabağlar rayonunun ərazisində yaşayan azərbaycanlılar Azərbaycana köçürülmüş, Yuxarı Qarabağlar kəndi yenidən Vedi rayonunun inzibati ərazisi bölgüsünə daxil edilmişdir. Yuxarı Qarabağlar kəndində 1873-cü ildə 135 nəfər, 1886-cı ildə 175 nəfər, 1897-ci ildə 233 nəfər, 1904-cü ildə 420 nəfər, 1914-cü ildə 462 nəfər, 1916-cı ildə 243 nəfər azərbaycanlı yaşamışdır.[1634] 1918-ci ildə yaradılmış daşnak Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyinin və bilavasitə dəstəyinin nəticəsi olaraq 1918-1919-cu ildə erməni quldur dəstələri tərəfindən azərbaycanlılar qırğınlarla qovulmuşdur. 29 noyabr 1920-ci ildə indiki Ermənistan SSR-in yaradılmasından sonra kəndin sakinlərindən sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişdir. Yuxarı Qarabağlar kəndində 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 80 nəfər, 1931-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır.[1635] Yuxarı Qarabağlar kəndinin köklü sakinləri olan azərbaycanlılar 1948-1949-cu illərdə tarixi-etnik torpaqlannda deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

---

[1634]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156- 157.

[1635]Yenə orada, s. 86-87, 156-157.

Yuxarı Qarabağlar toponimi fərqləndirici əlamət bildirən yuxarı sözü ilə kəngərli tayfasına mənsub olan qarabağlar etnonimi[1636] əsasında əmələ gəlmişdir.

XIX əsrin və XX əsrin əvvəllərinin inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının İrəvan qəzasında **Yuxarı Qaraburun** kəndi olmuşdur. Kəndin tarixi ərazisi indiki Vedi (Ararat) rayonunun ərazisnə düşür. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1637]

Yuxarı Qaraburun kəndində 1897-ci ildə 208 nəfər,1914-cü ildə 78 nəfər azərbaycanlı yaşamışdır.[1638] 1918-ci ildə yaradılmış Ararat Respublikası rəhbərliyinin yeritdiyi milli ayrıseçkiliyin, etnik təmizləmə siyasətinin və bilavasitə göstərişinin nəticəsi olaraq 1918-ci ildə kənd erməni hərbçilərinin təcavüzünə məruz qalmış, kəndin sakinləri azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Yuxarı Qaraburun toponimi fərqləndirici əlamət bildirən yuxarı sözündən və qədim türk dilində "böyük" mənasında işlənən qara sözü ilə "irəliyə çıxan və ya suya doğru uzanan quru", "dağlıq", "çıxıntı" mənasında işlənən burun[1639] sözünün birləşməsindən əmələ gəlmişdir. "Burun" sözü coğrafi

---

[1636] И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, с. 537; Q.Ə. Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair), Bakı: Elm, 1990, s. 99.

[1637] Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 115.

[1638] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 156- 157.

[1639] R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 99; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 103.

termin kimi "qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissə" mənasını bildirir.[1640]

XIX əsrdə və XX əsrin 20-ci illərində Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının inzibati ərazi bölgüsündə **Yuxarı Qaraçimən** kəndi qeydə alınıb. Kəndin tarixi ərazisi Qərbi Zəngəzurun indiki Qafan rayonuna təsadüf edir. Kənddə 1897-ci ildə 237 nəfər, 1922-ci ildə 217 nəfər azərbaycanlı yaşamışdır.[1641] Yaşayış məntəqəsi kimi Yuxarı Qaraçimən kəndi 1926-cı ildən sonra ləğv edilərək Aşağı Qaraçimən kəndi ilə birləşdirilmişdir.B.Budaqov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərində Qaraçimən adlı kənddən bəhs edilmişdir. Yaşayış məntəqəsinin adının Qara şəxs adından və "otlaq", "göylük" mənası bildirən çəmən sözündən əmələ gəldiyi göstərilmişdir.[1642] Bizim fikrimizcə, Yuxarı Qaraçimən **t**oponimi qədim türk dilində "böyük, geniş" mənasında işlənən qara sözü ilə[1643] "yaşıl otla örtülmüş sahə" mənasında işlənən çəmən sözünün[1644] dialekt variantı olan çimən sözünün birləşməsindən əmələ gəlmişdir. Ümumiyyətlə, toponimlərin tərkibində "qara", əsasən "böyük", "geniş" mənasını ifadə edir. "Yuxarı" sözü fərqləndirici əlamət bildirir.

---

[1640] N.Məmmədov. Azərbaycan Respublikasının oronimləri, Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, s. 151.

[1641] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 56-57, 134-135.

[1642] B. Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 190.

[1643] T.M. Əhmədov. Azərbaycan paleotoponimiyası, Bakı:ADU, 1985, s. 70.

[1644] Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987, s. 429.

XIX əsrdə və XX əsrin 20-ci illərində İrəvan quberniyasının Eçmiədzin qəzasında **Yuxarı Qulubəyli** kəndinin adı yer alıb. Kəndin tarixi ərazisi indiki Üçkilsə (Eçmiədzin) rayonunun ərazisinə düşür.

Yaşayış məntəqəsi rayonun ərazisindəki Böyük Qarasu çayının yuxarı axarı sahilində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1645]Yuxarı Qulubəyli kəndində 1873-cü ildə 336 nəfər, 1886-cı ildə 397 nəfər, 1897-ci ildə 293 nəfər, 1904-cü ildə 286,[1646] 1918-ci ilin yanvarında 286 nəfər[1647] yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında kənd erməni hərbçilərinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.[1648] Kənd yaşayış məntəqəsi kimi 1930-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.Yuxarı Qulubəyli toponimi fərqləndirici əlamət bildirən yuxarı sözü ilə Qulubəyli nəsil adı əsasında əmələgəlmişdir.

**Yuxarı Əliqrıx** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunun ərazisində kənd olmuşdur. Kəndin adı Q.Alişanın "Sisakan" əsərində çəkilir.[1649] Yuxarı Əliqrıx toponimi Əli şəxs adı ilə qırıx türk etnonimi[1650]

---

[1645]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 147.

[1646]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 82-83, 152-153.

[1647]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

[1648] Yenə orada, s. 219.

[1649]Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986, էջ: 85.

[1650] Т.И.Султанов. Опыт анализа традиционных списков 9 племен платийа. В сб. «Средняя Азия в древности и средневековые», М., 1977, с.

əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki "yuxarı" fərqləndirici əlamət bildirir.

**Yuxarı Gəzbin** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd kimi mənbələrdə qeyd edilir. 1918-ci ilin yanvarında 100 nəfər azərbaycanlı yaşamışdır.[1651]

Kəndin köklü sakinləri azərbaycanlılar 1918-ci ilin fevralında erməni hərbçilərinin və erməni quldur təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.[1652] Kənd yaşayış məntəqəsi kimi 1920-ci ildə ləğv edilmişdir.

Yuxarı Gəzbin toponimi Azərbaycan dilində "aşırım", "dağın təpəsindəki çökəklik", "yüksək və orta dağ beli tirəsində olan enli yarıq" mənasında işlənən gəz sözü ilə[1653] "köçərilərin mal-qara ilə köçüb, kəndin kənarda məskan saldıqları yer, yurd, köç" mənasında işlənən binə sözünün[1654] (binə sözündəki "ə" saiti düşmüşdür) birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "yuxarı" fərqləndirici əlamət bildirir.

XIX əsrdə və XX əsrin 20-ci illərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda **Yuxarı Güllüdüzü** kəndi qeydə alınıb. Yaşayış məntəqəsi Erdəpin çayının sağ sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 263 nəfər, 1926-cı ildə 108 nəfər yalnız azərbaycanlı

---

166;Г.А.Гейбуллаев.Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм , 1986, с. 52.

[1651]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 220.

[1652] История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 220.

[1653]R.Yüzbaşov. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 167.

[1654] Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966, s.273.

yaşamışdır.[1655] Yuxarı Güllüdüzü kəndi 1959-cu ildə Aşağı Güllüdüz kəndi ilə birləşdirilmişdir.

Yuxarı Güllüdüzü toponimi güllü (çiçəkli) mənasında və III şəxsinin təkinin mənsubiyyət şəkilçisi (-ü) qəbul etmiş düz sözündən əmələ gəlmişdir. "Güllü, çiçəkli, düz yerdə olan kənd" mənasını bildirir. Toponimin əvvəlindəki "yuxarı" fərqləndirici əlamət bildirir.

**Zabazadur** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qərbi Zəngəzurun indiki Qarakilsə (Sisyan) rayonu ərazisində kənd olmuşdur. Kənd rayon mərkəzindən 12 km məsafədə, Axlatyan kəndinin yaxınlığında yerləşirdi. Kəndin adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir.[1656] 1847-ci ildə tərtib edilmiş "Qafqaz diyarının xəritəsi"ndə Kaspi vilayətinin Zəngəzur sahəsindəki kəndlərdən biri olaraq Zabazadur kəndinin adı göstərilmişdir[1657] Zəngəzur qəzasının 1874-cü ilə aid kameral təsvirində göstərilir ki, kənddə xəzinə torpaqlarında yaşayan dövlət kəndliləridir. Onlar əkinçiliklə məşğul olan müsəlman tatarlardır (azərbaycanlılardır-İ.B.). Kənddə 11 ailə, 30 kişi və 23 qadın yaşamışdır ki, onların hamısı tatar (azərbaycanlı-İ.B.) olmuşdur.[1658].Zabazadur kəndində 1873 - cü ildə 53 nəfər, 1886-cı ildə 64 nəfər, 1897-ci ildə 103 nəfər, 1908-ci ildə 243 nəfər, 1914-cü ildə 120 nəfər

[1655] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 92-93.
[1656] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 183.
[1657] İ.Bayramov, N.Mustafa. Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023, s. 28.
[1658] N.Əhmədli. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021, s.291.

azərbaycanlı yaşamışdır.[1659] 1918-ci ilin iyun ayında kənd daşnak Ararat Respublikasının rəhbərliyinin göstərişi ilə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq kəndin sakinləri deportasiya edilmişdir. Kənd xarabalığa çevrilərək ləğv edilmişdir. İndi xaraba kənddir.B.Budaqov və Q.Qeybullayev toponimi Zəvazədur formasında qeyd edərək izahı ilə bağlı yazmışlar: "1590-cı ildən məlumdur. 1728-ci ildə kənddə 3 azərbaycanlı ailə yaşayırdı. Saybastor adından təhrifdir. Türk dillərində say "quru çay yatağı", bas "baş hissəsi", "yuxarısı" və tor "yüksək dağ örüşü" sözlərindən ibarətdir".[1660]

**Zağabaşı** kəndinə XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının İrəvan qəzasında məntəqəsi kimi mənbələrdə rast gəlinir. Kəndin tarixi ərazisi indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisinə təsadüf edir.Zağabaşı kəndində 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır.[1661] XX əsrin əvəllərində (1905-1906) azərbaycanlılar kənddən qovuluraq yaşayış məntəqəsi ləğv edilmişdir. Zağabaşı toponimi Azərbaycan dilində "mağara", "kaha" mənasında işlənən zağa sözü ilə,[1662] "zirvə", "təpə", "əvvəl", "başlanğıc", "çayın yuxarısındakı yerlər", "əsas" mənasında işlənən baş sözünün[1663]

---

[1659] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 76-77, 146-147.

[1660] B.Ə.Budaqov , Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 261.

[1661] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 44-45.

[1662] Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, s. 317.

[1663] Yüzbaşov R. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966, s. 100; Э.М. Мурзаев. Словарь народных географических терминов, М.: Мысль, 1984, с. 76-77.

birləşməsindən əmələ gəlmişdir.

XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının Eçmiədzin qəzasında **Zeynalbulaq** kəndi qeydə alınıb. Zeynalbulaq kəndinin tarixi ərazisi indiki Əştərək rayonu ərazisinə düşür. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1664] Zeynalbulaq kəndində 1897-ci ildə 41 nəfər, 1914-cü ildə 61 nəfər ,[1665] 1918-ci ilin yanvarında 295 nəfər[1666] azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin qurbanı olmuş, rəhbərliyin göstərişi ilə erməni hərbçilərinin təcavüzünə məruz qalaraq azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.[1667] Zeynalbulaq toponimi Zeynal şəxs adı və bulaq sözündən əmələ gəlmişdir.

Kənd Zeynal adlı adamın düzəltdiyi bulağın yanında salındığı üçün Zeynalbulaq kəndi adlandırılmışdır.

XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan quberniyasının İrəvan qəzasında, sovet Ermənistanı zamanında indiki Vedi (Ararat) rayonunda **Zimmi** kəndi olmuşdur.

Kənd Məngük kəndinin yaxınlığında, Zimmi dərəsində, Yağan dağının ətəyində yerləşirdi. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Zimmi Vedisi formasında qeyd

[1664]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 97.

[1665]Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 22-23, 106-107.

[1666]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

[1667]История Азербайджана по документам и публикациям. Баку: Элм, с. 219.

edilmiş, gəliri 3.600 ağça olmuşdur.[1668] Kəndin adı Zimmi şəklində sabitləşmişdir.

Zimmi kəndində 1873 - cü ildə 184 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 322 nəfər, 1904-cü ildə 259 nəfər, 1914-cü ildə 285 nəfər, 1916-cı ildə 216 nəfər azərbaycanlı yaşamışdır.[1669]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyinin, etnik təmizləmə siyasətinin və göstərişinin nəticəsində 1918-1919 - cu illərdə azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq yaşadıqları doğma yurddan qırğınlarla deportasiya olunmuşdur.

29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Zimmi kəndində 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır.[1670]

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə

---

[1668] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Bünyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996, s. 51.

[1669] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

[1670] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 86-87, 154-155.

1948-1949-cu illərdə kəndin sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Zimmi toponimi VII əsrdə Arran əhalisinin islam dinini qəbul etməyən hissəsinə xristianlara ərəblərin verdiyi Zimmi sözü[1671] əsasında formalaşmışdır. İslamı qəbul edən yerli əhalini ərəblər movla, islamı qəbul etməyənləri zimmi adlandırmışlar.[1672] Elə toponim də "islamı qəbul etməyənlər" mənasını bildirən zimmi sözü əsasında əmələ gəlmişdir.

**Zirak** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Vayk) rayonunda kənd. Yaşayış məntəqəsi Arpaçayın sol qolu olan Zirakçay çayının sahilində yerləşirdi. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1673]

B.Budaov və Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğətində" heç bir mənbə göstərilmədən qeyd edilir ki, kəndin əsil adı Sirak olmuşdur.[1674]

Dərələyəz mahalının 1873-cü il kameral təsvirindən toponim Zirək formasında göstərilmişdir. Bu kənddə xəzinə torpaqlarında əkinçiliklə məşğul olan şiə məzhəbli müsəlman tatarların (azərbaycanlıların-İ.B.) yaşadığı məlum olur ki, onlar da dövlət kəndliləridir[1675]

---

[1671]Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, s. 126;. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı: Azəməşr, 1994, s. 252.

[1672] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı: Azəməşr, 1994, s. 252.

[1673]Д.Д.Пагирев. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913, с. 98.

[1674] B.Ə.Budaqov , Q.Ə. Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Nafta-Press, 1998, s. 264.

[1675] N.Əhmədli. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024, s. 250.

Zirak kəndində 1831-ci ildə 43 nəfər, 1873-cü ildə 169 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 223 nəfər, 1914-cü ildə 433 nəfər, 1916-cı ildə 423 nəfər yalnız azərbaycanlı yaşamışdır.[1676]

1918-ci ildə yaradılmış daşnak Ararat Respublikasının rəhbərliyinin milli ayrıseçkiliyin və etnik təmizləmə siyasətinin nəticəsində kənddə yaşayan azərbaycanlılar erməni hərbçilərinin təcavüzünə məruz qalaraq 1918-ci ildə deportasiya edilmişlər. 29 noyabr 1920-ci ildə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar 1923-1924-cü illərdə öz yurdlarına dönə bilmişdir. Zirak kəndində 1926-cı ildə 158 nəfər, 1931-ci ildə 545 nəfər,[1677] 1939-cu ildə 397 nəfər[1678] yalnız azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 nömrəli "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" xüsusi qərarları ilə Zirak kəndinin sakinləri 1948-1949-cu illərdə tarixi-etnik

---

[1676] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ: 88-89, 158-159.

[1677] Զ.Կորկոտյան. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: Հրատարակչություն Մելքոնյան ֆոնդի, 1932, էջ:88-89, 158-159.

[1678] Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988, էջ: 309

torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd 1949-cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.H.Mirzəyevin fikrincə, Zirak toponimi sirak-şirak tayfa adı əsasında yaranmışdır.[1679]

Tam qətiyyətlə demək olar ki, toponim qədim türk tayfalarından olan siraq etnonimi[1680] əsasında əmələ gəlmişdir. Zirak, sirak//siraq etnoniminin variantıdır və Azərbaycan dilində s~z səs əvəzlənməsi qanunauyğun haldır.

---

[1679]H.Mirzəyev.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004, s. 466.

[1680] Страбон. География, В 17-ти кн., Л.: 1964, с. 480; M.Ə. Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989, s. 51-59.

## NƏTİCƏ

Qərbi Azərbaycanda ləğv olunan kəndlər, yüzilliklər boyu formalaşmış və unikal tarixi-mədəni irsə malik olmuşdur. Bu kəndlərdə mədəniyyət, adət-ənənə, dil və folklor nümunələri nəsildən-nəslə ötürülmüşdür. Lakin bu kəndlərin məqsədyönlü şəkildə ləğvi, deportasiya və vandalizm siyasəti nəticəsində bölgənin tarixi irsi ciddi zərər görmüşdür. Ləğv olunan kəndlərdə dini abidələr, məscidlər, qəbiristanlıqlar və digər memarlıq inciləri məhv edilmişdir. Bu isə yalnız bölgənin deyil, ümumilikdə türk-islam sivilizasiyasının maddi irsinə qarşı edilmiş vandalizm aktıdır.Kəndlərin ləğvi nəticəsində on minlərlə insan öz tarixi torpaqlarından məcburi şəkildə köçürülmüşdür. Deportasiya nəticəsində yaranan sosial, psixoloji və iqtisadi fəsadlar bu insanların həyatında dərin iz buraxmışdır. Ləğv olunan kəndlərdə istifadə olunan unikal dialektlər və şivələr də tədricən yox olmuş və bu kəndlərin zəngin dil irsi itirilmişdir. Bu isə Azərbaycan dilinin tarixi inkişafında əhəmiyyətli bir boşluq yaradır. Bu kəndlər, tarixi İpək Yolu və digər strateji marşrutlar üzərində yerləşmiş, bölgənin iqtisadi inkişafında mühüm rol oynamışdır. Kəndlərin ləğvi bu ərazilərin coğrafi və iqtisadi əhəmiyyətinə mənfi təsir göstərmişdir. Bu kəndlərin ləğvi və əhalisinin deportasiyası beynəlxalq hüququn pozulması nümunəsidir. İnsan hüquqlarının kobud şəkildə pozulması və etnik təmizləmə siyasəti beynəlxalq səviyyədə tanınmalı və qiymətləndirilməlidir. Qərbi Azərbaycanın ləğv olunmuş kəndləri ilə bağlı tədqiqatlar, tarixi yaddaşın qorunması, məhv edilmiş mədəniyyətin sənədləşdirilməsi və gələcək nəsillərə ötürülməsi baxımından həyati əhəmiyyət daşıyır.

**Təkliflər**

- Ləğv olunan kəndlər haqqında məlumatların rəqəmsal arxivlərdə saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə layihələrin hazırlanması;
- Mədəni irsin bərpası üçün beynəlxalq səviyyədə dəstək axtarışları və müvafiq təşkilatlarla əməkdaşlığın qurulması;
- Qərbi Azərbaycanın toponim və mədəni irsi haqqında sənədli filmlərin və maarifləndirici materialların yaradılması;

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1.Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Elm, 1966.
2.Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980.
3.Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983.
4.Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987.
5.Azərbaycan dilinin dialektoloji lüğəti, bircildlik, Bakı: Azərb.SSR Elmlər Akademiyası, 1964.
6.Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı:Şərq-Qərb, 2007.
7.Azərbaycan Sovet Ensiklopediyası, III c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1979.
8.Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı: Azəməşr, 1994.
9.Azərbaycan toponimləri. Ensiklopedik lüğət, Bakı:Azərbaycan Ensiklopediyası, 1999.
10.Babayev S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri, Bakı: Yeni nəşrlər evi, 1999.
11.Bayramov A. Qədim Oğuz ellərinin - Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996.
12.Bayramov A. "Kitabi-Dədə Qorqud" və Qafqaz, Bakı, 2001.

13.Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı: Elm, 2002.
14.Bayramov İ., Mustafa N. "Qafqaz diyarının xəritəsi. Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti), Bakı 2023.
15.Bədəlova A. Qərbi Azərbaycan şivələri lüğəti, Bakı:ADPU, 2022.
16. Budaqov B. Türk ülusların yer yaddaşı, Bakı: Elm, 1994.
17. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı: Elm, 1998.
18.Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989.
19.Cahangirov M. "Kitabi-Dədə Qorqud" boylarındakı cəmiyyətin zaman və məkanı haqqında // Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, Elmi əsərlər, humanitar elmlər seriyası, № 4, 1976.
20.Cəmşidov Ş. Kitabi-Dədə Qorqud, Bakı:Elm, 1977.
21.Cəmşidov Ş. Kitabi-Dədə Qorqud, Bakı: Elm, 1999
22.Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə), Bakı: Gənclik, 1995.
23.Əhmədli N. Göyçə mahalının kameral təsviri (1831 və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017.

24.Əhmədli N. İrəvan əyalətininkameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019.
25.Əhmədli N. Dərələyəz mahalının kameral təsviri (1831-ci və 1842-ci illər), Bakı:Elm və təhsil, 2017.
26.Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. II cild. Vedibasar mahalının Kameral təsviri. Şərur mahalının Kameral təsviri. Bakı: "Turxan" NPB, 2019.
27.Əhmədli N. Şərur-Dərələyəz qəzasının kameral təsviri. 1873-cü il, Bakı:Elm və təhsil, 2024..
28.Əhmədli N. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cüillər. Bakı: Elm və təhsil, 2021.
29.Əhmədli N. Zəngəzur qəzasının Kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 2021.
30.Əhmədli N. Yeni Bayazid qəzasının kameral təsviri 1873-cü il, Bakı:Elm və təhsil, 2024.
31.Əhmədov T. El-obamızın adları, Bakı:Gənclik, 1984.
32.Əhmədov T. Azərbaycan paleotoponimiyası, Bakı: ADU, 1985.
33.Əhmədova E. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995.
34.Əfəndiyev O. Azərbaycan səfəvilər dövləti, Bakı: Azərnəşr, 1993.

35.Ələkbərli Ə. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı, "Ağrıdağ", 2000.
36.Ələkbərli Ə., Hüseynov S. Qərbi Azərbaycan irsi: "Ermənistan azərbaycanlılara məxsus qəbirstanlıqlarının sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabat və materiallar, I c., Bakı: Şərq-Qərb, 2025, s. 44
37.Ərəb və fars sözləri lüğəti, Bakı:Azərb.SSR Elmlər Akademiyası nəşriyyatı, 1966.
38.Faruq Sümər. Oğuzlar, Bakı: Yazıçı, 1992.
39.Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərbaycan Dövlət Nəşriyyat Poliqrafiya Birliyi, 1992.
40.Hüseynova M. XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları,Bkı: ADPU, 2024.
41.Xəlilov P. "Kitabi-Dədə Qorqud"-İntibah abidəsi.,Bakı: Gənclik, 1993.
42.İbrahimov (Şahin) T.Qaşqaylar, Bakı: Elm, 1988.
43.İrəvan əyalətinin icmal dəftəri (Araşdırma,tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Elm, 1996.
44.İsmayılov H.Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları, Bakı: Elm, 2002.

45.İsmayılov Rəşid bəy. Azərbaycan tarixi, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
46Kaşğari M. Divani - lügat - it türk (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər),I c., Bakı: Ozan, 2006, s. 128.
47.Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı), Bakı: Gənclik , 1977, s. 44.
48.Kitabi-Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə), Bakı: Yazıçı, 1988, s. 50.
49.Kırzıoğlu F. Rəvan türkləri, "Vətən həsrəti"qəz., 18. VI. 1993
50.Qeybullayev Q. Bəzz toponiminin mənşəyi. - Tarix və onun problemləri, № 2, 1992.
51.Qızılbaşlar tarixi (tərcümə və şərhlər M.Ə.Məhəmmədindir), Bakı: Azərbaycan, 1993.
52.Qumilyev L. Qədim türklər (tərcümə edənlər: V.Quliyev, V.Həbiboğlu), Bakı: Gənclik, 1993.
53.Qurbanov A. Azərbaycan dilinin onomalogiyası, Bakı: Maarif, 1988.
54.Məmmədov H. Dədəm Qorqud keçən yerdi bu yerlər // Azərbaycan. № 2, 1990.
55.Məmmədov N. Azərbaycanın yer adları (oronimiya), Bakı: Azərnəşr, 1993.
56.Məmmədov N. Azərbaycan Respublikasının oronimləri, Bakı: Bakı Universiteti nəşriyyatı, 1999.

57.1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri", Osmanlı türkcəsindən tərcümə, Bakı, "Nəşriyyat" şöbəsi, 2023.
58.Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları, Bakı: Yazıçı, 1995.
59.Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı: ADPU, 1997.
60.Mirzəyev H.Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı:Elm, 2004.
61.Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Bakı Universiteti nəşriyyatı, 1990.
62.Mustafa N. Xalqımıza qarşı tarixi cinayət. 1948-1953-cü illər deportasiyası, "Dövran" qəzeti, 6-9 yanvar 1998.
63.Mustafa N. Vandalizm:Tarixi adlara qarşı soyqırımı.Yenidən işlənmiş ikinci nəşri, Bakı:Turxan NPB, 2014.
64.Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akademik Ziya Büniyatov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı:Sabah, 1997.
65.Nuriyev E. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası, Bakı: Elm, 1989.
66.Rəcəbov Ə., Məmmədov Y.Orxon-Yenisey abidələri, Bakı: Yazıçı, 1993.
67.Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989.

68.Urud M. Zəngəzur (Elmi-publisistik nəşr), Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005.
69.Urud M. Zəngəzur toponimləri, Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2013.
70.Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993.
71.Yüzbaşov R. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı: Elm, 1966.
72.Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları (oçerklər), Bakı: Maarif, 1972.

**Türk dilində**

73.Muherrem Ergin. Dede Korkut kitabı, I cilt, Ankara, 1989.
74.M.Fahrettin Çelik. Dede-Korkut kitabındakı coğrafi isimler // ülkü, teanmur, 1941.
75.Kaşğari M. Divani - lügat - it türk, I, Ankara, 1992.
76.Kırzıoğlu Fahrettin M. Kars tarihi, I c., İstanbul: İşil matbaası, 1953.
77.Kırzıoğlu M.Fahrettin. 1593 (H.1001) yılı Osmanh vilayet Tahrir defterinde anılan GenceKarabağ sancakları: «Ulus» ve «Oymak»lan. - Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979, s.199-222.

78.Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları// Türk dünyası araştırmaları, 1983, № 26.

**Rus dilində**

79.Атаниязов С. Словарь туркменских этнонимов, Ашхабад: Ылым, 1988.

80. Баскаков Н. Историко-типологическая фонология тюркских языков, М.:Наука, 1988.

81. Брук С.. Население мира. Этнодемографический справочник, М.: Наука 1986.

82. Будагов Л. Сравнительный словарь турецкотатарских наречий, СПб, Типография Императорской АН, т., I, СПб, т1869, II, СПб, 1871.

83. Бушуева Е. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971.

84.Гейбуллаев Г. К этногенезу азербайджанцев, т.1., Баку: Элм, 1991.

85.Гейбуллаев Г. Топонимия Азербайджана (историко этнографическое исследование), Баку: Элм, 1986.

86.Гусейнзаде А. К этимологии топонима Kuşçu // Советская тюркология, №6, 1971, с.91-95.

87.Древнетюркский словарь. Л.: Наука, 1969, с. 512.

88.Ереванци С.  Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестых моностырей, М., Изд.во вост.литер., 1958,  с. 361.
89.Зангезурском уезде, Елисаветпольской губернии.- Материалы для изучения экономического быта государственных крестьян Кавказского края, т.lV, ч. l, Тифлис, 1886.
90.Зелинский С.П. Экономический быть государственных крестьян в
91.История Азербайджана по документам и публикациям. Баку: Элм.
92.История армянского народа (с древнейщих времен до наших дней), под ред. М.Т.Нерсесяна, Ереван: Луйс, 1980.
93.Койчубаев Е. Краткий толковый словарь топонимов Казахстана, АлмаАта: Наука, 1974..
94.Кононов А. Родословная туркмен. Сочинение Абул Гази хана Хивинского, М. Л.: АН СССР, 1958.
95.Мамедов С. Азербайджан по источникам ХУпервой половины XVIII вв., Баку: Элм, 1993.
96.Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886.

97.Молчанова О. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов: Саратовского Университета, 1982.
98.Мурзаев Э. Словарь народных географических терминов, М.:Мысль, 1984.
99.Пагирев Д. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913
100.Петрушевский И. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., Л.: Ленинградского Университета, 1949, с. 92.
101.Пигулевская Н. Сирийские источники по истории народов СССР, М.Л.: АН СССР, 1941,
102.Радлов В.Опыт словарья тюркских наречий, т.I, ч. I, СПб, 1893.
103.Радлов В.Опыт словарья тюркских наречий, т II, ч.2, СПб, 1899.
104.Радлов В. Опыт словарья тюркских наречий, т III, ч.2, СПб, 1905.
105.Радлов В. Опыт словарья тюркских наречий, т.IV, ч. 2, СПб, 1911.
106.Савина В. Словарь географических терминов и других слов, формирующих топонимию Ирана, М.: Наука, 1971.

107.Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879.

108.Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879.

109.Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879.

110.Севортян Э. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.: Наука, 1974.

111.Севортян Э.Этимологический словарь тюркских языков (Обшетюркские и межтюркские основы на букву «В», «Г»и «Д»), М.: Наука, 1980.

112.Серебренников Б., Гаджиева Н. Сравнительно историческая грамматика тюркских языков, Баку: Маариф, 1979.

113.Страбон. География, В 17-ти кн., Л.: 1964.

114.Султанов Т. Опыт анализа традиционных списков 9 племен платийа. В сб. «Средняя Азия в древности и средневековые», М., 1977.

115.Шопен И.И.. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852.

**Erməni dilində**

116.Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 1, Երևան, 1986.
117.Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 2, Երևան, 1988.
118.Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 3, Երևան, 1991.
119.Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և հարակից շրջանների տեղանունների բառարան, հատ. 4, Երևան, 1998.
120.Թադևոս Հակոբյան, Ստեփան Մելիք–Բախշյան, Հովհաննես Բարսեղյան, Հայաստանի և

հարակից շրջանների տեղանունների բառարան, հատ. 5, Երևան, 2001.
121.Եղիազարյան Հ. Ազիզբեկովի շրջանի կուլտուրայի հուշարձաններ. Երևան: Հայպետրաթ 1955.
122.Կորկոտյան Զ. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան: 1932.
123.Հակոբյան Թ. Հայաստանի պատմական աշխարհագրություն (ուրվագծեր), 2-րդ հրտ., Երևան, 1968.

# MÜNDƏRİCAT

| | |
|---|---|
| Qərbi Azərbaycanda ləğv olunmuş kəndlərin tədqiqi tarixindən………………………………………… | 5 |
| Qərbi Azərbaycanda ləğv olunmuş, xarabalığa çevrilmiş kəndlər və ya toponimlərin acı taleyi ……. | 53 |
| Nəticə ……………………………………………… | 481 |
| Təkliflər …………………………………………… | 482 |
| İstifadə edilmiş ədəbiyyat …………………………. | 483 |



İbrahim Məhəmməd oğlu Bayramov 25 yanvar 1954-cü ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Göyçə mahalının Toxluca kəndində anadan olub. Toxluca kənd orta məktəbində (1961-1971), X.Abovyan adına Ermənistan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinin Azərbaycan bölməsində (1971-975), Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun qiyabi aspiranturasında (1977-1981) təhsil alıb. Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi (1975-1988), Toxluca kənd orta məktəbinin direktoru (1987-1988) vəzivələrində işləmişdir. 1987-ci ildə Göyçə mahalının Toxluca kənd sovetinin deputatı seçilmişdir. 1986-cı ildə "Müasir Azərbaycan ədəbi dilinin xalq danışıq dili hesabına zənginləşməsi yolları (leksika və frazeologiya)" mövzusunda namizədlik, 2007-ci ildə "Ermənistanın türk mənşəli toponimlərinin tarixi-linqvistik təhlili" movzusunda doktorluq dissertasiyası müdafiə edib.

S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) Azərbaycan və rus dili kafedrasının baş laborantı (1989-1993), Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilinin onomalogiyası elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçisi (1993-1995), AMEA-nın Milli Münasibətlər İnstitutunun "Qaçqınçılıq tarixi" şöbəsinin böyük elmi işçisi (1995-1997), "Qaçqınçılıq tarixi" şöbəsinin müdiri (1997-2003), ADPU-nun İxtisasartırma və Yenidənhazırlanm fakültəsinin dekanı (2001-2033), Magistratura və doktorantura şöbəsinin müdiri (2003-2021), Tədris metodika şöbəsinin müdiri (2005-2007), eyni zamanda Elmi Şuranın Elmi katibi (2005-2007) vəzifələrində işləyib. 2021-ci ildən ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərancamları ilə "Əməkdar müəllim" (2021) fəxri adına, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına (2024) layiq görülüb. "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi" yubiley medalı ilə (2023) təltif edilib.

18 kitab və kitabçanın, 200 elmi-pedaqoji və publisistik məqalənin müəllifidir. Əsərləri Bakı, Naxçıvan, Gəncə, Ankara, İğdır, Kabul şəhərlərində nəşr olunub. Elmi rəhbərliyi ilə 4 nəfər filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə edib.

Yeni Azərbaycan Partiyasının üzvüdür. Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 20 illiyi münasibəti ilə Yeni Azərbaycan Partiyasının yaradılmasında və inkişafındakı müstəsna fəaliyyətinə görə Fəxri Fərmanla (2012), Yeni Azərbaycan Partiyasının yaradılmasında və inkişafındakı fəaliyyətinə görə Veteran vəsiqəsi ilə (2013) təltif edib.

2022-ci Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü seçilib.

İKSAD
Publishing House

ISBN: 978-625-378-302-0